

European Commission for the Efficiency of Justice

Commission européenne pour l'efficacité de la justice

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE



ISBN 9789952445466

Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası



# Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası

## ELMİ VƏ TƏCRÜBİ ƏHƏMİYYƏTİ



**Jan-Pol Jan**

**Ramin Qurbanov**

# Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası:

## Elmi və Təcrübi Əhəmiyyəti

*CEPEJ-in Elmi Tədqiqatı № 22*

*Avropa Şurasının nəşri*

Strasburq – 2016 – Bakı

*Azərbaycan Milli Elmlər Akademiyası*
*Fəlsəfə və Hüquq İnstitutunun Elmi Şurasının qərarı ilə çapa məsləhət görülüb*

*(01.06.2015-ci il tarixli, 04 nömrəli protokol)*

**Jan-Pol Jan, Ramin Afad oğlu Qurbanov.**
Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası: Elmi və Təcrübi Əhəmiyyəti, Elmi nəşr, J-P. Jan, R.A.Qurbanov. –
B., "CBS-PP", 2016, – 360 s.

Kitab Avropa Şurasının ədalət mühakiməsi sahəsində ən nüfuzlu qurumlarından olan Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) fəaliyyətinə həsr olunur.

Komissiya Avropa Şurasının üzv dövlətlərinin məhkəmə sistemlərinin səmərəliliyinin artırılması və Avropa məkanında ədalət mühakiməsinin səmərəli və ədalətli həyata keçirilməsi ilə bağlı Avropa Şurasının beynəlxalq hüquqi sənədlərinin tətbiqi məqsədilə yaradılmışdır.

Əsərdə bu təşkilatın 12 illik fəaliyyəti açıqlanır, onun Avropa Şurasının üzv dövlətləri üçün elmi və təcrübi əhəmiyyətindən bəhs edilir və müxtəlif komitələri tərəfindən hazırlanmış çox sayda sənədləri təhlil olunur.

Bu monoqrafiyadan məhkəmə sisteminin təşkilinə məsul olan şəxslər, hüquq cəmiyyətinin nümayəndələri, o cümlədən ədliyyə və prokurorluq orqanlarının əməkdaşları, hakimlər, vəkillər və məhkəmə işçiləri, habelə hüquqşünas-alimlər və bu məsələ ilə maraqlanan şəxslər istifadə edə bilərlər.

İSBN 978-99-52-445-46-6
© “CBS-PP” mətbəəsi, 2016

cepej
European Commission for the Efficiency of Justice
Commission européenne pour l'efficacité de la justice

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası: Elmi və Təcrübi Əhəmiyyəti

*Elmi Tədqiqat № 22 (CEPEJ Studies № 22)*

# Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası: Elmi və Təcrübi Əhəmiyyəti


**Müəlliflər:**

**Jan-Pol JAN (Jean-Paul Jean)**, professor, CEPEJ-in Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitəsinin sədri, Poitri Hüquq Universitetinin doktorantura şöbəsinin rəhbəri, Fransanın Ali Məhkəməsinin Kollegiya sədri (Paris, Fransa)

**Ramin Afad oğlu QURBANOV,** hüquq elmləri üzrə fəlsəfə doktoru, CEPEJ-in Büro və Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitəsinin üzvü, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun aparıcı elmi işçisi, Bakı Şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi (Bakı, Azərbaycan)

**Elmi məsləhətçilər:**

**Jak BÜHLER (Jacques Bühler),** hüquq elmləri doktoru, CEPEJ-in Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Mərkəzinin sədri, İsveçrənin Federal Ali Məhkəməsinin Baş Katibinin müavini (Lüçern, İsveçrə)

**Fransua PEYŞER (François Paychère)**, hüquq elmləri doktoru, CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsinin sədri, İsveçrənin Auditorlar Məhkəməsinin prezidenti (Cenevrə, İsveçrə)

## Ön sözlər

Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasına (CEPEJ) rəhbərlik etməyə bu qurumun fəaliyyətinə dair müfəssəl və unikal kitabın təqdimatı ilə başlamaq mənim üçün böyük şərəfdir.

CEPEJ-in on il bundan öncə – 18 sentyabr 2002-ci il tarixdə yaradılması Avropa Şurasının Avropa məkanında qanunun aliliyinin və fundamental hüquqların Avropa İnsan Hüquqları Konvensiyası, xüsusilə 5-ci (azadlıq və toxunulmazlıq hüququ), 6-cı (ədalətli məhkəmə araşdırılması hüququ), 13-cü (səmərəli hüquqi müdafiə vasitələri hüququ) və 14-cü (ayrı-seçkiliyin qadağan olunması) maddələri əsasında təmin olunmasına dair istəyinin əyani təzahürüdür. Üzv dövlətlərin məhkəmələrində işlərə həddindən artıq uzun müddət ərzində baxılmasına dair şikayətlərin sayının Avropa İnsan Haqları Məhkəməsində əhəmiyyətli dərəcədə artması nəticəsində Avropa Şurası tərəfindən milli məhkəmə sisteminin səmərəliliyinə diqqət artırılmış və bu sahədə həlli yollarını özündə ehtiva edən müvafiq tövsiyələr hazırlanmışdır.

Komissiyanın yaradılmasının məqsədi üzv dövlətlərdə ədalət mühakiməsi sisteminin fəaliyyəti və səmərəliliyinin təkmilləşdirilməsi, habelə bu məqsədlə əlaqədar Avropa Şurası tərəfindən qəbul edilən sənədlərin icrasının təmin olunmasından ibarətdir. Bu məqsədlərə nail olmaq üçün tərəfimizdən müvəffəqiyyət qazanmış Qiymətləndirmə Hesabatlarının silsiləsi tərtib edilmişdir – qeyd edilən hesabatlar müfəssəl müqayisəli məlumatı təqdim etməklə yanaşı, inkişaf istiqamətlərini, ədalət mühakiməsi sisteminin fəaliyyəti ilə bağlı ehtiyacları, boşluqları və çətinlikləri, onların həlli yollarının müəyyənləşdirilməsini mümkün edir.

CEPEJ-in Əsasnaməsi diqqətini yalnız məhkəmə sistemlərinin müqayisəsinə və onların fəaliyyəti barədə məlumatın mübadiləsinə yönəltmir. Bu müqayisənin əhatə dairəsi "sadəcə olaraq" sırf səmərəlilik anlamından kənara çıxır: qeyd edilən işlər, həm-

çinin ədalət mühakiməsi sisteminin fəaliyyətinin keyfiyyəti və səmərəliliyini vurğulayır. Biz qısa bir müddət ərzində anladıq ki, keçmişin dərsləri heç də gələcək üçün həll yollarını təqdim etmiş olmur: beləliklə, CEPEJ və onun ekspertləri model və üsulların işlənib hazırlanmasına başlamış, məhkəmə sədrləri, aidiyyəti şəxslər və rəhbər işçilər üçün müvafiq məlumatı təqdim etmiş və ədalət mühakiməsi sistemini təkmilləşdirməzdən öncə nələrin cərəyan etdiyini öyrənmiş, habelə məhkəmə sistemlərində baş verə biləcək çətinlikləri qabaqcadan müəyyənləşdirmək üçün müxtəlif vasitələri və metodları yaratmağa çalışmışlar.

Avropa Konvensiyasının 6-cı maddəsinin icrasının təmin edilməsi və məhkəmə işlərinə ağlabatan müddət ərzində baxılması həmişə gündəmdə olan məsələdir. Müasir dövrdə məhkəmə fəaliyyətinin səmərəliliyinin daha sürətlə artırılmasını təmin etmək üçün informasiya texnologiyaları və qabaqcıl təcrübələrin mövcud olması ilə yanaşı, ədalət mühakiməsinin həyata keçirilməsinin düzgün təmin olunması üçün məhkəmə işlərinə baxılma müddətlərinin müəyyənləşdirilməsi və onlara monitorinqin aparılmasına dair CEPEJ-in SATURN Mərkəzinin təcrübəsindən geniş istifadə olunmasına zərurət vardır.

Eyni zamanda, bütün kəmiyyət yanaşmaları ilə bərabər, ədalət mühakiməsinin keyfiyyəti, onun cəmiyyətdə rolu və müstəqilliyinə də xüsusi diqqət yetirilməlidir. Belə ki, CEPEJ-in bu sahədə fəaliyyəti zamanı ədalət mühakiməsinin keyfiyyət meyarlarının və vasitələrinin işlənib hazırlanması, onların qiymətləndirilmə göstəricilərinin yaradılması və inkişaf etdirilməsi sahəsində işlər görülür.

Komissiyanın sabiq prezidentlərinin fəaliyyəti və bütün ekspert üzvlərinin əməyi nəticəsində CEPEJ qanunun aliliyinin təmin olunmasında maraqlı olan hüquq cəmiyyətinin nümayəndələri, siyasətçilər və beynəlxalq təşkilatlar arasında böyük nüfuza malik olan quruma çevrilmiş və onun bu sahədə əldə etdiyi təcrübədən bir çox irihəcmli layihələrin həyata keçirilməsi zamanı istifadə

olunmuşdur.

Beləliklə, CEPEJ-in sabiq prezidentləri Eberhard Herş (Almaniya), Fausto de Santis (İtaliya) və Jon Steysi (İngiltərə), habelə milli ekspertlər, komitələr, Büro və Katibliyin üzvləri, o cümlədən həmkarlarımız – kitabın müəllifləri Jan-Pol Jan (Fransa) və Ramin Qurbanov (Azərbaycan), elmi məsləhətçiləri Jak Bühler (İsveçrə) və Fransua Peyşerə (İsveçrə) Komissiyanın fəaliyyəti və inkişafına verdikləri davamlı töhfələrə görə təşəkkürümüzü bildiririk. Bu gün CEPEJ məhkəməyə müraciət edən şəxslərin inamı və etimadının artırılması üçün məhkəmə sisteminin keyfiyyətinin və səmərəliliyinin gücləndirilməsi kimi ümumi bir məqsədi olan peşəkarların müsbət təcrübə mübadiləsi məkanına çevrilmişdir.

Biz işimizə üzləşdiyimiz problemlər barədə məlumatları bölüşməklə başlamışdıq. Lakin indi artıq biz həmin problemlərin həlli yolları barədə təcrübəmizi bölüşmək ruhunda çalışırıq!

***Qeorq Stava,***
***Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə***
***Avropa Komissiyasının (CEPEJ) Prezidenti***

Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) işində fəal iştirak edən ölkənin nümayəndəsi kimi onun olduqca mühüm fəaliyyətinə həsr olunan monoqrafiyanı böyük məmnuniyyətlə təqdim edirəm.

Təsis olunduğu vaxtdan keçən qısa bir müddətdə Komissiya tərəfindən Avropa Şurasının üzv-dövlətlərində İnsan Hüquqlarına dair Avropa Konvensiyasının 6-cı maddəsində nəzərdə tutulan ədalətli məhkəmə araşdırması hüququnun daha səmərəli təmin olunması məqsədilə həmin ölkələrin məhkəmə sistemlərinin inkişafı üçün çox böyük işlər görülmüşdür.

CEPEJ-in iki ildən bir hazırladığı əhatəli hesabatlar hüquqşünaslar və tədqiqatçılar üçün əsas məlumat mənbəyinə, ədalət mühakiməsinin səmərəliliyinin artırılması və vətəndaşların məhkəmə sisteminə inamının möhkəmləndirilməsi vasitəsinə çevrilmişdir.

Bu, Sovet Sosialist Respublikaları İttifaqı və sosialist düşərgəsinin tənəzzülündən sonra Avropa siyasi məkanında yaranan dövlətlər üçün xüsusilə əhəmiyyətlidir. Digər Avropa ölkələri məhkəmələrinin necə fəaliyyət göstərməsinin öyrənilməsi və bunu nəzərə almaqla özləri üçün əsas aktual məsələlərin müəyyənləşdirilməsi bu dövlətlər üçün olduqca zəruridir. Komissiya nəinki problemli sahələri aşkar edir, hətta ehtiyaclara uyğun olaraq hər bir üzv-dövlətə həmin sahələrin təkmilləşdirilməsi və ən yaxşı nəticələrin əldə olunması yollarını göstərir, zəruri hallarda onlara əməli yardım edir.

Azərbaycanın məhkəmə sisteminin müasir inkişaf tarixinin böyük bir hissəsi CEPEJ-lə əməkdaşlıq dövrünə təsadüf edir. Məhz bu dövr ərzində Məhkəmə-Hüquq Şurası, Hakimlərin Seçki Komitəsi yaradılmış, CEPEJ tərəfindən qabaqcıl təcrübənin müsbət nümunəsi kimi qiymətləndirilən hakim vəzifələrinə namizədlərin seçiminə dair qaydalar hazırlanaraq qəbul olunmuş, hakimlərin assosiasiyaları təsis olunmuş, qanunvericiliyə daha demokratik ruhlu, prosedurları isə daha da şəffaf edən çoxsaylı düzəlişlər edilmişdir.

Bu müddət ərzində ədalət mühakiməsinə əlçatanlığın yüksəldilməsi məqsədilə məhkəmələrin, hakimlərin və məhkəmə aparatı işçilərinin, vəkillərin sayı artırılmış və hakimlərin maddi və sosial müdafiəsi gücləndirilmiş, məhkəmələrin büdcəsi möhkəmləndirilmiş, onların elektronlaşdırılmasına, məhkəmə infrastrukturunun müasirləşdirilməsinə başlanılmış və bu işlər uğurla aparılmaqdadır.

Mübaliğəsiz bildirirəm ki, bu zaman biz çox hallarda Avropa Şurasının digər üzv-dövlətlərində məhkəmə sistemlərinin işi barədə kəmiyyət və keyfiyyət göstəricilərinin təhlilinin nəticələrinə əsaslanmışıq. Belə hesab edirik ki, məhkəmə vaxtının səmərəli təşkili və düzgün bölüşdürülməsi, bəzi kateqoriya mübahisələrin məhkəmədən kənar alternativ həlli institutunun yaradılması və tətbiqi kimi, habelə qarşımızda duran digər məsələlərin həllində də CEPEJ-in məlumatlarından faydalana biləcəyik.

Öz təcrübəsində Komissiyanın hesabatlarının faydasını görən bir üzv-dövlətdə həyata keçirilən məhkəmə islahatının bəzi məqamlarını sadalayarkən, mən ümid etmək istərdim ki, hörmətli oxucunun bütöv Avropa məkanında CEPEJ-in fəaliyyətinin miqyası, onun məhsuldarlığının dərəcəsi haqqında, heç olmasa, az da olsa təsəvvürü olacaqdır.

Sevindirici haldır ki, monoqrafiya yalnız ingilis və fransız dillərində deyil, həm də rus və Azərbaycan dillərində nəşr olunur ki, bu da onun oxucu auditoriyasını əhəmiyyətli dərəcədə

genişləndirəcək. Monoqrafiyanın tərtib olunma üslubu deməyə əsas verir ki, o, peşəkarlarla yanaşı, həm də adi insanlar üçün hazırlanmışdır: Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının fəaliyyəti nəticə etibarı ilə elə onların mənafeyi naminədir.

Müəlliflərə çox sanballı və maraqlı əsərə görə öz minnətdarlığımı bildirirəm.

***Azər Cəfərov,***
***Azərbaycan Respublikası Ədliyyə Nazirinin müavini,***
***Məhkəmə-Hüquq Şurasının üzvü, əməkdar hüquqşünas,***
***hüquq elmləri doktoru***

# Giriş

Bu nəşr Avropa Şurasının qurumlarından biri olan Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasına (CEPEJ) həsr olunur. CEPEJ-in 12 illik tarixində ilk dəfədir ki, Komissiyanın fəaliyyəti barədə müfəssəl bir tədqiqatın aparılması haqqında qərar verilmiş və bu fəxr ediləsi bir iş professor Jan-Pol Jana (Fransa) və hüquq üzrə fəlsəfə doktoru Ramin Qurbanova (Azərbaycan) həvalə edilmişdir. Elmi məsləhətçilər qismində İsveçrə alimləri Jak Bühler və Fransua Peyşer çıxış etmişlər.

Qeyd edilən qurumun vəzifələri sırasına üzv dövlətlərdə məhkəmə sistemlərinin səmərəliliyinin artırılması daxildir və bu vəzifə CEPEJ-in analitik və məsləhətçi funksiyaları çərçivəsində icra olunur. Eyni zamanda, Avropa Şurasının bu qurumunun məsləhətçi və analitik mahiyyətinə baxmayaraq, CEPEJ-in yaradılmasında məqsəd daha geniş səpkili olmuş və Komissiyanın məsləhətçi funksiyaları onun nüfuzunun geniş vüsət alması və artmasına hər hansı mənfi təsir göstərməmişdir.

Komissiyanın əsas fəaliyyəti üzv dövlətlərin məhkəmə sistemlərinin qiymətləndirilməsinə dair hesabatların hazırlanması çərçivəsində müəyyən olunur və bu istiqamətdə CEPEJ həmin dövlətlərin nümayəndələrinin təqdim etdiyi statistik məlumatların təhlilini aparır. Bu iş Komissiyanın ekspertlərinin üzv dövlətlərin nümayəndələri ilə sıx əməkdaşlıq çərçivəsində, habelə məhkəmə sistemləri barədə statistik məlumatların toplanması, ümumiləşdirilməsi və təhlil olunması üçün vahid qaydaların hazırlanması vasitəsilə mümkün olur. Beləliklə, ədalət mühakiməsi sistemləri üzrə statistik məlumatın toplanması və işlənməsi üçün alət, üsul, metod və rəhbər qaydaların işlənib hazırlanması sahəsində Komissiyanın məhz gərgin işi, habelə buna məsul olan üzv dövlətlərin nümayəndələri ilə çoxşaxəli işin həyata keçirilməsi nəticəsində Komissiya tərəfindən milli məhkəmə sistemlərinin uğurlu təhlilinin aparılması və tövsiyələrin hazırlanması mümkün olmuşdur.

Hazırda Komissiyanın fəaliyyəti ixtisaslaşmaya doğru yönəlib. Komissiya yalnız və ümumilikdə götürdükdə, məhkəmə sisteminin səmərəliliyini qiymətləndirməklə yanaşı, həmçinin üzv dövlətlərin ədalət mühakiməsi sisteminin müəyyən aspektlərini öyrənməkdə də maraqlıdır. Bunun nəticəsi olaraq, Avropa Şurasının bu səlahiyyətlərinin çərçivəsi nəzərə alınmaqla, ixtisaslaşmış strukturlar yaradılmışdır ki, onlar üzv dövlətlərin ədalət mühakiməsi sistemlərinin ayrı-ayrı aspektlərinin tədqiq olunmasına, habelə onların ədalət mühakiməsi sistemlərinin ayrı-ayrı sahələri üzrə tənzimləmə xarakteri daşımayan sənədlərin işlənib hazırlanmasına xidmət edir. Bu işlər sırasında Komissiyanın üzv dövlətlərin ədalət mühakiməsi sistemlərinin fəaliyyətinin keyfiyyətinin qiymətləndirilməsi üzrə işini, məhkəmə işlərinin baxılması və həll edilməsi üzrə müddətlərin müəyyən olunması üzrə səylərini, mübahisələrin alternativ həlli üsullarının tətbiq olunması və məhkəmə qərarlarının icrası sahəsindəki nailiyyətlərini qeyd etmək olar.

Müəlliflərin məqsədi qiymətləndirmə hesabatları və digər sənədlər əsasında son 15 il ərzində Avropa Şurasının üzv dövlətlərinin məhkəmə sistemlərinin inkişafını təhlil etmək deyildi. Hazırkı tədqiqatın məqsədi CEPEJ-in yarandığı tarixdən bugünə qədər olan dövr üçün Komissiyanın rolu və fəaliyyəti barədə onun işinə maraq göstərən şəxslərə ümumi biliklər təqdim etməkdən ibarətdir.

# FƏSİL 1

## Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası Avropa Şurasının məşvərətçi qurumu olaraq ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində rəhbər qaydaları və ümumi standartların işlənib hazırlanması və tətbiqi vəzifəsini daşıyır

### *1.1. Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının fəaliyyətinin mahiyyəti və təşkilati əsasları*

Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (European Commission for the Efficiency of Justice/ Commission européenne pour l'efficacité de la justice) (bundan sonra mətndə – CEPEJ və ya Komissiya) Avropa Şurasının analitik və məsləhətçi qurumu kimi fəaliyyət göstərir və onun fəaliyyət istiqamətlərindən birini məhkəmə sistemlərinin təkmilləşdirilməsi işində Avropa Şurasının üzv dövlətlərinə köməklik göstərilməsi təşkil edir. Bu qurumun yaradılmasında məqsəd üzv dövlətlərin məhkəmə sistemlərini Avropa Şurası tərəfindən tətbiq edilən standart və normalara uyğunlaşdırmaq üçün həmin ölkələrdə ədalət mühakiməsi sistemlərinin səmərəliliyini artırmaq, habelə həmin sistemlərin işinin keyfiyyətini yüksəltmək olmuşdur.[1] Qeyd olunan məqsədə aid əsas sual üzv dövlətlərin məhkəmə sistemlərinin Avropa İnsan Hüquqları Konvensiyasının (Avropa Konvensi-

[1] Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) yaradılması haqqında Avropa Şurası Nazirlər Komitəsi tərəfindən 18 sentyabr 2002-ci il tarixdə keçirilən 808-ci iclasda qəbul edilmiş Res(2002)12 saylı Qərar.

yası) 5, 6, 13 və 14-cü maddələri ilə müəyyən edilmiş ədalət mühakiməsinin keyfiyyətinə dair tələblərə nə dərəcədə cavab verməsindən ibarətdir ki, burada, öz növbəsində, diqqət mərkəzində müvafiq dövlətlərin ədalət mühakiməsi sistemləri daxilində mübahisələrin hüquqi çərçivədə həllinin keyfiyyəti məsələsi durur. Başqa sözlə desək, CEPEJ ixtisaslaşmış bir qurum olaraq (onun fəaliyyəti yalnız üzv dövlətlərdə ədalət mühakiməsinin həyata keçirilməsinə bağlıdır), analitik və məsləhətçi vəzifələri daşıyır və ədalət mühakiməsinə münasibətdə Avropa Konvensiyasından və Avropa İnsan Haqları Məhkəməsinin (bundan sonra mətndə – Avropa Məhkəməsi) qəbul etdiyi qərarlardan irəli gələn şərtlərin icrasını təşviq etdirir.[2]

Əlalxüsus CEPEJ-in birinci Prezidentinin söylədiklərinə müraciət etsək, Avropa Şurası daxilində bu qurumun yaradılmasına səbəb "Avropa Məhkəməsinə təqdim edilən ərizələrin sayının həddindən artıq yüksək olması və onun iş yükünün azaldılması zərurəti olmuşdur və Avropa Məhkəməsinin iş yükünün azaldılmasına münasibətdə Komissiyanın yaradıcılarının niyyəti üzv dövlətlərdə ədalət mühakiməsi sisteminin səmərəliliyi və fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi, məhkəmələrin üzərinə düşən yükün beynəlxalq (üstmilli) səviyyədən dövlət (milli) səviyyəsinə köçürməkdən ibarət idi".[3]Avropa Məhkəməsində baxılan işlərin əksər hissəsinin fundamental prosessual hüquqların, əlalxüsus da Avropa Konvensiyasının 6-cı maddəsi ilə təsbit edilmiş hüquqi müdafiəyə zəmanət verən müddəaların pozulmasına aid olduğunu nəzərə alaraq Komissiyanın təsis edilməsi təxirəsalınmaz vəzifə olmuşdur.

---

[2] Daha ətraflı məlumat üçün bax: CEPEJ-in ikinci plenar iclasından əvvəl təşkil olunmuş, *"Ədalət mühakiməsi vətəndaşların xidmətində: istifadəçilərin mənafeyi üçün məhkəmə sisteminin fəaliyyətinin təkmilləşdirilməsi yolları"* mövzusuna həsr edilmiş tədqiqat sessiyasında Qi De Velin (Avropa Şurasının Hüquqi məsələlər üzrə sabiq Baş Direktoru) çıxışı.

[3] Eberhard Deş, *"Avropanın Məhkəmə Sistemləri üzrə Giriş Sözü",* 2002-ci il, Avropa Şurasının nəşri, s. 5.

Komissiyanın fəaliyyəti Avropa Şurasının iki əsas fəaliyyət istiqaməti ilə uzlaşır ki, Avropa Şurasının Nizamnaməsinə[4] müvafiq olaraq, Avropa Şurasının fəaliyyəti əsas hüquq və azadlıqlara, demokratiya və qanunun aliliyinə, ələlxüsus milli hüquq sistemləri ilə birbaşa müdafiə edilən vətəndaş hüquqlarına, habelə məhkəmə orqanlarının nəzarəti altında icra qurumları tərəfindən tətbiq olunan qanunun aliliyinə bağlıdır. Bu məqsədlərə nail olmaq üçün digər tədbirlərlə bərabər Avropa Şurasının çərçivəsi daxilində CEPEJ-in analitik, ekspert və məsləhətçi fəaliyyəti vasitəsilə üzv dövlətlərdə məhkəmə sisteminin fəaliyyətinin keyfiyyəti və səmərəliliyinin artırılmasından istifadə olunur.

Qeyd etmək lazımdır ki, CEPEJ-in təsis sənədlərinə istinadən yarana bilən təsəvvürdən fərqli olaraq, bizim fikrimizcə, Komissiyanın fəaliyyəti tövsiyə xarakterli deyil, daha çox analitik və məsləhət xarakterli fəaliyyət kimi səciyyələndirilməlidir. Əslində, Komissiyanın əsas fəaliyyət istiqamətləri olan Avropa dövlətlərində məhkəmə sistemləri barədə qiymətləndirmə hesabatlarının tərtib olunmasına, məhkəmə sisteminin fəaliyyətinin keyfiyyətinin yüksəldilməsinə, habelə Avropa dövlətlərinin məhkəmə sistemlərində ədalət mühakiməsinin həyata keçirilməsi üçün sərf edilən vaxtın idarə olunmasına baxsaq, aydın olur ki, CEPEJ-in əsas fəaliyyəti statistik məlumatlar əsasında məhkəmə sisteminin fəaliyyətinin müxtəlif aspektlərinin qiymətləndirilməsi və üzv dövlətlərə məsləhətlərin təqdim olunmasından ibarətdir. Təbiidir ki, bir məhkəmə sisteminin fəaliyyətinin hansısa bir məqamına münasibətdə Komissiya tərəfindən təqdim edilən müsbət və ya mənfi rəy üzv dövlətlərə ünvanlanmış bir məsləhət kimi qəbul oluna bilər, lakin buna baxmayaraq, Komissiyanın əsas vəzifələrini məhz analitik və tədqiqat işlərinin aparılması təşkil edir. Beləliklə, Avropa Şurasının digər qurumlarından fərqli olaraq, Komissiyanın fəaliyyəti beynəlxalq hüquq və beynəlxalq siyasət nöqteyi-nəzərindən bir o qədər də müdaxiləedici deyil və məhz bu səbəbdən

[4] Avropa Şurasının Nizamnaməsi, ETS №1.

beynəlxalq hüquq üzrə mütəxəssislərin və ictimaiyyətin CEPEJ-in fəaliyyəti haqqında malik olduqları biliklər çox da geniş deyil. Məhz bu amillərə əsasən qeyd olunmalıdır ki, hazırkı tədqiqat fərz ediləndən də daha çox önəm daşıyır.

Avropa Şurasının çoxsaylı təsisatlarından biri olaraq[5] CEPEJ Avropa Şurasının Ədliyyə və Hüquq Əməkdaşlığı Departamenti, habelə Hüquq Əməkdaşlığı üzrə Avropa Komitəsinin dəstəyi ilə Avropa Şurasının digər qurumları ilə qarşılıqlı fəaliyyət göstərir. CEPEJ-in fəaliyyət istiqamətləri, o cümlədən üzv dövlətlərin məhkəmə sistemlərinin keyfiyyətinin yüksəldilməsinə xidmət etməsi baxımından CEPEJ ilə birbaşa və daha sıx bağlı olan Avropa Şurasının ixtisaslaşmış qurumları sırasından Avropa Hakimlərinin Məşvərətçi Şurasını (CCJE) və Avropa Prokurorlarının Məşvərətçi Şurasını (CCPE) qeyd etmək lazımdır.

Qeyd edilən iki qurum həm üzvlük qaydaları, həm də səlahiyyətlərinin xüsusiyyətləri ilə CEPEJ-dən fərqlənir. Beləliklə, CEPEJ-dən fərqli olaraq, bu iki qurumun fəaliyyəti, ümumilikdə götürdükdə, üzv dövlətlərin məhkəmə sistemlərinin keyfiyyəti və səmərəliliyinin yüksəldilməsinə yönəlmir və onların fəaliyyətinin diqqət mərkəzində duran məsələləri aşağıdakı kimi qeyd etmək olar: Avropa Hakimlərinin Məşvərətçi Şurasına münasibətdə hakimlərin rolu və Avropa Prokurorlarının Məşvərətçi Şurasına münasibətdə prokurorluq orqanları əməkdaşlarının rolu.

CEPEJ-in Əsasnaməsi qurumun Avropa Şurası daxilində daşıdığı köməkçi təsisat rolunu birbaşa olaraq qeyd edir və CEPEJ-in Avropa Şurasının əsas vəzifələrinin təşviq etdirilməsinə xidmət etdiyi müəyyən olunur. Beləliklə, ələlxüsus CEPEJ-in Əsasnaməsi ilə nəzərdə tutulmuşdur ki:

- Avropa Şurasının Parlament Assambleyası (bundan sonra – PACE),

---

[5] Avropa Şurasının təşkilati strukturu barədə daha ətraflı məlumat üçün bax: F.Benua-Romer, H.Klebe, *"Avropa Şurası hüququ: Avropa məkanının məhkəmə sisteminin təhlili"*, Avropa Şurasının nəşri, 2005, s. 267.

- Avropa İnsan Haqları Məhkəməsi (bundan sonra – Avropa Məhkəməsi, ECHR),
- Avropa Hüquq Əməkdaşlığı Komitəsi (CDCJ),
- Cinayət Problemləri üzrə Avropa Komitəsi (CDPC),
- İnsan Hüquqları üzrə Rəhbər Komitə (CDDH),
- Avropa Hakimlərinin Məşvərətçi Şurası (CCJE) və
- Baş Katibin

müraciətlərinə əsasən CEPEJ məsləhətçi rəyini tərtib və təqdim edir.

Qeyd edilənlərə əlavə olaraq, Komissiyanın Əsasnaməsinə (maddə 5, bənd 3) əsasən Avropa Şurasının Parlament Assambleyasının Prezidenti və Avropa İnsan Haqları Məhkəməsinin Prezidenti, habelə Avropa Şurasının müvafiq komitələrinin sədrləri, ələlxüsus da Avropa Hüquq Əməkdaşlığı Komitəsinin sədri, yaxud onların nümayəndələri səsvermə hüququna malik olmadan Komissiyanın fəaliyyətində iştirak edə bilərlər[6].

Qeyd etmək lazımdır ki, Avropa Şurasının digər təsisatlarından, misal üçün, Nazirlər Komitəsi və ya Parlament Assambleyasından fərqli olaraq, CEPEJ-ə tənzimləyici və ya inzibati səlahiyyətlər verilməyib. Demək olar ki, Avropa Şurasının törəmə bir qurumu olaraq və Əsasnaməsinin 2-ci maddəsinin 2-ci bəndinə əsasən "CEPEJ nəzarət və ya monitorinq orqanı deyil". Avropa Şurasının ali vəzifəli nümayəndələrindən biri olmuş Roberto Lamponi CEPEJ-in mahiyyətini ən dəqiq bir tərzdə təsvir etmişdir: *"CEPEJ əslən çox maraqlı bir qurumdur – belə ki, CEPEJ tənzimləyici səlahiyyətlərə malik deyil, özünün vəzifələrinə istinadən yalnız üzv dövlətlərə mövcud qaydaların tətbiqi ilə əlaqədar köməklik təqdim edir"*[7].

---

[6] Öz növbəsində, Avropa Birliyinin nümayəndələri də Komissiyanın işində iştirak edə bilər, lakin onlar hüquqi nöqteyi-nəzərdən Komissiyanın iştirakçıları hesab olunmurlar və Komissiyanın Əsasnaməsinə (maddə 6) müvafiq olaraq müşahidəçi statusuna malikdirlər.

[7] Roberto Lamponi ilə müsahibə, 12 sentyabr 2005-ci il, J.Peto, *"Avropa demokratiyası və insan haqları: Avropa Şurasının fəaliyyəti"*, Avropa Şurasının nəşri, 2009, s. 126.

CEPEJ-in Əsasnaməsinin 5-ci maddəsinə əsasən Komissiyanın səlahiyyətləri üzv dövlətlər arasında bərabərlik prinsipi ilə müəyyən olunur (hər dövlət bir ekspert tərəfindən təmsil edilir, buna əlavə olaraq hər bir dövlət tərəfindən əvəzedici üzv də təyin oluna bilər). Müvafiq olaraq, Avropa Şurasının bütün 47 üzv dövləti CEPEJ-də təmsil olunur ki, bu da, fikrimizcə, ayrı-ayrı üzv dövlətlərin rəylərinin müxtəlif nümayəndələri tərəfindən nəzərə alınması nəticəsində Komissiyanın fəaliyyətindəki nümayəndəlik prinsipinin və etibarın mövcud olmasını təmin edir. CEPEJ qurumun vəzifə və məqsədlərinə töhfə vermək üçün ən yüksək biliklərə və zəngin təcrübəyə malik olan, ələlxüsus mülki, cinayət və/yaxud inzibati ədalət mühakiməsinin idarə olunması, fəaliyyəti və səmərəliliyi barədə müfəssəl biliklərə sahib ekspertlərdən ibarət olmalıdır.

CEPEJ-in tərkibində bərabərlik prinsipi həmçinin bu səbəbdən böyük önəm kəsb edir ki, özünün fəaliyyəti çərçivəsində Komissiya İnsan Hüquqlarına dair Avropa Konvensiyasının əsas şərtlərini nəzərə alaraq, üzv dövlətlərdə məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı həmin ölkələr üçün təlimat xarakterli rəhbər qaydaları işləyib hazırlamaq üçün çalışır. Bunlara əlavə olaraq nəzərə alsaq ki, Komissiya üzv dövlətlərin məhkəmə orqanlarının nümayəndələri ilə görüşlər təşkil edir və məhkəmə sistemindəki islahatların həyata keçirilməsi və məhkəmə fəaliyyətinin keyfiyyətinin qiymətləndirilməsi işində dövlət orqanlarının rolunu təşviq etdirir, aydın olur ki, Komissiyanın tərkibi məsələsi böyük əhəmiyyət kəsb edir.

Maraqlı bir fakt kimi qeyd etmək olar ki, qeyri-üzv dövlətlərin nümayəndələrinin bu qurumun fəaliyyəti ilə əlaqəsi var, onlara müşahidəçi statusu verilir. Bu, əsasən, İsrail, Kanada, Meksika, Amerika Birləşmiş Ştatları, Mərakeş, Yaponiya və Vatikan nümayəndələrinə aiddir. Qeyd edilənlərə əlavə olaraq, Komissiya beynəlxalq qeyri-hökumət təşkilatları, həmçinin Avropa Birliyinin qurumları (Avropa Birliyinin Şurası və

Avropa Komissiyası) ilə də əməkdaşlıq edir. Məhz Avropa Şurasının qurumları ilə əməkdaşlıq böyük maraq doğurur – məlumdur ki, 14 saylı Əlavə Protokolda müvafiq qaydada yer almış Avropa Birliyinin Avropa Konvensiyasına qoşulması Avropanın bu iki təşkilatı (əsasən də məhkəmə qurumları) arasında sıx əməkdaşlığı zəruri edir. Nəticə etibarilə Avropa İttifaqı tərəfindən Avropa Məhkəməsində qəbul edilmiş qərarlarda əksini tapan prinsiplər, o cümlədən məhkəmə sistemlərinə aid prinsiplər və Avropa Konvensiyasının 5, 6, 13 və 14-cü maddələrinə əsasən prosessual təminatlar nəzərə alınmalı olacaqdır. Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının üzv dövlətlərin məhkəmələri tərəfindən bu prinsiplərin gündəlik fəaliyyətində tətbiqini təhlil etmək vəzifəsini nəzərə alaraq, Avropa İttifaqının bu məsələlərə dair məsləhətlər alınması üçün Komissiyaya ünvanlanan müraciətləri təbii qarşılanmalıdır və bununla Avropa İttifaqının CEPEJ-in fəaliyyətində iştirakı da zəruridir.

Komissiya özünün təşəbbüsü əsasında hazırlanmış daxili sənəd əsasında fəaliyyət göstərir və bu, həmin qurum daxilində müəyyən funksional muxtariyyətin mövcud olduğunu nümayiş etdirir[8]. Bu sənədlə birbaşa müəyyən olunmuşdur ki, Nazirlər Komitəsi tərəfindən və ya onun icazəsi ilə yaradılan Avropa Şurasının bütün komitələrinin fəaliyyətini tənzimləyən Res76(3) saylı Qətnamənin müddəaları CEPEJ-ə də şamil olunur. Bundan belə qənaətə gəlmək olar ki, qeyd olunan Komissiyanın mahiyyəti beynəlxalq təşkilatların tərkibində məlumatların toplanması, işlənməsi, təhlili və qiymətləndirilməsi ilə məşğul olan qurumların mahiyyəti ilə müqayisə edilə bilən bir səviyyədədir.

CEPEJ gizli səsvermə əsasında, sadə səs çoxluğu ilə, üzvləri sırasından Prezidenti və Vitse-prezidenti (Prosedur Qaydaların 2-ci maddəsi), habelə Büronun iki üzvünü seçir ki, bu da, özlüyündə, daxili funksional muxtariyyətin mövcud olmasını

[8] *"Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının Prosedur Qaydaları",* 19 mart 2003-cü il, CEPEJ/GENERAL(2003)3.

nümayiş etdirir. Qeyd edilənlərə əlavə olaraq, Komissiya daxilində bu vəzifələrə seçim kifayət qədər liberal bir tərzdə, beynəlxalq hüquqda geniş istifadə edilən yekdillik prinsipindən irəli gələn qaydalara əsasən aparılır; CEPEJ-in idarəetmə heyəti sadə səs çoxluğu ilə seçilir (Prosedur Qaydaların 2-ci maddəsinin 3-cü bəndi)[9]. CEPEJ-in ali idarəetmə orqanı olan institusional strukturu – Büro aşağıda qeyd olunan inzibati və icra vəzifələrini daşıyır[10]:

- işçi qrupların (komitələrin) fəaliyyətinin əlaqələndirilməsi, CEPEJ-in işçi qruplarının (komitələrinin) sədrlərinin və ekspertlərinin təyin olunması;
- Komissiya üzvləri ilə işçi qruplar (komitələr) arasında işin bölüşdürülməsi;
- ekspert vəzifəsinə namizədlərin irəli sürülməsi, habelə
- Komissiya tərəfindən tələb edilən hər hansı digər vəzifələrin icrası.

Katiblik CEPEJ-in tərkib hissəsi kimi yaradılır və üzvləri Avropa Şurasının Baş Katibi tərəfindən təqdim olunur (Əsasnamənin 3-cü maddəsinin 7-ci bəndi).

Komissiyanın tərkibinə işçi qruplar (komitələr) da daxildir (Prosedur Qaydaların 7-ci maddəsi) və həmin struktur qurumlar Komissiyanın rəsmi sənədlərinin tərtib edilməsi ilə əlaqədar konkret işlərin icrası üçün məsuliyyət daşıyırlar. Bu komitələr müvafiq fəaliyyət istiqamətləri üzrə ixtisaslaşır:

- Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitə (CEPEJ-GT-EVAL);
- Məhkəmələrdə işlərə baxılması və həll edilməsi müd-

[9] Maraqlıdır ki, yetərsay üzrə tələbə də bənzər bir qayda tətbiq olunmaqdadır. Nəzərdə tutulmuşdur ki, yetərsay nümayəndələrin çoxluğunun iştirakından ibarət olur (Prosedur Qaydaların 5-ci maddəsi).

[10] CEPEJ Bürosunun dörd üzvü 47 üzv dövlətin nümayəndələri tərəfindən seçilmiş ekspertlərdir. Hazırda CEPEJ Bürosunun üzvləri aşağıda adları qeyd edilən şəxslərdir: Büronun üzvü – CEPEJ-in Prezidenti Qeorq Stava (Avstriya), Büronun üzvü, CEPEJ-in Vitse-prezidenti İrakli Adeişvili (Gürcüstan), Büronun sadə iki üzvü – İvana Borzova (Çexiya) və Ramin Qurbanov (Azərbaycan).

dətləri üzrə Tədqiqat Şəbəkəsi və ya Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Mərkəzi (SATURN Centre);

- Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL);
- Məhkəmə qərarlarının icrası üzrə Komitə (CEPEJ-GT-EXE);
- Mediasiya üzrə Komitə (CEPEJ-GT-MED).

Qeyd etmək lazımdır ki, iş yükü CEPEJ-in bu strukturları arasında bərabər bölüşdürülməyib – bizim fikrimizcə, qeyd olunan qruplar arasından birinci üçü daha ümumi vəzifələr daşıyır və daimi xarakterlidir (yaradıldıqları vaxtdan bugünədək fəaliyyətdədir), qalanları isə daha dar çərçivədə fəaliyyət göstərir və onların fəaliyyəti daimi xarakter daşımır. Eyni zamanda, CEPEJ daxilində bu işçi qrupların (komitələrin) eyni sayda üzvlərdən (ekspertlərdən) ibarət olması ziddiyyətli bir amil olaraq qalır. Beləliklə, təcrübədə Komissiya daxilində iş yükü bərabər nisbətlərdə, əsas etibarilə qeyd edilən işçi qrupları (komitələri) arasında ilk üçlükdə yer alan komitələr arasında bölüşdürülür.

### *1.2. Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının vəzifələri*

Avropa Şurasının məsləhətçi qurumu olaraq, Avropa Şurası hüququnun işlənib hazırlanması və təkmilləşdirilməsində CEPEJ-in rolu rəhbər qaydaların tərtib olunması və hətta (yuxarıda qeyd edildiyi kimi) analitik işin həyata keçirilməsi ilə məhdudlaşır. Lakin CEPEJ-in fəaliyyətinin təsiri həm Avropa Şurasının qurumlarına, həm də üzv dövlətlərə aiddir. Belə ki, CEPEJ-in Əsasnaməsinə müvafiq olaraq[11], Komissiyanın səlahiyyətləri sırasına aşağıda qeyd edilən vəzifələr daxildir:

- məhkəmə sistemlərinin Avropa Şurası tərəfindən müəyyən edilmiş tələb və standartlara cavab verməsinin təhlili;
- məhkəmə sisteminə aid olan problemlərin öyrənilməsi, onların həlli və məhkəmə sisteminin fəaliyyətinin təkmilləşdirilməsi üçün təkliflərin təqdim olunması;
- məhkəmə sistemi üzrə məlumat mübadiləsinin təşkil edilməsi;
- üzv dövlətlərə hüquqi yardımın təqdim olunması;
- ədalət mühakiməsi sahəsi üzrə rəsmi sənədlərin və standartların işlənib hazırlanması sahəsində Avropa Şurasının digər ixtisaslaşmış komitələrinə (ələlxüsus – Hüquq Əməkdaşlığı üzrə Avropa Komitəsinə) köməklik göstərilməsi.

Vaxt ötdükcə ədalət mühakiməsinin həyata keçirilməsinə münasibətdə CEPEJ-in analitik və məsləhətçi vəzifələri də inkişaf etmişdir. Belə ki, 16-17 may 2005-ci il tarixlərində Varşava şəhərində keçirilmiş Dövlət və Hökumət Rəhbərlərinin Üçüncü Toplantısında (Sammitində) Tədbirlər Planının qəbulu ilə Komissiyanın vəzifələrinin genişləndirilməsinə dair istək nümayiş olunmuşdur. Tədbirlər Planında dövlət rəhbərləri tərəfindən

[11] *"Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) yaradılması haqqında"* Avropa Şurası Nazirlər Komitəsi tərəfindən 18 sentyabr 2002-ci il tarixdə keçirilən 808-ci iclasda qəbul edilmiş Res(2002)12 saylı Qərar.

Komissiyaya münasibətdə aşağıda qeyd edilən vəzifə özünün əksini tapmışdır: "...Ədalət mühakiməsinin ədalətli tərzdə və müəyyən edilmiş vaxt çərçivəsində həyata keçirilməsinin təmin olunması, habelə mübahisələrin həllinin alternativ üsullarının işlənib hazırlanması və Avropa Hakimlərinin Məşvərətçi Şurasının rəylərinin lazımi qaydada istifadə olunması ilə bağlı üzv dövlətlərə köməklik göstərilməsi işində Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının qiymətləndirmə və yardım vəzifələrini inkişaf etdirmək..."[12] Buna baxmayaraq, qeyd edilən sənədin qəbul olunmasının nəticəsi olaraq, özünün fəaliyyətinin hüquqi tənzimlənməsi çərçivəsində CEPEJ-in əsas vəzifələrinə münasibətdə dəyişikliklər baş verməmişdir. Dəyişiklik yalnız təşkilatdaxili baş vermiş və CEPEJ tərəfindən həyata keçirilən qiymətləndirmə və analitik işlərin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsində əksini tapmışdır ki, bu, öz növbəsində, məhkəmə sistemlərinin qiymətləndirilməsi vəzifəsinin güclənməsinə gətirib çıxarmışdır[13].

Ədalət mühakiməsi sistemlərinin fəaliyyətinin təkmilləşdirilməsi işində Avropa Şurasının üzv dövlətlərinə köməklik göstərilməsi, heç şübhəsiz ki, CEPEJ-in daşıdığı vəzifələr sırasında ən vaciblərindən biridir.[14] Bu, bilavasitə Komissiyanın Əsasnaməsindən də irəli gəlir. Misal üçün, CEPEJ-in Əsasnaməsi ilə müəyyən olunub ki, üzv dövlətə münasibətdə Komissiyanın fəaliyyəti müvafiq ölkənin müraciətinə əsasən başlana bilər və həmin işlər qarşılıqlı hüquqi yardıma əsaslanır (8-ci maddə).

Hüquqi yardım göstərmək məqsədilə müəyyən üzv dövlətə səfər edən və Komissiyanın üzvlərindən (ekspertlərindən) ibarət

[12] Dövlət və Hökumət Rəhbərlərinin Üçüncü Sammitində qəbul edilmiş Tədbirlər Planı (Varşava, 16-17 may 2005-ci il).

[13] Misal üçün, Komissiyanın analitik işinin metodologiyasına aid sənəd – *"Ədalət mühakiməsi sistemi üzrə statistik məlumata dair Rəhbər Qaydalar"* tərtib edilmişdir (CEPEJ(2008)11, 12-ci plenar iclasda qəbul olunmuşdur (Strasburq, 10-11 dekabr 2008-ci il)).

[14] Bu fikri, misal üçün, J.Pato da paylaşır: *"Avropa demokratiyası və insan haqları: Avropa Şurasının fəaliyyəti"*, Avropa Şurasının nəşri, 2009, s. 126.

olan bir, yaxud bir neçə qrupun yaradılması CEPEJ-in Bürosunun təşəbbüsü əsasında həyata keçirilir (9-cu maddə).

Xüsusilə hansısa üzv dövlətə münasibətdə işçi qruplar tərəfindən həyata keçirilən işlər ekspert səfərləri çərçivəsində həyata keçirilir və bu zaman ekspert qrupunun üzvləri bilavasitə hüquqi yardımın təqdim edilməsi üçün zəruri olan məlumatın toplanması məqsədilə həmin dövlətin ərazisində müəyyən edilmiş yerə səfər edirlər (Əsasnamənin 10-cu maddəsi). Bilavasitə məlumatın toplanması yerlərində ekspertlərin işi dövlətin rəsmi orqanları tərəfindən təşkil olunur və işçi qrupların bütün işləri həmin dövlətin icazəsi əsasında həyata keçirilir. Bu və ya digər üzv dövlətə münasibətdə işçi qrup tərəfindən işlənib hazırlanan yekun sənəd səfər zamanı həyata keçirilən işlərin nəticələri əsasında tərtib olunur. Tərtib edilmiş hesabatlar, rəsmi sənəd statusunu almazdan qabaq, Komissiyanın Bürosunda və Katibliyində müzakirə olunur (10-cu maddə, 5-ci və 6-cı bəndlər).

Komissiya tərəfindən üzv dövlətlərin ədalət mühakiməsi sistemləri üzrə statistik məlumatların və qanunvericilik aktlarının təhlili yalnız onun özünün təşəbbüsü ilə həyata keçirilmir (müvafiq dövlətin ədalət mühakiməsi sistemlərinin vəziyyəti barədə hesabatların qəbul olunması ilə nəticələnən qısamüddətli fəaliyyətləri zamanı), hər hansı bir üzv dövlətdən müraciət alındıqda da Komissiya həmin dövlətə köməyini təqdim edə bilər.

Komissiya, birbaşa olaraq, Avropa Şurasının qurumları ilə də əlaqələr qurur və onları, zəruri hallarda, üzv dövlətlərdə ədalət mühakiməsi sisteminin inkişaf etdirilməsi məqsədilə konkret bir normativ hüquqi sənədin hazırlanması və qəbul edilməsinə təşviq etdirir. Beləliklə, CEPEJ-in işi yalnız üzv dövlətlərdə ədalət mühakiməsi sisteminə aid olan məlumatın toplanması, onun təhlili və üzv dövlətlərə kömək (əlalxüsus – hüquq sahəsində) göstərilməsi ilə məhdudlaşmır, həmçinin Avropa Şurasının digər qurumları ilə birgə geniş işlə də səciyyələndirilir.

18 sentyabr 2002-ci il tarixdə CEPEJ-in yaradılması barədə Avropa Şurası Nazirlər Komitəsinin Res(2002)12 saylı Qərarına əsasən Komissiyanın fəaliyyətinin məqsədi üzv dövlətlərin daxili hüquq sistemi çərçivəsində Avropa Konvensiyasının ədalət mühakiməsi sisteminə dair müddəalarının, ələlxüsus 5, 6, 13 və 14-cü maddələrinin, habelə ədalət mühakiməsi sisteminə müraciət qaydalarını, məhkəmə prosedurlarının səmərəliliyini, məhkəmə qərarlarının icrasını, hakimlərin, prokurorların, vəkillərin və məhkəmə prosesinin digər iştirakçılarının statusu və rolunu, habelə məhkəmələrdə müasir informasiya-kommunikasiya texnologiyalarının idarə olunması və tətbiqini müəyyən edən protokolların maddələrinin icrasından ibarətdir. Faktiki olaraq CEPEJ-in əsas fəaliyyəti üzv dövlətlərdə ədalət mühakiməsi sisteminin qiymətləndirilməsinə dair hesabatların dərc edilməsindən ibarət olmuşdur. Hazırda qeyd edilən hesabatlar mütəmadi tərtib olunur[15], böyük həcmdə statistik məlumatların müqayisəsini özlərində əks etdirir, analitik dəyər daşıyır və kifayət qədər irihəcmli sənədlərdir – nəticədə belə qənaətə gəlmək olar ki, qeyd edilən hesabatların əhəmiyyəti də getdikcə daha yüksək olacaq. Bu hesabatlar Avropa Şurasının bütün üzv dövlətlərini əhatə edir və həmin ölkələr tərəfindən onların ərazisində fəaliyyət göstərən ədalət mühakiməsi sistemlərinə münasibətdə milli nümayəndələr (əlaqələndiricilər) tərəfindən toplanmış məlumatlar əsasında hazırlanır. Hesabatlar üzv dövlətlərin ədalət mühakiməsi sistemləri barədə tam bilgi əldə etməyə imkan verir, belə sistemlərdən hər birinin müsbət və mənfi cəhətlərini müqayisəli təhlil əsasında müəyyənləşdirir.

Hesabatlar Avropa Şurasının Nazirlər Komitəsinə təqdim olunur. Qeyd edilənlərə əlavə olaraq, Prosedur Qaydalara müvafiq olaraq CEPEJ-in Prezidenti tərəfindən həmin hesabatlar şifahi qaydada Nazirlər Komitəsinə təqdim edilməlidir.

[15] Bax, misal üçün, 2012-ci il tarixli hesabat: CEPEJ, *"Avropa Məhkəmə Sistemləri: 2012-ci ilin nəşri"*, Avropa Şurasının nəşri, 2014, s. 422: http://www.coe.int/T/dghl/co-operation/cepej/evaluation/2012/Report_eng.pdf.

Avropa Şurası ilə üzv dövlətlər arasında əməkdaşlığın yer aldığı digər sahə Komissiya tərəfindən bir və ya bir neçə dövlətin müraciətinə əsasən hesabatların hazırlanması ilə bağlıdır. Misal üçün, Komissiya Azərbaycan Respublikasında hakimlərin seçilməsinə dair siyasət və qaydaların, Hollandiyada ərazi yurisdiksiyası məsələlərinin, Portuqaliyada məhkəmə fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və istifadəsi məsələsinin, İsveçrədə mediasiyanın istifadəsinin təhlilini həyata keçirmişdir.[16] Qeyd edilənlərə əlavə olaraq, Rusiyada ədalət mühakiməsi sisteminin qarşılaşdığı ən ağrılı problemlərdən biri – məhkəmə qərarlarının icrasına həsr edilmiş bir neçə hesabat, habelə Maltada ədalət mühakiməsi sistemi daxilində işlərə baxılmanın və işlərin həlli zamanı yaranan ləngimələrın, hakimlərin üzərinə düşən həddən artıq böyük iş yükünün və baxılmamış və həll edilməmiş qalan işlərin yığılması kimi problemlərin aradan qaldırılmasının praktiki üsulları barədə hesabat tərtib edilmişdir[17]. Aydın olur ki, artıq bir neçə dəfə Komissiyadan müəyyən bir dövlətin ədalət mühakiməsi sisteminin Avropa Şurasının tənzimləmə çərçivəsinə uyğun olub-olmaması barədə təhlilin aparılması və müvafiq hesabatın tərtib edilməsi xahiş edilmişdir.

---

[16] *"CEPEJ-in Azərbaycanda hakimlərin seçilməsinin siyasət və qaydalarının qiymətləndirilməsi Hesabatı"*, 10 yanvar 2012-ci il, CEPEJ-COOP(2011)1; *"CEPEJ-in Hollandiyada ərazi yurisdiksiyası haqqında Hesabatı"*, 5 dekabr 2003-cü il, CEPEJ(2003)18(D3); *"CEPEJ-in Portuqaliyada məhkəmə fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və istifadəsi haqqında Hesabatı"*, 11 iyun 2009-cu il, CEPEJ-COOP (2009)4; *"CEPEJ-in İsveçrədə mediasiya haqqında Hesabatı"*, 5 dekabr 2003-cü il, CEPEJ(2003)25(D2)E.

[17] *"CEPEJ-in Rusiya Federasiyasında dövlətə və onun qurumlarına qarşı Rusiya Federasiyası məhkəmələri tərəfindən mülki işlər üzrə çıxarılmış məhkəmə qərarlarının icrası ilə əlaqədar problemlərin araşdırılması haqqında Hesabatı"*, 9 dekabr 2005-ci il, CEPEJ(2005)8; *"CEPEJ-in Rusiya Federasiyasında dövlətə və onun qurumlarına qarşı çıxarılan məhkəmə qərarlarının icra olunmaması (mövcud problemlər və tələb edilən həll yolları) haqqında Hesabatı"*, 31 oktyabr 2006-cı il, CEPEJ (2006)1; *"CEPEJ-in Maltada ədalət mühakiməsi sistemi daxilində yaranan ləngimələrın aradan qaldırılması, hakimlərin üzərinə düşən həddən artıq böyük iş yükünün və baxılmamış və həll edilməmiş qalan işlərin sayının azaldılmasının praktiki yolları haqqında Hesabatı"*, 8 aprel 2004-cü il, CEPEJ(2005)7E.

Komissiyanın digər bir fəaliyyət sahəsi kimi "Rəhbər Qaydalar" adlanan sənədlərin hazırlanmasını da qeyd etmək lazımdır. Burada söhbət ədalət mühakiməsi sistemi daxilində müvafiq islahatların həyata keçirilməsi ilə əlaqədar üzv dövlətlərin rəhbərliklərinə təqdim olunması üçün tövsiyə və təlimat xarakterli rəhbər qaydalardan gedir. Belə ki, misal üçün, Komissiyanın qəbul etdiyi rəhbər qaydalardan biri məhkəmələrin ərazi üzrə yerləşməsinə və üzv dövlətlərdə məhkəmə binalarının təşkili və quruluşuna aiddir. Qeyd edilən rəhbər qaydaların məqsədi ədalət mühakiməsi sistemindən istifadə imkanlarının təmin olunması və ədalət mühakiməsi sistemi çərçivəsində təqdim edilən xidmətlərin keyfiyyətinin təkmilləşdirilməsindən ibarətdir[18]. Eyni ilə Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Mərkəzinin Rəhbər Qaydaları[19] ədalət mühakiməsi sistemində işlərə baxılması və həlli müddətlərinin idarə olunmasına, işlərə Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi ilə müəyyən edilmiş ağlabatan müddət ərzində baxılmasına və ədalət mühakiməsi hüququnun pozulması hallarının qarşısının alınmasına xidmət edir.

CEPEJ-in qatıldığı digər əsas fəaliyyət sahələrindən biri ədalət mühakiməsinin müxtəlif sahələri üzrə elmi tədqiqatların aparılmasıdır. Son illər ərzində CEPEJ-in işçi qrupları (komitələri) tərəfindən 20-dən çox elmi tədqiqat aparılmışdır, misal üçün, Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitə (CEPEJ-GT-EVAL) – Avropa İttifaqı dövlətlərinin ədalət mühakiməsi sistemlərinə dair 19 saylı Elmi Tədqiqat, Şərqi Avropa dövlətlərinin ədalət mühakiməsi sistemlərinə dair 21 saylı Elmi Tədqiqat[20]; Məhkəmə vaxtının idarə olunması üzrə SATURN

---

[18] CEPEJ-in *"Keyfiyyətli ədalət mühakiməsi sistemi çərçivəsində məhkəmələrə müraciət etmək imkanlarının asanlaşdırılması üçün məhkəmə xəritəsinin yaradılması üzrə Rəhbər Qaydaları",* 6 dekabr 2013-cü il, CEPEJ(2013)7Rev1; *"Məhkəmə binalarının təşkili və məhkəmə binalarından istifadə imkanlarının təmin olunması üzrə Rəhbər Qaydaları",* 12 dekabr 2014-cü il, CEPEJ(2014)5.

[19] *"Məhkəmə vaxtının idarə olunması üzrə CEPEJ-in SATURN Rəhbər Qaydaları*, 12 dekabr 2014-cü il, CEPEJ(2014)16.

[20] *"Avropa İttifaqı dövlətlərində ədalət mühakiməsi sistemləri haqqında 19 saylı*

Mərkəzi (SATURN Centre) – Avropa İnsan Haqları Məhkəməsinin qərarları əsasında Avropa Şurasının üzv dövlətlərində məhkəmə işlərinə baxılması və həlli müddətinə dair 3 saylı Elmi Tədqiqat[21], Avropa Şurasının üzv dövlətlərində apellyasiya və ali məhkəmələrində məhkəmə işlərinə baxılması və həllinə dair 17 saylı Elmi Tədqiqat[22]; Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL) – Avropa Şurasının üzv dövlətlərindən məhkəməyə müraciət edən şəxslər arasında məmnunluq sorğularının keçirilməsinə dair 15 saylı Elmi Tədqiqat, Avropada münasibətlərin müqavilə çərçivəsinə salınmasının vəziyyəti və ədalət mühakiməsi prosesinə dair 16 saylı Elmi Tədqiqat[23] və s.

Yuxarıda istinad edilən CEPEJ-in yaradılması haqqında Avropa Şurası Nazirlər Komitəsinin Res(2002)12 saylı Qərarına müvafiq olaraq Komissiyanın fəaliyyətinin əsas istiqaməti üzv dövlətlər arasında əməkdaşlığın təşkil edilməsindən ibarətdir (bax: Giriş hissə). Lakin, fikrimizcə, Komissiya fəaliyyətində daha çox, bütövlükdə götürüldükdə Avropa Şurası ilə yanaşı, xüsusilə

*Elmi Tədqiqat",* c-b Jan-Pol Jan (Fransa Ali Məhkəməsinin sabiq Baş vəkili, Poitri Universitetinin professoru) və x-m Elen Jorri (Avropa İttifaqı hüququ üzrə ekspert, CEPEJ-in ekspert üzvü) tərəfindən 2013-cü ildə hazırlanmışdır; *"Şərqi Avropa dövlətlərinin ədalət mühakiməsi sistemləri haqqında 21 saylı Elmi Tədqiqat"*, c-b Jan-Pol Jan (Fransa Ali Məhkəməsinin sabiq Baş vəkili, Poitri Hüquq Universitetinin professoru) və c-b Ramin Qurbanov (AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun aparıcı elmi işçisi, hakim, Azərbaycan) tərəfindən 2015-ci ildə hazırlanmışdır.

[21] *"Avropa İnsan Haqları Məhkəməsinin qərarları əsasında Avropa Şurasına üzv dövlətlərdə məhkəmə işlərinə baxılması və həlli müddəti üzrə 3 saylı Elmi Tədqiqat"*, x-m Fransua Kalve (hakim, Fransa) tərəfindən tərtib edilmiş və c-b Nikola Redji (hakim, Fransa) tərəfindən 2011-ci ildə yenilənmişdir.

[22] *"Avropa Şurasının üzv dövlətlərində apellyasiya və ali məhkəmələrində məhkəmə işlərinə baxılması və həlli üzrə 17 saylı Elmi Tədqiqat",* c-b Marko Velikonya (IRSIG-CNR, CEPEJ-in eksperti) tərəfindən 2013-cü ildə hazırlanmışdır.

[23] *"Avropa Şurasının üzv dövlətlərindən məhkəməyə müraciət edən şəxslər arasında məmnunluq sorğularının keçirilməsi üzrə 15 saylı Hesabat"*, c-b Jan-Pol Jan (Fransa Ali Məhkəməsinin sabiq Baş vəkili, Poitri Hüquq Universitetinin professoru) və x-m Elen Jorri (Fransanın Versal-Seynt Kuentin-İvlen Universitetinin müəllimi və elmi işçisi) tərəfindən 2010-cu ildə hazırlanmışdır; *"Avropada münasibətlərin müqavilə çərçivəsinə salınmasının vəziyyəti və ədalət mühakiməsi prosesi üzrə 16 saylı Hesabat"*, c-b Julyen Luilye (Fransa Lozan Universitetinin Kriminologiya və cinayət hüququ üzrə İnstitutunun əməkdaşı) tərəfindən 2010-cu ildə hazırlanmışdır.

Avropa Məhkəməsi və üzv dövlətlərin müvafiq ədalət mühakiməsi sistemi qurumları arasında dolayı əməkdaşlığı aparır. Faktiki olaraq nəzərə alsaq ki, üzv dövlətlərdə məhkəmə sisteminin fəaliyyətinin təhlili və qiymətləndirilməsi Avropa Konvensiyası tərəfindən müəyyən edilmiş və Avropa Məhkəməsi vasitəsilə dinamik surətdə şərh edilən prinsiplər əsasında həyata keçirilir, aydın olur ki, bu və ya digər dövlətdə ədalət mühakiməsi sisteminin fəaliyyətinin keyfiyyətini müəyyən etmək işində başlıca meyar dövlətin məhkəmə orqanları tərəfindən Konvensiyanın hansı tərzdə təfsir edilib tətbiq olunmasından ibarətdir. Başqa sözlə desək, özünün fəaliyyəti çərçivəsində Komissiya tərəfindən məhkəmə sisteminin fəaliyyətinin təkmilləşdirilməsinə yönəltməklə təqdim edilən tövsiyələr Avropa Konvensiyasına və Avropa Konvensiyasının müddəalarının Avropa Məhkəməsinin qərarları vasitəsilə şərhinə əsaslanır və son nəticə etibarilə Komissiyanın bütün fəaliyyətinin məqsədi üzv dövlətlərdə məhkəmə sistemlərinin fəaliyyətinin təkmilləşdirilməsindən ibarətdir. Bu fikir CEPEJ-in birinci Prezidenti  Eberhard Deş tərəfindən də təsdiq edilmiş və o, xüsusilə qeyd etmişdir ki, *Komissiyanın yaradılmasında məqsəd ədalət mühakiməsi sistemi çərçivəsində Avropa standartlarına riayət edilməsinin təmin olunmasından ibarətdir*[24].

Həmçinin qeyd etmək olar ki, bu qənaətə birbaşa olaraq Komissiyanın yaradılması haqqında qərara istinadən gəlmək də mümkündür. Belə ki, qərarın giriş hissəsində Komissiyanın yaradılmasının məqsədi müəyyən edilərkən nəzərdə tutulmuşdur ki, Komissiya fəaliyyətində Avropa İnsan Hüquqları Konvensiyasının (xüsusən 5, 6, 13 və 14-cü maddələrinin) və protokollarının müvafiq müddəalarını, habelə Avropa İnsan Haqları Məhkəməsinin qərarlarını nəzərə almalıdır.[25] Müvafiq olaraq, qeyd etmək olar

[24] Eberhard Deş, *"Avropanın Məhkəmə Sistemləri üzrə Giriş Sözü"*, 2002-ci il, Avropa Şurasının nəşri, s. 5.

[25] Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) yaradılması haqqında Avropa Şurası Nazirlər Komitəsi tərəfindən 18 sentyabr 2002-ci il tarixdə keçirilən 808-ci iclasda qəbul edilmiş Res(2002)12 saylı Qərar.

ki, Komissiyanın fəaliyyəti, dolayısı ilə, Avropa Məhkəməsinin qərarlarının üzv dövlətlərin məhkəmə sistemləri çərçivəsində tətbiqinə yönəlmişdir, bu isə, öz növbəsində, üstmilli məhkəmə qurumu ilə müvafiq milli orqanlar (o cümlədən məhkəmələr) arasında əməkdaşlığın müəyyən səviyyəsinin mövcud olmasını zəruri edir.

# FƏSİL 2

## Avropa Şurasının üzv dövlətlərində məhkəmə sisteminin qiymətləndirilməsi – Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının əsas fəaliyyət istiqamətlərindən biri kimi

### *2.1. Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitə (CEPEJ-GT-EVAL)*

Heç şübhəsiz ki, üzv dövlətlərin məhkəmə sistemlərinin fəaliyyətinin qiymətləndirilməsi Komissiyanın əsas fəaliyyət istiqamətini, yaxud da daha dəqiq desək, kənar müşahidəçilər üçün Komissiyanın daha çox nəzərə çarpan fəaliyyət istiqamətini təşkil edir. Xüsusilə bu fəaliyyət özünü Avropa dövlətlərinin məhkəmə sistemləri haqqında CEPEJ tərəfindən mütəmadi olaraq hesabatların tərtib edilməsində büruzə verir. Komissiyanın Əsasnaməsinə müvafiq olaraq[26] bu vəzifə üzv dövlətlərin yerlərdəki nümayəndələri tərəfindən ümumi göstəricilər və qiymətləndirmə metodları vasitəsilə icra olunur (2.1.a bəndi). Qeyd edilənlərə əlavə olaraq, Əsasnamənin 3.1.a bəndi ilə Komissiyadan üzv dövlətlərdə məhkəmə sistemlərinin fəaliyyətinin qiymətləndirilməsinə münasibətdə göstəricilərin (meyarları) və vasitələrin müəyyən edilməsi tələb olunur.

Məlumatların işlənməsinə dair Əsasnamə ilə müəyyən edilmiş tələblərə müvafiq olaraq, sonradan məhkəmə sisteminin, ha-

[26] Avropa Şurası Nazirlər Komitəsinin Qərarı Res(2002)12.

belə Komissiyanın özünün fəaliyyətinin qiymətləndirilməsi üçün istifadə edilməsi nəzərdə tutulan statistik məlumatın toplanması və işlənməsi ilə əlaqədar üzv dövlətlərin gündəlik çalışmalarını tənzimləyən rəhbər qaydalar tərtib edilmişdir. İki ildən bir Komissiya tərəfindən Avropanın bütün 47 üzv dövlətinin məhkəmə sistemlərinə münasibətdə aparılan müqayisəli hüquqi təhlillərin nəticələri *"Avropa Məhkəmə Sistemləri"* adlanan hesabatların məğzini təşkil edir. Qeyd edilən və ikiillik müddəti əhatə edən bu hesabatlar vasitəsilə CEPEJ üzv dövlətlərin məhkəmə sistemlərinin müqayisəli hüquqi təhlilini aparır və nəticədə, bir tərəfdən, bəzi məhkəmə sistemlərində olan mümkün çatışmazlıqları aşkara çıxarır və bunun vasitəsilə onların aradan qaldırılmasına xidmət edir, digər tərəfdən isə "ən mükəmməl çalışma qaydaları" barədə məlumatı ümumiləşdirir.

Üzv dövlətlərin məhkəmə sistemlərinin müqayisəli hüquqi təhlili metodu ilk dəfə 2002-ci ildə Avropa dövlətlərinin məhkəmə sistemləri haqqında CEPEJ hesabatı tərtib edildikdə istifadə olunmuşdur.[27] O zaman bu kimi təhlilin aparılmasına dair normativ təlimatlar mövcud olmamış və CEPEJ özü məhkəmə sistemləri üzrə statistik məlumatların toplanması və qiymətləndirilməsinə dair metodları işləyib tərtib etmək məcburiyyətində qalmışdı. Əslində, qeyd edilən hesabat üzrə iş aparılarkən "qiymətləndirmə sxemi", yəni məhkəmə sistemlərinin müqayisəli təhlilini aparmaq üçün istifadə edilən bir vasitə hazırlanmışdır. Qeyd edilən qiymətləndirmə sxeminə daxil olan xüsusi üsul və qiymətləndirmə metodları üzv dövlətlərə məhkəmə sistemlərinin fəaliyyətinin nə qədər keyfiyyətli olmasını müəyyən etmək, başqa sözlə, məhkəmə sisteminin mənfi və müsbət cəhətlərini aşkar etmək imkanı vermişdir.

Üzv dövlətlərin məhkəmə sistemlərinin qiymətləndirilməsinə münasibətdə vahid metodu əhatə edən bir sənədi hazır etmək, habelə milli nümayəndələr tərəfindən təqdim olunan məlumatı

[27] CEPEJ, *"Avropanın Məhkəmə Sistemləri 2002",* Avropa Şurasının nəşri, 2005, s. 139.

bütövlükdə cəmləşdirmək məqsədilə CEPEJ tərəfindən Avropa məhkəmə sistemlərinin qiymətləndirliməsi üzrə Komitə yaradılmışdır. Komitənin vəzifələrindən biri statistik məlumatların toplanması və işlənməsi üçün metodologiyaların işlənib hazırlanması olmuşdur.[28] Beləliklə, qəbul edilmişdir ki, toplanmış və təhlil edilmiş statistik məlumat əsasında aparılan tədqiqat bir tərəfdən hər bir üzv dövlətə münasibətdə hakimlər və məhkəmə, habelə inzibati və mülki işlər barədə məlumatı, digər tərəfdən isə ədalət mühakiməsinin səmərəliliyi və ədalətli olması ilə bağlı Avropa Şurası tərəfindən qəbul edilmiş müvafiq qərar və tövsiyələri əks etdirməlidir. Başqa sözlə desək, məhkəmə sisteminin fəaliyyətinin səmərəliliyi və keyfiyyətinin qiymətləndirilməsi üçün istifadə edilən meyarlar həm dövlətlərin məhkəmə sistemlərinə aid olan faktiki məlumatlara, həmçinin ümumilikdə məhkəmə sisteminin daşımalı olduğu keyfiyyət və səmərəlilik göstəricilərinə əsaslanmalıdır.

Məhkəmə sisteminin qiymətləndirilməsi üçün suallar toplusundan istifadə olunur[29] və qeyd edilən suallar toplusu məhkəmə sisteminə aid müxtəlif mövzulara dair suallardan ibarətdir. Həmin suallar üçün cavablar müvafiq üzv dövlət adından çıxış edən milli əlaqələndirici tərəfindən təqdim olunur. Üzv dövlətlər milli əlaqələndirici seçməkdə sərbəstdirlər. Məhkəmə sistemlərinin müqayisəli təhlili bütün üzv dövlətlərə vahid və ardıcıl qiymətləndirmə metodunun – vahid istinad mənbəyinin tətbiqi nəticəsində mümkün olmuşdur və Komitə tərəfindən məlumatın müqayisəli tərzdə istifadəsinə münasibətdə konservativ bir yanaşma qəbul olunmuşdur. Bu təkmilləşdirilmiş təhlil metodu CEPEJ tərəfindən məhkəmə sisteminə aid statistik məlumat üzrə rəhbər qaydaların qəbul olunması[30] və məlumatın toplanmasının keyfiyyə-

[28] Bu metodun istifadəsi ilə əlaqədar, misal üçün, bax: P.Albers, "*Məhkəmə sisteminin qiymətləndirilməsi – dəyişikliklər və ümumiləşdirmə arasındakı tarazlıq*", CEPEJ (2003)12.

[29] CEPEJ, *"Avropanın Məhkəmə Sistemləri 2002"*, Avropa Şurasının nəşri, 2002, s. 80 və s.

[30] *"Məhkəmə statistikası üzrə CEPEJ-in Rəhbər Qaydaları"*, CEPEJ(2008)11,

tinin qiymətləndirilməsi və statistik məlumatların təhlili ilə əlaqədar təcrübəvi/pilot əməkdaşlıq mexanizminin yaradılması vasitəsilə tənzimlənmişdir (*"Məhkəmə sisteminə dair statistik məlumatlar sahəsində əməkdaşlıq prosesinin təhlili üzrə Eksperimental (pilot) layihə: məqsədlər və metodologiya"* CEPEJ(2007)25)[31].

Məhkəmə sistemləri üzrə məlumatın qiymətləndirilməsi üçün vahid metodun işlənib hazırlanması vəzifəsi CEPEJ-in komitələrinə tapşırılmış və həmin komitələrin səlahiyyətləri və onun qarşısında duran məqsədlər Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitənin (CEPEJ-GT-EVAL) Əsasnaməsi ilə müəyyən edilmişdir[32]. Səlahiyyətləri çərçivəsində Komitə aşağıda qeyd edilmiş vəzifələri daşıyır:

- müvafiq dövlətin məhkəmə sistemi üzrə statistik məlumatın toplanması və qiymətləndirmə hesabatları layihələrinin hazırlanması məqsədilə qeyd edilən məlumatın işlənməsi;
- məhkəmə sistemlərinin fəaliyyətinin qiymətləndirilməsi haqqında hesabatların paylanmasının təşviq etdirilməsi və onların üzv dövlətlərə təsirinin qiymətləndirilməsi;
- hesabatlarda yer alan təhlil nəticələrinin istifadəsinə dair təkliflərin, ələlxüsus fəaliyyət göstəricilərinə aid təkliflərin təqdim olunması;
- üzv dövlətlərin məhkəmə sistemlərinə münasibətdə dəyişiklik istiqamətləri və təkrarlanan çatışmazlıqların aşkar olunması;
- hesabatlar vasitəsilə təqdim olunan və dərc edilməsi nəzərdə tutulan məlumat əsasında tədqiqatlar aparılması;
- məlumatın toplanması və işlənməsi işinə aid ayrı-ayrı tədbirlərin təşkil edilməsi məqsədilə köməklik göstər-

CEPEJ tərəfindən 12-ci plenar iclasda qəbul edilmişdir (Strasburq, 10-11 dekabr 2008-ci il).

[31] *"Məhkəmə sisteminə dair statistik məlumatlar sahəsində əməkdaşlıq prosesinin təhlili üzrə Eksperimental (pilot) layihə: məqsədlər və metodologiya"*, CEPEJ(2007)25.

[32] "*2014-2015-ci illər üçün CEPEJ-in Fəaliyyət Proqramı*", CEPEJ tərəfindən 22-ci plenar iclasda qəbul edilmişdir (Strasburq, 5-6 dekabr 2013-cü il), CEPEJ (2013)12.

mək üçün milli nümayəndələrlə əməkdaşlığın həyata keçirilməsi;

- Avropa dövlətlərinin məhkəmə sistemləri barədə ikiillik müddəti əhatə edən hesabatın nəşr olunması ilə əlaqədar CEPEJ-in fəaliyyətinin əlaqələndirilməsi;
- məhkəmə sisteminə dair toplanmış məlumatın öyrənilməsinin təşkil olunması və aşağıda qeyd edilən məqsədlərə münasibətdə məsləhətçi rəyinin təqdim edilməsi:
    - ■ məhkəmə sistemləri üzrə statistik məlumatın keyfiyyətinin yüksəldilməsi işində üzv dövlətləri dəstəkləmək;
    - ■ məhkəmə sistemlərinin təhlilini aparan ayrı-ayrı dövlətlərin statistik məlumat sistemləri arasında təcrübə mübadiləsini təşviq etdirmək;
    - ■ biliklərin bir üzv dövlətdən digərinə ötürülməsi məqsədilə üzv dövlətlər arasında məlumat mübadiləsini təkmilləşdirmək;
    - ■ məhkəmə sisteminin qiymətləndirilməsi ilə bağlı şəffaflıq və məsuliyyəti təşviq etdirmək.
- üzv dövlətlərin məhkəmə sistemləri barədə müqayisəsi mümkün olan məlumatın əldə edilməsi məqsədilə üzv dövlətlərin CEPEJ-in *"Məhkəmə sistemi üzrə statistik məlumatlara dair Qaydalar"*dan (GOJUST) istifadə etmələrinə həvəsləndirilməsi;
- üzv dövlətlərə qiymətləndirmə səfərlərinin təşkili;
- və nəhayət, CEPEJ-in digər qurumları, misal üçün, Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL) və Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Mərkəzi (SATURN Centre) ilə əməkdaşlığı həyata keçirməklə məhkəmənin işinin qiymətləndirilməsi üçün istifadə edilən meyar və üsulların işlənib hazırlanması.

Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitə namizədlikləri üzv dövlətlər tərəfindən irəli sürülən və vəzifəyə CEPEJ-in Bürosu tərəfindən təyin edilən 6 ekspertdən ibarətdir.[33] Digər ekspertlər də CEPEJ-in bu Komitəsinin fəaliyyətində iştirak edə bilər. Qeyd edilənlərə əlavə olaraq, Avropa Şurası və Avropa İttifaqının nümayəndələri komitənin iclaslarına qatıla bilər, lakin onlar səs vermək hüququna malik deyillər. QHT-lərin ekspertləri müşahidəçi qismində komitənin fəaliyyətində iştirakçı ola bilər.

[33] 6 ekspert CEPEJ-in Bürosu tərəfindən Komissiyanın üzvləri sırasından təyin olunur. Qrupun sədri Fransadan olan professor Jan-Pol Jandır (Fransanın Poitri Hüquq Universitetinin professoru, Fransa Ali Məhkəməsinin Kollegiya sədri). Komitəyə, həmçinin, adları aşağıda qeyd edilən ekspertlər daxildir: Ramin Qurbanov (Bakı Şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi, "Elektron məhkəmə" sisteminin yaradılmasına dair İşçi Qrupun rəhbəri, Azərbaycanda məhkəmə sisteminin müasirləşdirilməsi üzrə Dünya Bankı Layihəsinin koordinatoru, CEPEJ-in Büro üzvü), Frans Van Der Doelen (Hollandiya Ədliyyə Nazirliyinin Ədalət mühakiməsi sistemi departamentinin meneceri), Stefani Mourou Vikstrom (Monakonın birinci instansiya məhkəməsinin baş hakimi), Adis HODZİÇ (Bosniya və Herseqovinanın Ali Ədliyyə və Prokurorluq Şurası Statistik Məlumat Katibliyinin rəhbəri) və Simone Krep (Almaniyanın Köln Ali Bölgə Məhkəməsinin hakimi).

## *2.2. Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının qiymətləndirmə üsulları*

### *2.2.1. CEPEJ-in "Məhkəmə sistemi üzrə statistik məlumatlara dair Qaydalar"ı (GOJUST)*[34]

CEPEJ-in "*Məhkəmə sistemi üzrə statistik məlumatlara dair Qaydalar*"ı, digər sənədlərlə bərabər, üzv dövlətlərdə məhkəmə sisteminə aid statistik məlumatın səmərəliliyi, şəffaflığı və keyfiyyətinin yüksəldilməsinə xidmət edən bir sənəddir. Bu məqsəd qeyd edilən sənədin giriş hissəsində əksini tapmışdır və Qaydaların aşağıda sadalanan məqsədlərə xidmət etməsi müəyyənləşdirilmişdir:

- üzv dövlətlər tərəfindən toplanan və işlənən statistik məlumatın keyfiyyəti, şəffaflığı, istifadəsi imkanları və mötəbərliyinin təşviq etdirilməsi;
- ayrı-ayrı dövlətlərin məhkəmə sistemləri üzrə müəyyən məqamlara aid problemlərin aşkara çıxarılması məqsədilə müxtəlif dövlətlərdən əldə edilən statistik məlumatın müqayisəsi üçün imkanların yaradılması və qeyd edilən məlumatın keyfiyyətinin yüksəldilməsinə töhfə verilməsi;
- CEPEJ tərəfindən üzv dövlətlərin məhkəmə sistemlərinə münasibətdə aparılan təhlillərin şəffaflığı və mötəbərliyinin təşviq etdirilməsi.

Qaydalarla müəyyən edilmişdir ki, statistik məlumatın toplanmasında əsas məqsəd üzv dövlətlərin müvafiq orqanlarına məhkəmə və ümumilikdə məhkəmə sisteminin keyfiyyəti və səmərəliliyi barədə məlumata sahib olmalarını təmin etmək üçün məhkəmə sisteminin fəaliyyəti haqqında ən dolğun məlumatın yığılmasına şərait yaratmaqdan ibarətdir. Nəticə etibarilə məhkəmə sisteminə dair statistik məlumatın toplanması və işlənməsi üçün vahid meto-

---

[34] CEPEJ-in "*Məhkəmə sistemi üzrə statistik məlumatlara dair Qaydalar*"ı (GOJUST), CEPEJ(2008)11, CEPEJ tərəfindən Komissiyanın 12-ci plenar iclasında qəbul olunub (Strasburq, 10-11 dekabr 2008-ci il).

dologiyanın işlənib hazırlanması məhkəmə sisteminin fəaliyyətinin keyfiyyətinin təhlili işində əsas amil hesab olunur.

Qeyd edilən sənədlə nəzərdə tutulmuşdur ki, üzv dövlətlər məhkəmə sisteminin fəaliyyətinin müxtəlif istiqamətləri üzrə məlumatın yüksək keyfiyyətlə toplanması üçün ayrı-ayrı fərqli təşkilati strukturlara münasibətdə lazımi şəraiti yaratmalıdırlar. Bu sənəd müxtəlif meyar və statistik göstəricilərin bir araya gətirilməsi, habelə məhkəmə sisteminə münasibətdə statistik məlumatların toplanması və işlənməsinin yüksək keyfiyyətlə həyata keçirilməsini təmin etmək məqsədi nəzərə alınmaqla tərtib olunmuşdur. Başqa sözlə, qeyd edilən sənəd üzv dövlətlərin müxtəlif qurumlarının istifadəsi üçün nəzərdə tutulmaqla, ayrı-ayrı üzv dövlətlərin məhkəmə sistemləri barədə statistik məlumatın işlənməsi üçün metodoloji bir vasitəni təşkil edir.

Beləliklə, bu sənəd məhkəmə sisteminə münasibətdə statistik məlumatın toplanması və qiymətləndirilməsi üçün sistemin yaradılmasına (yaxud da ki, belə bir sistem artıq mövcuddursa, mövcud sistemin təkmilləşdirilməsinə) münasibətdə üzv dövlətlərə ünvanlanan bir rəhbərlik sənədidir. Əlalxüsus bu Qaydalar aşağıda qeyd edilmiş məqsədlərə xidmət edir:

- statistik məlumatın toplanması və işlənməsi üçün metodologiyanın işlənib hazırlanması və müvafiq qurumlar tərəfindən rabitə və informasiya texnologiyaları vasitələrinin istifadəsinin genişləndirilməsi;
- əvvəlki dövrlərdə toplanmış statistik məlumatın istifadəsi və ayrı-ayrı qurumların, onları əsas fəaliyyət növlərindən ayırmamaq üçün, mahiyyət etibarilə kiçik məna kəsb edən müraciətlərlə yükləndirilməməsi;
- məhkəmə sistemlərinə dair statistik məlumatın toplanması və təhlilinin şəffaflığının təmin edilməsi;
- bütün tərəflərə bu məlumatdan maksimal dərəcədə geniş istifadə imkanlarının təqdim olunmasının təmin edilməsi;

- statistik məlumatın vəkillərin istəkləri nəzərə alınmaqla dəqiqləşdirilməsi üçün vəkillərin hüquqlarının müdafiəsi üzrə məsul olan təşkilatlarla əməkdaşlığın həyata keçirilməsi.

Nəhayət, Qaydalarda vurğulanır ki, milli qurumlar tərəfindən təqdim edilən statistik məlumat üzv dövlətlərin məhkəmə sistemləri barədə CEPEJ hesabatlarının tərtib olunması üçün istifadə ediləcək, bu isə, öz növbəsində, statistik məlumatın toplanması və qiymətləndirilməsinə münasibətdə vahid yanaşmanın və vahid meyarların tətbiqini zəruri edir. Bu faktı nəzərə alaraq sənədin ikinci hissəsi – "Xüsusi şərtlər" – təhlilin hansı sahəyə aid olmasından asılı olaraq, statistik məlumatın toplanmasının xüsusi şərtlərini müəyyən edir. Təhlilin ayrı-ayrı sahələri dedikdə, aşağıda qeyd edilənlər nəzərdə tutulur:

- ədalət mühakiməsi sisteminin büdcəsi;
- insan resursları;
- məhkəmənin fəaliyyəti və prosessual müddətlər;
- Avropa Konvensiyasının 6-cı maddəsinin müddəalarının pozulması hallarının monitorinqi.

Bu sahələrdən hər birinə münasibətdə Qaydalarla statistik məlumatın hansı ayrı-ayrı məqamlara aid olması müəyyən olunmuşdur. Misal üçün, ədalət mühakiməsi sisteminin büdcəsinə münasibətdə statistik məlumat əməkhaqqı, hüquqi yardıma ayrılan vəsaitlər, informasiya və rabitə texnologiyalarına yatırılan sərmayələr və s. istiqamətlərə aid olmaqla toplanmalıdır.

Qaydaların ən çox maraq doğuran hissəsi üç qoşmada yer alır və qeyd edilən qoşmalar Qaydaların konkret tətbiqi üçün vasitələri tərif edir. Birinci qoşma *"Məhkəmədə prosessual müddətlərin monitorinqi üzrə Vahid Avropa Qaydaları"*na (EUGMONT) həsr edilmişdir. Bu qoşmada məhkəmə baxışının müddəti üzərində monitorinq sisteminin yaradılmasına dair bir sıra şərtlər verilmiş, habelə hansı statistik məlumatın toplanması müəyyən olunmuşdur. Müvafiq olaraq aşağıda qeyd edilən məlumatın təqdim edilməsi nəzərdə tutulmuşdur:

- məhkəmənin sayı və növü, onların yurisdiksiyası;
- məhkəmədə işlərin sayı və növü;
- təxirəsalınmaz hesab edilən (təcili olaraq baxılmalı olan) işlər;
- təqdim edilən iddia ərizələrinin sayı;
- həll edilmiş işlərin/çıxarılmış qərarların sayı;
- həll edilməmiş qalan işlərin sayı və s.

İkinci qoşma məhkəmə qərarlarının icrasına həsr edilmişdir və bu qoşmada həll edilmiş işlərin sayı, dövriyyə nisbəti və onların həlli üçün sərf edilən müddət nəzərə alınmaqla məhkəmə işinin səmərəliliyini müəyyən etmək üçün istifadə edilən düstur verilmişdir.

Nəhayət, üçüncü qoşmada üzv dövlətlərin məhkəmə barədə hansı məlumatı toplamalı olacaqları əksini tapmışdır (Avropada ədalət mühakiməsi barədə əsas məlumat). Burada biz üzv dövlətlərin məhkəmə sistemləri haqqında CEPEJ hesabatlarının məğzini təşkil edən ümumi məlumata istinad edirik. Qeyd edilənlərə əlavə olaraq, həmin hesabatlar müəyyən edilmiş metodologiyaya uyğun hazırlanır.

CEPEJ-in hansı məlumatın toplanmalı olması və həmin məlumatın üzv dövlətlərin nümayəndələri tərəfindən hansı qaydada toplanmasına dair müfəssəl məsləhətlərinə səbəb statistik məlumatın toplanması ilə bağlı vahid yanaşmanın zəruri olmasından irəli gəlir. Əslində, statistik məlumatın toplanması və toplanmış məlumatların növlərinə dair meyarların müəyyən edilməsinə münasibətdə istifadə edilən mərkəzləşdirilmiş yanaşma məhkəmə sisteminə münasibətdə statistik məlumatın müqayisəli təhlilinin nəticələrinin yüksək keyfiyyətini təmin edir. Nəticə etibarilə CEPEJ-in *"Məhkəmə sistemi üzrə statistik məlumatlara dair Qaydalar"*[1] (GOJUST) Komissiyanın və xüsusilə də CEPEJ-in Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitəsinin səmərəli fəaliyyətinə öz müsbət töhfəsini verən əsas bir sənədə çevrilmişdir.

### *2.2.2. "Məhkəmə sisteminə dair statistik məlumatlar sahəsində əməkdaşlıq prosesinin təhlili üzrə Eksperimental (pilot) layihə: məqsədlər və metodologiya"*[35]

Komissiyanın *"Məhkəmə sisteminə dair statistik məlumatlar sahəsində əməkdaşlıq prosesinin təhlili üzrə Eksperimental (pilot) layihə: məqsədlər və metodologiya"*ya aid sənəd məhkəmə hakimiyyətinə aid əsas müqayisəli problemli məsələlərin aşkarlanması üçün zəruri olan ümumi statistik məlumatın müəyyən edilməsi vasitəsilə üzv dövlətlərdə məhkəmə sisteminin fəaliyyətinin keyfiyyəti və səmərəliliyini təkmilləşdirmək üçün daha bir alətdir. Bu sənədə istinadən onun xidmət etdiyi məqsədləri aşağıdakı kimi müəyyən etmək olar:

- ölkədaxili statistik sistemləri təkmilləşdirməklə və onların eyni bir çalışma səviyyəsi üzrə fəaliyyətlərini təmin etməklə üzv dövlətlərin məhkəmə sistemlərinə dair toplanmış statistik məlumatların keyfiyyətinin yüksəldilməsi;
- məhkəmə sisteminin fəaliyyətini təkmilləşdirmək məqsədilə dövlətlər arasında statistik məlumatın mübadiləsinin, habelə onlar arasında təcrübə mübadiləsinin təşkil olunması;
- və nəhayət, məhkəmə sisteminin qiymətləndirilməsi ilə əlaqədar CEPEJ tərəfindən istifadə olunan məlumatın etibarlılıq səviyyəsinin yüksəldilməsi.

İlk mərhələdə bu sənədin məqsədi CEPEJ-in sənədlərinin "pilot" layihə vasitəsilə tətbiq olunduğu "pilot" adlanan ölkələrdə və ya, daha dəqiq desək, müvafiq ölkələrin məhkəməsində statistik məlumatın hansı qaydada toplanmalı və işlənməli olması yollarını müəyyən etməkdən ibarət idi. Qeyd etmək lazımdır ki, bu məqsədə CEPEJ-in ekspertlərinin səfərləri və yerlərdə onlar tərəfindən görüşlərin keçirilməsi vasitəsilə nail olunmuşdur. Bununla əlaqədar sənədin mətni ilə nəzərdə tutulub ki:

[35] *"Məhkəmə haqqında statistik məlumatların ümumi təhlili üzrə işlərin əlaqələndirilməsinin metodu və məqsədləri"*, CEPEJ(2007)25.

- CEPEJ ekspertləri üzv dövlətin müvafiq icra və məhkəmə hakimiyyəti orqanlarının nümayəndələri ilə görüşlər keçirir;
- müvafiq üzv dövlətdə statistik məlumatın toplanmasına şamil edilən metodlar, habelə toplanmış statistik məlumatın Avropa Şurasının Katibliyinə təqdim edilməsi metodları qiymətləndirilir;
- "pilot" məhkəmənin işinin ayrı-ayrı məqamlarına aid statistik məlumat qiymətləndirilir və müvafiq üzv dövlətdə statistik məlumatın toplanması üçün istifadə edilən üsullar dəqiqləşdirilir;
- təcrübədə suallar toplusunun doldurulması üsulları və cavabların məzmununun təhlili də aparılır.

Qeyd olunmalıdır ki, bu sənədin təxmin edilən nəticələrə aid son müddəası sənədin xidmət etdiyi məqsədləri dəqiqliklə müəyyən edir və həmin məqsəd ən mükəmməl çalışma qaydalarının vurğulandığı hesabatların tərtib edilməsindən ibarətdir, Avropa Şurasının üzv dövlətlərində məhkəmə sistemlərinə dair məlumatın vahid tələblərə cavab verən qaydada toplanmasına dair tövsiyələri də əhatə edir. Başqa sözlə desək, bu fəaliyyəti tənzimləyən sənədin birbaşa məqsədi statistik məlumatın toplanması işinin keyfiyyətinin yüksəldilməsi və üzv dövlətlərdə məhkəmə sistemlərinə aid statistik məlumatın qiymətləndirilməsinin yaxşılaşdırılmasıdır.

Yuxarıda qeyd edilən iki sənədin hər biri məhkəmə sisteminin fəaliyyətinin qiymətləndirilməsinə münasibətdə CEPEJ-in və milli əlaqələndiricilərin fəaliyyətinin əsasını təşkil edir. Lakin qeyd etmək lazımdır ki, bu sənədlərin əsas dəyəri artıq mövcud olan çalışma qaydalarının kodifikasiyasından ibarətdir[36].

[36] Ümumilikdə nəzərə alsaq ki, Avropa dövlətlərinin məhkəmə sistemlərinə dair CEPEJ-in birinci hesabatı 2002-ci ildə dərc edilmişdir, statistik məlumatın toplanması və qiymətləndirilməsinin bəzi metodları artıq mövcud idi. Qeyd edilən metodlar daxili istifadə üçün nəzərdə tutulan, 2003-cü ildə tərtib edilmiş "*Məhkəmə sistemlərinin qiymətləndirilməsinin "pilot" metodları*" adlanan sənəddə əksini tapmışdır.

Qeyd edilmiş sənədlərin məzmunundan aydındır ki, Komissiya üzv dövlətlərin məhkəmə sistemləri barədə statistik məlumatın təhlili və sistemlər arasında aparıla bilən müqayisələr vasitəsilə məhkəmə sistemlərinin fəaliyyətinin keyfiyyəti və səmərəliliyin yüksəldilməsi istiqamətində çalışmaqdadır. Bu yanaşma müvafiq üzv dövlətin məhkəmə sistemi daxilində mövcud ola bilən çatışmazlıqları müəyyən etməyə, bunun nəticəsi ilə həmin üzv dövlətdə qeyd edilən çatışmazlıqları aradan qaldırmağa imkan verir və həyata keçirilən işlərin məhkəmə sistemi eyni problemlərlə üzləşən digər ölkələr üçün nümunə ola bilməsinə şərait yaradır. Bu fəaliyyətin nəticələrinin konkret əksini Avropa üzv dövlətlərinin məhkəmə sistemlərinə münasibətdə CEPEJ-in ümumi hesabatlarında görmək mümkündür.

## *2.3. Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası tərəfindən Avropa Şurasının bütün üzv dövlətləri üçün hazırlanmış əsas sənədlər: Avropa dövlətlərində məhkəmə sisteminin qiymətləndirilməsi hesabatları*

### *2.3.1. "Avropa dövlətlərinin məhkəmə sistemi üzrə Birinci (Eksperimental) Hesabat", 2012-ci ilin nəşri (2002-ci ilin məlumatına əsasən)*[37]

Avropa dövlətlərinin məhkəmə sistemi üzrə 2002-ci ilin məlumatına əsasən tərtib edilmiş hesabat bu kimi hesabatlar sırasında birinci olmuşdur və hazırlandığı vaxtda yalnız eksperimental və ya "pilot" xarakterli sənəd kimi qəbul edilmişdir. Nəzərdə saxlamaq lazımdır ki, həmin hesabatın hazırlandığı vaxtda statistik məlumatın qiymətləndirilməsinə aid CEPEJ-in metodologiyası tam aydın deyildi. Üzv dövlətlərin müvafiq qurumları tərəfindən faktiki statistik məlumatın toplanmasına münasibətdə də vahid bir yanaşmadan istifadə olunmurdu. Faktiki olaraq hesabatın hazırlanması üçün istifadə edilmiş məlumatın bir hissəsi CEPEJ tərəfindən Avropa Şurası Katibliyindən, digər hissəsi isə tədris müəssisələri və hökumət təşkilatlarından alınmışdır. Qeyd edilənlərdən başqa, sözügedən hesabat hazırlandığı vaxt məlumatın müqayisəli hüquqi təhlili metodu tam olaraq işlənib hazırlanmamışdı və tədris müəssisələrini təmsil edən bir neçə nümayəndənin bu hesabatın hazırlanması işinə cəlb edilməsi məhz bu amillə izah oluna bilər.

Məhkəmə sistemlərinin fəaliyyətinə dair belə bir müqayisəli təhlilin bütün çətinlikləri qeyd olunan hesabatın birinci fəslində əksini tapmışdır. Bizim fikrimizcə, CEPEJ tərəfindən bu kimi yanaşmanın istifadəsi Komissiya tərəfindən Avropa dövlətlərinin məh-

[37] CEPEJ, "*Avropa dövlətlərinin məhkəmə sistemləri, 2002-ci il – 40 üzv dövlətdə aparılmış tədqiqatlar nəticəsində əldə edilmiş fakt və rəqəmlər",* Avropa Şurasının nəşri, 2005-ci il, s. 139.

kəmə sistemlərinə münasibətdə aparılan təhlilin nəticələrini daha mötəbər etmək zərurəti nəzərə alınmaqla əsaslı hesab olunmalıdır. Nəzərə alsaq ki, sözügedən hesabat müqayisəli tədqiqatlara dair "pilot" xarakterli hesabat idi, Komissiyanın, məlumatın işlənməsi zamanı istifadə edilən üsullar barədə məlumat verməklə, özünün apardığı təhlil nəticələrinin mötəbərliyini sübuta yetirməli idi. Buna baxmayaraq, Komissiyanın sonrakı hesabatlarında statistik məlumatın toplanması və təhlilinə dair ayrı-ayrı izahatlar əksini tapmışdır, lakin bunlar, daha çox, statistik məlumatın toplanması və təhlili üzrə Komissiyanın tətbiq etdiyi metodologiyanın təkmilləşdirilməsinə bağlı idi.

Qeyd edilən hesabatın ikinci fəsli məhkəmə sisteminə təqdim edilən maliyyə dəstəyinə həsr edilmişdir və həmin fəsildə aşağıda qeyd olunan mövzular müzakirə olunur: məhkəmə üçün maliyyə dəstəyi çərçivəsində vəsaitlərin ayrılması, habelə vətəndaşlara və məhkəmə işləri ilə əlaqədar çəkilən xərclərin kompensasiya olunması üçün ayrılan hüquqi yardım.

Məhkəmə sisteminə ayrılan büdcə vəsaitlərinin öyrənilməsi işinin başlanğıc nöqtəsi məhkəmə sisteminə ayrılan vəsaitlərdən adambaşına düşən məbləğdir ki, bu zaman yalnız məhkəmənin müvafiq qaydada fəaliyyət göstərməsi üçün ayrılan büdcə vəsaitləri deyil, həmçinin vətəndaşlara təqdim edilən hüquqi yardıma çəkilən xərclər də nəzərə alınır. Qeyd etmək lazımdır ki, bir cədvəl daxilində büdcə ayırmaları barədə məlumatın təqdim olunması ayrı-ayrı ölkələr arasında məhkəmə sisteminin maliyyələşdirilməsi üçün ayrılan vəsaitlər arasındakı fərqi açıq-aşkar büruzə verir və həmin fərq bir neçə dəfəyə çata bilər.[38] Bu bir daha sübut edir ki, Avropa Şurasında məhkəmə sisteminə xeyli dərəcədə fərqlənən məbləğlərdə büdcə vəsaitləri ayıran ölkələr

[38] Misal üçün, məhkəməyə ayrılan büdcə vəsaitlərinin ən aşağı olduğu ölkələrdə (Ermənistan, Moldova, Gürcüstan) adambaşına düşən büdcə vəsaiti 1 avrodan az, məhkəməyə ayrılan büdcə vəsaitlərinin ən yüksək olduğu ölkələrdə (İsveçrə, Lixtenşteyn) isə adambaşına düşən büdcə vəsaitləri 100 avrodan artıqdır, yəni fərq 100 dəfədən çoxdur.

bir araya gəlmişdir, yəni bu regional təşkilat daxilində ayrı-ayrı dövlətlər arasında inteqrasiyanın səviyyəsi aşağıdır, həmin dövlətlər arasında ciddi siyasi və iqtisadi fərqlər mövcuddur. Komissiyanın hazırladığı hesabat bu fakta oxucuda böyük təşviş yaratmamaqdan ötrü diplomatik bir üsulla yanaşır və sadəcə olaraq qeyd edir ki, məhkəmənin maliyyələşdirilməsində fərq "əhəmiyyətlidir".

Eyni ilə vətəndaşlara təqdim edilən hüquqi yardım məhkəmənin baxdığı və həll etdiyi işlərin müxtəlif kateqoriyalarına istinadən CEPEJ tərəfindən təhlil edilmiş və öyrənilmişdir. Burada yenə də eyni mənzərə görünür – Şərqi Avropa ölkələri ilə müqayisədə Qərbi Avropa ölkələrinin vətəndaşlarına təqdim edilən hüquqi yardım xeyli çoxdur. Bundan başqa, Qərbi Avropa ölkələri Şərqi Avropa ölkələrini yalnız ümumilikdə ayrılan vəsaitlərin məbləğində deyil, həmçinin hüquqi yardım çərçivəsində maliyyə vəsaitlərinin ayrıldığı işlərin sayına (ələlxüsus cinayət işlərinin sayına) görə də qabaqlayır. Nəhayət, Qərbi Avropa ölkələri Şərqi Avropa ölkələrini orta hesabla bir hakimin baxdığı hər bir iş üzrə ayrılan maliyyə dəstəyinin məbləği üzrə də qabaqlayır ki, bu da, Qərbi Avropa ölkələrinin iqtisadi və sosial göstəricilərinin daha yüksək olmasını nəzərə alsaq, təəccüblü deyil.

Komissiya tərəfindən həmçinin iddia ərizələrinin tərtib və təqdim olunması ilə əlaqədar çəkilən xərclərin və ödənilən dövlət rüsumunun (məhkəmə xərclərinin) kompensasiya edilməsi zərurəti də vurğulanır. Komissiya tərəfindən qeyd edilmişdir ki, əsas etibarilə bu məsələ üzrə müxtəlif üzv dövlətlərin yanaşması eynidir. Belə ki, demək olar, bütün dövlətlərdə cinayət prosesi üzrə ədalət mühakiməsi prosesi zamanı xərc çəkilmir, lakin mülki işlər, azından, bir tərəfin dövlət rüsumu ödəməli olması ilə müşayiət edilir.

Hesabatın üçüncü fəslində məhkəmənin və məhkəmə sisteminin təhlili verilmiş və dörd bölmədə aşağıda qeyd edilən məsələlər nəzərdən keçirilmişdir: məhkəmənin və məhkəmə iş-

çilərinin sayı; məhkəmə sistemi nümayəndələrinin (yəni hakimlərin) sayı; hakimlərin peşə təlimi, əməkhaqqı məbləğləri və işə qəbul qaydaları; nəhayət, məhkəmənin fəaliyyəti üzərində nəzarət (hakimlərə qarşı intizam tədbirləri, hakimlərin hərəkət və qərarlarından şikayətlərin verilməsi qaydası və s.).

Qeyd olunan fəslin birinci bölməsinə münasibətdə Komissiya üzv dövlətin əhalisinin sayına istinadən birinci instansiya məhkəməsinin sayını təhlil etmişdir. Müxtəlif mövzulara toxunulmuşdur: üzv dövlətdə olan birinci instansiya məhkəməsinin sayı, əhali sayına düşən məhkəmənin sayı, ixtisaslaşmış birinci instansiya məhkəməsinin sayı. Bu təhlilin nəticələri kifayət qədər ziddiyyətlidir – belə ki, hətta gəlir məbləği və sosial-iqtisadi inkişaf səviyyəsi aşağı olan üzv dövlətlərdə belə (misal üçün, Sloveniyada) əhali sayına düşən birinci instansiya məhkəməsinin sayı xeyli yüksək olsa belə, Qərbi Avropa ölkələrində (misal üçün, Hollandiyada) məhkəmənin sayı kifayət qədər aşağıdır.

Ayrıca olaraq hesabatın bu fəslində əsas peşəsi hakim və digər məhkəmə işçilərinin sayı təhlil olunur. Xüsusilə hakimlərin və işçilərin 100.000 nəfərə düşən sayı təqdim olunur. Əhaliyə düşən hakimlərin sayı barədə nəticələr ziddiyyətlidir: belə ki, inkişaf etməkdə olan Mərkəzi və Şərqi Avropa ölkələri ilə müqayisədə Qərbi Avropanın bəzi inkişaf etmiş ölkələrində 100.000 nəfərə düşən hakimlərin sayı kifayət qədər aşağıdır. Eyni mənzərə məhkəmənin hakim olmayan, inzibati işçilərinə münasibətdə də müşahidə olunmaqdadır. Qeyd etmək lazımdır ki, bu kimi məlumatda olan bütün ziddiyyətlərə varmadan, ədalət mühakiməsinin həyata keçirilməsinin keyfiyyəti və səmərəliliyi birbaşa olaraq məhkəmənin, hakimlərin və inzibati işçi heyəti üzvlərinin sayına deyil, səmərəli çalışma qaydalarının mövcud olduğu sosial-iqtisadi reallıqlara və məhkəməyə müraciət edən şəxslərin tələbatına bağlıdır.

Hesabatın bu fəslində hakimlərin işə qəbulu qaydaları və əməkhaqqı məsələlərinə də toxunulur ki, Komissiyanın rəyinə əsasən bu amillər birbaşa olaraq ədalət mühakiməsinin keyfiy-

yəti, hakimlərin qərəzsizliyi və məhkəmə hakimiyyətinin müstəqilliyini şərtləndirir. Bu məqam Komissiya tərəfindən ilk növbədə hakimlərin təyin edilməsi prosesinin (yaxud da ki, hakimlərin təyinatını aparan qurumun fəaliyyətinin) nə qədər müstəqil bir proses olması müstəvisindən təhlil olunur. Misal üçün, ələlxüsus Komissiya hakimlərin təyinatının ədalət mühakiməsi sisteminin nümayəndələrindən ibarət olan bir qurum tərəfindən aparılıb-aparılmaması məsələsinə baxır. Buna əlavə olaraq, hakimlərin qatıldıqları peşə təlimləri nəzərdən keçirilir və Komissiyanın rəyinə əsasən bu meyarın məhkəmənin işinin keyfiyyətini müəyyən edən bir amil olması aşkara çıxarılmamışdır. Öz növbəsində, hakimlərin əməkhaqqı səviyyəsi müvafiq ölkənin sosial-iqtisadi inkişafının səviyyəsini və hakimlərin rolunu aydın şəkildə ifadə edir və bu zaman Komissiyanın müvafiq üzv dövlət üzrə ortaq əməkhaqqı məbləği ilə müqayisə aparır. Belə ki, hakimlərin əməkhaqqı ilə eyni üzv dövlətdə digər vətəndaşların əməkhaqqı arasında olan fərq belə qənaətə gəlməyə əsas verir ki, demək olar Avropa Şurasının bütün üzv dövlətlərində hakimlərin əməkhaqqının məbləği orta əməkhaqqı məbləğindən yüksəkdir, bu isə hakimlərin daşıdığı yüksək sosial rolun təzahürüdür.

Nəhayət, bu fəsildə Komissiyanın diqqət yetirdiyi sonuncu məsələ hakimlərin fəaliyyətlərində buraxdıqları nöqsanların aradan qaldırılması məsələsi, daha dəqiq desək, hakimlərin çıxardıqları qərarlardan və hərəkətlərindən şikayət vermək və hakimlərə münasibətdə intizam tədbirlərinin tətbiqinin mümkünlüyü məsələsidir. Hakimlərin fəaliyyətlərində buraxdıqları nöqsanların aradan qaldırılması üçün mövcud olan və Avropanın, demək olar ki, bütün dövlətlərində istifadə edilən üsullarından biri hakimlərin qəbul etdikləri qərarlardan apellyasiya şikayəti vermək hüququdur. Portuqaliya və Hollandiyada müəyyən kateqoriyalara aid mülki işlər üzrə çıxarılan qərarlardan apellyasiya şikayəti verilə bilməz. Eyni ilə, demək olar ki, bütün dövlətlərdə hakimlərin intizam məsuliyyətinə cəlb edilməsini nəzərdə tutan sistem, yaxud da ha-

kimlərin qərarları və hərəkətlərindən şikayətlər vermək imkanı mövcuddur. Hakimlərin məsuliyyətini müəyyən edən sistemin səmərəliliyini Komissiya hər 1000 hakimə düşməklə açılmış intizam araşdırmalarının sayı, habelə hər 1000 hakimə tətbiq edilmiş intizam tədbiri sayına istinadən qiymətləndirir.

Hesabatın dördüncü fəsli məhkəmənin işinin nə qədər səmərəli olmasına, xüsusən də məhkəmənin baxdıqları işlərin sayına (iş yükü), habelə işlərə baxılması zamanı tətbiq olunan prosessual müddətlərə həsr edilmişdir. Bu statistik məlumata münasibətdə Komissiyanın yanaşması kifayət qədər qeyri-adidir və bu təhlilin məqsədləri üçün üzv dövlətin məhkəmə sistemi çərçivəsində işlərin sayı deyil, müəyyən kateqoriyalara aid işlərin (misal üçün, oğurluq, adam öldürmə, boşanma, əmək mübahisələri və s.) sayı nəzərə alınır. Əvvəlki hallarda olduğu kimi, statistik məlumat əhalinin sayına (100.000 nəfərə) görə müəyyən olunur. Artıq qeyd edildiyi kimi, bu və ya digər üzv dövlətin məhkəməsi tərəfindən baxılan işlərin əhaliyə düşən sayına əlavə olaraq Komissiya həm mülki işlər, həmçinin də cinayət işləri üzrə əhaliyə düşən işlərin sayının uçotunu aparır. Eyni ilə Komissiya tərəfindən əhalinin sayına (100.000 nəfərə) olmaqla üzv dövlətin məhkəməsi tərəfindən çıxarılmış qərarların təhlili həyata keçirilir: yenə də hesablama mülki və cinayət işləri üzrə aparılır. Nəhayət, hesablamalar həmçinin apellyasiya məhkəməsində (apellyasiya şikayətləri üzrə) baxılan işlərə istinadən də aparılır. Komissiya özü qeyd etmişdir ki, bu statistik məlumat hər hansı xüsusi inkişaf istiqamətləri və ya ayrı-ayrı göstəricilər arasında nisbətləri müəyyən etməyə imkan verməməklə yalnız məhdud mənada maraq kəsb edir.

Nəzərə alsaq ki, Avropa Məhkəməsi qarşısında qaldırılan və üzv dövlətlərin məhkəmə orqanları tərəfindən ədalətli mühakimə hüququnun pozulmasına istinadən təqdim olunan iddia ərizələrinin böyük hissəsi məhkəmə işlərinə baxılmasına və həllinə həddən artıq uzun müddət sərf edilməsi ilə əlaqədardır, üzv

dövlətlərin məhkəməsində işlərə baxılması və həllinə sərf edilən vaxtın orta göstəricisi böyük əhəmiyyət kəsb edir.[39] Məhkəmədə işlərə baxılması və həllinə sərf edilən vaxtın müəyyən edilməsi məqsədilə statistik məlumatın istifadəsi də ayrı-ayrı kateqoriyalara aid işlər üzrə aparılır və burada əsas diqqət oğurluq, əmək müqaviləsinin işəgötürən tərəfindən ləğvi və boşanma halları ilə işlərə verilir. Baxmayaraq ki, hətta bu hala münasibətdə Komissiya tərəfindən məhkəmə işlərinin nə qədər sürməsinə dair ardıcıl nəticələr əldə olunmayıb, Komissiyanın məhkəmə işinə baxılması və həllinə aid olan prosessual müddətlərin təhlili və həmin müddətlər üzərində nəzarətə aid bir sıra ölkələrdə müsbət inkişaf dinamikasını müşahidə etmişdir. Eyni zamanda, Komissiya qeyd etmişdir ki, məhkəmə işinin nə qədər sürməsinə dair məlumatı bütün üzv dövlətlər toplamır və bu, Komissiyanın işini daha çətin edir.

Hesabatın beşinci fəsli prokurorluq orqanları və prokurorluq sisteminə aiddir və bununla əlaqədar Komissiya tərəfindən aşağıda qeyd edilən sahələr üzrə məlumat toplanmışdır: büdcə və işçilərin sayı; işin yüksək keyfiyyətinə və səmərəli çalışmaya zəmanət; və cinayət işləri üzrə cinayət təqibinə aid olan digər məlumat.

Bu mövzunun təhlilinə Komissiya hər bir üzv dövlətdə əhalinin sayına (100.000 nəfərə) düşən prokurorların sayını müəyyən etməklə başlayır. Burada belə bir qənaətə gəlmək olur ki, Şərqi və Mərkəzi Avropa ölkələrində prokurorların sayı yüksəlsə də, Qərbi Avropanın inkişaf etmiş ölkələrində prokurorların sayı aşağıdır. Bunun mümkün səbəbi kimi prokurorların fəaliyyət səviyyəsinin yüksəlməsini qeyd etmək olar. Prokurorluq orqanlarının fəaliyyətinin qiymətləndirilməsinin digər bir meyarı onlara ayrılan büdcə vəsaitlərinin təhlilidir. Burada qeyd etmək lazımdır ki, müqayisəli təhlili mümkün etmək məqsədilə Komissiya tərəfindən əhalinin sayına (adambaşına) düşən göstəricilərdən istifadə olunmuşdur.

[39] Xüsusən bu, Komissiyanın *"Məhkəmə sisteminin yeni məqsədi – hər bir işin optimal və qabaqcadan müəyyən edilə bilən vaxt ərzində baxılması və həlli"* adlanan Çərçivə Proqramında (CEPEJ(2004)19 Rev) qeyd edilmişdir.

Nəticədə prokurorluq orqanlarına ayrılan büdcə vəsaitlərinin məbləği ilə müvafiq üzv dövlətin sosial-iqtisadi inkişaf səviyyəsi arasında qarşılıqlı əlaqəni müəyyən etmək mümkün olmuşdur: Qərbi Avropa ölkələrində prokurorluq orqanlarına ayrılan büdcə vəsaitlərinin məbləği Şərqi Avropa ölkələrində prokurorluq orqanlarına ayrılan büdcə vəsaitlərinin məbləğindən yüksəkdir. Prokurorluq orqanlarına ayrılan vəsaitlərin nə dərəcədə kifayət etməsinin qiymətləndirilməsinin daha bir üsulu üzv dövlətin ümumi büdcəsindən prokurorluq orqanlarına ayrılan vəsaitlərin payını təhlil etməkdən ibarətdir. Qeyd edilənlərdən başqa, Komissiya prokurorların əməkhaqqının hansı səviyyədə olmasını da təhlil edir. Qeyd edilmişdir ki, bütün üzv dövlətlərdə prokurorların əməkhaqqı məbləği hakimlərin əməkhaqqı məbləği ilə müqayisə edilə bilən səviyyədədir və hər hansı bir halda, demək olar, bütün üzv dövlətlərdə prokurorların əməkhaqqı məbləği ölkə üzrə orta əməkhaqqı məbləğinə bərabər və ya ondan yüksəkdir.

Bu fəsildə Komissiya tərəfindən həmçinin peşə təlimi, daha yüksək vəzifəyə keçmə, prokuror vəzifəsinə təyinat, habelə prokurorluq orqanları əməkdaşının əlavə iş yerində çalışması kimi məsələlər də təhlil olunmuşdur. Komissiya qeyd edir ki, bu məsələlərə münasibətdə prokurorluq orqanları ilə məhkəmə orqanları arasında böyük oxşarlıq mövcuddur. Qeyd edilənlərə əlavə olaraq, Komissiya prokurorluq orqanlarının fəaliyyətinə nəzarət məsələsini də təhlil etmiş və müəyyənləşdirmişdir ki, ölkələr arasında bu sahədə kifayət qədər böyük fərqlər mövcuddur. Nəhayət, hesabatda prokurorluq orqanları işçilərinin intizam məsuliyyətinə cəlb edilməsi məsələsi də əksini tapmışdır və bu sahəni Komissiya aşağıda qeyd edilən göstəricilər əsasında təhlil etmişdir: prokurorlara qarşı qaldırılan intizam işlərinin ümumi sayı, prokurorlara tətbiq edilən intizam tədbirlərinin sayı və prokurorların müəyyən sayına aid olan intizam işləri və tədbirlərinin ümumi sayı.

Komissiyanın rəyinə əsasən prokurorluq orqanlarının baxdığı işlərin sayı onlara həvalə edilmiş səlahiyyətlərdən asılıdır

və bu səbəbdən prokurorluq orqanlarının fəaliyyətinin fəallıq səviyyələrinin təhlili kifayət qədər mürəkkəb bir məsələdir. Bu səbəbdən hesabatda yer alan statistik məlumat prokurorluq orqanlarının baxdığı işlər arasında böyük fərqi aşkar edir. Digər tərəfdən, prokurorluq orqanları tərəfindən cinayət işi başlandıqdan sonra mühakimə olunan və ya günahı sübuta yetirilməyən şəxslərin sayı kifayət qədər maraqlı göstəricidir və bu göstərici Komissiya tərəfindən oğurluq və adam öldürmə kimi cinayət kateqoriyalarına istinadən təhlil olunmuşdur.

Nəhayət, hesabatın sonuncu fəsli ədalət mühakiməsi sistemini təmsil edən digər peşə sahiblərinə – müdafiəni həyata keçirən vəkillərə, mübahisələrin həlli üzrə vasitəçilərə və icra məmurlarına həsr edilmişdir.

Hesabatın əvvəlki fəsillərində olduğu kimi, Komissiya bu sahənin təhlilinə kəmiyyət göstəricisindən, əhalinin sayına düşən müdafiəni həyata keçirən vəkillərin sayından başlayır. Nəticələr kifayət qədər fərqlidir: 100.000 nəfərə düşən vəkillərin sayı bir üzv dövlətdən digərinə çox fərqlidir. Bu səbəbdən Komissiya tərəfindən digər göstəricilərdən də istifadə edilmişdir: vəkillərin ümumi sayı və 100.000 nəfərə düşən vəkillərin sayı.

Komissiya qeyd edir ki, demək olar, bütün ölkələrdə ərazisini əhatə edən vəkillərin peşəkar birlikləri mövcuddur. Qeyd edilən təşkilatlar vəkillərin təqdim etdikləri hüquqi xidmətlərin keyfiyyət səviyyəsinə dair tələbləri müəyyən edir. Bunlara əlavə olaraq vəkillərə münasibətdə başlanan intizam işlərinin və tətbiq edilən intizam tədbirlərinin sayına istinadən Komissiya üzv dövlət daxilində hüquqi xidmətlərin keyfiyyət səviyyəsini müəyyən etməyə çalışmışdır.

İcra məmurlarının statusu, daşıdıqları vəzifələr və onların fəaliyyətinin mahiyyətinin kifayət qədər fərqli olması səbəbindən mülki mübahisələr sahəsində icra məmurlarının vəzifələri və fəaliyyətlərinin mahiyyətinin müqayisəli təhlili ən çətin iş olmuşdur. İcra məmurlarının mülki mübahisələr üzrə vəzifələrinə əlavə

olaraq, Komissiya onların fəaliyyəti üzərindəki nəzarətin müəyyən məqamlarına da toxunmağa çalışmışdır.

Nəhayət, mübahisələrin alternativ həlli üsulları üzrə fəaliyyət göstərən vasitəçilər barədə məlumat da kifayət qədər fərqlidir və bu, müvafiq məlumatın müqayisəli təhlilini xeyli çətinləşdirmişdir. Komissiya yalnız təsdiq edə bilər ki, ayrı-ayrı üzv dövlətlərdə vasitəçilərin fəaliyyəti üçün dövlət büdcəsindən vəsaitlər ayrılır və həmin üzv dövlətlərdə bu kimi vasitəçilik fəaliyyətini həyata keçirən şəxslərin qeydiyyatı və hətta lisenziyalaşdırılması həyata keçirilir. Hesabatda mübahisələrin alternativ həlli üsulları üzrə fəaliyyət göstərən vasitəçilərin sayı və bu fəaliyyətin həyata keçirilməsi üçün ayrılan büdcə vəsaitləri barədə statistik məlumat əksini tapmışdır.

### *2.3.2. "Avropa dövlətlərinin məhkəmə sistemi üzrə Hesabat – ədalət mühakiməsi sisteminin fəaliyyətinin keyfiyyəti və səmərəliliyi", 2006-cı ilin nəşri (2004-cü ilin məlumatına əsasən)*

Əvvəlki, eksperimental olan hesabatdan fərqli olaraq, hazırkı hesabat cari vəziyyəti ən yüksək səviyyədə əks etdirmişdir. Bu səbəbdən hesabatın bu buraxılışında "pilot" layihə üzrə buraxılmış bütün səhv və çatışmazlıqlar aradan qaldırılmış, üzv dövlətlərin məhkəmə sistemlərinə dair məlumat ölkə daxilində çalışan milli əlaqələndiricilərin köməyi ilə toplanmışdır. Qeyd edilən hesabat milli əlaqələndiricilər tərəfindən tərtib edilmiş üzv dövlətlərin hesabatları əsasında hazırlanmış və 2006-cı ilin iyul ayında CEPEJ-in 7-ci plenar iclasında təsdiq edilmişdir. Əvvəlki hesabatdan fərqli olaraq, bu hesabatda Avropa Şurasının üzvləri olan 45 dövlətə aid kəmiyyət və keyfiyyət göstəriciləri əksini tapmışdır.

Əvvəlki hesabatda olduğu kimi, bu hesabatın da birinci fəsli qiymətləndirmə prosesinə, CEPEJ-in təhlilə yanaşmasına və iş prinsiplərinə həsr edilmişdir. Bununla əlaqədar əsas fərq

2005-ci ildən etibarən CEPEJ nəzdində fəaliyyət göstərən Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitənin (CEPEJ-GT-EVAL) yaradılması və məhkəmə sistemlərinin qiymətləndirilməsinə münasibətdə yenilənmiş metodologiyanın tətbiqindən ibarət olmuşdur. Zəruri məlumatın toplanması məqsədilə qeyd edilən komitə tərəfindən yeni suallar toplusu hazırlanmış və üzv dövlətlərə göndərilmişdir. Qrup, həmçinin, üzv dövlətlərin məhkəmə sistemləri haqqında hesabat layihəsinin hazırlanması üçün məsuldur. Qeyd etmək lazımdır ki, əvvəl olduğu kimi, məlumatın toplanması məhdud çərçivədə aparılmış və bu, hesabatın keyfiyyətinə mənfi təsirini göstərmişdir.

İkinci fəsildə iqtisadi və demoqrafik göstəricilər verilmiş və bu qəbildən olan məlumatdan, əvvəlki hesabatla müqayisədə, daha geniş istifadə olunmuşdur. 2004-cü ilin eksperimental hesabatında olduğu kimi, ikinci fəsil məhkəmə sisteminə ayrılan maliyyə dəstəyindən bəhs edir. Əvvəlki hesabatda olduğu kimi, bu dəfə də əsas diqqət aşağıda qeyd edilmiş sahələrə ayrılan büdcə vəsaitlərinə yönəlmişdir: məhkəmə, prokurorluq orqanları və hüquqi yardım.

Qeyd edilənlərə varmadan bu fəslin 2006-cı ilin hesabatında verilmiş mətni maliyyə göstəricilərinin daha müfəssəl və tam təhlilini əks etdirir. Bu səbəbdən bu fəsildə bütün prokurorluq orqanları və məhkəməyə ayrılan vəsaitlər haqqında məlumat cədvəl formasında verilmiş, məhkəməyə ayrılan maliyyə dəstəyinin bütün məqamları (o cümlədən hüquqi yardım) barədə ümumi məlumat əksini tapmış və nəhayət, məhkəməyə müraciət etmək imkanları haqqında məlumat (o cümlədən məhkəməyə və hüquqi yardım məqsədilə ayrılan büdcə vəsaitləri haqqında məlumat) təqdim olunmuşdur. Bu hesabatı fərqləndirən cəhət büdcə barədə müqayisə aparılmasını xeyli asanlaşdıran qrafik və diaqramlardan istifadədir.

Üçüncü fəsil hüquqi yardım mövzusuna həsr edilib. Bu kimi konkret mövzuya ayrıca fəslin ayrılması məhkəmə sistemi barə-

də hesabatın daha müfəssəl olmasını təsdiqləyir. CEPEJ bu yanaşmasını hüquqi yardım məsələlərinin ümumilikdə ədalət mühakiməsinin keyfiyyəti və xüsusilə də məhkəməyə müraciət edə bilmək hüququnun təmin olunması amillərinin əhəmiyyətini izah etməklə əsaslandırmağa çalışır.

Bu məsələ fərqləndirmə yanaşmasından istifadə edilməklə təhlil olunur və hüquqi yardımın ayrı-ayrı məqamları, işin kateqoriyasından (mülki və ya cinayət işi) asılı olaraq araşdırılır; bu yanaşma çərçivəsində hüquqi yardım üçün ayrılan vəsaitlərin məbləği (ələlxüsus hər bir iş üçün ayrılan vəsaitlərin məbləği), vəsaitlərin ayrılması şərtləri (misal üçün, hüquqi yardım üçün müraciət edən şəxsin gəlirinin səviyyəsi), habelə pulsuz hüquqi yardımın təqdim edilməsinə məhkəmə işləri ilə əlaqədar olan rüsumların və ödənilməli olan haqların məbləğinin təsiri araşdırılır.

Dördüncü fəsil məhkəməyə müraciət edən şəxslərə həsr edilib. Bu fəsil yalnız hesabatın yeni nəşrində (2006-cı il nəşrində) əksini tapmışdır və üzv dövlətlərin əhalisi arasında hüquqi xidmətlər üçün müraciət edən şəxslərin sahib olduğu hüquqları və onların paylaşdığı məlumatın da nəzərə alınmış olmasını təsdiq edir. Bu səbəbdən bu fəslin diqqət mərkəzində məhkəmə tərəfindən vətəndaşların hüquqlarının hansı üsullar vasitəsilə qorunmasının təmin edilməsi və vətəndaşlara təqdim olunan hüquqi xidmətlərin keyfiyyət səviyyəsi məsələləri durmaqdadır. Vətəndaşların hüquqi xidmətlər barədə məlumat əldə etmələri üçün hökumətlər tərəfindən hansı tədbirlərin həyata keçirilməsi (misal üçün, məhkəmənin internet portallarından istifadə etməsi), ən həssas sosial qrupların nümayəndələrinə (misal üçün, həddi-büluğa çatmamış şəxslər, zorlama cinayətlərinin qurbanları və s.) münasibətdə hüquqların təmin edilməsi üçün məhkəmənin həyata keçirdiyi işlər kimi məsələlərə xüsusi diqqət yetirilir. Qeyd etmək lazımdır ki, məhkəmənin fəaliyyətindən vətəndaşların nə qədər razı qalması haqqında məlumat da bu fəsildə əksini tapmışdır və bu, imkan verir ki, məhkəmə prosesləri zamanı vətəndaşların hüquqlarının

hansı səviyyədə qorunması daha böyük dəqiqliklə müəyyən edilə bilsin.

Beşinci fəsil məhkəmədən bəhs edir və bu fəsildə müxtəlif ölkələrdə məhkəmənin tərkibi kimi məsələ işıqlandırılır; bu fəsil məhkəmə tərəfindən informasiya və rabitə texnologiyalarının istifadəsi barədə məlumatı təqdim edir; həmçinin sözügedən fəsildə daxili idarəetmənin təkmilləşdirilməsi məqsədilə monitorinq və qiymətləndirmə üsullarının istifadəsi, ictimaiyyətin və nəzarət qurumlarının diqqətinə bütün zəruri məlumatın hansı qaydada və səviyyədə təqdim edilməsi nəzərdən keçirilir. Bu fəsildə hesabatın əvvəlki nəşrində artıq sınaqdan keçmiş yanaşmadan istifadə olunur. Xüsusən qeyd edilən fəsildə aşağıda göstərilən statistik məlumatların təhlili aparılır: məhkəmənin əhaliyə düşən sayı; məhkəmə binalarının əhaliyə düşən sayı və s. Eyni zamanda, bu fəsildə həm müəyyən yeni məlumat, həmçinin də əvvəlki dövrlərdə toplanmış məlumat üzrə əlavələr əksini tapmışdır: misal üçün, xırda hüquqpozmalar üzrə işlərə baxan məhkəmənin əhaliyə düşən sayı, yaxud da ki, məhkəmənin büdcə vəsaitlərindən istifadə etmək imkanlarına aid məsələlər ayrıca təhlil olunur. Qeyd edilənlərə əlavə olaraq, məhkəmənin müasir rabitə vasitələri ilə təmin edilməsi, monitorinq və mütəmadi qiymətləndirmə sistemlərinin tətbiqi və s. məsələlər müfəssəl qaydada tədqiq edilmişdir.

Altıncı fəsil hakimlərə, məhkəmənin digər işçilərinə və Avstriya və Almaniyanın məhkəmə sistemləri çərçivəsində fəaliyyət göstərən məhkəmə məmurlarının "Rechtspflegers" adlanan xüsusi kateqoriyasına həsr edilib.

Əvvəlki hesabatda olduğu kimi, hakimlərə münasibətdə aşağıda qeyd edilən meyarlar təhlil edilmişdir: hakimlərin və onların əhaliyə düşən sayı; ədalət mühakiməsinin münsiflər məhkəməsi tərəfindən icrası işində vətəndaşların iştirakı və s.

Qeyd edilənlərdən başqa, Avstriya və Almaniyanın məhkəmə sistemləri çərçivəsində fəaliyyət göstərən məhkəmə məmur-

larının "Rechtspflegers" adlanan xüsusi kateqoriyasının məhkəmə proseslərində iştirakı nəzərdən keçirilir. Hesabatda bu mövzu ilə əlaqədar kəmiyyət xarakterli statistik məlumat təqdim olunmuşdur. Eyni ilə məhkəmədə çalışan, hakim olmayan digər işçilərin fəaliyyətinə də toxunulur. Həmin işçilərin sırasına aşağıda qeyd edilənlər aiddir: hakimlərə birbaşa olaraq köməklik göstərən məhkəmə nümayəndələri; məhkəmənin inzibati işçi heyəti və texniki işçi heyət. Bu fəsildə də kəmiyyət xarakterli statistik məlumat əksini tapmışdır.

"Ağlabatan müddət ərzində ədalətli mühakimə prosesi" adlanan yeddinci fəsildə hakimlərin işlərə baxılması və həllinə sərf etdikləri vaxtdan bəhs edilir. Bu mövzuya hesabatın əvvəlki nəşrində, dördüncü fəsildə toxunulmuşdur. 2004-cü il tarixli hesabatın dördüncü fəslində olduğu kimi, hazırkı hesabatın yeddinci fəslində də məhkəmənin baxdığı işlərin ümumi sayı, prosessual müddətlər, habelə məhkəmə tərəfindən işlərə baxılması müddətlərinin azaldılması və məhkəmənin işinin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məsələlərinə baxılır. Digər tərəfdən, bu fəsildə üzv dövlətlərin Avropa Konvensiyasının 6-cı maddəsindən irəli gələn öhdəliklərinin icrası səviyyəsi də təhlil olunur.

Səkkizinci fəsil prokurorluq orqanlarına həsr edilib və əvvəlki hesabatda bu mövzu beşinci fəsildə işıqlandırılmışdır. Səkkizinci fəsildə prokurorluq orqanlarının səlahiyyətləri, prokuror vəzifəsini tutmağa ixtiyarı çatmayan, lakin prokurorluq orqanlarına həvalə edilmiş vəzifələrin bəzilərini icra edə bilən dövlət qulluqçularının müəyyən kateqoriyaları kimi məsələlər araşdırılır. Hesabatın əvvəlki nəşrində olduğu kimi, prokurorların əhaliyə düşən sayı məsələsi də təhlil edilir.

Hesabatın əvvəlki nəşrindən fərqli olaraq, hakimlərin və prokurorların statusu mövzusuna ayrıca fəsil (doqquzuncu fəsil) həsr edilib. Bu fəsildə hakimlərin və prokurorların fəaliyyətinin müxtəlif məqamları təhlil olunur. Bu məqamların sırasına aşağıda

qeyd edilənlər aiddir: hakimlərin (prokurorların) vəzifəyə təyinat məsələsi və təyinat müddəti; peşə təlimi, tədris və əməkhaqqı məsələləri; və nəhayət, hakimlərin və prokurorların əlavə iş yerində çalışmaq imkanları. Hakimlərin və prokurorların statusuna aid olan müəyyən məqamlar, misal üçün, intizam məsuliyyəti məsələsi artıq hesabatın əvvəlki nəşrinin müvafiq, ayrıca hakimlərə və ayrıca prokurorlara həsr edilən fəsillərində müzakirə edilmişdir. Digər məqamlar (misal üçün, hakimlərə və prokurorlara təqdim olunan imtiyazlar məsələsi) əvvəlki nəşrdə yer almayıb və yalnız hesabatın yeni nəşrinə daxil edilib.

Hesabatın yeni nəşrinin 10-cu bölməsi vəkillərə həsr edilib. Üzv dövlətlərin məhkəmə sistemlərində vəkillərin rolu və vəzifələri məsələləri təhlil olunur. Bu fəsildə müzakirə edilən müəyyən mövzular hesabatın əvvəlki nəşrində də artıq verilmişdir (misal üçün, əhaliyə düşən vəkillərin sayı). Bundan başqa, bu fəsildə məhkəmədə hüquqi xidmətlərin göstərilməsi üçün vəkillərin tutduğu inhisarçı mövqe, vəkillərin peşəsinin təşkili və peşə təlimi, vəkillərin fəaliyyətinə nəzarət, fəaliyyətin keyfiyyəti standartlarının tətbiqi və s. məsələlərə toxunulur.

Bizim fikrimizcə, məhkəmə qərarlarının icrasının həm ümumilikdə məhkəmə sisteminin fəaliyyətinə, həmçinin də xüsusilə mülki hüquqların istifadəsinə aid olması səbəbindən məhkəmə qərarlarının icrası məsələsinə ayrıca bir fəslin (11-ci fəslin) həsr edilməsi məntiqli bir qərar idi. Hesabatın mətnində bu mövzunun araşdırılması mübahisələrin müxtəlif kateqoriyalarına istinadən aparılır: bir tərəfdən mülki və inzibati işlərə, digər tərəfdən isə cinayət işlərinə münasibətdə. Bu fəsildə məhkəmə icraçılarının sayı, onların peşə fəaliyyətinin təşkili və peşə təlimi, məhkəmə icraçılarının fəaliyyətinə nəzarət və müşahidə, habelə onların üzərinə qoyulan intizam məsuliyyəti məsələləri təhlil olunur. Məhkəmə qərarlarının icrası məsələsi də özlüyündə müzakirə edilir.

12-ci fəsil notariat sisteminə həsr edilib. Bu mövzu ilə bağlı hesabat qeyri-adi hesab edilə bilən bir məqama toxunmur və ai-

diyyəti məsələlər kifayət qədər səthi müzakirə edilmişdir. Müzakirə mövzuları notariusların statusu, sayı, notariusların fəaliyyətinə nəzarət və müşahidə tədbirləridir.

Mübahisələrin həllinin alternativ üsulları ağlabatan dərəcədə, 13-cü fəsildə müzakirə olunur. Təcrübədə mübahisələrin həllinin alternativ üsulları müasir zamanda məhkəmə sistemi üzərinə düşən əsas problemin – ədalət mühakiməsinin həyata keçirilməsi üçün sərf edilən vaxtın həddindən uzun olması məsələsinin həllinə münasibətdə mühüm bir vasitədir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bu mövzuya ayrıca bir fəslin ayrılmasına baxmayaraq, hesabatın bu nəşrində sözügedən mövzu kifayət qədər açıqlanmayıb.

### *2.3.3. "Avropa dövlətlərinin məhkəmə sistemi üzrə Hesabat – ədalət mühakiməsi sisteminin fəaliyyətinin keyfiyyəti və səmərəliliyi", 2008-ci ilin nəşri (2006-cı ilin məlumatına əsasən)*

CEPEJ tərəfindən 2008-ci ilin iyul ayında keçirilmiş plenar iclasda təsdiq edilmiş hesabatın Giriş hissəsində qeyd edildiyi kimi, hesabatın bu nəşri həm əhatə edilən üzv dövlətlərin sayı (45), həmçinin də ədalət mühakiməsi sisteminə münasibətdə təhlil edilən mövzuların sayı ilə fərqlənir. Bu kimi hesabatın hazırlanması məqsədi üçün istifadə edilən statistik məlumata əlavə olaraq, hesabatın qeyd edilmiş nəşrində məhkəmə sistemlərinin inkişafına dair dəyişikliklərin istiqamətləri və tendensiyalar əksini tapmış, üzv dövlətlərin məhkəmə sistemləri çərçivəsində aparılan ən son islahatlardan söz açılmışdır.

Qəbul edilmiş formata uyğun olaraq, hesabatın birinci fəsli istifadə edilən tədqiqat metodologiyasından bəhs edir. Hesabatın əvvəlki nəşrində olduğu kimi, birinci fəsildə milli nümayəndələr (əlaqələndiricilər) tərəfindən təqdim edilən məlumatın qiymətləndirilməsi qaydası, məlumatın təhlili üçün istifadə edilən ya-

naşma və iş prinsipləri əksini tapır. Nəhayət, hesabatın əvvəlki nəşrlərində olduğu kimi, bu fəsildə də sosial və demoqrafik məlumat verilir. Digər sözlərlə desək, birinci hissənin quruluşu hesabatın üç nəşrinin hər birində, demək olar ki, eynidir.

Növbəti fəsil də belə bir qənaətə gəlməyə imkan verir ki, hesabat artıq sınaqdan çıxmış struktur üzərində qurulmuşdur: ikinci fəsildə məhkəmə sistemi, prokurorluq orqanlarının sistemi və hüquqi yardım üçün ayrılan maliyyə dəstəyi təhlil olunur. Fəsildən aydın olur ki, demək olar, bütün üzv dövlətlərin ədliyyə nazirliklərinə ayırdıqları büdcə vəsaitlərinin məbləği daim artmaqdadır. Müasir dövrə xas olan dəyişiklik istiqamətlərindən biri məhkəmə sistemində kompüter texnologiyalarının istifadəsinin artmasıdır ki, bu, öz növbəsində, məhkəməyə ayrılan büdcə vəsaitlərinin daim artmasına gətirib çıxarır. Təsdiqini tapan digər bir fakt bundan ibarətdir ki, demək olar, bütün üzv dövlətlərdə hüquqi yardım üçün büdcə vəsaitləri ayrılmaqdadır, lakin yalnız bir neçə ölkədə (misal üçün, İngiltərədə) həmin vəsaitlərin məbləğinin yetərli olmasını qeyd etmək mümkündür. Nəhayət, həmçinin qeyd edilir ki, Şərqi Avropa ölkələrində prokurorluq orqanlarına ayrılan vəsaitlərin məbləği yüksək olmaqda qalır.

Hesabatın əvvəlki nəşrində olduğu kimi, üçüncü fəsil ədalət mühakiməsinin təqdim etdiyi imkanlardan bəhrələnmək məsələsinə bağlı olan hüquqi yardıma həsr edilib. Ənənəvi olaraq istifadə edilən təhlil modelinə uyğun olaraq, hüquqi yardım məsələsi məhkəmə işlərinə münasibətdə təhlil edilir. Bu fəsildə, həmçinin, hüquqi yardımın göstərilməsi üçün ayrılan büdcə vəsaitlərinin məbləği, bir iş üçün ayrılan vəsaitlərin orta məbləği, adambaşına düşən hüquqi yardımın məbləği, hüquqi yardımın təqdim edilməsi şərtləri, dövlət rüsumları və digər haqların ədalət mühakiməsi sistemi xidmətlərindən istifadəyə təsiri araşdırılır.

Fəsildə bütün üzv dövlətlər tərəfindən hüquqi yardımın təqdim edilməsi faktı özünün təsdiqini tapır. Hüquqi yardımın zəruri

olduğu işlərə münasibətdə xüsusi mülki təminat proqramlarının istifadəsinə diqqət verilir və qeyd olunur ki, belə proqramlardan yalnız 25 üzv dövlətdə istifadə olunur. Həmçinin qeyd edilir ki, Qərbi Avropanın müəyyən dövlətlərində hüquqi yardımın təqdim edilməsi şərtlərində müsbət dəyişikliklər etmək məqsədilə əhəmiyyətli işlər həyata keçirilir.

Əvvəlki hesabatda istifadə olunan struktura uyğun olaraq, dördüncü fəsil məhkəməyə müraciət edən şəxslərə həsr edilmişdir. Bu fəsil, 2006-cı il tarixli nəşrdə olduğu kimi, vətəndaşlara təqdim edilən məlumatın (o cümlədən İnternet vasitəsilə ötürülən məlumatın) keyfiyyəti, habelə ayrı-ayrı sosial qruplara təqdim edilən xüsusi təminatlardan bəhs edir. Qeyd edilənlərə əlavə olaraq, bu fəsildə zərərçəkmiş şəxslərə kompensasiyanın təqdim edilməsi sistemi təhlil olunur, vətəndaşların ədalət mühakiməsi sistemi xidmətlərindən məmnunluq səviyyəsi qiymətləndirilir. Bundan başqa, bu fəsildə əvvəlki nəşrdə yer almayan bir mövzuya – ayrı-ayrı sosial qrupların hüquqlarının müdafiəsi işində prokurorluq orqanlarının rolu məsələsinə toxunulur.

Fəsildən aydın olur ki, ümumən dəyişikliklər məhkəmənin işində müasir rabitə vasitələrinin getdikcə daha geniş tətbiqindən ibarətdir. Dəyişikliklərin baş verdiyi digər sahələr sırasında cinayət əməllərindən zərər çəkmiş şəxslərin müdafiəsinə münasibətdə prokurorların rolunun genişlənməsi və ədalət mühakiməsi sistemi çərçivəsində məhkəmə işinin iştirakçılarına dəyən ziyanın kompensasiya edilməsi üçün fondların yaradılmasını qeyd etmək olar.

2006-cı il tarixli hesabatda olduğu kimi, beşinci fəsil məhkəməyə həsr edilib. Bu fəsildə müxtəlif üzv dövlətlərdə məhkəmənin tərkibi və sayı (o cümlədən əhaliyə düşən məhkəmə sayı), büdcə vəsaitlərinin istifadəsi işində məhkəmənin səlahiyyətləri, rabitə və informasiya texnologiyalarının müasir vasitələrinin istifadəsi, daxili idarəçiliyi təkmilləşdirmək, ictimaiyyət və nəzarət orqanlarına bütün zəruri məlumatın təqdim olunması məqsədilə

monitorinq və qiymətləndirmə üsullarının tətbiqi, ədalət mühakiməsinin həyata keçirilməsi məqsədilə keyfiyyətə nəzarət sisteminin istifadəsi vələngimələrın aradan qaldırılması (prosessual müddətlərə nəzarət), üzv dövlətlərin məhkəmə sistemlərində həyata keçirilən islahatların təhlili kimi mövzular müzakirə edilir.

Bu fəsildən aydın olur ki, məhkəmənin təşkilinə münasibətdə əsas dəyişiklik onların sayının azalmasından ibarətdir. Məhkəmənin işinin səmərəliliyini artırmaq məqsədilə müasir texniki imkanlar və İnternetdən daha çox və geniş istifadə olunur və bu, müvafiq şəxslərin məhkəməyə müraciət etməsi işində daha geniş imkanlar üçün şərait yaradır. Nəhayət qeyd edilir ki, məhkəmə işinin statistik göstəricilərindən istifadə məhkəmənin onların fəaliyyətinin keyfiyyəti və səmərəliliyi üçün məsuliyyəti artırır, bu isə, öz növbəsində, məhkəmənin fəaliyyəti üzərində monitorinq aparılmasını zəruri edir.

Altıncı fəsil mübahisələrin həllinin alternativ üsullarına həsr edilib. Bu mövzunun ayrıca bir fəsildə müzakirəsi, məhkəmədə baxılan işlərin sayının və müvafiq olaraq məhkəmənin üzərinə düşün iş yükünün azalmasında mübahisələrin həllinin alternativ üsullarının müsbət təsiri nəticəsində bu kimi üsullar barədə müddəaların üzv dövlətlərin qanunvericiliyində və məhkəmə təcrübəsində daha çox yer alması ilə bağlıdır. Əslində, mübahisələrin məhkəmədənkənar həlli məhkəmənin iş yükünü azaltmağa şərait yaradır. Bu fəsildə üzv dövlətlərin qanunvericiliyində mübahisələrin həllinin alternativ üsulları barədə müddəaların verilməsi; işlərin kateqoriyasından asılı olaraq belə üsulların təcrübədə istifadəsi; alternativ üsullardan istifadə etməklə mübahisələrin həlli üçün hüquqi yardımın təqdim edilməsi və vasitəçilərin fəaliyyəti; əhaliyə düşən vasitəçilərin sayı və mübahisələrin həlli zamanı alternativ üsullardan hansı tezliklə istifadə olunması; və nəhayət, mübahisələrin həllinin alternativ üsullarının növləri müzakirə edilir.

Müşahidələr Avropa dövlətlərində mübahisələrin həllinin alternativ üsullarının istifadəsində daim artımının yer aldığını söy-

ləməyə əsas verir. Eyni zamanda, qeyd edilən dövlətlərin yalnız yarısında mübahisələrin həllinin alternativ üsulları ilə bağlı hüquqi yardım təqdim edilir.

Yeddinci fəsil hakimlərə həsr edilir. Hesabatın əvvəlki nəşrinin beşinci fəslində olduğu kimi, bu fəsildə aşağıda qeyd edilən mövzular müzakirə edilir: hakimlərin sayı; hakimlərin işə baxmaq imkanları; ədalət mühakiməsinin həyata keçirilməsi işində əsas peşəsi hakimlik olmayan şəxslərin xidmətlərinin istifadəsi; ədalət mühakiməsinin həyata keçirilməsi zamanı münsiflər məhkəməsinin istifadəsi və s.

Səkkizinci fəsil məhkəmə işçiləri ilə bağlıdır. Hesabatın əvvəlki nəşrinin altıncı fəslində olduğu kimi, bu fəsildə də əhaliyə düşən məhkəmə məmurlarının sayı barədə məlumat verilib. Bu fəsildə məhkəmə məmurlarının müxtəlif kateqoriyalarından, o cümlədən roman-alman hüquq sistemində mövcud olan və kvazi-məhkəmə proseslərində iştirak edən məhkəmə məmurlarının xüsusi kateqoriyasından "Rechtspflegers"; vəzifələri hakimlərə birbaşa köməklik göstərmək olan məhkəmə məmurlarından; məhkəmənin inzibati və texniki işçi heyəti üzvlərindən bəhs olunur. Qeyd edilən fəsildə məhkəmə məmurlarının hər bir kateqoriyası üzrə statistik məlumat da verilir. Qeyd edilib ki, bu sahədə müşahidə olunan əsas dəyişiklik işin daha səmərəli qurulması və xərclərin azaldılmasıdır ki, bu, öz növbəsində, məhkəmə işçilərinə çəkilən xərclərin azalmasına gətirib çıxarır və müvafiq islahatları həyata keçirən dövlətlərdə məhkəmə işçilərinin sayı da aşağı düşür (bunu, əsasən, Şərqi Avropa ölkələrində müşahidə etmək mümkündür).

Doqquzuncu fəsil ədalətli mühakimə və məhkəmənin bu sahədəki fəaliyyətinə həsr edilib. 2006-cı il tarixli hesabatın yeddinci fəslində olduğu kimi, bu fəslin diqqət mərkəzində işlərə baxılmasına sərf edilən vaxt amili durur. Bu fəsildə məhkəmənin baxdığı işlərin ümumi sayı, məhkəmənin işə baxmaq üçün sərf etdiyi vaxt, habelə məhkəmənin işə baxmaq üçün sərf etdiyi vax-

tın azaldılması və məhkəmənin işinin səmərəliliyinin artırılması üçün həyata keçirilən müvafiq tədbirlər müzakirə olunur. Qeyd edilənlərə əlavə olaraq, doqquzuncu fəsildə müxtəlif kateqoriyalardan olmaqla məhkəməyə təqdim edilən və faktiki olaraq baxılan işlərin sayının təhlili aparılır. Burada əsas diqqət işlərin müxtəlif kateqoriyaları üzrə məhkəmənin üzərinə düşən iş yükü və məhkəmənin işə baxmaq üçün sərf etdiyi vaxtın təhlilinə verilmişdir.

Onuncu fəsil prokurorluq orqanlarına həsr olunur. Təhlilin əsas mövzusu prokurorların səlahiyyətləri; prokuror vəzifəsini tutmağa ixtiyarı çatmayan, lakin prokurorluq orqanlarına həvalə edilmiş vəzifələrin bəzilərini icra edə bilən dövlət qulluqçularının müəyyən kateqoriyaları; əhaliyə düşən prokurorların sayı; prokurorların (o cümlədən, cinayət prosesindən kənar işlərdə prokurorların) vəzifə və səlahiyyətləridir.

On birinci fəsildə hakimlərin və prokurorların statusu və peşə fəaliyyəti müzakirə edilir. Bu fəsildə hakim və prokurorlara aid müxtəlif mövzulardan bəhs edilir, misal üçün: hakimlərin (prokurorların) vəzifəyə təyinat məsələsi və təyinat müddəti; peşə təlimi, tədris və əməkhaqqı məsələləri; hakimlərin və prokurorların əlavə iş yerində çalışmaq imkanları; intizam məsuliyyəti; mükafatlandırma, imtiyazlar və daha yüksək vəzifəyə təyin edilmək imkanları.

On ikinci fəsil vəkillərə aiddir. Bu fəsildə üzv dövlətlərdə vəkillərin rolu və vəzifələri; onların peşə fəaliyyətinin təşkili; əhaliyə düşən vəkillərin sayı; vəkillərin statusu və peşə təhsili; vəkillərin fəaliyyəti üzərində həyata keçirilən nəzarət və vəkillərə qarşı tətbiq oluna bilən müxtəlif sanksiyalar; vəkillərin fəaliyyətinin ayrı-ayrı məqamları (misal üçün, məhkəmədə tərəflərin təmsil edilməsi hüququnun müstəsna olaraq vəkillərə həvalə olunması); fəaliyyətin keyfiyyət standartlarının istifadəsi və s. mövzular müzakirə olunur. Qeyd edilir ki, üzv dövlətlər arasında əhaliyə düşən vəkillərin sayında böyük fərqlər var və buna səbəb

kimi həyat tərzindəki fərq (hüquqi mədəniyyətin səviyyəsi) və vəkillərin yerinə yetirdiyi vəzifələri göstərmək olar.

On üçüncü fəsil ədalət mühakiməsinin həyata keçirilməsi məsələsinə həsr edilib. Fəsil çərçivəsində bu məsələnin müzakirəsi işlərin müxtəlif kateqoriyalarına istinadən aparılır: bir tərəfdən mülki və inzibati işlərə, digər tərəfdən isə cinayət işlərinə münasibətdə. Bu fəsildə, həmçinin, məhkəmə icraçılarının sayı, məhkəmə icraçılarının fəaliyyətinin təşkili və peşə təlimi, məhkəmə icraçılarının fəaliyyəti üzərində həyata keçirilən nəzarət və onlara şamil edilən inzibati məsuliyyət haqqında məlumat əksini tapmışdır. Bu fəslin mətnində ayrıca olaraq məhkəmə qərarlarının icrası prosesi və icra işinin nə qədər səmərəli olması qiymətləndirilib. Qeyd edilməlidir ki, ayrı-ayrı dövlətlərdə məhkəmə icraçılarının malik olduğu statusda böyük fərqlər mövcuddur və bəzi üzv dövlətlərdə məhkəmə icraçılarına münasibətdə peşə təlimi və məsuliyyət səviyyəsinin yüksəldilməsinə ehtiyac var.

On dördüncü fəsildə notariat sistemindən bəhs olunur. Bu fəsildə notariusların statusu və vəzifələri, əhaliyə düşən notariusların sayı, notariusların fəaliyyəti üzərində həyata keçirilən müşahidə və nəzarət müzakirə olunur.

Hesabatda, həmçinin, üzv dövlətlərin məhkəmə sisteminin qiymətləndirilməsi işinin yeni bir istiqaməti əksini tapmışdır: ədalət mühakiməsi sistemində həyata keçirilən islahatların qiymətləndirilməsi. Bu mövzu hesabatın on beşinci fəslində müzakirə olunur. Qeyd edilən fəsildə Avropa Şurasının müxtəlif üzv dövlətlərində qəbul edilmiş islahatlardan söhbət açılır, həmin islahatlar ədalət mühakiməsinin sahəsi, işlərin növü və məhkəmə prosesinin mərhələsi üzrə təsnifatlaşdırılır.

Bu hesabatda daha çox maraq doğuran yenilik *"Avropa dövlətlərinin məhkəmə sistemində daha yüksək keyfiyyət və səmərəliliyə doğru"* adlanan on altıncı fəsildir. Qeyd edilən fəsildə Avropanın məhkəmə sistemlərində yer alan əsas dəyişikliklərin istiqamətlərini müəyyən etmək üçün hesabatda verilən statistik məlumatın

təhlili nəticələrinə əsasən ümumi qənaət verilir və Avropa Şurası tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi üçün işlənib hazırlanmış keyfiyyət standartları ilə yuxarıda qeyd olunan dəyişikliklərin istiqamətləri arasında uyğunluq müzakirə olunur. Başqa sözlə desək, bu fəsildə üzv dövlətlərin məhkəmə sistemlərində baş verən dəyişikliklərin ümumi təhlili yer alır və həmin dəyişikliklərin Avropada məhkəmə sisteminin keyfiyyət və səmərəlilik standartlarına nə dərəcədə cavab verməsi müzakirə olunur.

Bu fəsildəki təhlil aşağıdakı plan üzrə həyata keçirilmişdir: məhkəməyə müraciət etmək imkanlarının təhlili; məhkəmə və ümumilikdə ədalət mühakiməsi sisteminin fəaliyyətinin səmərəlilik səviyyəsi; mülki və cinayət işləri üzrə prosessual qanunvericiliyin səmərəlilik səviyyəsi; ədalət mühakiməsi sisteminin xidmətlərindən istifadə edən şəxslərin rəyi nəzərə alınmaqla ədalət mühakiməsi sistemindəki siyasətin keyfiyyət səviyyəsi; məhkəmə hakimiyyətinin müstəqilliyinin qorunması, hakimlərin və prokurorların statusu.

### *2.3.4. "Avropa dövlətlərinin məhkəmə sistemi üzrə Hesabat – ədalət mühakiməsi sisteminin fəaliyyətinin keyfiyyəti və səmərəliliyi", 2010-cu ilin nəşri (2008-ci ilin məlumatına əsasən)*

Komissiyanın 2010-cu il üçün *"Avropa dövlətlərinin məhkəmə sistemi üzrə Hesabatı"*nda qeyd edilmişdir ki, hesabat onun əvvəlki nəşrləri üçün istifadə edilmiş plana uyğun olaraq tərtib edilib. Müvafiq olaraq, oxucu hesabatın yeni nəşrindəki məlumatla hesabatın əvvəlki nəşrlərində verilmiş məlumatları müqayisə edə, dəyişikliklərin istiqamətləri və tendensiyalar barədə özü üçün nəticələr çıxara bilər. Qeyd edilənlər səbəbindən bu hesabat mətnində verilmiş xronoloji məlumatın müqayisəsi 2008-ci il üçün toplanmış məlumatların Avropa dövlətlərinin məhkəmə sistemləri üzrə əvvəlki illər üçün toplanmış məlumatlarla

müqayisə üçün imkan yaratmaqla daha müfəssəl olur. Başqa sözlə desək, müxtəlif üzv dövlətlərdən alınmış və məhkəmə sisteminə aid məlumatın sadəcə müqayisəli təhlilinə əlavə olaraq xronoloji müqayisə metodundan istifadə edilir və bu metod çərçivəsində yeni dövr üzrə əldə edilmiş məlumat digər (əvvəlki) dövrlərə aid məlumatla müqayisə olunur. Nəticədə hesabatın bu nəşrində məhkəmənin qiymətləndirilməsinə münasibətdə ilk dəfə olaraq inkişaf yanaşmasından istifadə edilir. Müvafiq olaraq Avropa dövlətlərində məhkəmə sistemi ilə əlaqədar CEPEJ tərəfindən əldə edilmiş nəticələr bu hesabatın mətnində hesabatın fəsillərinə istinad edilmədən təqdim olunur (az sayda istisnalara yol verilməklə, misal üçün, tədqiqat prosesindəki yeniliklər, parametr və meyarlarla bağlı olaraq), hesabatın mətnində hesabatın əvvəlki nəşrləri ilə müqayisədə tendensiyalar və dəyişikliklərin istiqamətlərinin təsviri yer alır.

Qəbul edilmiş struktura uyğun olaraq hesabatın birinci fəsli tədqiqat metodologiyasına həsr edilib. Hesabatın əvvəlki nəşrlərində olduğu kimi, bu fəsildə də milli nümayəndələr (əlaqələndiricilər) tərəfindən təqdim edilmiş məlumatın qiymətləndirilməsi proseduru, məlumatın təhlili üçün istifadə olunan yanaşma və iş prinsipləri təsvir edilir. Eyni ilə bu fəsildə sosial və demoqrafik sahələrə dair statistik məlumat verilir. Yuxarıda qeyd edildiyi kimi, giriş hissəsi olan birinci fəsil hesabatın bütün nəşrlərində, demək olar ki, eynidir.

İkinci fəsil hesabatın əvvəlki nəşrinə oxşardır, məhkəmə sistemi, prokurorluq orqanları sistemi və hüquqi yardım mövzularına həsr edilmişdir. Bunlara baxmayaraq, nəzərə alaraq ki, müqayisə yalnız ayrı-ayrı üzv dövlətlərə aid olan məlumata münasibətdə deyil, həmçinin cari dövr üçün əldə edilmiş məlumatla hesabatın əvvəlki nəşri hazırlanarkən CEPEJ tərəfindən toplanmış məlumat arasında aparılmışdır, bəzi məqamlar inkişaf yanaşmasının istifadəsinə işarə edir. Misal üçün, bu fəslin mətnində 2006-2008-ci illər ərzində məhkəməyə ayrılan büdcə vəsaitlərinin məbləği barədə müzakirə verilir.

Fəslin sonunda qeyd edilmişdir ki, üzv dövlətlərina ədliyyə nazirliklərinə ayrılan büdcə vəsaitlərinin məbləğlərinə münasibətdə daimi artım müşahidə olunmaqdadır. Eyni zamanda qeyd edilir ki, çox güman, maliyyə böhranının nəticələrindən biri məhkəmə sistemi, prokurorluq orqanları və hüquqi yardım üçün ayrılan büdcə vəsaitlərinin məbləğinin azaldılması olacaq. Bundan başqa, Qərbi Avropa ölkələrində məhkəmələrin sayının azaldığı müşahidə olunur.

Ədalət mühakiməsindən istifadə imkanlarına həsr edilmiş üçüncü fəsil hesabatın əvvəlki nəşrindəki üçüncü fəslə bənzəyir. Bu dəfə yenilik inkişaf yanaşmasının istifadəsindən ibarətdir ki, 2008-2010-cu illər üçün toplanmış məlumat hesabatın əvvəlki nəşrlərindəki məlumatla müqayisə olunmuşdur.

Fəslin sonunda qeyd edilir ki, Avropa dövlətlərinin büdcələrində hüquqi yardım üçün ayrılan vəsaitlərin məbləği ildən-ilə artmaqdadır. Bundan başqa, qeyd edilmişdir ki, bəzi Şərqi Avropa ölkələrində hüquqi yardım sistemləri yaradılmışdır, halbuki əvvəllər bu dövlətlərdə belə sistemlərdən istifadə olunmurdu. CEPEJ tərəfindən həmçinin qeyd edilmişdir ki, bəzi üzv dövlətlərdə hüquqi yardım sahəsini əhatə edən islahatlar hazırlanmaqdadır və ya artıq qəbul edilmişdir.

Hesabatın əvvəlki nəşrində olduğu kimi, dördüncü fəsil məhkəməyə müraciət edən şəxslərə və onların hüquqlarına həsr edilib. Burada məhkəmə sisteminin fəaliyyətinin keyfiyyətinə dair ictimai rəyin təhlilinin nəticələri daha geniş və daha təfərrüatlı qaydada istifadə olunur və qeyd edilən fəsildə bu mövzuya ayrıca bölmə ayrılmışdır. Bu tendensiya fəslin qənaət hissəsində də əksini tapmışdır. CEPEJ-in diqqəti əsasən iki məsələyə yönəlmişdir: prosessual müddətlər barədə məlumatın istifadəsi üçün imkanların inkişaf etdirilməsi; və məhkəmə proseslərinin həddindən artıq çox vaxt aparması və məhkəmə qərarlarının icra edilməmiş qalması ilə əlaqədar məhkəməyə müraciət edən şəxslərin hüquqlarının pozulması nəticəsində vətəndaşlara kompensasiya verilməsi.

Beşinci fəsildə məhkəmədən bəhs olunur. Əvvəlki fəsillərdə olduğu kimi, inkişaf/xronoloji məlumat təhlili metodu tətbiq edilir və hesabatın əvvəlki nəşrləri üzrə iş zamanı CEPEJ tərəfindən yaradılmış geniş statistik məlumat bazasından istifadə olunur.

Bu fəsildə ələlxüsus Qərbi Avropa ölkələrində müşahidə olunan tendensiyalar, misal üçün, bəzi üzv dövlətlərdə məhkəmənin coğrafi prinsip üzrə yerləşdirilməsində dəyişikliklər və nəticə etibarı ilə məhkəmənin sayının azaldılması məsələsi müzakirə olunur. Şərqi Avropa ölkələrinə gəldikdə, əks tendensiya müşahidə olunur və qeyd edilir ki, ildən-ilə məhkəmənin sayının artması müşahidə olunmaqdadır. Xüsusilə bütün üzv dövlətlərdə məhkəmənin fəaliyyəti ilə əlaqədar müasir məlumat və rabitə vasitələrinin tətbiqi və istifadəsi məqsədilə büdcədən ayrılan vəsaitlərin məbləğinin artdığı vurğulanır.

Bu hesabatın altıncı fəsli 2008-ci il tarixli nəşrdəki altıncı fəslə bənzəyir və mübahisələrin həllinin alternativ üsullarına həsr edilmişdir. Fəsildə üzv dövlətlərdə mübahisələrin həlli üçün istifadə edilən alternativ üsullardan və bu sahədə yer alan dəyişikliklərdən bəhs olunur. Qeyd edilir ki, bu kimi üsulların təkmilləşdirilməsinə yönəlmiş islahatlar bir sıra üzv dövlət tərəfindən artıq qəbul edilmişdir və 2006-cı ildən bəri bəzi üzv dövlətlərdə (əsasən Mərkəzi Avropa dövlətlərində) aparılan islahatlar mübahisələrin həlli zamanı alternativ üsulların istifadəsi ilə bağlı hüquqi yardım ayrılmasına gətirib çıxarmışdır.

Artıq sınaqdan keçmiş plana uyğun olmaqla, hesabatın əvvəlki nəşrlərində olduğu kimi, yeddinci fəsil hakimlər haqqındadır. Bu fəsildə də inkişaf yanaşmasından istifadə edilir və bu sahədə yer alan tendensiyalar müəyyən olunur. Qeyd edilir ki, Mərkəzi və Şərqi Avropa ölkələrində əhaliyə düşən hakimlərin sayı yüksək olaraq qalmaqdadır. 2004-2008-ci illər arasında olan dövr üçün müşahidə olunan ümumi tendensiya əhaliyə düşən hakimlərin sayının stabil qalmasıdır. Avropa dövlətlərində əsasən peşəkar hakimlərdən istifadə vurğulanır və qeyd edilir ki, əsas iş yeri hakimlik olmayan

şəxslərin xidmətindən istifadə olunduğu dövlətlərdə də vəziyyət eynidir. Həmçinin qeyd edilir ki, Avropa dövlətlərində münsiflər məhkəməsindən, demək olar, istifadə olunmur.

Hesabatın əvvəlki nəşrlərinə bənzər olaraq, səkkizinci fəsil məhkəmənin işçi heyətinə həsr edilib. Bu fəsildə həmçinin qeyd edilmişdir ki, 2004-2008-ci illər arasında olan dövr ərzindəki məlumatda dəyişikliklər, demək olar, yer almamışdır.

2008-ci ilin hesabatında olduğu kimi, doqquzuncu fəsil "ədalətli mühakimə"yə və məhkəmənin fəaliyyətinə həsr edilmişdir. Hesabatın əvvəlki nəşrində olduğu kimi, bu fəsildə də səmərəlilik, işlərə baxılma müddəti və məhkəmənin üzərinə düşən iş yükü kimi sahələr təhlil olunur. Bu dəfə yer alan yenilik statistik məlumatın istifadəsindən ibarətdir və nəzərdə tutulmuşdur ki, bu statistik məlumat hökumət qurumları tərəfindən CEPEJ-in *"Məhkəmə sistemi üzrə statistik məlumatlar haqqında Qaydalar"*ına müvafiq olaraq toplanacaq.[40] Fəaliyyət göstəriciləri və CEPEJ tərəfindən qeyd edilən sənəd çərçivəsində müəyyən edilmiş və məhkəmənin işinin qiymətləndirilməsinə aid olan metodlar məhkəmənin fəaliyyətinin təhlilini daha müfəssəl qaydada aparmağa, onun işinin ədalətli mühakimə prinsipinə, ələlxüsus da prosessual müddətlərə aid standartlara nə dərəcədə cavab verməsini müəyyən etməyə imkan verir. Fəaliyyət göstəricilərinin təhlili CEPEJ-ə aşağıda verilmiş qənaətlə çıxış etməyə əsas vermişdir: əsas etibarilə apellyasiya məhkəmələri ilə müqayisədə məhkəmələr iş yükünü daha yaxşı idarə edə bilirlər. Ən az sayda işlərə Şimali Avropa və Qafqaz regionu ölkələrinin məhkəmələrində baxılır. Digər üzv dövlətlərdə vətəndaşlar məhkəmələrə qat-qat tez müraciət edirlər. Qeyd edilir ki, bəzi üzv dövlətlərdə (xüsusən Gürcüstanda və Rusiya Federasiyasında) məhkəmələr tərəfindən böyük iş yükünün kifayət qədər münasib qaydada idarə edilməsinə səbəb ədliyyə nazirliklərinə böyük məbləğdə vəsaitlərin ayrılmasından irəli gəlir.

[40] *"Məhkəmə sistemləri üzrə statistik məlumatlara dair CEPEJ-in Qaydaları"*, CEPEJ tərəfindən Komissiyanın 12-ci plenar iclasında qəbul edilmişdir (Strasburq, 10-11 dekabr 2008-ci il), CEPEJ(2008)11.

Əvvəlki hesabatda da, istifadə edilmiş plana uyğun olaraq, onuncu fəsil prokurorluq orqanlarına həsr edilmişdir. Bu fəsildə də inkişaf/xronoloji müqayisə yanaşmasından istifadə olunur və bu, 2004-2008-ci illər arasındakı dövr üçün vəziyyət barədə daha müfəssəl təsəvvür əldə etməyə imkan verir. Bu fəslə əsasən müəlliflər qənaətə gəlmişlər ki, qeyd edilən dövr ərzində üzv dövlətlərin prokurorluq orqanları sistemində əhəmiyyətli dəyişikliklər baş verməmişdir.

2008-ci il tarixli hesabata oxşar olaraq, on birinci fəslin mövzusu hakimlərin və prokurorların statusu və karyerasıdır. Bu fəsildə də, yuxarıda təsvir edildiyi kimi, inkişaf/xronoloji təhlil yanaşmasından istifadə olunur və bu, imkan verir ki, 2004-2008-ci illər arasında olan dövr üçün hakimlərin və prokurorların statusuna münasibətdə yer alan dəyişiklik istiqamətləri müfəssəl qaydada təhlil edilsin.

Qeyd edilir ki, təhlil olunan dövr ərzində Şərqi Avropanın bəzi dövlətlərində prokurorların peşə səriştəsi səviyyəsinin yüksəldilməsinə yönəlmiş islahatlar qəbul olunmuşdur. Bu fəsildə həmçinin qeyd edilmişdir ki, bəzi üzv dövlətlərdə hakim və prokurorların statusunun, demək olar, eyni olmasına baxmayaraq, digər üzv dövlətlərdə (əlәlxüsus da anqlo-sakson hüquq sistemi ölkələrində) hakimlərin statusu və prokurorların statusu kifayət qədər fərqlidir. Həmçinin qeyd edilmişdir ki, 2004-cü ildən bəri Şərqi Avropanın bəzi dövlətlərində prokurorların əməkhaqqı məbləği artırılmışdır, lakin eyni zamanda, hakimlərlə prokurorların əməkhaqqı səviyyələri arasındakı fərq hələ də kifayət qədər böyük olaraq qalmaqdadır.

2008-ci il tarixli hesabatda müvəffəqiyyətlə tətbiq edilmiş struktura uyğun olaraq, on ikinci fəsildə vəkillərdən bəhs olunur. Bu fəsildə ümumi bir dəyişiklik istiqaməti qeyd olunur və bildirilir ki, 2004-2008-ci illər arasında olan dövr ərzində vəkillərin sayında artım müşahidə olunmuşdur. Buna baxmayaraq, müxtəlif dövlətlərdə əhaliyə düşən vəkillərin sayı çox fərqlidir və bu, həm

vətəndaşların hüquqi mədəniyyəti, həmçinin də müvafiq dövlətdə vəkillərin yerinə yetirdikləri vəzifələrin fərqlənməsi ilə əlaqədardır (misal üçün, Cənubi Avropa ölkələrində əhaliyə düşən vəkillərin sayı Şimali Avropa ölkələrində əhaliyə düşən vəkillərin sayından yüksəkdir).

Hesabatın əvvəlki nəşrində olduğu kimi, on üçüncü fəsil məhkəmə qərarlarının icrasına həsr edilib. Bu fəsildə izah olunur ki, məhkəmə qərarlarının icrası üçün məsuliyyət daşıyan şəxslərin müəyyən edilməsi məsələsində qeyri-müəyyənliklər qalmaqdadır və dövlətlər arasında fərqlər mövcuddur: bəzi dövlətlərdə bu vəzifə məmurların müəyyən bir kateqoriyasına həvalə olunur, digər üzv dövlətlərdə isə məhkəmə qərarlarının icrası hakimlərin özləri tərəfindən aparılır. Komissiya tərəfindən vurğulanmışdır ki, üzv dövlətlər həm məhkəmə qərarlarının icrası üçün məsul olan məmurların peşə səriştəsinə, həmçinin də onların fəaliyyətinə nəzarəti həyata keçirməlidirlər. CEPEJ qeyd etmişdir ki, bir qədər əvvəl Komissiya tərəfindən məhkəmə qərarlarının müvafiq qaydada icrası üçün standartlar siyahısı işlənib hazırlanmışdır[41].

2008-ci il tarixli hesabata oxşar olaraq, on dördüncü fəsil notariat sistemindən bəhs edir. 2008-ci il üzrə yenilənmiş məlumata əlavə olaraq, hesabatın bu fəslində yeni qənaətlər verilmişdir ki, onlar hesabatın əvvəlki nəşrində yer almış qənaətlərdən fərqlidir.

Tərcüməçilərə həsr edilmiş on beşinci fəsil hesabatın yeni bir hissəsidir. Faktiki olaraq, bu məsələ ilk dəfə elə məhz 2010-cu ildə müzakirə olunmuşdur. Məhkəmənin digər işçilərinə həsr edilmiş fəsillərə bənzər olaraq, on beşinci fəsildə yazılı və şifahi tərcümələri həyata keçirən şəxslərin sayı, statusu, vəzifələri və peşə təliminin keyfiyyət səviyyəsi barədə məlumat təqdim olunur. Fəslin sonunda CEPEJ tərəfindən qeyd edilir ki, məhkəmənin fəaliyyətinə münasibətdə tərcümələrin əhəmiyyəti ədalət mühakiməsinə müraciət

[41] *"Məhkəmə qərarlarının icrası ilə əlaqədar Avropa Şurasının Tövsiyələrinin daha mükəmməl tətbiqinə dair CEPEJ-in Qaydaları",* CEPEJ(2009)11REV2.

etmək, ədalət mühakiməsi sistemindən istifadə hüququnu və ədalət mühakiməsini təmin etməkdən ibarətdir.

Qəbul edilmiş plana uyğun olaraq, 2010-cu il tarixli hesabatın sonuncu fəsillərindən biri (16-cı fəsil) üzv dövlətlərin məhkəmə sistemini əhatə edən islahatlara həsr edilib. Əvvəlki hesabatdan fərqli olaraq, xüsusi tədbirlərin təhlilinə, demək olar ki, yer verilməyib və bunun əvəzində, bu fəsildə üzv dövlətlər tərəfindən qəbul edilmiş islahatları əks etdirən cədvəl təqdim olunub. Qeyd etmək lazımdır ki, islahatlar siyahısı üzv dövlətlərin məhkəmə sistemlərinin fəaliyyətinin bütün sahələrinə aid olmaqla təqdim edilir.

2006-cı il tarixli hesabatda olduğu kimi, sonuncu, on yeddinci fəsil "*Avropa dövlətlərinin məhkəmə sistemində daha yüksək keyfiyyət və səmərəliliyə doğru*" adlanır. Bu fəsil Avropa dövlətlərinin məhkəmə sistemlərində baş verən əsas dəyişiklikləri müəyyən etmək məqsədilə hesabatda təqdim olunan statistik məlumatın təhlili nəticələri əsasında irəli sürülə bilən ümumi qənaətlərə, habelə qeyd edilən dəyişikliklərin Avropa Şurası tərəfindən ədalət mühakiməsi sahəsinə aid olmaqla qəbul edilmiş keyfiyyət standartlarına uyğunluğunun təhlilinə həsr edilib. Araşdırmaların planı hesabatın əvvəlki nəşrində istifadə edilmiş araşdırma planına oxşardır.

### *2.3.5. "Avropa dövlətlərinin məhkəmə sistemi üzrə Hesabat – ədalət mühakiməsi sisteminin fəaliyyətinin keyfiyyəti və səmərəliliyi", 2012-ci ilin nəşri (2010-cu ilin məlumatına əsasən) və "Avropa dövlətlərinin məhkəmə sistemi üzrə Hesabat – ədalət mühakiməsi sisteminin fəaliyyətinin keyfiyyəti və səmərəliliyi", 2014-cü ilin nəşri (2012-ci ilin məlumatına əsasən)*

2010-cu il tarixli hesabatda olduğu kimi, hesabatların bu nəşrlərində də yalnız təhlil edilən dövrlər üzrə məlumat verilmir, həmçinin əvvəlki dövrlər üçün məhkəmə sisteminin qiymət-

ləndirilməsinə dair məlumatın təhlili təqdim olunur. Başqa sözlə desək, hesabatın bu nəşri hazırlanarkən CEPEJ tərəfindən istifadə edilmiş yanaşma hesabatın əvvəlki nəşrinin hazırlanması üçün istifadə edilmiş yanaşma ilə, demək olar ki, eynidir. 2012-ci tarixli hesabat 46, 2014-cü il tarixli hesabat 45 üzv dövləti əhatə edir. Bu nəşrlərdə də hesabatın həcminin artması tendensiyası özünü büruzə vermişdir: 2012-ci və 2014-cü illərin hesabatları 2010-cu ilin hesabatından daha böyükdür (2012-ci ilin hesabatı 400-dən, 2014-cü ilin hesabatı isə 500-dən çox səhifədən ibarətdir).

Qəbul edilmiş plana uyğun olaraq, iki hesabatın hər birinin birinci fəsilləri istifadə edilən tədqiqat metodologiyasına həsr edilmişdir. Hesabatın əvvəlki nəşrlərində olduğu kimi, bu fəsildə də milli nümayəndələr tərəfindən təqdim edilmiş məlumatın qiymətləndirilməsi qaydası, məlumatın təhlili üçün istifadə edilmiş yanaşma və iş prinsipləri təsvir edilir. Nəhayət, bu fəsildə sosial və demoqrafik statistik məlumat təqdim olunur. Başqa sözlə, hesabatın bütün nəşrlərində birinci fəsil, demək olar ki, eynidir.

Hesabatın əvvəlki nəşrlərinə oxşar olaraq, ikinci fəsil məhkəmə sisteminə ayrılan maliyyə dəstəyinə həsr edilmişdir. Bu fəslin məqsədləri üçün istifadə edilmiş tədqiqat metodu 2010-cu il tarixli hesabatda istifadə olunmuş tədqiqat metodu ilə eynidir. Bu fəsildə də inkişaf/xronoloji təhlil metodundan istifadə olunmuşdur. Müvafiq olaraq, təhlil yalnız cari dövrü deyil, həmçinin əvvəlki dövrlər (2004, 2006, 2008 və 2010-cu illər) üçün toplanmış məlumatları da əhatə etmişdir.

Bu fəsildə müəlliflər ilk növbədə ədliyyə nazirliklərinə ayrılan büdcə vəsaitləri barədə toplanmış statistik məlumatın yüksək keyfiyyətini qeyd etmişlər. Əvvəlki dövrlərə münasibətdə müşahidə edilmiş dəyişikliklər istiqaməti bir daha təsdiqini tapmışdır: Ədliyyə nazirliklərinə ayrılan büdcə vəsaitlərinin məbləği artmaqda davam edir. Eyni zamanda, məhkəmə xərclərinin məbləğinin azaldığı dövlətlərin sayı, əvvəlki dövrlə müqayisədə, artmışdır. Bu, maliyyə və iqtisadi böhranla izah oluna bilər.

Bu fəsildə ayrıca olaraq məhkəmə sistemi üzrə çəkilən xərclərin bəzi kateqoriyaları ayrıca müzakirə olunur. Qeyd edilir ki, məmurların məvacibi, rabitə və informasiya texnologiyalarının istifadəsinin genişləndirilməsi və hakimlərin peşə təliminə sərf edilən vəsaitlərin məbləği daim artmaqdadır.

Ədalət mühakiməsi sisteminə müraciət və ədalət mühakiməsi sistemi xidmətlərindən istifadə imkanları, hesabatın əvvəlki nəşrində olduğu kimi, hesabatların üçüncü fəslində müzakirə olunur. Qəbul edilmiş plana uyğun olaraq, bu fəsildə inkişaf/xronoloji təhlil yanaşmasının müəyyən elementlərindən də istifadə olunur və bu zaman cari dövrün statistik məlumatı əvvəlki dövrlərin statistik məlumatları ilə müqayisə edilir.

Bu fəsildə qeyd edilmişdir ki, bütün üzv dövlətlərdə kompensasiya edilən məhkəmə xərcləri sistemi (məhkəmə sistemi ilə bağlı olan hərəkətlər üçün dövlət rüsumları sistemi) mövcuddur. Eyni vəziyyət hüquqi yardım sahəsində də müşahidə olunur – bütün üzv dövlətlər tərəfindən cinayət işləri üçün hüquqi yardım təqdim olunur, mülki işlər və kommersiya mübahisələri üçün hüquqi yardım ayıran üzv dövlətlərin sayı isə artmaqdadır. Digər müsbət dəyişiklik hər bir iş üçün ayrılan hüquqi yardım məbləğinin artmasıdır.

Hesabatın əvvəlki nəşrində olduğu kimi, dördüncü fəsil məhkəməyə müraciət edən şəxslərə və onların hüquqlarına həsr edilib. Vaxt ötdükcə daha çox ölkədə işin tərəfləri məhkəmə işi barədə məlumatla İnternet vasitəsilə tanış ola bilər. Prosessual müddətlər barədə məlumatın həcmi genişlənməkdədir, işin davam edəcəyi müddəti proqnozlaşdırmaq daha asan olmuşdur. Həmçinin qeyd edilir ki, daha çox dövlətdə ən həssas kateqoriyalardan olan iş tərəflərinə xüsusi hüquqlar təqdim olunur, onlara ayrılan hüquqi yardımın məbləği artır, prokurorların onların hüquqlarının müdafiəsi işindəki rolu daha əhəmiyyətli olur.

Beşinci fəsil məhkəmə haqqındadır. Əvvəlki fəsillərdə olduğu kimi, Komissiya tərəfindən yanaşma/xronoloji təhlil metodu tətbiq olunur, əvvəlki hesabatlar üçün toplanmış geniş statistik məlumat bazasından istifadə edilir.

Bu fəsildə qeyd edilir ki, əksər üzv dövlətlərdə məhkəmələrin təşkili sahəsində əhəmiyyətli dəyişikliklər baş verməmişdir. Buna baxmayaraq, birinci instansiyanı təmsil edən ixtisaslaşmış məhkəmələrin sayı artmaqdadır. Məhkəmə sisteminin təşkili işində müşahidə olunan digər tendensiya hökumətlərin müasir informasiya və rabitə texnologiyalarının istifadəsi və tətbiqinə daim daha çox diqqət yetirməsidir. Başqa sözlə desək, məhkəmə daha geniş miqyasda kompüterlər, videokonfrans sistemləri və digər rabitə vasitələri ilə təmin edilir.

Hesabatın əvvəlki nəşrinə oxşar olaraq, bu hesabatların 6-cı fəsli mübahisələrin həllinin alternativ üsullarına həsr edilmişdir. Bu fəsildə də inkişaf/xronoloji təhlil metodundan istifadə olunur və bu hesabatların hazırlanması məqsədilə milli əlaqələndiricilərin toplandığı məlumat CEPEJ tərəfindən hesabatların əvvəlki nəşrləri məqsədləri üçün toplanmış məlumatla müqayisə olunur.

CEPEJ qeyd etmişdir ki, üzv dövlətlərin məhkəmə sistemləri daxilində mübahisələrin həllinin alternativ üsulları inkişaf etməkdədir. Misal üçün, İtaliya, Monteneqro və Rumıniyada mübahisələrin həllinin alternativ üsullarını inkişaf etdirmək üçün islahatlar qəbul olunmuşdur. Digər bir müsbət dəyişiklik hüquqi yardımın artmasıdır: 2006-cı ildən başlayaraq mübahisələrin həllinin alternativ üsulları ilə əlaqədar hüquqi yardım edilməsi 32 üzv dövlət tərəfindən təmin olunmuşdur.

Qəbul edilmiş quruluş planına uyğun olaraq, iki hesabatın hər birində yeddinci fəsil hakimlər haqqındadır. Yenə də inkişaf/xronoloji təhlil metodundan istifadə edilmişdir. Bu fəsildə qeyd edilir ki, əhaliyə düşən hakimlərin sayında əhəmiyyətli bir dəyişiklik baş vermişdir: Mərkəzi və Şərqi Avropa ölkələrində hakimlərin sayı daha yüksəkdir. Ümumi tendensiya hakimlərin sayının stabil bir səviyyədə qalmasıdır. Qeyd edilir ki, bəzi ölkələrdə ədalət mühakiməsinin həyata keçirilməsi üçün münsiflər məhkəməsindən istifadə edilir. Eyni zamanda, ədalət mühakiməsinin həyata

keçirilməsi işində həm peşəkar hakimlərin, həmçinin də əsas peşəsi hakim olmayan şəxslərin iştirakı üçün müxtəlif imkanlar mövcuddur.

Səkkizinci fəsil, 2010-cu il tarixli hesabatın səkkizinci fəslində olduğu kimi, məhkəmənin inzibati işçi heyəti üzvlərinə həsr edilib. Lakin son iki hesabat hazırlanarkən müəlliflər Avropa "Rechtspfleger" və Məhkəmə Məmurlarının İttifaqının köməyindən bəhrələnmişlər. Fəsildə inkişaf/xronoloji təhlil metodundan istifadə olunur, bu isə imkan verir ki, məhkəməyə münasibətdə baş verən əsas dəyişikliklərin istiqamətlərini müəyyən etmək mümkün olsun.

Bu fəsildən aydın olur ki, 2006-cı və 2012-ci illər arasında olan dövr ərzində "Rechtspfleger" və məhkəmə məmurlarına aid statistik məlumatda, demək olar, hər hansı dəyişiklik baş verməmişdir. Həmçinin qeyd edilir ki, çox zaman özəl qurumlar tərəfindən bilavasitə ədalət mühakiməsini təşkil etməyən, lakin ədalət mühakiməsi sisteminə aid xidmətlər təqdim olunur.

Əvvəlki hesabatın doqquzuncu fəslində olduğu kimi, bu fəsil ədalətli mühakiməyə və məhkəmənin fəaliyyətinə (yəni məhkəmənin işinin nə qədər səmərəli olmasına) həsr edilmişdir. Bütövlükdə hesabatın özü kimi, bu fəsil də kifayət qədər böyükdür, hesabatın cari nəşrinin hazırlanması üçün toplanmış statistik məlumatla hesabatın əvvəlki nəşrlərinin tərtib edilməsi üçün toplanmış statistik məlumatlar arasında müqayisəli təhlil aparır və bu, imkan verir ki, bir neçə il ərzində bu sahə üzrə baş verən dəyişikliklər müşahidə edilə bilsin.

Bu fəslin sonunda qeyd edilir ki, Avropa məhkəmələrində cinayət işləri üzrə iş mülki işlə müqayisədə daha yaxşı idarə olunur. Digər qənaətlər əvvəlki dövrə aid hesabatda əksini tapmış qənaətlərə bənzəyir. Kateqoriyasından asılı olmadan, iş yükünü daha çox müvəffəqiyyətlə idarə edən məhkəmə sistemləri xüsusi vurğulanır. Həmin sistemlər Gürcüstan, Rusiya, Avstriya və Çex Respublikasının sistemləridir.

Hesabatın əvvəlki nəşrində olduğu kimi, onuncu fəsil prokurorluq orqanları sistemindən bəhs edir. Qeyd edilir ki, müxtəlif üzv dövlətlərin prokurorluq orqanları sistemi fərqli vəzifələri daşıyır və bu, xüsusən cinayət hüququ sahəsində özünü büruzə verməkdədir. Bu fakt müqayisəli təhlili daha çətinləşdirmiş olur. Ümumi tendensiya bundan ibarətdir ki, həm prokurorların, həmçinin də onların baxdıqları işlərin sayı azalmaqdadır. Ümumilikdə, demək olar ki, bütün üzv dövlətlərdə prokurorlar iş yükünün öhdəsindən uğurla gəlirlər.

On birinci fəsil hakimlərin və prokurorların statusu və karyerasına həsr edilib. Qeyd olunub ki, hesabatları hazırlayarkən müəlliflər prokuror və hakimlərin müxtəlif peşəkar təşkilatlarının nümayəndələri ilə məsləhətləşmələr aparmışlar. Həmçinin qeyd etmək lazımdır ki, bu fəsildə, hesabatların digər fəsillərində olduğu kimi, inkişaf/xronoloji təhlil metodundan istifadə edilmişdir və bu, 2008-ci ildən etibarən toplanmış məlumatla müqayisəli təhlillər aparmağa imkan verib.

Qeyd edilir ki, əksər üzv dövlətlərdə hakimlərin və prokurorların təyin edilməsi üçün oxşar qaydalardan istifadə olunur. Bu fəsildən həmçinin aydın olur ki, əksər üzv dövlətlərdə həm hakimlər, həmçinin də prokurorlar üçün mütəmadi olaraq peşə təlimi təşkil olunur. Qeyd edilir ki, 2004-cü ildən bəri Şərqi Avropa ölkələrinin çoxunda hakimlərin və prokurorların əməkhaqqı məbləğində artım müşahidə olunmaqdadır. Müşahidə edilən digər tendensiya hakimlər və prokurorlar arasında cinsi bərabərliyin daha geniş təşviq edilməsindən ibarətdir.

2010-cu il tarixli hesabatda olduğu kimi, on ikinci fəsil vəkillərə həsr olunub. Komissiya qeyd edib ki, 2006-2012-ci illər arasında olan dövr ərzində, demək olar, bütün üzv dövlətlərdə vəkillərin sayında artım müşahidə olunmaqdadır və bu, hələ 2004-cü ildə müşahidə edilmiş tendensiyaya uyğundur. Maliyyə böhranı da bu tendensiyaya təsir göstərməyib. Həmçinin qeyd edilir ki, Cənubi Avropa ölkələrində əhaliyə düşən vəkillərin

sayı Şimali Avropada əhaliyə düşən vəkillərin sayından yüksək olub. Nəhayət, son qənaət bundan ibarətdir ki, ümumilikdə götürdükdə, vəkillik peşəsi kifayət qədər yaxşı təşkilatlanıb və bütün üzv dövlətlər üçün vəkillərin peşə təlimi məsələsi böyük əhəmiyyət kəsb etməkdədir.

Əvvəlki hesabatda olduğu kimi, on üçüncü fəsil məhkəmə qərarlarının icrası məsələsinə aid edilib. Bu fəsildən aydın olur ki, məhkəmə qərarlarının icrası üçün məmurların sayında daim artım müşahidə edilir. CEPEJ tərəfindən qeyd edilir ki, müxtəlif üzv dövlətlərdə məhkəmə qərarlarının icrası üçün məsul olan icraçıların sayı arasında böyük fərq mövcuddur. Buna baxmayaraq, 2006-cı ildən bəri müşahidə edilən stabil tendensiya bundan ibarətdir ki, dövlət sektorunu təmsil edən məhkəmə icraçılarının sayı azalmaqda, özəl sektoru təmsil edən məhkəmə icraçılarının sayı isə əksinə, artmaqdadır. Digər bir tendensiya tənzimləmə səviyyəsində CEPEJ tərəfindən işlənib hazırlanmış və məhkəmə qərarlarının icrasına aid olan Avropa keyfiyyət standartlarının[42] məhkəmə qərarlarının icrası işində tətbiqindən ibarətdir.

Hesabatın əvvəlki nəşrində olduğu kimi, on dördüncü fəsil notariat sisteminə həsr edilib. Bu fəsildə əsas tendensiya müzakirə olunur və notariat fəaliyyətində özəl notariusların rolu və vəzifələrinin artdığı qeyd edilir. Bu sahəyə aid olan digər tendensiyalarda dəyişikliklər nəzərə çarpmır (misal üçün, notariusların sayı eyni səviyyədə qalmaqdadır). Qeyd edilənlərə əlavə olaraq, Şərqi və Şimali Avropa ölkələrində notariusların sayında kiçik azalma müşahidə etmək mümkündür.

On beşinci fəsil ilk dəfə 2012-ci il tarixli hesabatın mətninə daxil edilmişdir və bu fəsildə məhkəmə ekspertlərindən bəhs olunur. Qeyd edilən fəsildə aşağıda sadalanan mövzulara toxunulur: məhkəmə ekspertlərinin kateqoriyaları; məhkəmə ekspertlərinin seçilməsi və ya təyin olunması qaydası; məhkəmə ekspertlərinin sayı; məhkəmə ekspertlərinin statusu və daşıdıqları vəzifələr.

[42] *"Məhkəmə qərarlarının icrası ilə əlaqədar Avropa Şurasının Tövsiyələrinin daha mükəmməl tətbiqinə dair CEPEJ-in Qaydaları",* CEPEJ(2009)11REV2.

Nəzərə alsaq ki, bu mövzuya hesabatın əvvəlki nəşrlərində yer verilməmişdir, qeyd edilən fəsildə məhkəmə ekspertləri barədə hansısa maraq doğura bilən mülahizələr təqdim olunmayıb, lakin qeyd edilib ki, əksər üzv dövlətlərdə məhkəmə ekspertlərinin təyin edilməsi və ya seçilməsi qaydası məhkəmənin özü tərəfindən aparılır və əksər hallarda məhkəmə ekspertləri kimi müəyyən bir sahə üzrə xüsusi biliklərə sahib olan şəxslər çıxış edir.

On altıncı fəsil tərcüməçilər barədədir. Bu fəslin məzmunu əvvəlki hesabatdakı müvafiq fəslin məzmununa oxşardır. Müəlliflər tərəfindən məhkəmə tərcüməçilərinin statusu, vəzifələri və sahib olmalı səriştələrin ayrı-ayrı məqamlarının təhlilindəki müəyyən çətinliklər vurğulanır, bu isə məhkəmədə tərcümələrin fəaliyyətinin tənzimlənməsinin aşağı səviyyədə olması ilə izah edilir. CEPEJ qeyd edir ki, bəzi üzv dövlətlərdə məhkəmə tərcüməçilərinin səriştəsini müəyyən etmək üçün yoxlamalar və imtahanlar aparılmır.

Qəbul edilmiş plana uyğun olaraq, 2012 və 2014-cü illər üçün dərc edilmiş hesabatların sonuncu fəsillərindən biri (17-ci fəsil) üzv dövlətlərin məhkəmə sistemində aparılan islahatlardan bəhs edir. Hansısa xüsusi tədbirlərin təhlili, demək olar ki, aparılmır və bunun yerinə üzv dövlətlər tərəfindən qəbul edilmiş bütün islahatları əks etdirən cədvəl verilmişdir. Qeyd edilməlidir ki, sadalanan islahatlar üzv dövlətlərin məhkəmə sistemlərinin fəaliyyətinin bütün sahələrini əhatə edir.

Sonuncu, on səkkizinci fəsil, əvvəlki hesabatlarda da olduğu kimi, "*Avropa dövlətlərinin məhkəmə sistemində daha yüksək keyfiyyət və səmərəliliyə doğru*" adlanır. Bu fəsildə Avropa ölkələrində məhkəmə sistemlərinin fəaliyyətinə münasibətdə əsas tendensiyaları müəyyən etmək məqsədilə statistik məlumatın təhlilindən əldə edilən ümumi qənaətlər verilir, habelə belə tendensiyaların Avropa Şurasının qurumları tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi sahəsi üçün müəyyən edilmiş keyfiyyət standartlarına nə qədər uyğun gəldiyi araşdırılır. Başqa sözlə desək, bu fəsildə

üzv dövlətlərin məhkəmə sistemində yer alan tendensiyalardakı dəyişikliklərin ümumi təhlili verilir, onların Avropada məhkəmə sisteminin fəaliyyətinin keyfiyyəti və səmərəli standartlarına nə qədər cavab verdiyi müəyyən olunur. Tədqiqat metodu əvvəlki hesabatın məqsədləri üçün istifadə edilən metoda uyğundur.

Avropa Şurasının üzv dövlətlərinin məhkəmə sistemlərinin fəaliyyəti barədə məlumat mübadiləsini təmin etmək, ən mükəmməl çalışma qaydalarını aşkara çıxarmaq və müvafiq ölkələrə müqayisəli təhlil əsasında sistemlərinin işini təkmilləşdirməkdən ötrü imkan yaratmaq məqsədilə Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitə (CEPEJ-GT-EVAL) üzv dövlətlərin məhkəmə sistemlərinin qiymətləndirilməsi prosesini davam etdirməkdədir. Məhkəmə sistemlərinin müqayisəsinin əhatə dairəsi, sadəcə olaraq, fəaliyyətin səmərəliliyinə bağlı deyil: bu işdə ədalət mühakiməsinin fəaliyyətinin keyfiyyət və səmərəlilik səviyyəsi vurğulanır.

# FƏSİL 3

## Avropa dövlətlərinin məhkəmə sistemlərində işlərə baxılması və həlli müddətlərinin idarə olunması sahəsində Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının fəaliyyəti

### *3.1. Məhkəmələrdə işlərə baxılması və həll edilməsi müddətləri üzrə Tədqiqat Şəbəkəsi və ya Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Mərkəzi (SATURN Centre)*

Avropa İnsan Haqları Məhkəməsinin təcrübəsi göstərir ki, məhkəmələrdə işlərə baxılması və həllinə sərf edilən müddət üzv dövlətlərdə ədalət mühakiməsinin həyata keçirilməsi işində əsas problemlərdən biridir.[43] Qeyd etmək lazımdır ki, Avropa İnsan Hüquqları Konvensiyasının 6 və 13-cü maddələrinin pozulması barədə çıxarılan qərarlar Avropa İnsan Haqları Məhkəməsinin çıxardığı bütün qərarlar arasında əsas yer tutur, üzv dövlətlər tərəfindən Konvensiyanın qeyd edilən maddələrinin pozulması isə özünü ağlabatan müddət ərzində ədalət mühakiməsinin həyata keçirilməsinin təmin edilməməsində büruzə verir.[44] Nəticədə 2007-ci ildə CEPEJ tərəfindən fəaliyyəti yalnız məhkəmələrdə

---

[43] Misal üçün bax: *Kudla Polşaya qarşı, 26 oktyabr 2000-ci il; Qaqliano İtaliyaya qarşı, 6 mart 2012-ci il; Mikeliudakis Yunanıstana qarşı, 3 aprel 2012-ci il; İdalov Rusiyaya qarşı, 22 may 2012-ci il; Vlad Rumıniyaya qarşı, 26 noyabr 2013-cü il; Svinarenko və Slyadnev Rusiyaya qarşı, 17 iyul 2014-cü il; Mokanu Rumıniyaya qarşı, 17 sentyabr 2014-cü il.*

[44] Misal üçün, bax: (F.) Sudre, *Avropa və beynəlxalq hüququ bəşəriyyət hüququnun bir tərkib hissəsi kimi*, PUF, 2003, s. 343.

işlərə baxılması və həllinin prosessual müddətlərinə aid edilmiş bir mərkəzin yaradılmasını qabaqcadan proqnozlaşdırmaq mümkün idi. Bütün qeyd edilənlər nəzərə alınaraq Məhkəmələrdə işlərə baxılması və həll edilməsi müddətləri üzrə Tədqiqat Şəbəkəsi və ya Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Mərkəzi yaradılmışdır.[45]

CEPEJ tərkibində fəaliyyət göstərən digər komitələrə oxşar olaraq, qeyd edilən Mərkəz ixtisaslaşdığı fəaliyyət sahəsi üzrə və ələlxüsus üzv dövlətlərin məhkəmə sistemləri daxilində məhkəmə işlərinə baxılması və həlli müddətləri barədə məlumat toplanması üçün məsul olan altı ekspertdən ibarətdir.[46] Bu fəaliyyətin məqsədi üzv dövlətlərin məhkəmə sistemlərində iş yükünü Avropa İnsan Hüquqları Konvensiyası və SATURN Mərkəzinin Rəhbər Qaydaları ilə müəyyən edilmiş standartlara uyğunlaşdırmaq üçün üzv dövlətləri zəruri məlumatla təmin etməkdən ibarətdir. Strateji Plana uyğun olaraq SATURN Mərkəzi[47]:

- məhkəmə sistemi daxilində işlərə baxılması və həlli üçün vaxtın istifadəsinə münasibətdə "Avropanın müşahidə mərkəzi" rolunu oynamaqla Avropa dövlətlərinin məhkəmələrində işlərə baxılması və həlli müddətlərinə aid kəmiyyət və keyfiyyət məlumatının təhlilini aparır;

---

[45] SATURN Mərkəzi yaradılmazdan qabaq CEPEJ-in tərkibində buna bənzər bir qurum artıq fəaliyyət göstərirdi – "Məhkəmə işlərinə baxılması və həlli müddətləri üzrə CEPEJ-in İşçi Qrupu" (CEPEJ-TF-DEL) və misal kimi həmin qrup tərəfindən işlənib hazırlanmış *"Məhkəmə sistemi daxilində işlərə baxılması və həlli müddətlərinin idarə olunmasına münasibətdə ən mükəmməl Çalışma Qaydalarının Toplusu"*nu qeyd etmək olar.

[46] 6 ekspert CEPEJ üzvləri arasından CEPEJ-in Bürosu tərəfindən təyin edilir. SATURN Mərkəzinin sədri isveçrəli ekspert, hüquq elmləri doktoru Jak Bühlerdir (İsveçrənin Federal Ali Məhkəməsinin Baş katibinin müavini). Mərkəzə adları aşağıda qeyd edilən ekspertlər daxildir: İrakli Adeişvili (Mülki işlər üzrə kollegiya sədri, Tbilisi, Gürcüstan, CEPEJ-in vitse-prezidenti), İvana Borzova (Ədliyyə Nazirliyinin Mülki işlərə nəzarət departamentində şöbə müdiri, Çexiya Respublikası, CEPEJ-in Büro üzvü); İvan Krnçeç (Ədliyyə Nazirinin köməkçisi, Xorvatiya), Françesko Depaskuale (Ədliyyə və Daxili İşlər Nazirliyinin Məhkəmələr üzrə Baş Direktorluğunun hüquq müşaviri, Malta), Ciakomo Oberto (Torino birinci instansiya məhkəməsinin hakimi, İtaliya).

[47] 10-cu iclas, Strasburq, 21 və 23 sentyabr 2011-ci il, CEPEJ SATURN Mərkəzi, (2011)5Rev2.

- məhkəmə sistemləri daxilində ləngimələr, işlərə baxılması və həlli müddətləri və iş yükü barədə məlumatın və statistik məlumatların toplanması ilə əlaqədar üzv dövlətlərə məsləhətlər təqdim edir;
- qəbul etdiyi tövsiyə və qaydaların tətbiqi və icrası işində üzv dövlətlərə köməklik göstərir.

SATURN Mərkəzi Strateji Plana uyğun olaraq qeyd edilən vəzifələrin icrası məqsədilə aşağıda sadalanan işləri həyata keçirir:

- ədalət mühakiməsinin icrası gedişində işlərə baxılması və həlli müddətlərinin idarə olunması ilə bağlı kəmiyyət və keyfiyyət məlumatının toplanması, işlənilməsi və təhlili;
- üzv dövlətlərin məhkəmə sistemlərində işlərə baxılması və həlli müddətlərinin təhlili üçün statistik məlumatın toplanması və qiymətləndirilməsi ilə əlaqədar istifadə edilən metodologiyaların işlənib hazırlanması və təkmilləşdirilməsi, statistik təhlil vasitəsilə müvafiq məlumatın toplanması üçün vasitələrin yaradılması;
- məhkəmələrdə işlərə baxılması və həlli müddətlərinin azaldılması məqsədilə işlənib hazırlanmış qaydaların təcrübədə sınaqdan keçirilməsi üçün şəbəkələrin, o cümlədən, "Pilot Məhkəmələr Şəbəkəsi"nin yaradılması;
- SATURN Mərkəzinin işləyib hazırladığı vasitələrin (sənədlərin) istifadəsinə dair bilgilərin təqdim edilməsi məqsədilə təlim proqramlarının hazırlanması və təşkili.

Məhkəmələrdə işlərə baxılması və həlli üzrə Avropa İnsan Hüquqları Konvensiyası ilə müəyyən edilmiş ağlabatan müddətlərə dair şərtlərin tətbiqinin təmin olunması ilə bərabər, SATURN Mərkəzi Avropa Şurası tərəfindən qəbul edilmiş, məsləhət xarakterli bir sıra digər normativ sənədlərlə də işləyir. Qeyd olunan sənədlərdə ədalət mühakiməsi sahəsi ilə bağlı olaraq, məhkəmələrdə işlərə baxılması və həlli müddətləri mövzu-

suna birbaşa, yaxud dolayısı ilə aidiyyəti məsələlər üzrə tövsiyələr yer alır.

SATURN Mərkəzinin məqsədi məhkəmə işlərinə baxılması və həllinə sərf edilən müddətlərin azaldılması işində üzv dövlətlərə köməklik göstərməkdən ibarətdir; lakin, eyni zamanda, elə CEPEJ-in özünə bənzər olaraq, SATURN Mərkəzi Avropa Şurasının üzv dövlətləri tərəfindən beynəlxalq hüquqi sənədlər əsasında qəbul edilmiş öhdəliklərin icra olunması üzərində nəzarəti və ya monitorinqi həyata keçirən bir strukturu deyil. Nəticədə CEPEJ-in bu təsisatı qarşısında duran və SATURN Mərkəzinin Strateji Planında əksini tapmış məqsədlər SATURN Mərkəzinin fəaliyyətinin mahiyyətinə uyğundur:

- üzv dövlətlərin məhkəmə sistemləri daxilində müxtəlif kateqoriyalardan olan işlərə baxılması və həlli müddətləri barədə məlumatın toplanması;
- toplanan məlumatın keyfiyyətinin daimi olaraq yüksəldilməsi;
- məhkəmələr tərəfindən işlərə baxılması və həlli müddətləri ilə əlaqədar olaraq Avropa İnsan Haqları Məhkəməsinin qərarları ilə müəyyən edilmiş şərtlərə istinadən toplanmış məlumatların təhlilinin aparılması[48];
- məhkəmələr tərəfindən işlərə baxılması və həlli müddətləri ilə əlaqədar olaraq standart və rəhbər qaydaların işlənib hazırlanması;
- bir tərəfdən işlənib hazırlanmış standartların, digər tərəfdən isə məhkəmələr tərəfindən işlərə baxılması və həlli müddətləri ilə əlaqədar olaraq toplanmış məlumatın təhlilinin nəticələrinin geniş dairədə, o cümlədən İnternet vasitəsilə paylanması;

[48] Bu məsələ ilə əlaqədar CEPEJ tərəfindən Avropa Məhkəməsinin təcrübəsinə istinadən Avropa dövlətlərində məhkəmələr tərəfindən işlərə baxılması və həlli müddətləri ilə əlaqədar *"Avropa İnsan Haqları Məhkəməsinin qərarları əsasında Avropa Şurasının üzv dövlətlərində məhkəmələr tərəfindən işlərə baxılması və həlli müddətləri"* adlanan hesabat hazırlanmışdır. Hesabat CEPEJ-in 31 iyul 2012-ci il tarixdə Strasburqda keçirilmiş plenar iclasında qəbul edilmişdir.

- SATURN Mərkəzi tərəfindən məhkəmələrdə işlərə baxılması və həlli müddətlərinin qısaldılması məqsədilə işlənib hazırlanmış metod və üsulların fəal tərzdə təşviq etdirilməsi;
- məhkəmələr tərəfindən işlərə baxılması və həlli müddətlərinin qısaldılması ilə əlaqədar üzv dövlətlərin təşəbbüslərinə münasibətdə dəstək verilməsi.

Bu məqsədlərə nail olmaqdan ötrü SATURN Mərkəzi üçün razılaşdırılmış Strateji Planla nəzərdə tutulan layihələr həyata keçirilir. Hər bir layihənin konkret məzmunu Strateji Planda göstərilmişdir və Strateji Plan, buna əlavə olaraq, müvafiq layihənin icrası mərhələləri, müvafiq olaraq məsul şəxslər və layihənin icrası müddətlərini müəyyən edir. Ələlxüsus Strateji Planla aşağıda qeyd edilən layihələr nəzərdə tutulmuşdur:

- Avropa üzv dövlətlərində məhkəmələr tərəfindən işlərə baxılması və həlli müddətləri ilə əlaqədar məlumatın toplanması;
- SATURN Mərkəzi tərəfindən qəbul edilmiş qaydaların icrası ilə bağlı ayrı-ayrı pilot/eksperimental məhkəmələrlə fəal iş birliyinin təşkil olunması;
- ağlabatan müddət ərzində ədalətli mühakimə məsələsi ilə əlaqədar Avropa İnsan Haqları Məhkəməsinin təcrübəsi barədə məlumatın yeniləndirilməsi;
- üzv dövlətlərin məhkəmələri tərəfindən işlərə baxılması və həlli müddətləri ilə əlaqədar məlumatın işlənməsi;
- təqdim edilmiş statistik məlumata əsasən üzv dövlətlərin məhkəmələri tərəfindən işlərə baxılması və həlli müddətləri haqqında hesabatların hazırlanması;
- məhkəmələr tərəfindən işlərə baxılması müddətlərinin qısaldılması ilə əlaqədar SATURN Mərkəzinin qaydalarının təcrübədə yer alan tələblərə daim uyğunlaşdırılması;

- məhkəmələr tərəfindən işlərə baxılması və həlli müddətləri ilə əlaqədar təcrübə əsasında müvafiq standartların müəyyən edilməsi;
- məhkəmələr tərəfindən işlərə baxılması və həlli müddətlərinin qısaldılması ilə bağlı metodlar haqqında məlumatın təqdim edilməsi məqsədilə Avropa Şurasının üzv dövlətlərinin hökumət nümayəndələri üçün peşə təlimi kurslarının təşkil olunması;
- SATURN Mərkəzinin rəhbər qaydalarının təcrübədə tətbiqi ilə bağlı üzv dövlətlərin məhkəmələrinə köməklik edilməsi.
- SATURN Mərkəzinin məhsuldar fəaliyyəti dövründə üç hesabat işlənib hazırlanmışdır: *"Məhkəmə sistemlərində işlərə baxılması və həlli müddətlərinin idarə olunması – Şimali Avropa üzrə Tədqiqat"* adlanan 2 saylı Hesabat; *"Avropa İnsan Haqları Məhkəməsinin təcrübəsinə əsasən Avropa Şurasının üzv dövlətlərinin məhkəmələri tərəfindən işlərə baxılması və həlli müddətləri"* adlanan 3 saylı Hesabat; və *"Avropa Şurasının üzv dövlətlərinin apellyasiya və ali məhkəmələri tərəfindən işlərə baxılması və həlli"* adlanan 17 saylı Hesabat[49].

Aşağıda SATURN Mərkəzi tərəfindən qəbul edilmiş əsas sənədlər nəzərdən keçirilir və qeyd etmək lazımdır ki, həmin sənədlər *"Ayrı-ayrı dövlətlərin məhkəmələri tərəfindən işlərə*

[49] *"Məhkəmə sistemlərində işlərə baxılması və həlli müddətlərinin idarə olunması– Şimali Avropa üzrə tədqiqat"* adlanan 2 saylı Hesabat, müəlliflər: x-m Mirka Smolej (Finlandiyanın Hüquq Siyasəti üzrə Milli Tədqiqat İnstitutunun elmi işçisi) və c-b Yon T. Yonsen (hüquq elmləri doktoru, Norveçin Oslo Universitetinin Hüquq fakültəsinin dekanı, 2003-cü il; *"Avropa İnsan Haqları Məhkəməsinin təcrübəsinə əsasən Avropa Şurasının üzv dövlətlərinin məhkəmələri tərəfindən işlərə baxılması və həlli müddətləri"* adlanan 3 saylı Hesabat, müəllif: x-m Fransua Kalve (hakim, Fransa, 2011-ci il) (c-b Nikola Redji (hakim, Fransa) tərəfindən 26 mart 2012-ci il tarixli hesabatı vasitəsilə yenilənmişdir, 2011; *"Avropa Şurasının üzv dövlətlərinin Apellyasiya və Ali məhkəmələri tərəfindən işlərə baxılması və həlli"* adlanan 17 saylı Hesabat, müəllif: c-b Marko Velikonya (İtaliyanın Milli Tədqiqat Şurasının Məhkəmə Sistemləri üzrə Tədqiqat İnstitutunun elmi işçisi), 2013-cü il.

*ağlabatan müddət ərzində baxılması və həlli üçün ədalət mühakiməsi prosesinin qiymətləndirilməsi üzrə Qaydalar Toplusu"*nu və *"Milli səviyyədə tətbiq olunması üçün SATURN Rəhbər Qaydaları"* adlı sənədi təşkil edir. Birinci qeyd edilən sənədlərin işlənib hazırlanmasında məqsəd üzv dövlətlərin məhkəmələrinin işləri hansı sürətlə araşdırıb həll etmələrini müəyyən etmək olmuşdur, yəni qeyd edilən sənədlər təhlil vasitələri kimi qəbul oluna bilər. Sənədlərin ikinci kateqoriyası məsləhət xarakterlidir və məhkəmələr tərəfindən işlərə baxılması və həlli müddətlərinin qısaldılması və ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar Avropa Şurasının üzv dövlətləri tərəfindən daxili məhkəmə sistemləri çərçivəsində icra üçün nəzərdə tutulmuşdur.

## *3.2. Avropa ölkələrinin məhkəmələrində işlərə baxılması və həlli müddətlərinin daha səmərəli idarə olunması sahəsində hazırlanmış sənədlər*

### *3.2.1. "İşlərə baxılması və həlli müddətlərinin idarə olunması üzrə Suallar Toplusu: SATURN İşçi Sənədi"*

SATURN Mərkəzi yaradılmazdan xeyli öncə CEPEJ-i narahat edən məsələlərdən biri üzv dövlətlərin məhkəmə sistemi daxilində işlərə baxılması və həlli müddətlərinin uzun və sürəkli olması idi. Belə ki, 2005-ci ildə CEPEJ-in 6-cı plenar iclasında Komissiya tərəfindən *"İşlərə baxılması və həlli müddətlərinin idarə olunması üzrə Suallar Toplusu"* təsdiq edilmişdir. Bu Suallar Toplusu CEPEJ-in daxili işçi sənədidir və ədalət mühakiməsinin həyata keçirilməsi işində ağlabatan sayıla bilməyən ləngimələrın aradan qaldırılması və məhkəmə proseslərinin şəffaflığı, səmərəliliyi və proqnozlaşdırılmasının yüksəldilməsi və təkmilləşdirilməsi məqsədilə üzv dövlətlərin məhkəmə sistemi daxilində işlərə baxılması və həlli müddətləri barədə məlumatın toplanması və təhlili ilə əlaqədar həm SATURN Mərkəzi, həmçinin də müvafiq üzv dövlətlərin fəaliyyətini tənzimləməli olan qaydaları əhatə edir.

CEPEJ tərəfindən qəbul edilmiş bu sənədə müvafiq olaraq, məhkəmələrdə işlərə baxılması və həlli müddətlərinin qısaldılmasına, digər tədbirlərlə bərabər, mübahisələrin ləngimələrə yol vermədən həll edilməsi işinə maneələr törədən problemlər haqqında məlumat toplanması vasitəsilə nail olmaq mümkündür. Avropa İnsan Haqları Məhkəməsinin məlumatına əsasən məhkəmə prosesinin müddəti birbaşa olaraq vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi işinin səmərəliliyinə təsir göstərir. Müvafiq olaraq, məhkəmələrdə işlərə baxılması və həlli müddətlərinin nə qədər sürəkli olması böyük əhəmiyyət kəsb edir və bu bölmədə qeyd edilmiş suallar toplusunun işlənib hazırlanması, habelə SATURN Mərkəzinin yaradılması xeyli vaxt idi ki, nəzər-

dən keçirilirdi. Beləliklə, 15 sentyabr 2004-cü il tarixində CEPEJ tərəfindən *"Məhkəmə sisteminin yeni məqsədi: hər bir işə optimal və qabaqcadan proqnozlaşdırılan müddət ərzində baxılması və həlli üzrə Çərçivə Proqramı"* qəbul edilmişdir[50].

Məhkəmə işlərinə baxılması və həlli müddəti barədə məlumat toplanması və qeyd edilən məlumatın təhlili ilk əvvəl CEPEJ-in qarşısında duran çətin bir məsələ olmuşdur; belə ki, müxtəlif üzv dövlətlərin məhkəmə sistemlərinin fəaliyyətinin ayrı-ayrı məqamları arasında böyük fərqlər var idi ki, bu da, öz növbəsində, toplanan məlumatın müqayisəli təhlilini çətinləşdirirdi. Bu fakt CEPEJ tərəfindən birinci qiymətləndirmə hesabatında da qeyd edilmişdir[51]. Nəticə etibarilə bu bölmədə müzakirə olunan sənəd məhkəmələrdə işlərə baxılması və həlli müddətləri barədə statistik məlumatın toplanması və təhlili istiqamətində üzv dövlətlərin istifadə etdikləri sistemlərin eyniləşdirilməsinin əsasını təşkil etmişdir. *"İşlərə baxılması və həlli müddətlərinin idarə olunması üzrə Suallar Toplusu"* iddia ərizəsi təqdim edildiyi vaxtdan başlayaraq məhkəmə tərəfindən qərarın çıxarılması (və qərarın icrası) vaxtına qədər olan müddət, habelə prosesin hər mərhələsinin müddəti barədə məlumatın təhlilini aparmağa, proses ərzində ayrı-ayrı çatışmazlıqları aşkara çıxarmağa imkan verir.

Qeyd edilən suallar toplusuna münasibətdə məhkəmə proseslərinin müddətinin qiymətləndirilməsi işində tətbiq edilən meyarlardan biri kimi məhkəmə işlərinə aid vahid hesablama metodunun istifadəsi nəzərdə tutulmuşdur ki, bu, bütün prosessual hərəkətlərlə bağlı vahid bir göstəricinin istifadəsini mümkün edir – bir neçə iş bir iş daxilində birləşdirildikdə və ya hansısa iş bir məhkəmədən başqasına ötürüldükdə. Başqa sözlə desək, suallar toplusu ilə bağlı məhkəmələrdə işlərə baxılması və həlli

---

[50] *"Məhkəmə sisteminin yeni məqsədi: hər bir işə optimal və qabaqcadan proqnozlaşdırılan müddət ərzində baxılması və həlli üzrə Çərçivə Proqramı"*, CM(2004)19 Qoşma 3, 21 iyul 2004-cü il.

[51] CEPEJ, *"Avropanın Məhkəmə Sistemi, 2002-ci il: faktlar və rəqəmlər"*, CEPEJ tərəfindən Komissiyanın 4-cü plenar iclasında qəbul edilmişdir (dekabr, 2004-cü il).

ilə bağlı müddətlərin qiymətləndirilməsi işinə aid üzv dövlətlərin cavablandırmalı olduğu sual məhkəmələrdə işlərə baxılması və həlli müddətlərinin ayrı-ayrı mərhələlərinin müddəti haqqında statistik məlumatın olub-olmamasına bağlıdır. Suallar toplusundan ələlxüsus aşağıda qeyd edilən suallara cavab vermək üçün istifadə olunmalıdır:

- müvafiq üzv dövlətin məhkəmələrdə işə baxılmaq üçün qəbul edilməsindən başlayaraq yekun qərar çıxarılana qədər baxılması və həlli müddəti haqqında statistik məlumatın toplanması sistemi mövcuddur, ya yox;
- məhkəmələrdə işlərə baxılması və həlli müddətlərini qiymətləndirərkən müvafiq üzv dövlət məhkəmə işi baxılmaq üçün qəbul edənə qədər həyata keçirilən rəsmi prosessual hərəkətlərin müddətini nəzərə alır ya yox;
- məhkəmələrdə işlərə baxılması və həlli müddətlərini qiymətləndirərkən müvafiq üzv dövlət məhkəmə qərarının icrasına sərf edilən vaxtı nəzərə alır ya yox və s.

Məhkəmələrdə işlərə baxılması və həlli müddətlərinin qiymətləndirilməsi üçün istifadə edilən digər meyar ayrı-ayrı prosessual hərəkətlər üzrə optimal müddətləri müəyyən etməyə imkan yaradan vahid müddət şərtlərinin olub-olmamasına bağlıdır. Başqa sözlə desək, ümumilikdə götürdükdə, məhkəmələrin işinin keyfiyyətinin qiymətləndirilməsi və ələlxüsus ədalət mühakiməsinin ağlabatan müddət ərzində icra edilməli olması zərurəti aşağıda qeyd edilmiş amillərə istinadən müəyyən olunur:

- məhkəmə tərəfindən qərar çıxarılması və ya ayrı-ayrı prosessual hərəkətlərin icrasına münasibətdə təxmini müddətlərin müəyyən edilmiş olması;
- bu kimi şərtlər haqqında işin tərəflərinə (iddiaçı, cavabdeh və onların nümayəndələri) məlumatın təqdim edilməsi;
- ümumi və konkret prosessual hərəkətlər üzrə müddətlərin müəyyən edilməsi işində (hakimlə işin tərəfləri arasında) konsensus qaydasının istifadəsinin mümkünlüyü.

Mübahisələrin həlli müddətinin qiymətləndirilməsinə münasibətdə üçüncü meyar işlərin təsnifatlaşdırılmasının aparılması və hər bir işin faktlarından asılı olaraq, həmin işin həlli üçün aidiyyəti müddətin müəyyən edilməsindən ibarətdir.

Dördüncü meyar məhkəmə prosesinin əsas mərhələləri üçün müvəqqəti standart və ya tövsiyələrin istifadəsi mümkünlüyünün olub-olmamasına bağlıdır. Başqa sözlə desək, təklif edilmişdir ki, CEPEJ tərəfindən məhkəmə işinin müxtəlif mərhələlərinin müddəti üzrə məlumat tələb olunur və üzv dövlət, ən azı, ayrı-ayrı kateqoriyalara aid işlərə münasibətdə statistik məlumatı toplamalıdır.

Beşinci meyar həddən çox vaxt aparan hərəkətlərin (ləngimələrın) müəyyən edilməsi və işin normal gedişini bərpa edərək sonrakı nöqsanların aradan qaldırılması məqsədilə məsul şəxs və qurumlara məlumatın təqdim olunmasıdır. Başqa sözlə desək, Komissiyanı maraqlandıran məsələ mərkəzləşdirilmiş səviyyədə ədalət mühakiməsinin həyata keçirilməsi işində baş verə bilən ləngimələr üçün məsul olan konkret bir tərəfin olub-olmamasıdır. CEPEJ-in rəyinə əsasən, ləngimələri aşkarlayan belə bir sistem aşağıda qeyd olunanların təmin edilməsini nəzərdə tutmalıdır:

- hökumət qurumu tərəfindən məhkəmələrdə işlərə baxılması və həlli zamanı yarana bilən ləngimələr üzərində nəzarətin həyata keçirilməsi;
- həddindən çox vaxt aparan prosessual hərəkətlər səbəbindən yaranan problemlərin həlli qaydalarının tətbiqi;
- məhkəmədə işə baxılması və həlli işinin sürətləndirilməsi üçün prosessual imkanlardan istifadə edilməsi.

Altıncı meyar ədalət mühakiməsinin həyata keçirilməsi işində ləngimələr üzərində nəzarətin icrası və bu kimi halların aradan qaldırılması məqsədilə müasir texnoloji vasitələrin mövcud olması və istifadə edilməsinə bağlıdır. Burada həm ümumilikdə ləngimələrə nəzarəti həyata keçirmək imkanı yaradan və işin tərəfləri və hakimlər

tərəfindən işin müvafiq mərhələsi haqqında məlumatı əldə etməklə aidiyyəti işin həllini təmin edən, həmçinin də ayrı-ayrı prosessual hərəkətlər üçün icra müddətlərini müəyyən etmək imkanını təqdim edən monitorinq sisteminin mövcudluğu nəzərdə tutulur.

### *3.2.2. "Məhkəmə sisteminin yeni məqsədi: hər bir işə optimal və qabaqcadan proqnozlaşdırılan müddət ərzində baxılması və həlli üzrə Çərçivə Proqramı"*

Bu, üzv dövlətlərin məhkəmələri tərəfindən işlərə müəyyən edilmiş vaxt ərzində həllinə və ya, sənədin adından da göründüyü kimi, işlərə optimal və proqnozlaşdırılan müddət ərzində baxılması və həllinə dair tövsiyələri əks etdirən ilk CEPEJ sənədidir. Komissiyanın rəyinə əsasən, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı baş verən ləngimələrın təsiri böyük əhəmiyyət kəsb edir – buna səbəb yalnız Avropa İnsan Haqları Məhkəməsi tərəfindən baxılmalı olan işlərin sayının yüksək olması deyil, həmçinin bu problemin, demək olar ki, bütün üzv dövlətlərin məhkəmə sistemləri çərçivəsində yer almasıdır. Qeyd edilənlərə əlavə olaraq, Komissiya tərəfindən sənəddə qeyd olunduğu kimi, ədalət mühakiməsinin həyata keçirilməsi işində ləngimələr daha çox Qərbi Avropa ölkələrində müşahidə olunur.

Bu sənədin birinci bölməsi ədalət mühakiməsinin həyata keçirilməsi işində ləngimələrə səbəb olan halların müəyyənləşdirməsinə həsr edilmişdir. Burada qeyd edilmişdir ki, Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən artıq bir sıra məsləhət xarakterli sənədlər işlənib hazırlanmışdır və qeyd edilən sənədlərin bir hissəsi birbaşa, yaxud dolayısı ilə məhkəmələrdə işlərə baxılması və həlli müddətlərinin qısaldılmasına xidmət edir. Bu sənədlər sırasına aşağıda qeyd edilənlər aiddir:

- *"Məhkəmələrdə həddindən artıq iş yükünün yaranmasının qarşısının alınması və azaldılması haqqında"* Rec(86)12 saylı Tövsiyə;

- *"Hakimlərin müstəqilliyi, səmərəli fəaliyyəti və rolu haqqında"* Rec(94)12 saylı Tövsiyə və *"Cinayət işləri üzrə proseslər zamanı ədalət mühakiməsinin həyata keçirilməsinin idarə olunması haqqında"* Rec(95)12 saylı Tövsiyə;
- *"Ədalət mühakiməsinin həyata keçirilməsinin səmərəliliyini artırmaq üçün qənaətcil tədbirlər haqqında"* Avropa Şurasının üzv dövlətlərinin ədliyyə nazirləri tərəfindən 2000-ci ilin iyun ayında təsdiq edilmiş Hesabat.

Avropa Şurasının bir sıra digər qurumları da məhkəmə proseslərinin müddətini qısaltmaq məqsədilə bir sıra təkliflərlə çıxış etmişlər, o cümlədən:

- məhkəmələrdə işlərə baxılması və həlli zamanı yaranan ləngimələr üçün məsuliyyəti müəyyən edən qanunvericilik qaydalarının işlənib hazırlanması;
- məhkəmə prosesinin ayrı-ayrı mərhələlərinin müddəti barədə qərarın qəbul olunması işində müxtəlif tərəflərin (o cümlədən işdə marağı olan tərəflərin) iştirakı (misal üçün, iş üzrə tərəflərin);
- nəzarət və məlumatlandırma sisteminin istifadəsi;
- ayrı-ayrı kateqoriyalara aid işlərə baxılması və həlli ilə əlaqədar xüsusi müddətlərin müəyyən olunması[52].

Sənədin ikinci hissəsində, belə demək olarsa, "Tədbirlər Planı" verilmişdir. Burada müəlliflər məhkəmələrin işinin üç əsas prinsipini müəyyən etmişlər. Birinci prinsip məhkəmələrə ayrılan resurslarla məhkəmələr qarşısında qoyulan məqsədlər, o cümlədən ədalət mühakiməsinin yüksək keyfiyyətli olması tələbi arasında olan tarazlıqdır. Bu zaman ədalət mühakiməsinin həyata keçirilməsi prosesinin təşkili xüsusiyyətləri, ədalət mühakiməsinin səmərəliliyi, ədalət mühakiməsi işinin təşkilinə mü-

[52] *"Məhkəmə sisteminin yeni məqsədi: hər bir işə optimal və qabaqcadan proqnozlaşdırılan müddət ərzində baxılması və həlli üzrə Çərçivə Proqramı"*nın Qoşmasında məhkəmələr tərəfindən işlərə baxılması və həlli müddətlərinə müsbət təsir göstərmiş Avropa Şurasının tövsiyələrinin tam siyahısı verilmişdir.

nasibətdə ictimai rəyin nəzərə alınması zəruridir. İkinci prinsip məhkəmə sistemində baş verən ləngimələrın qiymətləndirilməsi və sistemin təhlili üçün səmərəli metodların olmasıdır. Burada Komissiya ədalət mühakiməsinin həyata keçirilməsi zamanı yaranan ləngimələrə gətirib çıxaran halların qiymətləndirilməsi və məhkəmə sisteminin təhlili ilə əlaqədar bütün üzv dövlətlərin istifadə etməli olduqları ümumi meyarlara istinad edir: müzakirə edilən sənəd yazılarkən belə ümumi meyarlar mövcud deyildi. Və nəhayət, üçüncü prinsip həm ədalət mühakiməsi işinin ağlabatan müddət ərzində icra edilməli, həm də keyfiyyətli olması zərurətləri nəzərə alınmaqla tarazlaşdırılmış yanaşmanın işlənib hazırlanması və tətbiqini nəzərdə tutur. Başqa sözlə, bu prinsip məhkəmələrin işinin surətləndirilməsinin ədalət mühakiməsinin digər fundamental prinsipləri (misal üçün, müdafiə hüququna xələl gətirilməsi) hesabına aparılmaması şərtini nəzərdə tutur.

Komissiya eyni məqsədə xidmət edən dolayı tədbirləri, ələlxüsus işlərin məhkəmələr arasında yenidən bölüşdürülməsi, işlər üzrə ərazi aidiyyətində dəyişikliklər aparılması və mübahisələrin həllinə aid alternativ üsulların tətbiqini nəzərə almaqla, məhkəmələrdə işlərə baxılması və həlli müddətlərini azaltmağa yönəlmiş xüsusi tədbirlərin işlənib hazırlanmasına başlamışdır. Bununla Komissiya vurğulamışdır ki, belə tədbirlərin, əlbəttə ki, məhkəmə işlərinə baxılması və həlli müddətinə təsirinə varmadan, qeyd edilən tədbirlər dolayı xarakter daşıyır, CEPEJ-in hazırkı sənədi ilə nəzərdə tutulan metodların isə birbaşa qeyd edilən vəzifənin icrasına təsiri mövcuddur.

Qeyd edilənlərə varmadan, məhkəmə işlərinə baxılması və həlli müddətinin qısaldılmasına yönəlmiş xüsusi metodların işlənib hazırlanması ilə bərabər, Komissiya aidiyyəti tərəfləri məhkəmə proseslərinin həddindən artıq uzun olmasına münasibətdə hərtərəfli və müfəssəl yanaşmadan istifadə etməyə çağırır. Müvafiq olaraq Komissiya təklif etmişdir ki, həm məhkəmələr tərəfindən baxılmalı işlərin sayının azalmasına gətirib çıxara bilən

tədbirlər həyata keçirilsin, həmçinin də məhkəmələr tərəfindən işlərə baxılması və həllinin keyfiyyətini yüksəltmək üçün məhkəmə orqanlarına əlavə resurslar ayrılsın.

Xüsusilə məhkəmələr tərəfindən işlərə baxılması və həlli müddətinin qısaldılması ilə bağlı CEPEJ-in tövsiyələri qeyd edilən sənədin üçüncü bölməsində təqdim olunmuşdur.

CEPEJ-in rəyinə əsasən, məhkəmələr tərəfindən işlərə baxılması və həlli müddətinin qısaldılması üçün əsas şərt məhkəmələrə ayrılan resursların (maliyyə vəsaitlərinin və kadrların) artırılmasından ibarətdir və bu məqam özünü, əsasən, hakimlərin və digər məhkəmə işçilərinin sayının artırılmasında[53] və məhkəmələrin müvafiq texniki avadanlıq və s. ilə təmin edilməsində büruzə verir. Komissiya vurğulamışdır ki, burada, sadəcə olaraq, məhkəmələrə ayrılan resursların həcminin artırılması deyil, həmçinin ayrılan resursların daha səmərəli istifadəsindən söhbət gedir. Beləliklə, təklif edilmişdir ki, sadəcə olaraq hakimlərin əməkhaqqı məbləği artırılmasın – əməkhaqqı hər bir hakim tərəfindən yerinə yetirilən iş həcminə istinadən müəyyən olunsun. Həmçinin təklif edilmişdir ki, işlərin yenidən bölgüsünü aparmaq üçün hakimlərin səlahiyyətləri genişləndirilsin, inzibati işlərə cəlb edilən məhkəmə işçilərinin peşə təliminin səviyyəsi yüksəldilsin və ümumilikdə məhkəmələrin fəaliyyəti müasirləşdirilsin.

Məhkəmələr tərəfindən işlərə baxılması və həllinə sərf edilən vaxtın azaldılması üçün digər vasitə məhkəmələrin fəaliyyətinə aid yeni qanunvericilik aktlarının məhkəmə proseslərinə sərf edilən vaxta necə təsir göstərməsini müəyyən etməkdən ibarətdir. Başqa sözlə desək, qəbul edilməsi nəzərdə tutulan qanunvericilik aktlarının ədalət mühakiməsinin ağlabatan müddət ərzində icra

[53] Daha ətraflı məlumat üçün bax:
https://wcd.coe.int/ViewDoc.jsp?Ref=CEPEJ%282005%2912&Language=lanEnglish&Ver=rev&Site=COE&BackColorInternet=eff2fa&BackColorIntranet=eff2fa&BackColorLogged=c1cbe6
https://wcd.coe.int/ViewDoc.jsp?Ref=CEPEJ%282010%2910&Language=lanEnglish&Ver=original&Site=COE&BackColorInternet=DBDCF2&BackColorIntranet=FDC864&BackColorLogged=FDC864

olunması tələbinə cavab verməsini təmin etmək məqsədilə Komissiya bu kimi qanunvericilik aktları layihələrinin qabaqcadan ekspertlər tərəfindən təhlil edilməsini təklif etmişdir.

CEPEJ-in digər bir tövsiyəsi prosessual müddətlərin proqnozlaşdırıla bilən olmasına bağlıdır. CEPEJ-in rəyinə əsasən, bu addım məhkəmə sisteminin keyfiyyətli fəaliyyətini təmin etmək üçün zəruridir və bu zaman yalnız ağlabatan müddət ərzində ədalət mühakiməsinin həyata keçirilməsi deyil, həmçinin prosessual müddətlərin proqnozlaşdırıla bilinməsi şərti əhəmiyyət kəsb edir.

CEPEJ-in təqdim etdiyi daha bir tövsiyə işlərin kateqoriyasından asılı olaraq optimal prosessual müddətlərin müəyyən edilməsinə aiddir. Ələlxüsus təklif olunmuşdur ki, işlərin hər bir kateqoriyasına aid prosessual müddətlər barədə məlumat toplansın və təhlil edilsin, nəticədə isə istifadə edilməli olan standartlar işlərə baxılması və həlli üçün sərf edilən orta vaxt əsasında deyil, mümkün olan ən qısa standartlara istinadən müəyyən olunsun.

Daha bir tövsiyə məhkəmələrin işlərə baxılması və həllinə sərf etdikləri vaxt barədə statistik məlumatın toplanması və belə məlumatın işlənməsi üçün istifadə edilən metodların təkmilləşdirilməsi, istifadə olunan informasiya texnologiyaları vasitələrinin müasirləşdirilməsidir. Burada hər bir üzv dövlətdə mərkəzləşdirilmiş qaydada məhkəmə işləri barədə statistik məlumat bazalarının yaradılması nəzərdə tutulur. CEPEJ bildirmişdir ki, belə məlumat bazalarının hazırlanması və təkmilləşdirilməsi işinə hər bir dövlətin nümayəndələri qatılmalı, məlumat geniş ictimaiyyətə təqdim olunmalıdır. CEPEJ həmçinin vurğulamışdır ki, bu işə tədris müəssisələrinin nümayəndələri də cəlb edilməli, qeyd edilmiş məsələlər haqqında təcrübə mübadiləsini aparmaq üçün beynəlxalq səviyyədə əməkdaşlıq təşkil olunmalıdır.

Məhkəmələr tərəfindən işlərə baxılması və həllinə sərf edilən müddətlərin qısaldılması məqsədilə istifadə edilə bilən vasitələrin tətbiqini təkmilləşdirmək üçün Komissiya ayrı-ayrı məhkəmələr

çərçivəsində pilot/eksperimental layihələrin icrasının vacibliyini qeyd etmişdir.

Qeyd edilənlərə əlavə kimi CEPEJ ayrıca olaraq məhkəmə prosesinin nə qədər davam edəcəyinə dair məlumatın işin tərəflərinə təqdim edilməsinə və prosessual müddətlərin, birlikdə olaraq, məhkəmə nümayəndələri və işin iştirakçıları tərəfindən müəyyən edilməsinə istinad edir. Başqa sözlə desək, Komissiya təklif etmişdir ki, işin tərəfləri onlara aid olan prosessual müddətlərin müəyyən olunmasında daha geniş çərçivədə iştirak etmək imkanı əldə etsinlər.

Təəccüblü olsa da, prosessual müddətləri Avropa İnsan Haqları Məhkəməsinin təcrübəsinə uyğunlaşdırmaq üçün istifadə edilməsi mümkün olan vasitələrdən daha biri məhkəmə qərarlarından şikayət vermək hüququnu kassasiya instansiyası ilə məhdudlaşdırmaqdan ibarətdir (qanunvericilik təfsiri və apellyasiya şikayəti). Bu tövsiyə qəti bir məhdudiyyət qoymuş olmur, dolayı xarakter daşıyır – misal üçün, tərəflərdən hansı birisə məhkəmə isinin gedişini qəsdən uzatmaq üçün hərəkətlər etdikdə cərimələrin tətbiqi və ya daha aşağı əhəmiyyətli işlərə filtrasiyası mexanizminin istifadəsi nəzərdə tutulur.

Məhkəmələr tərəfindən işlərə baxılması və həllinə sərf edilən müddətin qısaldılması üçün daha bir üsul ayrı-ayrı prosessual hərəkətlərin təkmilləşdirilməsidir. Nəticə etibarilə digər ölkələrdə artıq müvəffəqiyyətlə istifadə olunmuş və sınaqdan keçmiş prosessual hərəkətlərdən istifadə oluna bilər (misal üçün, Fransada mülki işlərdə istifadə edilən "*məhkəmədən qabaq hakim baxışı*"). Digər bir misal kimi işin qeyri-müəyyən vaxtadək təxirə salınması mümkünlüyünün yolverilməzliyi, yaxud da ki, işə baxılması təxirə salındığı halda prosesin konkret müddət ərzində bərpa edilməli olmasına dair məcburi şərtin istifadəsini göstərmək olar.

CEPEJ-in təqdim etdiyi daha bir tövsiyə məhkəmələrdə baxışını gözləyən işlərin səmərəli qaydada bölüşdürülməsinə aiddir.

Buna bənzər bir təklif məhkəmə prosesi müddətinin təkmilləşdirilməsi barədə də irəli sürülmüşdür. Belə ki, misal üçün, işin tərəfləri məhkəmə iclası və çıxışların dəqiq tarixi və vaxtı barədə məlumat almalıdır.

Komissiyanın növbəti tövsiyəsi təxirə salınmış proseslərin bərpasına aid xüsusi qayda barədədir. CEPEJ-in maraq doğuran və bizim fikrimizcə, səmərəli təklifi bundan ibarətdir ki, işlərin ərazi aidiyyəti barədə qaydalar daha çevik edilsin. Ələlxüsus burada işin onun ərazi nöqteyi-nəzərindən səlahiyyətli məhkəməyə ötürülməsini mümkün etmək məqsədilə digər bir ərazinin məhkəməsinə tapşırılması mümkünlüyü nəzərdə tutulur.

Vətəndaşların məhkəmələrin işində, xüsusən də işlərə baxılması və həllinə aid prosessual müddətlərin müəyyən olunmasında daha fəal iştirakının əhəmiyyətinə ayrıca bölmə həsr edilmişdir. Bundan başqa, təklif olunmuşdur ki, hüquq sahəsində çalışan mütəxəssislər (notariuslar, məhkəmə icraçıları) məhkəmələr daxilində işlərə baxılması və həlli işini sürətləndirmək üçün daha fəal olsunlar.

Digər bir tövsiyə məhkəmələrlə vəkillərin münasibətlərinin təhlilinə bağlıdır. Belə ki, CEPEJ qeyd etmişdir ki, bəzi üzv dövlətlərdə iddia ərizələrinin, şikayət və digər sənədlərin təqdim edilməsinə şamil olunan müddətləri vəkillər kollegiyaları ilə məhkəmələr arasında aparılan müzakirələrə əsasən müəyyən edilir. Komissiya üzv dövlətlərdə məhkəmələrlə vəkillər arasında bu kimi əməkdaşlığı inkişaf etdirməyə xidmət edən işləri həyata keçirməyə çağırır.

CEPEJ-in fikrincə, məhkəmələr tərəfindən işlərə baxılması və həllinə sərf edilən müddətlərin qısaldılmasının digər bir yolu hakim, prokuror və digər məhkəmə işçilərinin peşə səriştəsinin artırılmasıdır.

İşlərə baxılması və həllinə sərf edilən vaxtın qısaldılması işində notariusların və hüquq sahəsini təmsil edən digər peşəkarların iştirakına gəldikdə, CEPEJ tövsiyə etmişdir ki, bu sahələri təmsil edən şəxslərin rolu müvafiq normativ hüquqi aktlarla daha mü-

fəssəl surətdə tərif edilsin. Komissiya əmindir ki, bu şəxslərin iştirakı mübahisələrin daha sürətli həllinə xidmət edəcək.

Çərçivə Proqramının sonuncu bölməsi kifayət qədər maraqlıdır və qeyd edilən bölmədə Komissiya üzv dövlətlərə ünvanlanmış tövsiyələrlə Komissiyanın özünə ünvanlanmış tövsiyələr arasında fərqi müəyyən etməyə çalışmışdır.

Misal üçün, aşağıda qeyd edilmiş tövsiyələr üzv dövlətlərə ünvanlanmışdır:

- müəyyən tövsiyələr məhkəmələrə ayrılan resursların artırılmasına həsr edilmişdir (əlalxüsus baxılmış və həll edilmiş işlərin sayını nəzərə alaraq hakimlərin əməkhaqqı məbləğinin artırılması; inzibati resursların idarə olunması ilə əlaqədar məhkəmələrin səlahiyyətinin genişləndirilməsi; müasir texnologiyaların istifadəsinin inkişaf etdirilməsi);
- qanunvericilik aktlarının keyfiyyətinin qiymətləndirilməsi;
- məhkəmələr tərəfindən işlərə baxılması və həllinə sərf edilən müddətlərin proqnozlaşdırıla bilən olmasına şərait yaratmaq məqsədilə standartların işlənib hazırlanması;
- işin kateqoriyasından asılı olaraq bu kimi standartların müəyyən edilməsi;
- statistik məlumatın toplanması və mərkəzləşdirilmiş qaydada işlənməsi məqsədilə sistem yaradılması;
- prosessual müddətlərin məhkəmələr və işin tərəfləri arasında müəyyən olunması üçün sistemin təşkil edilməsi (konsensus proseduru);
- məhkəmə qərarlarından apellyasiya şikayəti vermək hüququnun məhdudlaşdırılması;
- işə baxılmasının təxirə salınması və bərpa edilməsinə aid ayrıca prosessual müddəaların təkmilləşdirilməsi;
- ayrı-ayrı işlərin kateqoriyalarına münasibətdə prioritetlərin müəyyən edilməsi;

- baxışı təxirə salınmış işlərin baxışının bərpası üçün qaydaların işlənib hazırlanması;
- işlərə ərazi aidiyyəti haqqında qaydaların daha çevik edilməsi;
- məhkəmələr tərəfindən işlərə baxılması və həllinə sərf edilən müddətlərin qısaldılması məqsədlə müxtəlif aidiyyəti tərəflərin (vəkillər, notariuslar, məhkəmə icraçıları) işə cəlb edilməsi;
- ədalət mühakiməsi sisteminin nümayəndələrinə (hakimlər, prokurorlar və digər ədliyyə işçiləri) şamil edilən peşə səriştəsi şərtlərinin yüksəldilməsi.

Eyni zamanda, aşağıda sadalanan tövsiyələr Komissiyanın özünə ünvanlanmışdır:

- tədqiqatlar aparılması, ədalət mühakiməsinin həyata keçirilməsi işində yaranan ləngimələrın səbəblərinin aşkara çıxarılması, bu kimi problemlərin Avropa İnsan Haqları Məhkəməsinin təcrübəsinə istinadən aradan qaldırılması üçün işlərin müəyyən edilməsi;
- işlərə baxılması və həllinə sərf edilən müddətlərin azaldılması işindəki təcrübə barədə biliklərin paylaşılması məqsədlə pilot məhkəmələrin işinin təşkili;
- ədalət mühakiməsinin həyata keçirilməsinə aid müddətlərin təkmilləşdirilməsi üçün qaydaların işlənib hazırlanması;
- beynəlxalq konfransların keçirilməsi, universitet mərkəzlərinin nəzdində tədqiqat şəbəkələrinin yaradılması, nəticədə işlərə baxılması və həllinə sərf edilən müddətlərin azaldılması mövzusu üzrə aparılan elmi tədqiqatların nəticələrinin dərc olunması;
- Avropa Şurası ilə Avropa İttifaqı arasında, ələlxüsus statistik məlumatın təhlili və mübadiləsi sahəsində əməkdaşlığın genişləndirilməsi.

### *3.2.3. "Məhkəmə sistemi daxilində işlərə baxılması və həlli müddətlərinin idarə olunmasına münasibətdə "ən mükəmməl çalışma qaydaları"nın Toplusu"*[54]

Üzv dövlətlərin məhkəmə sistemlərində işlərə baxılması və həllinə sərf edilən həddən uzun müddətlərlə mübarizədə CEPEJ-in növbəti təşəbbüsü məhkəmə prosesləri ilə əlaqədar işlərə baxılması və həlli müddətlərinin idarə olunmasına münasibətdə ən mükəmməl çalışma qaydalarını bir araya gətirə bilən sənədin işlənib hazırlanması olmuşdur. Yuxarıda təsvir edilmiş Çərçivə Proqramından fərqli olaraq, qeyd edilən sənəd məsləhət xarakterli deyil, tədqiqat və təhlil sənədi olmaqla, ayrı-ayrı ölkələrin məhkəmə sistemləri daxilində işlərə baxılması və həllinə sərf olunan vaxtın azaldılması üçün ən səmərəli üsulların təhlilini təqdim edir. Qeyd edilənlərə əlavə olaraq, bu sənəddə pilot məhkəmələr layihəsi çərçivəsində eksperimental CEPEJ Şəbəkəsi üçün CEPEJ tərəfindən artıq tətbiq edilmiş metodlar təsvir olunmuşdur. Sənəddə təsvir olunmuş ən mükəmməl çalışma qaydaları 2014-cü ilin sentyabr ayında keçirilmiş pilot məhkəmələrin nümayəndələrinin iclasında aktuallaşdırılmış və yenilənmişdir və c-b Marko Fabri və x-m Nadia Qarboni tərəfindən hazırlanmış "*Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Rəhbər Qaydaları – qeydlər və tətbiqi üzrə nümunələr*" adlanan yeni sənəddə verilmişdir[55].

### *3.2.4. "Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Rəhbər Qaydaları"*[56]

---

[54] *"Məhkəmə sistemi daxilində işlərə baxılması və həlli müddətlərinin idarə olunmasına münasibətdə "ən mükəmməl çalışma qaydaları"nın Toplusu"*, 6-8 dekabr 2006-cı il tarixdə Strasburq şəhərində keçirilmiş 8-ci plenar iclasda qəbul olunmuşdur, CEPEJ(2006)13.

[55] *"Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Rəhbər Qaydaları – qeydlər və tətbiqi üzrə nümunələr"*, Strasburq, sentyabr, 2014-cü il, CEPEJ-SATURN(2015)2.

[56] *"Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Rəhbər Qaydaları"*, Strasburq, 25 sentyabr 2013-cü il, CEPEJ(2008)8 Rev 3.

Yuxarıdakı bölmədə təsvir edilən Çərçivə Proqramı istisna olmaqla, SATURN Mərkəzinin əvvəlki sənədlərindən fərqli olaraq, bu sənəd sırf məsləhət xarakterlidir. Başqa sözlə desək, Çərçivə Proqramında olduğu kimi, bu sənəddə də üzv dövlətlərə ünvanlanmaqla ağlabatan müddət ərzində ədalətli mühakimənin icrası üçün tövsiyə və təkliflər yer alır. Sənədin giriş hissəsindən aydın olduğu kimi, bu sənəd işin bütün iştirakçıları üçün nəzərdə tutulub və vacib qaydalar haqqında məlumatı təqdim etməsi səbəbindən, tərcümə edilib üzv dövlətlərin məhkəmələrində baxılan işlərin hər bir iştirakçısına təqdim oluna bilər.

Əsas qayda və prinsiplər olaraq SATURN Mərkəzi tərəfindən aşağıda qeyd edilənlər müəyyən olunub:

- şəffaflıq və proqnozlaşdırma imkanı, yəni işin bütün iştirakçılarının məhkəmə prosesinə sərf edilən vaxtın idarə olunması işinə qatılması; prosesin müddətini uzada bilən hər hansı hal barədə işin iştirakçılarına məlumat verilməsi; məhkəmə prosesinin müddətini qabaqcadan mümkün qədər dəqiq təxmin etmək imkanının olması; işlərin ayrı-ayrı kateqoriyaları üzrə məhkəmə prosesinin müddəti haqqında statistik məlumatın hər bir şəxsə təqdim olunması;
- məhkəmə prosesinin optimal müddəti, yəni işə baxılması və həllinə sərf edilən vaxt deyilən işin mürəkkəbliyinə uyğun olmalıdır. Başqa sözlə desək, işlərə ağlabatan müddətdə baxılmalı və işlər ağlabatan müddət ərzində həll olunmalıdır və deyilən müddətlər nə həddindən artıq uzun, nə də həddindən artıq qısa olmalıdır. SATURN Mərkəzi hesab edir ki, bu prinsiplə proses iştirakçılarının işə baxılması və həlli üçün müddətlərin müəyyən olunmasında birbaşa iştirakı nəzərdə tutulmasa da, qeyd edilən prinsip müddətlərin ədalətli tərzdə müəyyən olunmasını, işin aid olduğu kateqoriyaya uyğun gəlməsini və qeyd edilən işə bənzər olan

digər işlərə aid müddətlərdən əhəmiyyətli dərəcədə fərqlənməməsini təmin edir. Bu prinsipin məqsədi prosesin davam edəcəyi müddət barədə prosesin hər bir iştirakçısını qane etməkdən ibarətdir;

- məhkəmə prosesi müddətinin planlaşdırılması və məlumatın toplanması işin mahiyyətindən asılı olmaqla aparılır. Qeyd ediləndən başqa, bu prinsiplər prosesin bütün iştirakçılarının bu işə qatılmasını, prosesin müddətinə uyğun qaydada məlumatın toplanması sisteminin yaradılmasını və həmin sistem üzərində monitorinqin həyata keçirilməsini nəzərdə tutur;
- məhkəmə prosesinə münasibətdə çeviklik işə baxılması və həlli müddətinin məhkəmənin baxdığı işin konkret hallarından və proses iştirakçılarının tələblərindən asılı olaraq müəyyən olunmasını nəzərdə tutur. Nəticədə Komissiya tövsiyə edir ki, qanunlar və digər normativ hüquqi aktlarla konkret və qəti müddətlər nəzərdə tutulmasın, belə konkret və qəti müddətlərdən istifadə edən ölkələrdə isə həmin müddətlər işin konkret hallarına uyğunlaşdırılsın.
- proses üzrə bütün aidiyyəti şəxslərin xoşməramlı əməkdaşlığı işə baxılması və həllinə münasibətdə optimal və proqnozlaşdırılması mümkün olan müddətlər üçün qərar verməyə imkan yaradır. Başqa sözlə desək, bu prinsiplə nəzərdə tutulmuşdur ki, həm qanunvericilik səviyyəsində, həm də müvafiq prosesin iştirakçıları səviyyəsində işə müəyyən edilmiş vaxt ərzində baxılması və həlli üçün bütün tədbirlər həyata keçirilir. Bu səbəbdən işə baxılması və həlli üçün sərf edilən vaxtın qısaldılması işində bütün tərəflər (hökumət, məhkəmə orqanları, hakimlər, proses iştirakçıları) iştirak etməlidirlər. Bu məqsədə nail olmaq üçün SATURN Mərkəzi tərəfindən həm hakim, həmçinin də vəkillərin iştirakı ilə prosessual müddətlərə dair çərçi-

və razılaşmaları sistemini işləyib hazırlamaq və razılaşdırmaq təklif edilmişdir.

SATURN Rəhbər Qaydalarında ayrıca bir bölmə qanunvericilik orqanları və müvafiq hökumət qurumlarına ünvanlanmışdır.

Burada CEPEJ məhkəmələrin üzərinə düşən iş yükünü və işlərə müəyyən edilmiş vaxt ərzində baxılması və həlli üçün məhkəmələrə imkan yaradılması zərurətini nəzərə alıb, məhkəmə sisteminin kifayət qədər vəsaitlərlə təmin olunması məsələsinin əhəmiyyətini vurğulayır. Başqa sözlə desək, məhkəmə sistemi daxilində pul vəsaitləri və resursları ayrı-ayrı məhkəmələrin qarşısında duran zərurət nəzərə alınmaqla bölüşdürülməli və səmərəli tərzdə istifadə olunmalıdır. Məhkəmələr arasında resurs bölgüsü işlərə baxılması və həllinə sərf edilən vaxtın səmərəli qaydada idarə olunmasını təşviq etdirməklə aparılmalıdır və zəruri hallarda işlərə yığılıb baxılmamış qalmasının və işlərə baxılmasında ləngimələrın qarşısının alınması üçün vəsaitlərin yenidənbölgüsü aparılmalıdır.

Məhkəmələrin təşkilinə gəldikdə, SATURN Rəhbər Qaydalarında təklif edilir ki, məhkəmə sistemi prosessual müddətlərin idarə olunması üçün məsul şəxslər aydın şəkildə müəyyən edilməlidir. Bu kimi yanaşma dəyişiklik istiqamətləri və tendensiyaları müəyyən etmək, işə baxılması və həlli müddətinə dair mənfi dəyişikliklərin baş verməsi və ya prosessual müddətlərlə əlaqədar digər problemlərin yaranmasının qarşısını almaq üçün məhkəmə daxilində işin ədalətli tərzdə və ağlabatan müddət ərzində baxılması və həllinə  məsul olan xüsusi məhkəmə məmurları bölməsinin yaradılmasını nəzərdə tutur.

Qeyd edilənlərdən başqa, SATURN Mərkəzi maddi hüquqda müsbət dəyişikliklər etmək zərurətində israrlıdır. Qanunvericilik müddəaları dəqiqləşdirilməli və sadələşdirilməli, nəticədə müvafiq müddəaların tətbiqi işindəki çətinliklər aradan qalxmalıdır. Bu məsələ ilə əlaqədar üzv dövlətlərin qanunverici orqanları yeni normativ hüquqi aktların məhkəmələrin üzərinə

düşən iş yükünə təsirini araşdırmalı və işlərə baxılmamış qalması və ya işlərə baxılması zamanı fasilələrin yaranmasına gətirib çıxara bilən dəyişikliklərdən yan keçməlidir.

Prosedur qaydalarına gəldikdə, SATURN Mərkəzi tərəfindən daha müfəssəl məlumat təqdim olunmuşdur. Prosedur qaydaları belə hazırlanmalıdır ki, onların təcrübədə tətbiqi problem yaratmasın. Eyni ilə işə baxılması və həlli prosesinə münasibətdə çətinliklər yarada bilən prosedur qaydaları istisna edilməli və ya onlarda dəyişikliklər edilməlidir. Bu mövzu ilə əlaqədar SATURN Mərkəzi üzv dövlətlərə prosedur qaydalarına münasibətdə Avropa Şurası tərəfindən qəbul olunmuş sıra qaydaları nəzərə almağı və onlara riayət etməyi təklif edir. Digər bir tövsiyə bundan ibarətdir ki, prosessual qanunvericilikdəki dəyişikliklər bütün aidiyyəti şəxslərin (əsasən də hakimlərin) iştirakı ilə qəbul olunmalıdır. Həmçinin ikinci instansiya məhkəmələrində işə sürətli baxılması imkanlarının genişləndirilməsi və xırda mübahisələr üzrə şikayətvermə hüququnun məhdudlaşdırılması, eyni zamanda daha yuxarı instansiyaları təmsil edən məhkəmələrə müraciət etmək hüququnun yalnız xüsusi əhəmiyyət kəsb edən hallarda nəzərdə tutulması təklif olunmuşdur.

SATURN Rəhbər Qaydaları ilə həmçinin məhkəmələrin işinin idarə olunması üçün məsul olan dövlət qurumlarının (əsasən üzv dövlətlərin ədliyyə nazirliklərinin) işi də təhlil olunmuşdur. Bu məsələ ilə əlaqədar, SATURN Mərkəzi tövsiyə edir ki, məhkəmələrin və proses iştirakçılarının prosesə sərf etdikləri vaxtın lazımi qaydada idarə olunmasına şərait yaratmaq üçün məhkəmələr və proses iştirakçıları arasında vəzifə bölgüsü aparılmalıdır. Digər bir fəaliyyət istiqaməti statistik məlumat üzərində monitorinq aparılmasından ibarətdir ki, burada əsas və əksər vəzifələri məhkəmələrin işinin idarə olunması üçün məsul olan dövlət qurumları daşıyır. Əlalxüsus SATURN Mərkəzi *"Məhkəmələr tərəfindən işlərə baxılması və həlli üzrə Vahid Avropa Qaydaları"*na uyğun olaraq monitorinq sistemi-

nin, o cümlədən ölkə səviyyəsində mərkəzləşdirilmiş məlumat bazasının yaradılmasını təklif etmişdir[57]. İşlərə baxılması və həlli müddətlərinin qısaldılması məqsədilə üzv dövlətlərə konkret tədbirlərlə çıxış etmək təklif olunub. Hökumət orqanları məhkəmə tərəfindən işə ağlabatan müddət ərzində baxılması və həlli üçün insan hüququnun pozulmasına dair iddia irəli sürməyə imkan verə biləcək, işin ağlabatan müddət ərzində baxılmaması və həll olunmamasına gətirib çıxaran hallara daha çox diqqət yetirməlidir. SATURN Mərkəzinin üzv dövlətlərə təqdim etdiyi digər bir tövsiyə məhkəmələrdə işlərə baxılması və həlli müddətlərinin qısaldılması üçün yeni texnologiyalardan (əsasən video konfrans, sənədlərin məsafədən idarə olunması, proses iştirakçıları ilə məsafədən əlaqə, o cümlədən elektron poçt vasitəsilə və s.) istifadə ilə bağlıdır. Nəhayət, məhkəmələrin fəaliyyəti üçün məsul olan vəzifəli şəxslər prosesdə ləngimələrə səbəb olan və hərəkətləri məhkəmələrdə işlərə baxılması və həlli müddətlərinin idarə olunması ilə əlaqədar müəyyən edilmiş standart və məqsədlərə riayət edilməsi işinə mənfi təsir edə bilən şəxsləri müvafiq məsuliyyətə cəlb etməlidir.

Qanunverici və yerli hökumət orqanlarına əlavə olaraq SATURN Mərkəzi məhkəmə rəhbərləri üçün bir sıra tövsiyələr hazırlamışdır. Misal üçün, məhkəmə rəhbərləri işlərə baxılması və həlli barədə, prosesdə baş verən ləngimələr haqqında məlumatı toplamalı, Komissiya tərəfindən tərtib edilmiş *"İşlərə baxılması və həlli müddətlərinin idarə olunması üzrə Suallar Toplusu"*na uyğun hərəkət etməlidirlər. Bu qaydada toplanmış məlumat məhkəmə sisteminin fəaliyyətinin səmərəliliyini artırmaq və ədalət mühakiməsinin ağlabatan müddət ərzində icra edilməsinə təminat vermək məqsədilə daim təhlil olunmalıdır. Bu məlumat hər kəsin tanış olması üçün məhkəmələrin fəaliyyətinə aid hesabatlar formasında İnternet vasitəsilə dərc olunmalıdır. Ölkə

[57] Bu qaydalar *"Məhkəmə vaxtının idarə olunması üzrə yenilənmiş SATURN Rəhbər Qaydaları"*na Qoşmada verilmişdir.

səviyyəsində məqsədlərin və konkret standartların müəyyən edilməsinə əlavə olaraq, SATURN Mərkəzi həmçinin təklif etmişdir ki, ayrı-ayrı məhkəmələrin səviyyəsinə aid olan məqsədlər də müəyyənləşdirilsin. Bu məqsədlər daim nəzarətdə saxlanılmalı, müvafiq məhkəmənin işinin qiymətləndirilməsinin əsası olmalıdır. Nəhayət, məhkəmələrə böhranlı vəziyyətlərin idarə olunmasının (ədalət mühakiməsinin həyata keçirilməsi işində sürəkli ləngimələr və işlərin ayrı-ayrı kateqoriyalarına münasibətdə məhkəmələr tərəfindən müəyyən edilmiş prosessual müddətlərdən kənaraçıxmalarla mübarizənin) metodlarını işləyib hazırlamaq təklif edilmişdir.

Nəhayət, SATURN Mərkəzi tərəfindən hakimlərin özlərinə aid bir sıra tövsiyələr işlənib hazırlanmışdır. Bu mövzu ilə bağlı ağlabatan müddət ərzində ədalət mühakiməsinin həyata keçirilməsini təmin etmək məqsədilə hakimlərə kifayət qədər səlahiyyətlərin təqdim olunması nəzərdə tutulub. Xüsusən nəticə etibarilə hakimlər hər bir işə münasibətdə müəyyən prosessual hərəkətin yerinə yetirilməsi üçün konkret müddət təyin etmək hüququna malik olmalıdırlar. Qeyd edilənlərə əlavə olaraq məsləhət görülür ki, vaxta qənaət etmək məqsədilə məhkəmə qərarlarının yazılması işində hakimlərə köməklik göstərə bilən xüsusi proqramlar hazırlansın. Digər bir tövsiyə "Prosessual müddətlər" barədə tərəflər və vəkillərlə razılaşma əldə olunmasıdır ki, bu, aidiyyəti şəxslərə işin baxılması və həlli müddətinin idarə olunmasında iştirak etmək imkanı verəcək. Bu məsələ ilə əlaqədar hakimlərə digər aidiyyəti şəxslər – ekspertlər, şahidlər və b. ilə əməkdaşlıq etmək və monitorinqi birlikdə həyata keçirmək tövsiyə olunur. Bundan başqa, SATURN Mərkəzi məhkəmə prosesinə müdaxilə halları, yəni ədalət mühakiməsi prosesinin sui-istifadə halları ilə mübarizə aparmağı tövsiyə edir. Cəza tədbirləri ayrı-ayrı şəxslərə (həm işin tərəflərinə, həmçinin də onların nümayəndələrinə (vəkillərə)) tətbiq edilə bilər. Bu məqamla bağlı SATURN Mərkəzi vəkilin

yol verdiyi hər hansı belə nöqsan haqqında Vəkillər Kollegiyasına məlumat təqdim etməyi tövsiyə edir. Və nəhayət, vaxta qənaət etmək qərarların çıxarılması üçün əsas kimi qəbul edilən halların təsviri qısa və konkret olmalıdır.

SATURN Rəhbər Qaydalarına iki çox mühüm sənəd aiddir: *"Tətbiqetməyə dair Təlimat"*[58] və *"Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Rəhbər Qaydalarına dair qeydlər və onların tətbiqinə dair nümunələr"*. Birinci sənəddə Qaydaların tətbiqi metodologiyası təsvir edilmişdir. Burada üç əsas tədbirdən bəhs olunur:

- Qaydaların hər bir məqamının icra dərəcəsinin təhlili (tam icra edilmişdir; qətiyyən icra edilməmişdir; qismən icra edilməmişdir; ümumilikdə götürdükdə, icra edilməmişdir, lakin eyni nəticəyə çatmaq üçün digər prosedur/qayda mövcuddur; hələ ki icra edilməmişdir, lakin icra nəzərdə tutulub).
- Qaydaların icra edilməmiş qalan və ya qismən icra edilmiş şərtlərinin icrasını təmin etmək məqsədilə bir, yaxud bir neçə layihənin müəyyən olunması və həyata keçirilməsi.
- Layihənin (layihələrin) cari vəziyyəti və beləlri olduğu halda CEPEJ sənədlərinin müddəalarının icrasına təcrübədə yaranan maneələr haqqında daha müfəssəl məlumat almaq üçün hesabatların təqdim olunması. Aşağıdakı 3.5-ci bənddə bəzi pilot məhkəmələr tərəfindən istifadə edilən metodologiyaların sınağına aid nümunələr verilmişdir.

### *3.2.5. "Məhkəmə vaxtının idarə olunması üzrə SATURN vasitələrinin (sənədlərinin) tətbiqinə dair Hesabat"*[59]

---

58 *"Məhkəmələrdə vaxtın idarə olunması üzrə SATURN vasitələrinin (sənədlərinin) tətbiqi"*, CEPEJ-SATURN(2011)9Prov3.

59 *"Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Mərkəzinin vasitələrinin (sənədlərinin) tətbiq olunması haqqında Hesabat"*, 9-cu iclas, Strasburq, 9 və 20 may

Bu hesabat SATURN Mərkəzinin tövsiyələrinin icrası ilə əlaqədar eksperimental/pilot məhkəmələrin işinin nəticələri haqqında məlumatı təqdim edir. Başqa sözlə desək, bu hesabatda fəaliyyətləri ilə bağlı, eksperimental əsasda, məhkəmələrdə işlərə baxılması və həlli müddətlərinin idarə olunması üçün SATURN Mərkəzi tərəfindən verilmiş tövsiyələri tətbiq edən ayrı-ayrı dövlətlərin məhkəmələrinin fəaliyyəti barədə ümumi məlumat verilmişdir. İlk növbədə qeyd edilən fəaliyyət SATURN Mərkəzinin yuxarıda qeyd edilmiş iki sənədinin şərtlərinin icrasını nəzərdə tutur:

- *"İşlərə baxılması və həlli müddətlərinin idarə olunması üzrə Suallar Toplusu: SATURN İşçi Sənədi";*
- *"Məhkəmə vaxtının idarə olunması üzrə yenilənmiş SATURN Rəhbər Qaydaları".*

Məhkəmə sistemi daxilində işlərə baxılması və həlli müddətlərinin qısaldılması məqsədilə özünün nəzəri təkliflərinin təcrübədə tətbiqi üzrə tədqiqatlar sayəsində SATURN Mərkəzi tövsiyələrinin təcrübədə icrası barədə konkret məlumatları əldə etməyə müvəffəq olmuşdur. Başqa sözlə desək, adıçəkilən hesabat SATURN Mərkəzinin tövsiyələrinin köməkliyi ilə eksperimental/pilot məhkəmələr tərəfindən ayrı-ayrı ölkələr səviyyəsində aparılan təhlillərə həsr edilmişdir. Hesabatda təqdim olunan təhlil nəticələri məhkəmə sistemi daxilində işlərə baxılması və həlli müddətlərinin qısaldılması üçün SATURN Mərkəzinin tövsiyələrinin icrasını həyata keçirən eksperimental/pilot məhkəmələrin nümayəndələri ilə görüşlər və müvafiq araşdırmalar əsasında əldə edilmişdir.

SATURN Mərkəzi tərəfindən işlənib hazırlanmış və eksperimental/pilot məhkəmələr tərəfindən qəbul edilmiş tövsiyələrin icrasının təhlili SATURN Mərkəzi tərəfindən tərtib olunmuş metodologiya əsasında həyata keçirilir[60]. Qeyd etmək lazımdır ki,

2011-ci il, CEPEJ – SATURN Mərkəzi (2011)2.

[60] *"Seçilmiş pilot məhkəmələrdə SATURN vasitələrinin (sənədlərinin) sınaq tətbiqi"*, CEPEJ – SATURN Mərkəzi (2010)1, 7-ci iclasda, Strasburq şəhərində 29 mart

həmin təhlil məhkəmə sistemi daxilində işlərə baxılması və həlli müddətlərinin idarə olunması üçün SATURN Mərkəzi tərəfindən təqdim olunan bütün tövsiyələr üzrə aparılmamışdır. Bundan başqa, qeyd etmək lazımdır ki, hesabatın yeganə mövzusu pilot məhkəmələrin təcrübəsini təsvir etmək deyil. Xüsusən SATURN Mərkəzi tərəfindən proqramda iştirak etmək arzusunda olan pilot məhkəmələr və iş yükü, habelə baxdığı işlərə sayı həddindən artıq yüksək olan məhkəmələr seçilmişdir. Buna əlavə olaraq məhkəmələrə münasibətdə tədqiqatlar vahid qiymətləndirmə sxeminə uyğun surətdə aparılmışdır ki, qeyd edilən sxem daxilində pilot məhkəmənin nümayəndəsinə SATURN Mərkəzinin məhkəmə sistemi daxilində işlərə baxılması və həlli müddətlərinin idarə olunması üçün işləyib hazırladığı tövsiyələr, habelə həmin tövsiyələrin icrasının nə qədər səmərəli olması haqqında bir neçə sual verilmişdir.

SATURN Mərkəzinin hesabatında həmçinin məhkəmə sistemi daxilində işlərə baxılması və həlli müddətlərinin idarə olunması üzrə tövsiyələrin icrası haqqında məlumatın toplanması və işlənməsinə aid konkret metodologiya verilmiş, həmin metodologiyanın müfəssəl izahı təqdim edilmişdir. Müvafiq olaraq, sənəddə məhkəmə sistemi daxilində işlərə baxılması və həlli müddətlərinin idarə olunması üzrə tövsiyələrin təhlili üzrə ümumi səmərəlilik prinsipləri təsvir edilir; toplanmış məlumatın məhkəmələr tərəfindən SATURN Mərkəzinə hansı qaydada təhvil verilməsinin xüsusi şərtləri açıqlanır. Müəlliflər müqayisəli təhlilin ayrı-ayrı məqamlarının mürəkkəbliyinə istinad edir və qeyd edirlər ki, bəzi məhkəmələr tövsiyələri, digər məhkəmələrlə müqayisədə, daha mükəmməl qaydada icra etmişlər. Nəticə etibarilə SATURN Mərkəzi layihə iştirakçıları olan ayrı-ayrı pilot məhkəmələrin işinin təhlilinin nəticələrini müqayisəli əsasda deyil, hər bir məhkəmə üzrə ayrılıqda təqdim etmişdir. Əslində, ayrı-ayrı məhkəmələr tərəfindən işlərə baxılması və həlli müd-

2010-cu il tarixdə qəbul edilmişdir.

dətlərinin idarə olunması üzrə tövsiyələrin icrasında fərqlər o qədər böyükdür ki, müqayisəli təhlili həyata keçirmək SATURN Mərkəzi üçün çox çətin bir iş olacaqdı.

Eksperimental/pilot məhkəmələr tərəfindən təqdim olunan, bu bölmədə təsvir edilən, SATURN Mərkəzi tərəfindən hazırlanan hesabatın əsasını təşkil edən hesabatlar Çexiya Respublikası, İngiltərə, Gürcüstan, İtaliya, Norveç və İsveçrə məhkəmələri tərəfindən hazırlanmışdır. SATURN Mərkəzi qeyd edilən pilot məhkəmələrin hər biri tərəfindən təqdim edilmiş hesabatı müfəssəl qaydada təhlil etmiş və pilot məhkəmədə işlərə baxılması və həlli müddətlərinin idarə olunması üçün istifadə edilmiş metodları ölkə səviyyəsində istifadə edilən metodlarla müqayisə etmişdir. Buna əlavə olaraq SATURN Mərkəzi ölkə qanunvericiliyinin məhkəmələrdə işlərə baxılması və həlli müddətlərinin idarə olunması üçün istifadə edilə bilən metodlara aid müddəalarının SATURN Mərkəzinin qəbul etdiyi müvafiq standart və qaydalara nə qədər cavab verməsini araşdırmışdır. Misal üçün, İtaliyada tətbiq edilən prosessual qaydalara gəldikdə, mövcud məhkəmə hakimiyyəti daxilində işlərə bir məhkəmədən digərinə köçürülməsi və prosessual müddətlərin idarə olunması üçün hansı tədbirlərin həyata keçirilməsini müəyyən etməkdən ötrü SATURN Mərkəzi İtaliyanın mülki-prosessual məcəlləsinin müddəalarının təhlilini aparmışdır. Bu məsələ ilə əlaqədar SATURN Mərkəzi belə bir qənaətə gəlmişdir ki, qanunvericiliklə İtaliyanın bütün hakimlərinə məhkəmə prosesini sürətləndirmək üçün kifayət qədər səlahiyyət təqdim olunub və İtaliya hakimləri işlərə ağlabatan müddət ərzində baxmaq imkanındadır.

Qeyd edilənlərdən başqa, SATURN Mərkəzi məhkəmə prosesinin müddətini qısaltmaq üçün İtaliyanı təmsil edən pilot məhkəmə (Turin məhkəməsi) tərəfindən tətbiq edilən daxili prosessual qaydaların təhlilini həyata keçirmişdir. İşlərin bir məhkəmədən digərinə köçürülməsi üçün hakimlərin fəal roluna əlavə olaraq

hesabat müəllifləri həmçinin aşağıda qeyd edilmiş mövzulara toxunmuşlar: prosessual müddətlərin ayrı-ayrı işlərin hallarına uyğunlaşdırılması; prosessual müddətlər haqqında hakimlə prosesin iştirakçıları arasında əldə edilən razılaşmalar; prosesin digər iştirakçıları tərəfindən həyata keçirilən müşahidələr (şahid, ekspert və s.); proses iştirakçılarının yol verdiyi prosessual qayda pozuntuları üzrə cəza tədbirləri; və nəhayət, məhkəmənin qərarının tərtib olunması. Beləliklə, İtaliyanı təmsil edən pilot məhkəmənin təqdim etdiyi hesabat SATURN Mərkəzinin tədqiqatının məqsədləri üçün ən maraqlı hesab olmuşdur.

Nəticədə SATURN Mərkəzinin ekspertləri və eksperimental/ pilot məhkəmənin nümayəndələri tərəfindən həyata keçirilən, müvafiq hesabatlarda əksini tapan işin nəticələri, məhkəmələrdə işlərə baxılması və həlli müddətlərinin idarə olunması üzrə SATURN Mərkəzinin tövsiyələrinin icrası və həmin tövsiyələrin təcrübədə tətbiqi zamanı yaranan çətinliklərin müəyyən olunmasına imkan vermələri səbəbindən kifayət qədər müsbət qiymətləndirilmişdir. Qeyd edilənlərdən başqa, pilot məhkəmələr tərəfindən təqdim olunan məlumat SATURN Mərkəzinə tətbiqi müsbət nəticələrə gətirib çıxarmayan və ya nəticələri qeyri-məqbul hesab olunmuş işlərə baxılması və həlli müddətlərinin idarə olunması üzrə tövsiyələrdə dəyişikliklər etmək imkanı vermişdir.

Pilot məhkəmələrin hesabatlarına istinadən, SATURN Mərkəzi belə qənaətə gəlmişdir ki, məhkəmələrin əksəriyyəti SATURN Mərkəzi tərəfindən məhkəmələrdə işlərin hazırlanması müddətlərinin idarə olunması metodları ilə tanış deyil. Buna baxmayaraq, müəlliflər qeyd etmişlər ki, hazırda, demək olar, bütün üzv dövlətlərdə ağlabatan müddət ərzində ədalət mühakiməsinin həyata keçirilməsini təmin etməyə yönəlmiş xüsusi qayda və tədbirlər mövcuddur. SATURN Mərkəzi həmçinin inanır ki, işlərin həllinə sərf edilən müddəti qısaltmaq üçün digər bir yol məhkəmələrə ayrılan resursların, o cümlədən elektron avadanlıqların və kadrların sayının artırılmasıdır.

SATURN Mərkəzi tərəfindən həmçinin qeyd edilmişdir ki, Mərkəz tərəfindən işlərə baxılması və həlli müddətlərinin idarə olunmasına münasibətdə tövsiyələrin icrası işində böyük problem dil amilidir. Misal üçün, müəlliflər qeyd etmişlər ki, Çexiyanın təqdim etdiyi hesabatda qeyd olunur ki, CEPEJ-in (xüsusən də SATURN Mərkəzinin) əsas sənədləri ingilis və fransız dillərində hazırlanmışdır, bu isə Avropa Şurasının qəbul etdiyi qaydaların ölkə qanunvericiliyinə inteqrasiya etməsinin qarşısını alır. Qeyd etmək lazımdır ki, bu problem xüsusən məhkəmələrdə işlərə baxılması müddətlərinin idarə olunması üzrə tövsiyələrin tətbiqi məqsədilə seçilmiş və müvafiq işləri yerinə yetirmiş məhkəmələr tərəfindən qeyd edilmişdir və fərz etmək olar ki, müvafiq ölkələrin qalan məhkəmələrinə münasibətdə bu tövsiyələrin icrası işində daha böyük problemlər müşahidə olunacaq.

Aydındır ki, SATURN Mərkəzi tərəfindən işlərə baxılması və həlli müddətlərinin idarə olunması ilə əlaqədar işlənib hazırlanmış tövsiyələrin icrası işində əsas problem məhkəmələrin üzərinə düşən iş yükünün həcmi, kadr və digər resurs çatışmazlığıdır. Həmçinin qeyd edilmişdir ki, məhkəmələrin fəaliyyətində müasir kompüter texnologiyalarının tətbiqi hakimlərin inzibati xarakterli (ədalət mühakiməsinin həyata keçirilməsi ilə birbaşa əlaqəsi olmayan) işini artırmışdır, bu isə hakimlərin əsas vəzifələrinin hesabına baş vermişdir. Digər problem bundan ibarətdir ki, ayrı-ayrı ölkələrdə (misal üçün, Norveçdə) məhkəmə baxışı başlanana qədər aparılan rəsmi hərəkətlər nəzərə alınmır, lakin ədalət mühakiməsinin həyata keçirilməsi işində ləngimələrə gətirib çıxaran əsas səbəb elə məhz qeyd edilən rəsmi hərəkətlərdir.

Hesabatın son bölməsində SATURN Mərkəzi işlərə baxılması və həlli müddətlərinin idarə olunması üçün nəzərdə tutulmuş təkmilləşdirici təkliflərin ölkə səviyyəsində məhkəmə sistemi çərçivəsində tətbiqi ilə bağlı bir sıra tövsiyələrlə çıxış etmişdir. Həmin tövsiyələr aşağıda qeyd olunur:

- SATURN Mərkəzinin təkliflərinin üzv dövlətlərin dillərinə tərcümə edilməsi və ən geniş dairəyə çatdırılması;
- SATURN Mərkəzinin icra edilməmiş qalan tövsiyələrinin müəyyən olunması və həmin tövsiyələrin icrası məqsədilə müvafiq hərəkətlərin həyata keçirilməsi;
- məhkəmə proseslərinin müddəti üzərində müşahidələr aparmaq üçün elektron nəzarət xidmətinin yaradılması;
- vəkillərin fəaliyyətinin prosesin sürətləndirilməsinə xidmət etməsini təmin etmək məqsədilə vəkillər kollegiyaları ilə razılaşmaların əldə edilməsi;
- hüquqi məsləhət xidmətlərinin haqqının ödənilməsi sisteminin dəyişdirilməsi, ödənişin məbləğlə eyni iş üzrə vəkil tərəfindən hazırlanmış sənədlərin və ya vəkilin iştirak etdiyi iclasların sayı arasında əlaqənin ləğv olunması;
- məhkəmələrdə işlərə baxılması və həlli müddətlərinin idarə olunması mövzusunun ali təhsil müəssisələrinin hüquq ixtisası üzrə tədris proqramlarına daxil edilməsi.

Sonda SATURN Mərkəzi qeyd edir ki, məhkəmələrdə işlərə baxılması və həlli müddətlərinin idarə olunması üzrə tövsiyələrin ayrı-ayrı ölkələrin məhkəmə sistemləri səviyyəsindəki tətbiqi işi təkmilləşdirmə tələb edir. Bundan başqa, tövsiyələrin icrası üzrə məlumatın təhlili təcrübədə rast gəlinən problemlərin aşkara çıxarılmasını və artıq müəyyən edilmiş problemlər əsas götürülməklə, müvafiq tövsiyələrə dəyişikliklər edilməsi işini ləngidir.

Son illər ərzində SATURN Mərkəzinin, habelə CEPEJ-in digər qurumlarının təqdim etdiyi tövsiyələrin icrası üçün istifadə edilən metodologiyalar bir çox ölkədə müvəffəqiyyətlə istifadə olunmuşdur – misal üçün, Almaniyada (Frayburq Breysqau məhkəməsində), İtaliyada (Sirakuz məhkəməsində), Yunanıstanda (Saloniki məhkəməsində), habelə bütövlükdə ölkə üzrə Mərakeş, Albaniya və Xorvatiyanın məhkəmə sistemlərinə münasibətdə.

SATURN Mərkəzinin qarşısında duran məram və müəyyən edilmiş strategiyaya əsasən Mərkəzin növbəti məqsədi ilk növbədə ayrı-ayrı prosessual müddətlər, sonradan isə işlərin ayrı-ayrı kateqoriyaları üçün ayrı-ayrı prosessual müddətlərin hədlərini müəyyən etməkdir.

# FƏSİL 4

## Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının Avropa dövlətlərində məhkəmə sistemlərinin fəaliyyətinin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş fəaliyyəti

### *4.1. Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL)*

Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə Komissiya tərəfindən Avropa Şurasına üzv dövlətlərin məhkəmə sisteminin fəaliyyətinin keyfiyyətini yüksəltmək məqsədilə yaradılmışdır. 2007-ci ildən fəaliyyət göstərən bu komitənin işinin əsas məqsədi ədalət mühakiməsinin həyata keçirilməsini təkmilləşdirmək üçün üzv dövlətlərin məhkəmə sistemlərinin fəaliyyətinin qiymətləndirilməsində istifadə edilən müxtəlif analitik vasitələrin işlənib hazırlanmasından ibarətdir.[61] Bu məqsədə nail olmaq üçün Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə aşağıdakı vəzifələri yerinə yetirir:

- məhkəmə sisteminin fəaliyyətinin keyfiyyətinə münasibətdə göstərici, meyar və qiymətləndirmə metodlarının işlənib hazırlanması və təkmilləşdirilməsi;

[61] Daha ətraflı məlumat üçün bax: *"CEPEJ-in 2014-2015-ci illər üzrə Fəaliyyət Proqramı"*, *"Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitənin (CEPEJ-GT-QUAL) Əsasnaməsi"*, CEPEJ-in Strasburq şəhərində, 6 dekabr 2013-cü il tarixində keçirilmiş 22-ci plenar iclasında qəbul edilmiş əlavə və dəyişikliklərlə, CEPEJ(2013)12.

- məhkəmə işinin təkmilləşdirilməsi, xüsusən vətəndaşların məhkəmələrə müraciət etmək və məhkəmə qərarlarının icrasına nail olmaq imkanlarının genişləndirilməsi üçün tədbirlərin işlənib hazırlanması;
- məhkəmə işində funksional problemlərin həll olunması və ədalət mühakiməsinin həyata keçirilməsinin keyfiyyətinin yüksəldilməsi üçün məhkəmələr arasında iş yükünün bölüşdürülməsi məqsədilə tədbirlərin işlənib hazırlanması.

Vəzifələrini yerinə yetirmək üçün Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə aşağıda qeyd olunan işləri yerinə yetirir:

- üzv dövlətlərin məhkəmə fəaliyyətindən vətəndaşların nə dərəcədə məmnun qaldıqlarını müəyyən etmək məqsədilə özünün tövsiyələrinin hansı səviyyədə icra olunmasını aşkar etmək üçün məhkəmələrə müraciət edən vətəndaşlar arasında məmnunluq rəy sorğularının keçirilməsi;
- üzv dövlətlərin məhkəmələri tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar keyfiyyət göstəriciləri və səviyyələrinin sınaqdan keçirilməsi;
- məhkəmə ekspertlərinin işinin keyfiyyətinin yüksəldilməsi məqsədilə tədbirlərin işlənib hazırlanması;
- məhkəmələrə müraciət etmək üçün imkanların genişləndirilməsi sahəsində normativ sənədlərin hazırlanması;
- məhkəmə qərarlarının icrası işinin təkmilləşdirilməsi sahəsində normativ sənədlərin hazırlanması;
- ədalət mühakiməsinin keyfiyyətini yüksəltmək məqsədilə digər tədbirlərin görülməsi;
- CEPEJ-in tövsiyə xarakterli sənədlərinin üzv dövlətlərin dillərinə tərcüməsi işində köməklik göstərilməsi.

CEPEJ-in digər komitələri kimi, Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə də Avropa Şurasının müxtəlif üzv

dövlətlərini təmsil edən CEPEJ-in altı ekspert üzvündən ibarətdir[62]. Qeyd edilənlərə əlavə olaraq, komitə digər (kənar) ekspertlərin və beynəlxalq birlik və təşkilatların xidmətlərindən də istifadə edə bilər, lakin bu şəxslərin fəaliyyəti yalnız CEPEJ-in bu strukturuna köməklik göstərməkdən ibarətdir və onlar səs vermək hüququna malik deyillər. Misal üçün, Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitənin fəaliyyətində aşağıda qeyd edilmiş təşkilatları təmsil edən müşahidəçilər iştirak edir: Avropa Məhkəmə Ekspertizası və Ekspertlər İnstitutu, Avropa Məhkəmə Şuraları Şəbəkəsi, Avropa Məhkəmə İcraçıları ("Rechtspfleger") Birliyi, Məhkəmə İşçilərinin Beynəlxalq Birliyi, Avropa Vəkillər Kollegiyası və Hüquqşünaslar Təşkilatları Şurası. Digər komitələrdə olduğu kimi, CEPEJ Prezidenti və Avropa Birliyinin müəyyən qurumları da Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitənin fəaliyyətində iştirak edə bilərlər. Eyni zamanda, bu komitənin fəaliyyətində Dünya Bankının da nümayəndələri iştirak edir.

Qeyd etmək lazımdır ki, CEPEJ-in digər komitələri olan SATURN Mərkəzindən, Mediasiya üzrə Komitəsindən və ya Məhkəmə qərarlarının icrası üzrə Komitəsindən fərqli olaraq, Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə kifayət qədər müxtəlifliyi ilə seçilməkdədir. Fikrimizcə, "ədalət mühakiməsinin keyfiyyəti" məfhumu kifayət qədər geniş məna kəsb edir və məhkəmə, işinin bir çox müxtəlif məqamlarını əhatə edir. Müvafiq olaraq, bu qrupun fəaliyyəti yalnız məhkəmə prosesi, hakimlərin

[62] Daha müfəssəl məlumat üçün bax: CEPEJ, CEPEJ-in komitələrinin 2014-2015-ci illər üçün tərkibi, CEPEJ(2014)6, Strasburq, 24 yanvar 2014-cü il. Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə aşağıda adları qeyd edilən ekspertlərdən ibarətdir: Joao Arsenio De Oliveyra (hüquq müşaviri, Portuqaliya Ədliyyə Nazirliyinin siyasi məsələlər üzrə Baş Direktorluğu); Fabio Bartolomeo (statistik məlumat üzrə direktor, İtaliyanın Ədliyyə Nazirliyi), Anke Eylers (Almaniyanın Köln Apellyasiya Məhkəməsinin hakimi), Nikolina Mişkoviç (Xorvatiyanın Rıyeka Kommersiya Məhkəməsinin hakimi), İoannis Simeonidis (Apellyasiya Məhkəməsinin hakimi və Yunanıstanın Saloniki Universitetinin Hüquq fakültəsinin professoru). Hazırda komitəyə sədrliyi İsveçrədən olan ekspert, hüquq elmləri doktoru Fransua Peyşer edir (İsveçrənin və Cenevrə kantonunun Auditorlar Məhkəməsinin Prezidenti).

statusu, qərarların icrası və s. məsələlərlə məhdudlaşmır. Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitənin fəaliyyətinin həcmi və intensivliyini müəyyən edən də məhz bu xüsusiyyətdir.

## *4.2. Avropa dövlətlərində məhkəmə sistemlərinin fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi sahəsində hazırlanmış sənədlər*

### *4.2.1. "Ədalət mühakiməsi və məhkəmə fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi üzrə Yoxlama Siyahısı"*[63]

Bu sənəd iki əsas məqsədə xidmət edir: bir tərəfdən bu sənəd metodoloji topludur: o, məhkəmə işinin keyfiyyəti haqqında toplanmış məlumatın qiymətləndirilməsinin beş sahəsini müəyyən edir; digər tərəfdən isə analitik sənəddir: siyahı məhkəmə işinin müxtəlif məqamlarının təhlilini aparmağa imkan verir. Adından da aydın olduğu kimi, bu sənəd həm ümumilikdə məhkəmə sisteminə, həmçinin də ayrı-ayrılıqda məhkəmələrə və hakimlərə aiddir. Sənəd məhkəmə hakimiyyətinə münasibətdə ümumi siyasət məsələlərinin müəyyən və idarə edilməsi üçün məsul olan dövlət orqanları (ədliyyə nazirlikləri, məhkəmələr və s.) üçün nəzərdə tutulmuşdur.

Qeyd edilən sənəd aşağıdakı mövzuları əhatə edir:

- məhkəmə sisteminin quruluşu, yəni üzv dövlətin ərazisi daxilində məhkəmənin coğrafi yerləşməsi və ya "məhkəmə xəritəsi";
- kadrlar məsələsi, yəni hakimlərin sayı və səriştəsi ilə bağlı olan məqamlar;
- məhkəmələrə ayrılan maliyyə yardımı və məhkəmələr üçün nəzərdə tutulan texniki dəstək;
- ədalət mühakiməsinə aid ayrı-ayrı məsələlər: işlərə təyin edilməsi və təkrar bölüşdürülməsi; məhkəmə prosesinin aparılmasının təkmilləşdirilməsi; vətəndaşların ədalət mühakiməsinin həyata keçirilməsi prosesinə qatılması və s.;

[63] Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL), *"Ədalət mühakiməsi və məhkəmə fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi üzrə Yoxlama Siyahısı"*, Strasburq, 2-3 iyul 2008-ci il, CEPEJ(2008)2E.

- vətəndaşların məhkəmə fəaliyyətindən məmnunluğu.

Qeyd etmək lazımdır ki, bu sənəd müvafiq ölkənin məhkəmə sisteminin fəaliyyətinin təkmilləşdirilməsi üzrə dövlət siyasətini müəyyən etmək üçün suallar əsasında tərtib edilmişdir. Məhkəmə nümayəndələri tərəfindən təqdim edilən cavablar üzv dövlət tərəfindən məhkəmə işinin təkmilləşdirilməsi məqsədilə siyasətin həyata keçirilib-keçirilmədiyini və belə siyasət həyata keçirilirsə, onun nə dərəcədə səmərəli olması və digər üzv dövlətlər üçün nümunə olub-ola bilməməsini müəyyən etməyə imkan verir.

Qeyd edilənlərə əsasən sözügedən sənəd vasitəsilə üzv dövlətlərin məhkəmə nümayəndələrinə ünvanlanan bu Yoxlama Siyahısı kifayət qədər çoxşaxəlidir.

Siyahı ümumi mövzuları əhatə edən suallardan başlayır:

- məhkəmə sisteminin fəaliyyətinin keyfiyyəti üçün məsul hökumət orqanlarının olub-olmaması;
- məhkəmə sisteminə münasibətdə xüsusi qanunvericiliyin olub-olmaması;
- məhkəmə sisteminin müstəqilliyinə aid konstitusiya ilə təsbit edilmiş təminatların olub-olmaması;
- məhkəmə strukturunda ixtisaslaşmanın olub-olmaması;
- məhkəmə işləri ilə əlaqədar çəkilən xərclərin uçotunun aparılıb-aparılmaması;
- məhkəmə strukturuna (coğrafi yerləşmə və ərazi vahidlərinin sayı) və məhkəmə üçün resursların ayrılması işində planlaşdırmanın olub-olmaması.

Aşağıda qeyd edilmiş sahələrə aid suallar da siyahıda yer almışdır:

- ədalət mühakiməsinin həyata keçirilməsi işinin idarə edilməsinə münasibətdə strategiyanın işlənib hazırlanması;
- məhkəmə sisteminə aid siyasətlərin hazırlanması işində vətəndaşların rəylərinin nəzərə alınması;
- ədalət mühakiməsinin keyfiyyətini yüksəltmək məqsədilə məhkəmə fəaliyyətinə münasibətdə yeniliklərin is-

tifadəsinin təşviq etdirilməsi və bununla əlaqədar həvəsləndirmə tədbirlərinin həyata keçirilməsi və s.

Siyahıda məhkəmə aidiyyətini və hakimlərlə prosesin digər iştirakçıları arasında münasibətləri müəyyən etməyə imkan verən suallar da verilmişdir. Misal üçün, komitəni aşağıda sadalanan mövzular maraqlandırır:

- məhkəmənin üzərinə düşən iş yükünün və baxdığı işlərin sayının monitorinqi;
- məhkəmə aidiyyəti məsələsinə və işlərin bir hakimdən digərinə, bir məhkəmədən digərinə verilməsinə münasibətdə çevik yanaşma imkanları;
- məhkəmə məmurlarının ədalət mühakiməsinin həyata keçirilməsində iştirak səviyyəsi və s.

Ayrıca olaraq komitə məhkəmələrə münasibətdə dövlət siyasətinin qiymətləndirilməsi məsələsinə toxunur. Başqa sözlə, məhkəmələr və onların ədalət mühakiməsinin keyfiyyətinə təsiri ilə əlaqədar qanunvericilikdə yer alan dəyişikliklərə xüsusi önəm verilir. Komitə aşağıda qeyd edilmiş məsələlərə diqqət yetirir:

- qanunvericilik fəaliyyətində keyfiyyət standartlarının istifadəsi;
- yeni qanunvericilik aktlarının məhkəmə sisteminə təsirinin müstəqil qiymətləndirilməsi;
- ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsi məqsədilə prosessual qanunvericiliyə edilən dəyişikliklər;
- işlərin təhkim edilməsi və yenidən bölüşdürülməsi zamanı hakimlərin səriştəsinin nəzərə alınması.

Məhkəmə prosesinin idarə olunmasının keyfiyyətinə aid məsələlərə sənədin ayrıca bir bölməsi həsr edilmişdir. Bu məsələ ilə bağlı komitə aşağıda qeyd edilmiş mövzulara maraq göstərir:

- işlərin mürəkkəbliyini dərhal müəyyən etmək və real vaxt rejimində işin cari durumu haqqında təşkilat daxilində məlumat almaq imkanı;

- məhkəmənin digər işçilərinin bu məlumatdan istifadə etmək imkanı;
- işə baxılarkən hakimin mübahisələrin həllinin alternativ üsullarından istifadə edə bilmək imkanı;
- məhkəmə iclaslarının açıq və ya qapalı olması;
- məhkəmə prosesində tərəflərin işlə əlaqədar xərclərin məbləğini azaltmaq imkanının olub-olmaması;
- hakimlərin işi həll edilmək üçün vasitəçilərə təqdim etmək səlahiyyəti;
- məhkəmə iclaslarının gedişinin idarə olunması və prosesin digər iştirakçıları ilə razılığa gəlməklə prosessual müddətlərin müəyyən edilməsinə dair siyasətin olub-olmaması;
- məhkəmə iclaslarının müddətini təxmin etməyə imkan verən sistemin və işə baxılması zamanı ləngimələr və digər dəyişikliklər haqqında proses iştirakçılarına məlumatın təqdim olunması qaydasının olub-olmaması;
- proses iştirakçılarına iclaslar və prosessual hərəkətlər haqqında erkən məlumatın təqdim edilməsini nəzərdə tutan sistemin olub-olmaması;
- hər bir işə baxılması və həlli üçün müddəti ilkin olaraq müəyyən etməyə şərait yaradan qaydaların və işi münasib və proqnozlaşdırıla bilən müddət ərzində həll etmək üçün öhdəliyin olub-olmaması;
- işə baxılmasında yaranan ləngimələr haqqında tərəflərə məlumatın təqdim olunması üçün istifadə edilə bilən vasitələr;
- işin gedişini sürətləndirmək üçün hakimin səlahiyyəti və prosessual müddətlərin müəyyən edilməsində tərəflərin iştirakının mümkün olub-olmaması;
- işə baxılması başa çatandan sonra qərar çıxarılması üçün konkret müddətin olub-olmaması və s.

Məhkəmə qərarlarının icrasına gəldikdə, komitə tərəfindən aşağıdakı mövzulara aid suallar təqdim olunur:

- məhkəmə qərarı barədə məlumatlandırma sisteminin olub-olmaması;
- məhkəmə qərarı barədə məlumatın təqdim edilməsi üçün konkret müddətin müəyyən edilməsi;
- müəyyən edilmiş müddətlərə riayət edilməsi.

Məhkəmələrə aid əsas suallar arasında biz bir tərəfdən məhkəmələr, digər tərəfdən isə hakimlər istisna olmaqla, prosesin digər iştirakçıları (məhkəmə ekspertləri, tərcüməçilər, dövlət ittihamçıları, və b.) arasında olan münasibətlərə dair bir sıra suallara rast gəlirik.

Məhkəmə işlərinin elektron təhlil və tənzimləmə sistemi məsələsinə xüsusi diqqət yetirilmişdir. Daha dəqiq desək, Yoxlama Siyahısının müəllifləri məhkəmə işləri barədə məlumatın və sənədlərin elektron bazası və məhkəmə arxivlərinin elektron qaydada saxlanmasına aid suallar da tərtib etmişlər.

Nəhayət, ümumilikdə məhkəmə fəaliyyətinə aid olan bölmə ölkə səviyyəsində ədalət mühakiməsinin keyfiyyətini qiymətləndirmək üçün istifadə edilə bilən suallarla başa çatır. Xüsusilə qeyd edilən suallar aşağıdakı mövzuları əhatə edir:

- daxili nəzarət sisteminin olub-olmaması;
- keyfiyyətin qiymətləndirilməsi sisteminin və vətəndaşların ədalət mühakiməsinin keyfiyyəti haqqında məlumatla tanış olmaq imkanlarının olub-olmaması;
- hər bir hakimə aid işin qiymətləndirilməsi sisteminin olub-olmaması;
- məhkəmə işlərinin kəmiyyət uçotunu aparmaq üçün istifadə edilən sistemin olub-olmaması (baxılan işlər üzrə, baxılmış işlər üzrə və s.).

Ayrıca bir bölmə məhkəmələrə müraciət etmək imkanlarına, məhkəmələrlə vətəndaşlar arasındakı münasibətlərə və məhkəmə fəaliyyəti barədə məlumatın ictimaiyyətə təqdim edilməsinə həsr edilmişdir.

Qeyd edilənlərə əlavə olaraq, komitə tərəfindən məhkəmə fəaliyyəti və müvafiq qanunvericilik haqqında məlumatın vətən-

daşların qeyd edilənlərlə tanış olması məqsədi üçün açıq dövriyyədə olub-olmamasına aid suallar da hazırlanmışdır:

- müvafiq qanunvericilik aktlarının mətnlərinin İnternetdə yerləşdirilməsi;
- məhkəmələr tərəfindən tərcüməçilərin təqdim olunması və ya məhkəmə prosesinin müxtəlif mərhələlərində kənar tərcüməçilərin xidmətlərindən istifadə imkanları;
- məhkəmə fəaliyyəti, mülki hüquq və azadlıqlar və s. məsələlər barədə ictimaiyyətin biliklərini artırmaq məqsədilə məlumatın təqdim olunması.

Məhkəmələrə müraciətlərlə bağlı maliyyə məsələlərinə gəldikdə, komitə tərəfindən aşağıda istinad edilmiş mövzulara dair suallar tərtib edilmişdir:

- pulsuz hüquqi yardımın təqdim edilməsi;
- işdə tərəflərin müdafiəsinin pulsuz olaraq vəkillər tərəfindən təmin edilməsi (cinayət və/yaxud mülki işlər üzrə);
- cinayət işləri, yaxud digər prosessual hərəkətlər üzrə məhkəmə rüsumları və ya məhkəmə vergilərinin ödənilməsinə dair ümumi qaydaların olub-olmaması;
- vəkillərin tələb etdiyi həddindən artıq yüksək məbləğlər barədə qanunvericiliklə müəyyən edilmiş şikayət etmək imkanının olub-olmaması və s.

Komitə məhkəmələrə müraciət üçün fiziki imkanlara aid suallar da hazırlamışdır, o cümlədən:

- məhkəmələrin coğrafi yerləşməsi;
- əlil vətəndaşların məhkəmə xidmətlərindən istifadə imkanları;
- gözləmə otaqlarının olub-olmaması və onlardan istifadə imkanları və s.

Bu sənəd çərçivəsində komitənin diqqət yetirdiyi daha bir mövzu məhkəmə prosesinin iştirakçıları ilə hakimlər arasında olan münasibətlərdir. Əlalxüsus üzv dövlətlərə aşağıda təqdim olunan suallar ünvanlanmışdır:

- Hakimlər məhkəmədə proses iştirakçılarına onlara aid olan mübahisələrə dair ümumi məlumatı hansı səviyyədə təqdim edirlər?
- Hakimlər məhkəmə prosesinin aparıldığı dili proses iştirakçılarının başa düşməsini təmin etməyə borcludular?
- Məhkəmə işi ilə bağlı xərclərin məbləğini azaltmaq məqsədilə hakim hansı prosessual hərəkət və ya tədbirlərdən istifadə edə bilər?
- Məhkəmə prosesinin sürətinə təsir etmək məqsədilə proses iştirakçılarına hansı hüquqlar təqdim edilmişdir?

Bu sənəddə komitə həmçinin məhkəmələr tərəfindən qəbul edilən qərarların keyfiyyəti məsələsinə də toxunmuşdur. Bu mövzu ilə bağlı suallar aşağıda sadalanan sahələr üzrə tərtib edilib:

- forma və məzmun nöqteyi-nəzərindən qərarın qəbul edilməsi üçün əsas olmuş hallar barədə məlumatın nə dərəcədə başadüşülən olması;
- məhkəmə tərəfindən qəbul edilən qərarın mütləq əsaslandırılması, yəni qərarın ədalətli və qanuni olmasını təmin etmək üçün qərarın mətni işin tərəfləri və vəkillər üçün kifayət qədər aydın və müfəssəl olmalıdır;
- məhkəmə qərarlarının tərtib və təqdim edilməsinə dair standartlar toplusunun mövcud olması;
- məhkəmə qərarları tərtib edilərkən müvafiq məsələ üzrə tərəflərin mövqeyi və əvvəlki məhkəmə qərarlarının nəzərə alınması.

Komitə tərəfindən həmçinin məhkəmə sisteminin qanuniliyi və vətəndaşların məhkəmə sisteminə etimadı mövzularına aid suallar tərtib edilmişdir. Sonuncu bölmə aşağıdakı məsələlərə aiddir:

- məhkəmə sisteminin fəaliyyəti və işinin keyfiyyəti haqqında illik hesabatların hazırlanması, ictimaiyyətlə müzakirəsi və qanunverici orqana təqdim olunması;

- vətəndaşların məhkəmə sisteminə etimad dərəcəsinin mütəmadi olaraq qiymətləndirilməsi;
- məhkəmə işinin, o cümlədən zəruri hallarda ayrı-ayrı hakimlərə qarşı intizam tədbirlərinin tətbiqi imkanlarının müstəqil qiymətləndirilməsi;
- məhkəmə sisteminin fəaliyyətinin keyfiyyətinin yüksəldilməsinə xidmət etməli olan tədbirlərin işlənib hazırlanmasına vətəndaşların və qeyri-hökumət təşkilatlarının cəlb edilməsi;
- ictimaiyyətlə münasibətlər sahəsi üçün məsul olan məhkəmə işçilərinin olması və s.

Sənəddə, aşağıda qeyd edilən mövzular vasitəsilə, ictimai rəy və etimadın qiymətləndirilməsi məsələlərinə də toxunulur:

- ictimaiyyətin məhkəmə sisteminə etimadının mütəmadi olaraq qiymətləndirilməsi;
- qiymətləndirmə sisteminə münasibətdə proses iştirakçılarının rəyinin nəzərə alınması;
- məhkəmələrə müraciət edən şəxslərin məmnunluq səviyyəsini müəyyən etmək üçün aparılan rəy sorğularının nəticələri barədə məlumatın ictimaiyyətin diqqətinə çatdırılması.

Sənəddə kadrlarla bağlı suallara həsr edilmiş bölmə də yer almışdır və bu bölmənin məqsədi üzv dövlətlərin məhkəmə sistemi daxilində aşağıdakıların olub-olmamasını müəyyən etməkdən ibarətdir:

- hakimlərin işə qəbulu, peşə səriştəsinin qiymətləndirilməsi və daha yüksək vəzifələrə keçirilməsi üzrə uzunmüddətli siyasət;
- dövlət səviyyəsində hakimlər üçün nəzərdə tutulmuş xüsusi tədris müəssisələri;
- hakimlərin əməkhaqqı və mükafatlandırma sisteminin qanunvericiliklə tənzimlənməsi;
- hakimlərin işinin qiymətləndirilməsi üçün istifadə edilən

meyarlar;
- hakim vəzifəsinə namizədlərin etik keyfiyyətlərinin qiymətləndirilməsi üçün üsul;
- hakim, dövlət ittihamçısı vəzifələrinə namizədlərin seçilməsi üçün obyektiv meyarlar və s.

Hakimlərin statusuna aid suallar aşağıda qaydada tərtib olunmuşdur:
- hakimlərin statusunun qanunvericilik səviyyəsində rəsmiləşdirilməsi;
- hakimlərin səriştəsinə aid tələblərin qanunvericilik səviyyəsində tərif olunması;
- hakimlərə tətbiq edilən hər hansı davranış və ya etika məcəlləsinin olması;
- hakimlərə münasibətdə hər hansı müdafiə mexanizmlərinin olması və s.

Hakimlərin peşəkarlığına gəldikdə, komitə tərəfindən aşağıdakı suallar hazırlanmışdır:
- ayrı-ayrı şəxslərin hakim vəzifəsinə təyin edilməsi və ya hakimlərin daha yüksək vəzifəyə keçirilməsi zamanı səriştə səviyyəsinin və peşə təlimi amilinin nəzərə alınıb-alınmaması;
- əməkdaşlıq və vicdanlı çalışma mədəniyyətinin gücləndirilməsinə xidmət edən hər hansı siyasətin olub-olmaması;
- hakimlər istisna olmaqla, məhkəmələrin digər əməkdaşların ümumi səriştəsinin rəsmiləşdirilib-rəsmiləşdirilməməsi;
- hakimlər üçün peşə təlimi kurslarının təşkil olunub-olunmaması;
- ölkə səviyyəsində tədris müəssisələri tərəfindən ilkin və peşə təlimləri proqramına etik prinsiplər barədə mövzuların daxil edilib-edilməməsi.

Qeyd edilənlərdən başqa, sənəddə hakimlərin işi üzərində daxili nəzarət məsələsinə də toxunulmuşdur. Sözügedən nəzarət

hakimlərin özləri tərəfindən həyata keçirilir və həm ədalət mühakiməsinin keyfiyyətinə, həmçinin də etik məsələlərə aiddir. Hakimlərin səriştəsi üzərində kənar nəzarət məsələsinə də kadrlar üzrə siyasət çərçivəsində baxılır.

Sənədin sonuncu bölməsi məhkəmə sisteminə ayrılan resursların kifayət edib-etməməsi məsələsinə həsr olunmuşdur. Xüsusən aşağıda qeyd olunan məsələlərə diqqət verilir:

- ümumilikdə məhkəmə sisteminə ayrılan maliyyə vəsaitlərinin kifayət qədər olub-olmaması;
- məhkəmə sistemi üçün ayrılan vəsaitlərin məbləğinin məhkəmənin tələbatına və onun müstəqilliyinin qorunmasına uyğun gəlməsi;
- informasiya və rabitə texnologiyaları, rabitə və məlumatın işlənməsi vasitələrindən istifadə;
- ədalət mühakiməsinin həyata keçirilməsindən ötrü zəruri avadanlıqların əldə olunması üçün prosedur və vəsaitlərin ayrılması;
- məlumatın təhlükəsizliyini təmin etmək üçün prosedurların (misal üçün, arxivlərin) olması;
- məhkəmə binalarının mühafizəsinin təmin edilməsi;
- məhkəmə tərəfindən çəkilən xərclərin təhlili və qiymətləndirilməsi;
- məhkəmə bina və otaqlarının sığortası və s.

Yoxlama Siyahısında təqdim edilən suallara cavab verməklə istifadəçilər ayrı-ayrı mövzu və ya məsələnin artıq müvafiq qanunvericiliklə nizamlanıb-nizamlanmadığını ayırd edə bilərlər. Müvafiq qanunvericilik olmadıqda, sənəd yeni qaydaların hazırlanması, cari sənədlərə dəyişikliklər edilməsi və məhkəmə, hakim, prokuror və məhkəmə işçilərinin fəaliyyətinin keyfiyyəti ilə bağlı müəyyən məqamlara diqqət yetirilməsi işində dövlət qurumlarına kömək edə bilər.

### *4.2.2. "Məhkəmə işinin təkmilləşdirilməsi üçün məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının aparılması üzrə Yoxlama Siyahısı"*[64]

Əvvəlki bölmədə təsvir edilən sənədə oxşar olaraq, bu məsləhət xarakterli sənəd CEPEJ ekspertləri, üzv dövlətlərdə Ədliyyə nazirliklərinin işçiləri və məhkəmə əməkdaşları üçün nəzərdə tutulmuşdur. Bu yoxlama siyahısının məqsədi məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının aparılmasına aid metodoloji çərçivənin yaradılmasından ibarətdir. Sirr olmayan səbəblərdən belə sorğuların aparılması üzv dövlətdə Ədliyyə Nazirliyinin işçiləri və ya məhkəmə proseslərinə qatılan digər şəxslərə həvalə olunur və yoxlama siyahısının məqsədi onların işinə yardım etmək və sorğunun nəticələrinin keyfiyyətini yüksəltməkdən ibarətdir. Qeyd edilən sənədə əsasən CEPEJ ekspertləri üzv dövlətlərdə Ədliyyə Nazirliyi nümayəndələri üçün təlim kursları təşkil edir, onlara belə sorğular aparılmasının metodlarını izah edirlər.

Beləliklə, tövsiyə olunur ki, sorğuya başlamazdan qabaq işçi qrup yaradılsın və hər mərhələdə qrupun bütün fəaliyyətinə rəhbərlik etmək və onun işini əlaqələndirmək məqsədilə qrupun üzvləri arasında bir nəfər rəhbər seçilsin. Sorğuların keçirilməsi ilə əlaqədar məsləhət görülür ki, məhkəmə proseslərinə qatılanlar sırasından mümkün qədər müxtəlif dairələri təmsil edən şəxslər işə cəlb edilsin: hakimlər, dövlət ittihamçıları, digər məhkəmə işçiləri, vəkillər, tədris müəssisələrinin nümayəndələri, Ədliyyə Nazirliyinin nümayəndələri və b.

Sorğuların aparılması işinə yardım etmək məqsədilə komitə təklif edir ki, müxtəlif sahələri təmsil edən peşəkarlardan ibarət işçi qrup təşkil edilsin və üzvlərinə ixtisaslarına uyğun vəzifələr

[64] Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL), *"Məhkəmə işinin təkmilləşdirilməsi üçün məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının aparılması üzrə Yoxlama Siyahısı"*, Strasburq, 6 dekabr 2013-cü il, CEPEJ(2013)15.

tapşırılsın. Bundan başqa, üzv dövlətin Ədliyyə Nazirliyinin nümayəndələri müvafiq üzv dövlətin ərazisini bütövlükdə əhatə edən sorğu keçirməyi nəzərdə tutmuşlarsa, və sorğu bütövlükdə məhkəmə sistemini və ya, ən azı, bir neçə məhkəməni əhatə edəcək, CEPEJ təklif edir ki, sorğunun rəhbər qrupu yaradılsın və qeyd edilən qrupun tərkibinə müvafiq məhkəmələrin, yerləşdiyi bölgələrin nümayəndələri daxil olsun. Başqa sözlə, tövsiyə edilir ki, müfəssəl bir qrup yaradılsın, onun strukturu sorğunun əhatə dairəsinə uyğun gəlsin, nəticə etibarilə isə rəhbər orqanlar nəzərdə tutulan iş həcmi ilə işləmək iqtidarında olsunlar. Qeyd edilənlərə əlavə olaraq, sorğuların keçirilməsi başlamazdan qabaq, işin həcmi dəqiqliklə müəyyən olunmalıdır (sorğu ilə bağlı suallar hansı məhkəmələrə şamil ediləcək; sorğu məhkəmə işinin hansı məqamlarını əhatə edəcək; cavabların toplanması işində hansı tərəflər iştirak edəcək və s.). Digər bir tövsiyə bundan ibarətdir ki, sorğunun aparılması ilə əlaqədar layihə iştirakçılarının həyata keçirməli olduqları konkret tədbirləri, sorğunun müddətini, gözlənilən nəticələri müəyyən edən xüsusi sənəd hazırlansın.

Hazırlıq işlərinin digər mərhələsi sorğunun məqsədinin müəyyən edilməsindən ibarətdir. Sorğunun məqsədini mümkün qədər dəqiq müəyyən etmək vəzifəsi komitənin üzərinə düşür (misal üçün, məhkəməyə müraciət edən vətəndaşların məmnunluq səviyyəsinin qiymətləndirilməsi). Müvafiq olaraq, nəzərə alsaq ki, sorğu peşəkar sosioloq olmayan şəxslər tərəfindən aparılır, sorğu ilə əlaqədar istifadə ediləcək metodun izahı böyük əhəmiyyət kəsb edir. Bu səbəbdən Komissiyanın fikrinə əsasən komitəyə statistik sorğular aparılması və statistik məlumatın toplanması sahəsi üzrə azı bir peşəkar daxil edilməlidir.

Tövsiyə edilir ki, sorğu başlamazdan qabaq sorğunun metod və aparılması üsulları komitə üzvlərinə başa salınsın, CEPEJ-in yoxlama siyahısı haqqında onlara məlumat təqdim edilsin və yoxlama siyahısı müvafiq ölkədəki hallara uyğunlaşdırmağın zəruri olub-olmadığı müəyyən edilsin. Bu mərhələdə həmçinin

məsləhət görülür ki, potensial respondentlərin, yəni sorğunun şamil edildiyi dairənin tərifi müəyyən olunsun. Çox zaman sorğu ayrı-ayrı məhkəmə proseslərinin iştirakçılarına və ya məhkəmə prosesinə qatılmış tərəflərin ayrı-ayrı kateqoriyalarına (misal üçün, cinayət işləri üzrə zərərçəkənlər) aid olur. Layihənin icrasına hazırlıq mərhələsi üzrə digər bir tövsiyə respondentlərin seçim sistemini müəyyən etməkdən ibarətdir.

Tövsiyə olunur ki, sorğuya hazırlıq mərhələsində sorğunun əsas tərkib hissələri və onun aparılmasının maliyyələşdirilməsi mənbələri müəyyən edilsin.

Sorğunun səmərəli surətdə aparılması və ondan münasib nəticələrin alınmasını təmin etmək məqsədilə sorğunun məqsədləri üçün istifadə edilməsi nəzərdə tutulan yoxlama siyahısı sorğunun aparılacağı yerlərdə sınanmalı və sorğunun şamil ediləcəyi vətəndaşlar dairəsinə sorğu barədə müvafiq məlumat təqdim olunmalıdır.

Hazırlıq mərhələsi üçün son tövsiyə sorğunun aparılması üçün birbaşa məsul olan şəxslər üçün təlimi təşkil etməkdən ibarətdir. Xüsusən onlara yoxlama siyahısının istifadəsi, respondentlərə necə müraciət edilməsi, məlumatın toplanması işində səhvlərin necə buraxılmaması və s. izah olunmalıdır.

Sorğunun aparılmasından sonrakı mərhələ üçün CEPEJ aşağıda qeyd edilən hərəkətlərin yerinə yetirilməsini məsləhət bilir:

- səhvlərin, ziddiyyətlərin, əldə edilməsi mümkün olan məlumatın çatışmazlığının qarşısını almaq və s. məqsədilə, doldurulmuş yoxlama siyahısının cavablarının keyfiyyətinin yoxlanılması;
- məlumatın elektron surətdə toplanması vasitələrinin istifadə edilməsi;
- məlumatın kağız üzərində olan topludan rəqəmsal formata köçürülməsinin dəqiqliyinin yoxlanılması;
- məlumatın təqdim edilməsi zamanı vizual vasitələrin istifadəsi (qrafiklər, diaqramlar və s.);

- sorğunun nəticələri barədə məlumatın mümkün qədər qısa müddət ərzində təqdim edilməsi (yəni nəşri, yaxud İnternetdə yerləşdirilməsi);
- sorğunun nəticələri ilə maraqlanan vəzifəli şəxslərə (məhkəmə sədri, ədliyyə naziri və b.) sorğunun nəticələri haqqında məlumatın ilk növbədə təqdim olunması, nəticədə rəyin formalaşması və vəziyyətin yaxşılaşdırılması məqsədilə tədbirlərin müəyyən olunması;
- yeni sorğunun nəticələri ilə əvvəlki sorğunun nəticələrini müqayisə etmək və ədalət mühakiməsinin keyfiyyəti sahəsində tendensiyaları müəyyən etmək məqsədilə gələcəkdə yeni sorğunun təşkil edilməsi.

### *4.2.3. "Avropa Şurasının üzv dövlətlərində məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının keçirilməsinə dair Hesabat"*[65]

Bu hesabatın məqsədi üzv dövlətlərin müvafiq hökumət qurumlarına məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının hansı qaydada aparılması haqqında məlumat vermək və üzv dövlətlər tərəfindən artıq aparılmış sorğuların nəticələrinin təhlilini həyata keçirməkdən ibarətdir.

Bu hesabat CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsinin hazırladığı müxtəlif sənədlərdən biridir. Bu hesabatda əksini tapmış məlumat komitə tərəfindən hazırlanmış digər bir sənəd – *"Ədalət mühakiməsi və məhkəmə fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi üzrə Suallar Toplusu"* əsasında Avropa Şurasının üzv dövlətlərinin müvafiq dövlət qurumları tərəfindən təqdim edilmiş və onlardan toplanmış məlu-

[65] Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL), *"Avropa Şurasının üzv dövlətlərində məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının keçirilməsinə dair Hesabat"*, 10 sentyabr 2010-cu il, CEPEJ(2010)2.

mat əsasında tərtib edilmişdir.[66] Qeyd etmək lazımdır ki, hazırkı hesabat əsasında sorğu keçirilməsi CEPEJ-in komitəsi tərəfindən hazırlanmış, hazırkı hesabat tərtib edildiyi vaxtda mövcud olmamış digər sənədin – *"Məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının aparılması üzrə məhkəmələr üçün nəzərdə tutulmuş Yoxlama Siyahısı"*nın mövzusu olmuşdur.[67] CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsinin hazırladığı və məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının aparılmasını tənzimləyən digər bir sənəd *"Avropa Şurasının üzv dövlətlərində məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının aparılmasına dair Rəhbər Qaydalar"*dır.[68] Beləliklə, Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə tərəfindən məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının aparılmasını tənzimləyən bir sıra sənədlər hazırlanmışdır, yəni: suallar toplusu, sorğu aparılması və sorğu nəticələrinə dair rəhbər qaydalar.

Komitənin rəyinə əsasən məhkəmələrə müraciət edən şəxslər arasında aparılan məmnunluq sorğuları ədalət mühakiməsi mədəniyyətini cəmiyyətə təqdim etmək üçün imkan verir. Əslində, məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının aparılması ədalət mühakiməsi sisteminin diqqətinin onun səmərəliliyindən yayınmasının qarşısını almağa və məhkəmələrə müraciət edən şəxslərin maraqlarının müdafiəsini təmin etmək üçün fəaliyyətin təkmilləşdirilməsinə şərait yaradır.

---

[66] Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL), *"Ədalət mühakiməsi və məhkəmə fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi üzrə Suallar Toplusu"*, Strasburq, 3 iyul 2008-ci il, CEPEJ(2008)2E.

[67] Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL), *"Məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının aparılması üzrə məhkəmələr üçün nəzərdə tutulmuş Yoxlama Siyahısı"*, Strasburq, 6 dekabr 2013-cü il, CEPEJ(2013)15.

[68] Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL), *"Avropa Şurasının üzv dövlətlərində məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının aparılmasına dair Rəhbər Qaydalar"*, Strasburq, 10 sentyabr 2010-cu il, CEPEJ(2010)1.

Hesabatda sorğuların iki növü təsvir edilir: məhkəmələrə müraciət edən şəxslər arasında ölkə səviyyəsində aparılan mərkəzləşdirilmiş sorğular və mərkəzləşdirilmiş qaydada və yerlərdə məhkəmə proseslərinin iştirakçıları arasında aparılan məmnunluq sorğuları.

Ölkə səviyyəsində məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğuları həm mütəmadi, həm də bir dəfə ilə məhdudlaşmaqla aparıla bilər. Mütəmadi sorğuları, bir qayda olaraq, Ədliyyə Nazirliyi və digər hökumət orqanları aparır. Birdəfəlik sorğularla isə özəl təşkilatlar məşğul olur (qəzetlər və digər kütləvi informasiya vasitələri). Sorğular nəticəsində əldə edilən məlumat çox zaman yalnız məhkəmə sisteminə deyil, ümumilikdə hökumət orqanları və təşkilatlarına münasibətdə əhalinin etimadını əks etdirir. Eyni zamanda, bir qayda olaraq, belə sorğularda çoxlu sayda vətəndaş iştirak edir, bu isə ictimaiyyət arasında yer alan əsas tendensiyaları aşkara çıxarmağa imkan yaradır. Əlalxüsus bu kimi sorğuların nəticəsi olaraq, son 200 il ərzində məhkəməyə müraciət edən şəxslərin narazı qalmalarına daimi səbəb olan hal müəyyən edilmişdir: ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar hüquq xidmətlərinin qiymətinin yüksək olması; məhkəmədə işə baxılması və həlli prosesinin çox vaxt aparması; işin tərəflərinə qarşı qeyri-bərabər münasibət.

Nəticədə bu fəsildə müzakirə edilən hesabata münasibətdə məhkəmə işinin səmərəliliyinə vətəndaşların etimadını müəyyən etmək üçün CEPEJ ən dəqiq göstəricilərə əsaslanır. Bu kimi göstəriciləri yalnız sadəcə olaraq ümumilikdə ictimai rəyə deyil, birbaşa olaraq məhkəmə ilə təmasda olmuş vətəndaşların – məhkəmədə baxılan işin tərəflərinin özlərinin təcrübəsinə istinadən əldə etmək olar.

Bu məsələ ilə əlaqədar ən münasib yanaşmanı qəbul etmək məqsədilə CEPEJ sorğuların iki növünü müəyyən etmişdir. Birinci növ sorğular ayrı-ayrı iş kateqoriyaları çərçivəsində məhkəmə ilə təmasda olmuş vətəndaşlara (şahidlər, işin tərəfləri,

cinayət əməlini törətməkdə şübhəli bilinən şəxslər, cinayət əməlindən zərər çəkənlər və s.) şamil edilir. Bu kimi sorğuları apararkən sorğuda iştirak edən şəxslərin özlərinin iştirak etdikləri məhkəmə işinin nə ilə başa çatdığını nəzərə almaq vacibdir (əlalxüsus respondentlər işin tərəfi olmuşsa) – onların məhkəmə sistemi barədə rəyi işi udmaları və ya uduzmalarından asılı ola bilər. Məhkəmə sistemi ilə birbaşa təmasda olan şəxslərin ikinci kateqoriyası bu sistem çərçivəsində işləyən şəxslərdən təşkil edilmişdir (vəkillər, hakimlər, dövlət ittihamçıları və b).

Sorğunun aparılması metodlarına gəldikdə, qeyd edilən sənədlə həm müsahibələr, həm yerlərdə aparılan müşahidələr, həmçinin də telefon vasitəsilə sorğular nəzərdə tutulur. Qeyd edilmişdir ki, sorğunun hansı metoddan istifadə etməklə aparılması barədə qərar hədəflər, sorğunun əhatə dairəsi (bir məhkəmə və ya ümumilikdə ölkənin məhkəmə sistemi) və respondentlərin qruplarına kimlərin daxil olması nəzərə alınmaqla qəbul edilir.

Həmçinin qeyd etmək lazımdır ki, CEPEJ daim belə bir mövqedən çıxış etmişdir ki, sorğuların aparılması ilə əlaqədar üzv dövlətlərin çəkməli olduqları xərclərin məbləği mümkün qədər aşağı olmalıdır. Bu səbəbdən üzv dövlətlərə təklif edilir ki, istifadə etdikləri metod və üsulları imkanlarına uyğun seçsinlər.

Hesabatda Avropa Şurasının üzv dövlətləri (habelə Şimali Amerika ölkələri) tərəfindən artıq keçirilmiş sorğuların siyahısı verilmişdir. Əsasən bu sorğular Rumıniya istisna olmaqla, Qərbi Avropa ölkələrində keçirilmişdir.

Sənədlə tövsiyə olunur ki, sorğunun keçirilməsi ən sadə formalardan istifadə etməklə başlansın: müsahibələr, qruplarda aparılan iclaslar, yerlərdə işlərin müşahidəsi, mülki qaydada təqdim edilən şikayətlərin təhlili və s. Bu kimi yanaşmaya misal kimi Polşada ombudsman və Fransanın Qrass Şəhər Məhkəməsi tərəfindən aparılan sorğuları qeyd etmək olar. Müəlliflər tərəfindən qeyd edilmişdir ki, bəzi məhkəmələrdə (misal üçün, İsveçrədə olduğu kimi) bu kimi sorğuların aparılması üçün məsuliyyət da-

şıyan xüsusi rəhbər komitələr fəaliyyət göstərir. Çox zaman həmin komitələrin tərkibinə həm məhkəmə nümayəndələri, həmçinin də vətəndaşlar (bəzən komitələrin işinə təhsil sahəsinin nümayəndələri, misal üçün, hüquq üzrə professorlar da dəvət edilir). Onların fəaliyyəti, müvafiq məhkəməyə xas olan xüsusiyyətləri və cəhətləri nəzərə almaqla, yoxlama siyahısının yekun variantının hazırlanmasını əhatə edir.

Respondentləri, yanaşmanı, göstəriciləri, nəticələrin işlənməsinin nəticələri, hədəf qrupu ilə ünsiyyət metodunu və s. müəyyən etmək məqsədilə sorğunun keçirilməsinə hazırlıq zamanı onun məqsədi müəyyən olunmalıdır.

Respondentlər qrupunu müəyyən etməyin müxtəlif meyarlarından istifadə olunur. Misal üçün, İspaniya, Belçika və Fransada aparılmış və bütün ölkə ərazisini əhatə edən sorğulara münasibətdə təşkilatçılar tərəfindən yaş, cins, dini etiqad, coğrafi təmsilçilik, dil və s. bu kimi sosial və demoqrafik göstəricilərdən istifadə edilmişdir.

Digər tərəfdən, bir məhkəmə barədə aparılan sorğular qeyd edilən məhkəmədə aparılan proseslərdə iştirak etmiş və məhkəmə ilə birbaşa əlaqəsi olmuş şəxslər arasında aparılmalıdır. Məhkəmələrə müraciət edən şəxslərin bu kateqoriyası daxilində konkret qruplar müəyyən edilə bilər (misal üçün, cinayət işləri üzrə yalnız mühakimə edilən şəxslər və ya yalnız cinayət əməlindən zərər çəkmiş şəxslər və s.). Çox zaman respondentlərin seçimi məhkəmənin konkret bir bölməsinin (müəyyən kollegiya və ya məhkəmənin inzibati qurumu) fəaliyyətinin səmərəliliyini qiymətləndirməyə imkan verən qaydada aparılır və bu kimi seçimlə əlaqədar respondentlərin dairəsi də məhz belə bir müəyyən bölmə ilə ünsiyyətdə olmuş şəxslərə qədər daraldılır. Misal üçün, bəzi dövlətlərdə (Hollandiya və ya İsveçrə) məhkəmə qurumları ilə ünsiyyətdə olan ayrı-ayrı hədəf qruplarına aid olmaqla aparılan sorğulara münasibətdə respondentlərə "məhkəmə müştərisi" deyə istinad olunur.

CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi tərəfindən aparılan məhkəmə müraciət edən şəxslərin məmnunluq sorğuları "kəmiyyət" və "keyfiyyət" sorğuları qruplarına bölünür.

Keyfiyyət sorğularının əsas məqsədi məhkəmələrə müraciət edən şəxslər arasında məhkəmə fəaliyyətindən məmnunluq səviyyəsində baş verən əsas dəyişiklikləri və tendensiyaları müəyyən etməkdən ibarətdir. Bu sorğular yerlərdə proses iştirakçılarının hərəkətləri üzərində müşahidələr aparılması və bəzi hallarda ədalət mühakiməsinin keyfiyyətini müəyyən etmək məqsədilə kənar ekspertlərin məhkəməyə müraciət edən şəxs qismində olmaqla məhkəməyə müraciət etmələrinin təşkili vasitəsilə aparılır. Presedent hüququndan istifadə edən dövlətlərdə "Gizli müşahidələr" kimi tanınan bu üsuldan İrlandiyada ədalət mühakiməsinin keyfiyyətini qiymətləndirmək üçün istifadə olunmuşdur. Nəhayət, keyfiyyət sorğuları müsahibələrin keçirilməsi vasitəsilə də aparılır.

Təcrübə göstərir ki, keyfiyyət sorğuları kifayət qədər bahalı işdir, lakin bu növdən olan sorğular imkan verir ki, məhkəmə işinin keyfiyyətini dəqiqliklə müəyyən etmək mümkün olsun – məhz bu səbəbdən Hollandiyada bu növ sorğulardan istifadə olunur.

Kəmiyyət sorğuları xüsusi seçim və ya ictimai rəyin öyrənilməsi əsasında məhkəmə sistemi fəaliyyətinin keyfiyyətinin statistik qiymətləndirilməsini aparmağa imkan verir. Misal üçün, İsveçrədə seçimli ictimai rəy sorğuları keçirilir – respondentlər həmin sorğularda iştirak etməyə borclu deyillər və suallar toplusu ilə hər zaman məhkəmə binasında tanış olmaq mümkündür. Müvafiq olaraq, sorğuda iştirak etmək arzusunda olan hər bir şəxs özünün təşəbbüsünə əsasən Suallar Toplusu üzrə cavablarını təqdim etməkdə sərbəstdir. Bu, sorğuların keçirilməsinin kifayət qədər ucuz yoludur; lakin digər tərəfdən, təcrübədə bu kimi sorğuların respondentlərinin sayının daha az olması səbəbindən toplanan məlumatın keyfiyyəti aşağı olur.

Sorğuların keçirilməsinin ucuz başa gələn, diqqətəlayiq olan daha bir növü sorğuların İnternet və telefon zəngləri vasitəsilə keçirilməsidir. Bununla bərabər, belə sorğuların səmərəlilik və həmin sorğular zamanı əldə edilən məlumatın sorğunun predmetinə cavab verməsi səviyyəsi, alınan cavabların sayının məhdud olması səbəbindən, kifayət qədər aşağıdır (misal üçün, bu, 2009-cu ildə Hollandiyada məhkəmələrə müraciət etmək imkanlarının təhlili ilə bağlı aparılan sorğu zamanı müəyyən edilmişdir). Eyni zamanda, məhkəmə işçilərinin vətəndaşlar arasında daha nizamlı ictimaiyyət nümayəndələri olması və suallara təfərrüatı ilə cavab vermələri səbəbindən bu sorğu növündən məhkəmə sistemi işçiləri arasında aparılan sorğular zamanı istifadə etmək tövsiyə olunur (misal üçün, bu tövsiyə 2008-ci ildə Fransada hakimlər arasında aparılmış sorğunun nəticələrinə əsasən özünün təsdiqini tapmışdır).

Telefon zəngləri ilə aparılan sorğu, müəyyən sayda şəxslərin iştirakı və əksər hallarda ixtisaslaşmış sorğu şirkətlərinin – sosioloqların və statistika sahəsi üzrə mütəxəssislərin sorğu aparılmasına cəlb edilməsi zərurətini nəzərə alaraq, daha çox vaxt və daha çox maliyyə vəsaitləri tələb edir. Misal üçün, 2001-2008-ci illərdə Fransada cinayət əməllərindən zərər çəkən şəxslər arasında aparılan sorğu zamanı bu metoddan istifadə olunmuşdur.

Nəhayət, məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının keçirilməsinin digər bir metodu məhkəmə prosesi iştirakçılarına münasibətdə yerlərdə rəy sorğularının aparılmasıdır. Burada müsahibə aparan şəxslərlə respondentlərin birbaşa ünsiyyəti əsasında fərdi müsahibələr metodundan istifadə olunur. Mütəxəssislərin iştirakı zəruri olduğundan, sorğuların bu növü kifayət qədər bahalı işdir. Buna baxmayaraq, bu üsuldan kifayət qədər tez-tez istifadə olunur (misal üçün, Fransada və Avstriyada).

Sorğunun keçirilməsinə hazırlıq mərhələsi ərzində, sorğunun təşkilatçıları istisna edilməklə, sorğunun əhatə edəcəyi və aid

olacağı şəxs və ya təşkilatları, hədəf qrupunun üzvlərini müəyyən etmək tələb olunur. Bu işlərlə əlaqədar, yuxarıda qeyd olunan rəhbər komitəyə əlavə olaraq, bir çox hallarda sorğu təşkilatçıları tərəfindən özəl sorğu şirkətlərinin (Fransa, Rumıniya və İngiltərədə), kənar ekspertlərin (Avstriya, İrlandiya və İspaniya), universitetlərin (Finlandiya, İspaniya) xidmətlərindən və s. istifadə olunur.

Bu bölmədə təhlil edilən CEPEJ sənədində sualların forma və məzmunu barədə də müəyyən məsləhətlər əksini tapmışdır. Lakin qeyd edilən məsləhətlərin əhəmiyyəti bir o qədər də böyük deyil – CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi tərəfindən bu məsələ üzrə artıq ümumi tövsiyələr işlənib hazırlanmış və *"Ədalət mühakiməsi və məhkəmə fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi üzrə Suallar Toplusu"* adlanan sənəddə əksini tapmışdır. Qeyd olunan suallar toplusunda ümumi hüquq sistemindən istifadə olunan dövlətlərdə artıq sınaqdan keçmiş sual-cavab formasından istifadə olunur: iki cavab variantı olan suallar (burada yalnız iki cavabdan birini seçmək mümkündür "bəli" və ya "xeyr"), bir neçə cavabdan seçim etməyi nəzərdə tutan suallar, cavabı müəyyən qiymət (bal) ilə müşahidə edilən suallar və s.

Qeyd olunun hesabatda, həmçinin, CEPEJ-in müxtəlif sənədlərində sorğuların hazırlanması və keçirilməsinin müxtəlif yollarına dair artıq qeyd edilən tövsiyələr də əksini tapıb. Misal üçün, müəlliflər məlumatın təhlili məsələsinə diqqət verirlər və CEPEJ-in Komitəsi tövsiyə edir ki, məlumatın təhlili kənar təşkilatın köməyi vasitəsilə aparılsın.

Hesabatda komitə tərəfindən, həmçinin, sorğu nəticələrinin istifadə olunması məsələsi də müzakirə olunmuşdur. Misal üçün, komitə tərəfindən tövsiyə edilir ki, sorğunun nəticələrinin istifadəsi üzrə xüsusi komitə yaradılsın və onun vəzifələri sırasına, ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsi ilə əlaqədar, sorğu nəticələri barədə məlumatın dərc edilməsi/yayılması və

qeyd olunan nəticələrin məhkəmə orqanları tərəfindən fəaliyyətlərində nəzərə alınmasının təmin edilməsi daxil edilir. Bu xüsusi komitə sorğunun nəticələri əsasında məhkəmə sistemində yer alan dəyişikliklər haqqında məlumatın yayılması və paylanması vəzifəsini də üzərinə qəbul etməlidir.

Nəhayət, komitə əsas sorğunun nəticəsi olaraq toplanmış məlumatın təkmilləşdirilməsinə xidmət etməli olan əlavə sorğu növündən bəhs edir: "güzgü" sorğular, yuxarıda qeyd olunan "gizli müşahidələr", həmkarlar və rəqiblər arasında aparılan rəy sorğusu.

Həmkarlar arasında aparılan rəy sorğusu qarşılıqlı nəzarət prinsipinə əsaslanır və bu rəy sorğusu zamanı hakimlər özləri digər hakimlərin işinə qiymət verirlər, yəni bir hakim digər hakimin işinə qiymət verir və əksinə. Ədalət mühakiməsi sahəsində keyfiyyətə nəzarətin bu üsulu Hollandiyada işlənib hazırlanmışdır və hazırda bu metoddan digər Avropa dövlətlərində də istifadə olunur. "Güzgü" sorğular məhkəməyə müraciət edən şəxslərin məmnunluq səviyyəsinin hakimlər tərəfindən müəyyən edilməsini nəzərdə tutur. Başqa sözlə desək, hakimlər öz işlərinə vətəndaşların gözü ilə baxıb qiymət verməli olurlar. Nəhayət, "gizli müşahidələr" metodu özlərini adi vətəndaş kimi qələmə verən, lakin məhkəmə prosesinə faktiki olaraq prosesdə iştirak etmək üçün deyil, ədalət mühakiməsinin keyfiyyətini qiymətləndirmək məqsədilə qatılan ekspertlərin iştirakını nəzərdə tutur.

Məhkəməyə müraciət edən şəxslər arasında məmnunluq sorğuları aparılarkən istifadəsi tövsiyə edilən nümunəvi suallar toplusuna keçməzdən qabaq tədqiqatın yekun hissəsində üzv dövlətlərin müxtəlif pilot məhkəmələrdə suallar toplusu metodunun təcrübədə istifadəsindən irəli gələn bir sıra qeydlər əksini tapmışdır. Sınaq sorğuları aşağıda qeyd edilən şəhərlərdə keçirilmişdir: Veszprem (Macarıstan), Turin (İtaliya), Marsel (Fransa), Novi Travnik (Bosniya və Herseqovina), Lublin (Polşa), Praqa (Çex Respublikası).

Qeyd olunan suallar toplusunun yeni variantı hazırlanarkən sınaq sual toplusu ilə bağlı təqdim edilmiş qeydlər də nəzərə alınmışdır. Pilot məhkəmə nümayəndələri arasında fikir mübadiləsi 13 noyabr 2009-cu il tarixdə keçirilmiş konfransda yer almışdır.

Hesabatın yekun bölməsində verilmiş suallar toplusu *"Ədalət mühakiməsi və məhkəmə fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi sahəsində Suallar Toplusu"* adlanan sənəddə verilmiş suallar toplusundan xeyli fərqlənir. Bu toplu daha qısa və sadədir və buna səbəb sorğunun peşəkarlar arasında deyil, adi vətəndaşlar, ictimaiyyət nümayəndələri arasında aparılmasıdır. Nəticədə sualların sayı 30-a çatmır və suallar 0-dan 6-ya qədər qiymət verməklə cavablandırılır. Fərz etmək olar ki, bu formatın seçilməsinə səbəb sorğunu sadələşdirmək və sorğu aparılmasına sərf ediləcək vaxtı azaltmaq olmuşdur – belə ki, yuxarıda qeyd olunan sənədin mətnində verilmiş suallar toplusuna münasibətdə respondent olan hakimlər və Ədliyyə Nazirliyinin nümayəndələrindən fərqli olaraq,[69] sadə vətəndaşların sorğuda birbaşa marağı yoxdur və onlar sorğuda iştirakdan ümumiyyətlə imtina edə bilərlər.

Suallar bir neçə kateqoriyaya bölünmüşdür və aşağıda qeyd edilən mövzuları əhatə edir:

- məhkəmə sisteminin işinə münasibətdə ümumi fikirlər;
- məlumatla tanış olmaq imkanları;
- məhkəmə binalarına münasibətdə fiziki istifadə imkanları;
- məhkəmə fəaliyyəti;
- hakimlərin və dövlət ittihamçılarının işindən məmnunluq səviyyəsi.

Vəkillər üçün ayrıca suallar toplusu nəzərdə tutulub. Qeyd edilən suallar toplusunda 30-dan artıq sual var və həmin suallar,

[69] *"Ədalət mühakiməsi və məhkəmə fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi üzrə Suallar Toplusu"* adlanan sənəddə verilmiş və hakimlər və Ədliyyə Nazirliyi nümayəndələri arasında keçirilməsi nəzərdə tutulan sorğunun məqsədləri üçün istifadə edilən suallar toplusunda sualların sayı yüzdən artıqdır.

daha müfəssəl qaydada tərtib edilməklə, məhkəmə fəaliyyətinin müxtəlif məqamlarının təhlilini aparmağa imkan verir:

- məhkəmə işinin ümumi qiymətləndirilməsi;
- məhkəmə işçiləri ilə ünsiyyətdən məmnunluq səviyyəsi;
- məhkəmə iclaslarına hazırlıq və məhkəmə iclaslarının aparılmasından məmnunluq səviyyəsi;
- məhkəmə qərarlarından məmnunluq səviyyəsi.

Bu hesabatın sonunda müəlliflər tərəfindən üzv dövlətlərdə aparılmış sorğuların sayı və hansı tezliklərlə aparılması barədə məlumat təqdim edilmişdir. Məlumat sorğunun ölkənin bütün ərazisini və ya hansısa ayrıca bir məhkəməni əhatə etməsindən asılı olaraq təqdim olunmuşdur. Qeyd etmək lazımdır ki, hazırda sorğular Avropa Şurasının, demək olar, bütün üzv dövlətlərində mütəmadi olaraq keçirilir.

### *4.2.4. "Keyfiyyətli ədalət mühakiməsi çərçivəsində məhkəmələrə müraciət etmək imkanlarının asanlaşdırılması üçün məhkəmə xəritələrinin yaradılmasına dair Rəhbər Qaydalar"* [70]

CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsinin işləyib hazırladığı və yuxarıda təsvir edilən əksər sənədlərdən fərqli olaraq, bu sənədin məqsədi sorğuların və ya məlumat təhlillərinin təşkil olunmasına aid deyil – qeyd edilən sənəd sırf məsləhət xarakterlidir. Sənədin müəlliflərinin fikrincə, bu sənədin məqsədi məhkəmələrə müraciət üzrə fiziki imkanları təkmilləşdirmək üçün məhkəmə sistemində aparılmalı olan islahatlara əsas ola biləcək tövsiyələri üzv dövlətlərin hökumət orqanlarına təqdim etməkdən ibarətdir. Ələlxüsus müəlliflər tərəfindən ədalət mühakiməsinin optimal dərəcədə mümkün olan

[70] CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi (CEPEJ-GT-QUAL), *"Keyfiyyətli ədalət mühakiməsi çərçivəsində məhkəmələrə müraciət etmək imkanlarının asanlaşdırılması üçün məhkəmə xəritələrinin yaradılmasına dair Rəhbər Qaydalar"*, Strasburq, 6 dekabr 2013-cü il, CEPEJ(2013)7Rev1.

ən yüksək keyfiyyətinə nail olmaqdan ötrü məhkəmə yerləşməsi və ölçüləri haqqında qərarların qəbul edilməsi zamanı nəzərə alınmalı amillər müəyyən edilmişdir. Başqa sözlə desək, sənədin məqsədi ədalət mühakiməsinin səmərəliliyinin maksimum səviyyəyə çatdırılması və məhkəmə işləri ilə əlaqədar çəkilən xərclərin məbləğinin optimallaşdırılmasından ibarətdir.

CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi qeyd edir ki, məhkəmələr yerləşmə planı, məhkəmə ölçüləri və məhkəmə xidmətlərindən fiziki istifadə imkanlarına yanaşma vətəndaşlara xidmət təqdim edən digər dövlət qurum və təşkilatlarına (səhiyyə, təhsil obyektləri və s.) münasibətdə tətbiq olunan yanaşmaya bənzərdir. Başqa sözlə, xərclərin optimallaşdırılması məqsədilə səhiyyə və təhsil obyektlərinin yerləşəcəyi yerin və minimum mümkün ölçülərinin müəyyən edilməsi işində istifadə olunan qaydalar məhkəmələrə aid bu kimi qərarların qəbul olunması qaydası ilə tam üst-üstə düşür. Bu səbəbdən müvafiq qərarları qəbul edərkən hökumətlər tərəfindən aşağıda qeyd edilmiş amillər nəzərə alınmalıdır:

- vətəndaşların məhkəmə xidmətlərindən fiziki istifadə imkanları (coğrafi yerləşmə);
- məhkəmənin mümkün ən kiçik ölçüləri;
- məhkəmə üzrə xərclərin məbləğinin azaldılması tədbirləri;
- məhkəmə işinin keyfiyyətinin maksimum səviyyəyə yüksəldilməsi.

Beləliklə, qeyd edilən rəhbər qaydaların məqsədi məhkəmə ölçüləri və coğrafi yerləşməsi ilə əlaqədar üzv dövlətlərə təkliflərin təqdim edilməsindən ibarət deyil. Sənədin məqsədi bu kimi fəaliyyətin həyata keçirilməsi zamanı üzv dövlətlərin nəzərə ala biləcəkləri müvafiq amil və meyarları müəyyən etməkdən ibarətdir. Məhkəmə ölçülərinin və coğrafi yerləşməsinin optimal qaydada müəyyən edilməsinin nəticəsi özünü yeni məhkəmə sistemi xəritəsinin yaranmasında (yəni yeni məhkəmələrin harada

açılması və hansı məhkəmələrin bağlanması barədə qərarların qəbul edilməsində) büruzə verir.

CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi vurğulayır ki, əvvəllər, rabitə vasitələrinin inkişaf səviyyəsinin aşağı olması səbəbindən, hökumətin məhkəmə fəaliyyətinin təşkilinə münasibətdə yanaşması muxtar məhkəmə qurumlarının yaradılması ilə məhdudlaşırdısa, hazırda müxtəlif məhkəmələriin işi şəbəkə prinsipinə əsasən təşkil olunur. Məhz bu prinsipin tətbiqi məhkəmə sistemi daxilində işin optimal səviyyədə qurulmasını təmin edə biləcək bir amildir və məhz bu halda xərclərin məbləğinin azaldılması məhkəmə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi ilə müşayiət olunur. Bu səbəbdən məhkəmə sisteminə münasibətdə islahatlar üzrə məsul şəxslərin qarşısında duran əsas vəzifə hansı məhkəmələrin bağlanması və harada yeni məhkəmə açılması barədə qərarı qəbul etməkdən ibarət deyil – əsas vəzifə müxtəlif məhkəmələr arasında əlaqələrin yaradılmasından, məhkəmələrlə məhkəmə sistemindən xarici təmsil edən qurum və təşkilatlar arasında əlaqələrin qurulmasından ibarətdir. Başqa sözlə desək, ilkin mərhələdə məhkəmə sisteminin işinin optimallaşdırılmasına məhkəmə işinin planlaşdırılması və yenidən təşkil edilməsi, məhkəmələrlə kənar qurum və təşkilatlar arasında əlaqələrin genişləndirilməsi vasitəsilə nail olmaq mümkündür.

Müvafiq olaraq, məhkəmələrin harada yerləşməsi və hansı ölçüdə olması barədə qərarın qəbul edilməsi mürəkkəb işdir və bu işə münasibətdə ilk növbədə hazırkı məhkəmə sisteminin artıq mövcud olan xəritəsi təhlil edilməli, məhkəmə sisteminin işinin təkmilləşdirilməsinə münasibətdə hədəf kimi qəbul edilən meyarlar və göstəricilər müəyyən olunmalıdır və yalnız bu işlər həyata keçirildikdən sonra islahatlar nəticəsində yeni məhkəmə sistemi qurula bilər.

Qeyd edilənlərə əsasən belə qənaətə gəlmək olar ki, məhkəmə yerləşməsi xəritəsinin təkmilləşdirilməsi işində ilk mərhələ artıq

mövcud olan xəritənin təhlilindən ibarət olmalıdır. Bu mərhələyə münasibətdə CEPEJ-in komitəsi diqqəti keyfiyyət və kəmiyyət göstəricilərinin mövcudluğu və tətbiqinə yönəltmişdir. Belə ki, misal üçün, müəlliflər qeyd etmişlər ki, müəyyən bir coğrafi zona daxilində məhkəmə sisteminin xidmətləri üçün olan tələbat məhkəmə yerləşməsi xəritəsinin yaradılması işinə münasibətdə mühüm başlanğıc nöqtədir.

Başqa sözlə desək, sənəddə təsvir edilən təklif cari vəziyyətin ilkin təhlilini aparmaqdan ibarətdir ki, nəticədə mövcud vəziyyətin təkmilləşdirilməsi üzrə tədbirləri müəyyən etmək imkanı təmin ediləcək. Məhkəmə yerləşməsi xəritəsinə münasibətdə islahatlar aparılması işinin bu mərhələsində həm daxili, həm də xarici mənbələrdən məlumat toplanmasını aparmaq tövsiyə olunur,ələlxüsus:

- məhkəmələrə təqdim edilən iddia ərizələri və daxil olan işlərin sayı, baxılmış işlərin sayı və baxılmalı olan işlərin sayı haqqında məhkəmə rəhbərliyi tərəfindən təqdim edilən məlumat;
- hakimlər və məhkəmə işinə aid olan məlumat;
- coğrafi şərait və infrastruktur barədə məlumat;
- digər məlumat (misal üçün, müvafiq məhkəmənin yerləşdiyi və səlahiyyətlərinin aid olduğu ərazidə yerləşən müəssisə, hüquq firmaları və s. sayı).

Məhkəmə yerləşməsinin yeni xəritəsinin yaradılması işinin növbəti mərhələsi hədəflərin müəyyən olunması və zəruri tədbirlərin ümumi təhlilini nəzərdə tutur.

CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi qeyd etmişdir ki, ayrı-ayrı üzv dövlətlər üçün məhkəmə yerləşməsinin xəritəsinə münasibətdə islahatların məqsədi də fərqlidir. Belə ki, misal üçün, İtaliyada islahatların məqsədi məhkəmələrin həddindən yüksək olan sayını azaltmaqdan ibarət idi (islahatlardan qabaq ölkədə məhkəmələrin sayı 2000-i keçmişdi) və buna birinci instansiya məhkəmə-

ləri arasında ən az səmərəli olanlarının sadəcə olaraq ləğvi və nəticədə işçi heyətin başqa məhkəmələrə köçürülməsi və daha səmərəli qaydada işə cəlb olunması ilə nail olunmuşdur. Digər Avropa ölkələrində hökumət məhkəmələrin daşıdıqları vəzifələrin coğrafi birləşməsi yolunu seçmişdir və bu istiqamətdə aparılan işlərin məqsədi, misal üçün, İtaliyada olduğu kimi, xərclərin azaldılması deyil, ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsi olmuşdur.

Eyni zamanda, mövcud çatışmazlıqların təhlili məhkəmələr və məhkəmə prosesinin iştirakçıları arasındakı məsafəni azaltmaq məqsədilə əlavə məhkəmələr yaradılması zərurətini aşkara çıxara bilər. Yenə də İtaliyaya nəzər yetirərək, sənədin müəllifləri qeyd etmişlər ki, Roma və digər böyük şəhərlərdə əhaliyə düşən məhkəmələrin sayı ölkənin digər bölgələrində əhaliyə düşən məhkəmələrin sayı ilə müqayisədə xeyli aşağı olmuşdur. Müvafiq olaraq, böyük şəhərlərin məhkəmə xidmətlərindən istifadə imkanı daha məhdud idi. Bu məqama münasibətdə Komissiyanın təklifi bir neçə əlavə məhkəmənin yaradılmasından ibarət idi.

Məhkəmələrin yerləşməsi xəritəsinə münasibətdə islahatlar aparılmasına zərurət məhkəmələrin sayının həddindən artıq çox olmasından, onların coğrafi yerləşməsinin qeyri-məntiqi təşkil olunmasından və resursların düzgün paylaşdırılmamasından irəli gəlir. Nəzərə alınmalıdır ki, vaxt ötdükcə hər bir ölkənin demoqrafik durumunda da dəyişikliklər baş verir və bu səbəbdən məhkəmə sisteminin müasir mühitə uyğunlaşdırılması şərt olmuşdur. Məhkəmə yerləşməsi xəritəsinin təkmilləşdirilməsi məqsədilə həyata keçirilməli olan tədbirlərin konkret tərifi aşağıda sadalanan amillər nəzərə alınmaqla verilməlidir:

- əhalinin sıxlığı;
- məhkəmə ölçüləri;
- məhkəmə üzərinə düşən iş yükü;
- məhkəmənin olduğu yerin coğrafi yerləşməsi və nəqliyyat infrastrukturu;

- məhkəmə orqanlarında kompüterlərdən istifadə səviyyəsi;
- məhkəmələrin müasir rabitə vasitələri ilə təchizi;
- bölgə daxilində hüquqi xidmətlər göstərən təşkilatların olması;
- məhkəmələrlə digər təşkilatlar (penitensiar xidmət müəssisələri, polis orqanları, prokurorluq orqanları) və başqa şəxslər arasında əməkdaşlığın səviyyəsi.

Müəlliflər qeyd etmişlər ki, məhkəmələrin sayı və ölçülərilə müvafiq bölgədə əhalinin sıxlığı arasında birbaşa əlaqə mövcuddur. Bu məsələyə münasibətdə müəlliflər tərəfindən birinci instansiyanı təmsil edən məhkəmə kateqoriyasına aid kəmiyyət göstəriciləri, ələlxüsus əhaliyə düşən məhkəmələrin sayı təhlil edilmişdir. Eyni zamanda, CEPEJ əhaliyə düşən məhkəmələrin sayı barədə hansısa konkret məlumatın təqdimindən imtina etmiş və qeyd olunmuşdur ki, ölkələr arasında məhkəmə səlahiyyətlərinə münasibətdə də fərqlər mövcuddur (belə ki, misal üçün, bəzi ölkələrdə məhkəmələrin vəzifəsi yalnız ədalət mühakiməsinin həyata keçirilməsi ilə məhdudlaşmır – məhkəmələr, həmçinin, inzibati işlərlə də məşğul olurlar, misal üçün, hüquqi şəxslərin reyestrlərini aparırlar, bu isə məhkəmələrin üzərinə düşən iş yükünün müxtəlif olmasına gətirib çıxarır.

Məhkəmə ölçülərinin (müvafiq məhkəmədə işləyən hakimlərin sayının) nəzərə alınması da məhkəmə yerləşməsi xəritəsinə münasibətdə islahatlar aparılması üçün zəruri əhəmiyyət kəsb edir. Faktiki olaraq, məhkəmənin ölçüləri hakimlərin işinin səviyyəsinə (bir hakim tərəfindən baxılan işlərin sayına) təsir göstərən amillərdən biridir. Başqa sözlə desək, məhkəmə ölçülərinin müəyyən olunması məhkəmə yerləşməsi xəritəsinə münasibətdə islahatlar aparılması işinin mühüm tərkib hissəsini təşkil edir. Komissiyanın fikrincə, məhkəmədə hakimlərin sayının optimal səviyyəsi 40-80 arasındadır. Qeyd etmək lazımdır ki, məhkəmə işinin səmərəliliyi və keyfiyyəti həmçinin inzibati işçi heyəti üzvlərinin sayına da bağlıdır.

Məhkəmə yerləşməsi xəritəsində dəyişikliklər edilməsi işinə münasibətdə təsiri olan digər amil məhkəmələrin üzərinə düşən iş yüküdür. Burada məhkəmələrə təqdim edilən iddia ərizələri, işlərin sayının və həll edilmiş işlərin sayının təhlili aparılmalıdır (bu iki göstərici arasında olan nisbət məhkəmənin işinin indeksi kimi qəbul olunur). Müəlliflər tərəfindən həmçinin təklif edilmişdir ki, hakimlərdən ibarət qruplar yaradılsın və onlara, baxılmamış qalan işlərin sayını azaltmaq məqsədilə, həll edilməmiş qalan işləri həll etmək vəzifəsi həvalə edilsin. Digər tövsiyə iş yükünün məhkəmələr arasında bölüşdürülməsi məqsədilə məhkəmələrə münasibətdə ərazi aidiyyəti qaydalarında dəyişikliklər etməkdən ibarətdir.

CEPEJ-ə əsasən məhkəmə coğrafi yerləşməsi və məhkəmənin ərazi aidiyyəti üzrə logistik infrastrukturunun vəziyyəti məhkəmə xidmətlərindən istifadə imkanlarına təsir göstərən əsas amillərdən biridir (ələlxüsus da proses iştirakçılarının iclaslarda şəxsən iştirakı tələb olunduğu hallara münasibətdə). Müvafiq olaraq, CEPEJ tərəfindən tövsiyə edilmişdir ki, vətəndaşların məhkəmələrə gəlib çatmaları üçün tələb olunan vaxt müəyyən edilsin, dövlət qurumları isə məhkəmə və onun ərazi aidiyyətinin şamil edildiyi yaşayış məkanları arasındakı məsafənin mümkün qədər qısaldılmasına nail olsunlar. Qeyd edilənlərə əlavə olaraq, bu sənəd məhkəmə və onun yurisdiksiyasına aid olan yaşayış məkanları arasındakı məsafənin və nəqliyyat imkanlarının nə qədər ağlabatan olmasını müəyyən etmək üçün metodologiyanı müəyyən edir, bu isə, öz növbəsində, ərazi aidiyyətindən asılı olaraq, ən optimal coğrafi yerləşməni müəyyən etmək üçün imkan yaradır.

Məhkəmə xidmətlərindən istifadə imkanlarının qiymətləndirilməsinə münasibətdə digər bir mühüm amil məhkəmələrin kompüterləşdirilmə səviyyəsidir – nəzərə alınmalıdır ki, məhkəmələrin müasir rabitə vasitələri ilə təchiz edilməsi bir sıra prosessual hərəkətlərin məsafədən həyata keçirilməsinə imkan yaradır və nəticə etibarilə, ədalət mühakiməsinin məhkəməyə

şəxsən səfərə ehtiyac olmadan həyata keçirilməsini mümkün etmiş olur. Burada ələlxüsus müəlliflər bir tərəfdən məhkəmələrin olduğu yer üzrə məlumat dəstəyinin səviyyəsi, digər tərəfdən isə məhkəmə xidmətlərindən istifadə üçün fiziki imkanların mövcudluğu arasındakı asılılığı təsvir edir: məlumat dəstəyinin səviyyəsi nə qədər yüksək olarsa, məhkəmə xidmətlərindən istifadə üçün fiziki imkanların yaradılmasına zərurət bir o qədər aşağı olacaq. Eyni fikri məhkəmə iclaslarını proses iştirakçılarının bilavasitə məhkəmə otağına gəlmədən keçirmək imkanı verən videokonfrans vasitələrinin istifadəsi barədə də söyləmək olar. Nəticədə məhkəmənin harada yerləşməsi və hansı ölçülərdə olması onun kompüterləşdirilməsinin və məhkəmə üçün məlumat dəstəyinin səviyyəsindən asılı olur.

Rəhbər qaydalara əsasən, dövlət orqanları məhkəmənin yaradılması və ya ləğv edilməsi barədə qərar qəbul etməzdən qabaq müvafiq ərazidə işgüzar fəaliyyətin nə qədər inkişaf etmiş olmasını müəyyən etməlidir. Burada əsas məqam işgüzar fəaliyyətin səviyyəsi yüksək olan ərazilərdə məhkəmə işinə tələbatın da daha yüksək olmasından ibarətdir.

Məhkəmə yerləşməsi xəritəsinə hansısa dəyişiklikləri etməzdən qabaq nəzərə alınmalı olan digər məqam mübahisələrin həlli üçün alternativ üsulların istifadəsi imkanlarının olub-olmamasına bağlıdır. Nəzərə almaq lazımdır ki, mübahisələrin həllinə münasibətdə təkamül tapmış alternativ üsulların istifadəsi məhkəmələrə müraciət etmək zərurətini aşağı salır və bu səbəbdən, qeyd edilən üsulların istifadəsi üçün imkanların olub-olmamasından asılı olaraq, məhkəmələrin harada yerləşməsi və hansı ölçüdə olması barədə də məlumat təqdim oluna bilər.

Məhkəmə yerləşməsi xəritəsinə dəyişikliklər edərkən nəzərə alınmalı digər məqam hakim və vəkillərin kifayət sayda olmasıdır. Başqa sözlə desək, müvafiq ərazidə kifayət sayda vəkillərin olması, habelə hakimlərin və məhkəmələrin inzibati işçi heyətinin

sayı və səriştə səviyyəsi məhkəmələrin harada yerləşməsi və hansı ölçüdə olması haqqında qərarın çıxarılmasına təsir göstərən amillər sırasındadır.

Məhkəmələrin harada yerləşməsi və hansı ölçüdə olması barədə qərarın çıxarılmasına təsir göstərən sonuncu amil məhkəmələrlə birbaşa, yaxud dolayı təmasda olan digər hökumət orqanları (misal üçün, penitensiar sistem, polis və prokurorluq orqanları) ilə əməkdaşlıq üçün imkanların olub-olmamasına bağlıdır. Belə ki, misal üçün, cinayət işinə baxılarkən şübhəli şəxs qismində saxlanılanların müvəqqəti olaraq saxlandıqları yer həmin şəxslərin məhkəməyə gətirilib-aparılması məsafəsini azaltmaq məqsədilə məhkəməyə yaxınlıqda yerləşən bir yer olmalıdır.

Bu səbəblərdən yuxarıda qeyd edilmiş hallar məhkəmə yerləşməsi xəritəsinə münasibətdə islahatları həyata keçirməzdən qabaq nəzərə alınmalı olan amilləri təşkil edir. Buna baxmayaraq, məhkəmənin ölçüsü və yerləşdiyi yeri müəyyən edərkən heç də bu şərtlərin hamısını nəzərə almaq mütləq deyil. Belə ki, misal üçün, Fransada məhkəmə yerləşməsi xəritəsinin demoqrafik dəyişikliklərə uyğunlaşdırılması zamanı böyük həcmdə statistik məlumatın toplanması zərurəti yaranmışdır. Digər tərəfdən, Hollandiyada məhkəmə sisteminə münasibətdə aparılan islahatlar yalnız yerli məhkəmə strukturunun yenidəntəşkilini əhatələmiş, və qeyd olunan amil və meyarların yalnız bəzilərinin istifadəsi və tətbiqini zəruri etmişdir. Hazırda məhkəmə yerləşməsi xəritəsinə münasibətdə islahatlar aparılması ilə əlaqədar olan ümumi tendensiya işin səmərəliliyi aşağı və kiçik ölçülü olan məhkəmələrin ləğvindən ibarətdir. Başqa sözlə, üzv dövlətlərin qanunverici orqanlarının qarşısında duran vəzifə səmərəliliyi artırmaq və məhkəmələrin işini yaxşılaşdırmaqla xərclərin azalmasına nail olmaqdan ibarətdir.

Məhkəmə yerləşməsi xəritəsinə münasibətdə islahatların həyata keçirilməsi ilə bağlı, bu işin nəticələrinə baxmayaraq, CEPEJ dəyişikliklər üzərində nəzarətin həyata keçirilməsi və

onların təhlilinin aparılmasını tövsiyə edir. İslahatlar həyata keçirilərkən ədalət mühakiməsinin daim təmin edilməsi; ləğv edilən məhkəmələrin işçilərin yeni iş yerinə keçirilməsi və məhkəmələrin zəruri resurslarla təmin edilməsi tövsiyə olunur. İslahatlar aparılması üçün CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi islahatların hazırlanması və həyata keçirilməsi ilə əlaqədar planın işlənib hazırlanmasını və işçi qrupların yaradılmasını tövsiyə edir. Mövcud məhkəmələrin ləğvi və yeni məhkəmələrin yaradılması işinə münasibətdə müvafiq vaxt çərçivəsinin müəyyən edilməsi məsələsinə xüsusi diqqət yetirilməlidir. Qeyd edilənlərə əlavə olaraq, bu kimi tədbirlərin məhkəmələrə müraciət edən şəxslərə təsiri səviyyəsi minimuma endirilməli, məhkəmə fəaliyyətində fasilələrin yaranması riski məhdudlaşdırılmalıdır.

İslahat aparılması bu iş üçün büdcə ayırmaları tələb edir. Bu işlərlə bağlı vacib və xeyli vəsait tələb edən bir amil işçi heyətinin bir yerdən digərinə keçirilməsinə bağlıdır. Məhkəmə yerləşməsi xəritəsində edilən dəyişikliklər üçün xərclərin məbləğini optimallaşdırmaq, ictimaiyyətin və məhkəmə sisteminin müsbət rəyini almaq məqsədilə islahatlar barədə məlumatın təqdim edilməsi üçün plan tərtib etmək, məhkəmə işçilərinə münasibətdə məlumatlandırma tədbirləri həyata keçirmək, məhkəmə işçilərini islahatların həyata keçirilməsində iştiraka təşviq etmək və s. tövsiyə olunur.

Nəhayət, islahatlar həyata keçirildikdən sonra həmin islahatların nə dərəcədə səmərəli olduğunu müəyyən etmək lazımdır. Ələlxüsus aşağıda qeyd edilən təhlillər aparılmalıdır:

- ədalət mühakiməsinin həyata keçirilməsinin səviyyəsi yüksəlmişdir, ya yox;
- ədalət mühakiməsi sisteminə münasibətdə nəzərdə tutulan vəzifələr lazımi qaydada icra olunur, ya yox;
- ümumilikdə ədalət mühakiməsinin keyfiyyət səviyyəsi yüksəlmişdir, ya yox.

CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi qeyd etmişdir ki, islahatlar nəticəsində əldə edilmiş nəticələrin təhlili zamanı Ədliyyə Nazirliyi üçün ayrılan büdcə vəsaitlərinin azalması məsələsi ən az əhəmiyyət kəsb edən bir məsələdir – ilk növbədə diqqət keyfiyyət göstəricilərində yer alan dəyişikliklərə verilməlidir. Qeyd edilənlərə əlavə olaraq, tövsiyə edilir ki, ayrı-ayrı hədəflərlə əlaqədar işlərin həyata keçirilməsi üçün xüsusi şərtlər işlənib hazırlansın və həmin şərtlərə əməl edilməsi üzərində nəzarət həyata keçirilsin ki, islahatların cari durumunu qiymətləndirmək mümkün olsun.

### *4.2.5. "Məhkəmələrin fəaliyyət göstərdiyi yerlərin təşkili və onlardan istifadə imkanlarına dair məlumat toplanması üçün Suallar Toplusu"*[71]

CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi tərəfindən işlənib hazırlanmış sənədlərin əksər hissəsindən fərqli olaraq, bu bölmədə müzakirə edilən sənəd məhkəmələrə ümumən aid deyil və konkret bir mövzuya – məhkəmələrin təşkili və məhkəmələrdən istifadə imkanlarının mövcud olmasına həsr edilmişdir. Suallar toplusu pilot və ya eksperimental məhkəmələr üçün nəzərdə tutulub və vətəndaşların məhkəmələrdən istifadə imkanlarının yaxşılaşdırılması, nəticədə üzv dövlətlərdə ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsi məqsədilə qeyd edilən pilot və eksperimental məhkəmələr tərəfindən onlardan istifadə barədə vətəndaşlara məlumat təqdim etmək üçün istifadə olunur. Nəzərə almaq lazımdır ki, CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi pilot məhkəmələr tərəfindən onlardan istifadə ilə əlaqədar təqdim edilmiş məlumatdan bu mövzuya aid olan xüsusi sənədin işlənib

[71] CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi (CEPEJ-GT-QUAL), *"Məhkəmələrin fəaliyyət göstərdiyi yerlərin təşkili və onlardan istifadə imkanlarına dair məlumatın toplanması üçün Suallar Toplusu"*, Strasburq, 15 mart 2013-cü il, CEPEJ-GT-QUAL(2013)1.

hazırlanması üçün istifadə etmiş və istinad olunan sənəddə məhkəmələrdən istifadə imkanlarının yaxşılaşdırılması üçün tövsiyələr də əksini tapmışdır. Suallar toplusu 11 ayrıca bölmədən ibarətdir.

Birinci bölmə məhkəmələrdən istifadə ilə bağlı mövcud tənzimləmə çərçivəsinə həsr olunur. Bu bölmədə komitənin qoyduğu sual üzv dövlətlərin qanunvericiliyində (birbaşa qanunda və ya digər normativ hüquqi aktda) vətəndaşların məhkəmələrdən istifadə üzrə fiziki imkanlarına aid qaydaların olub-olmamasına aiddir.

İkinci bölmə qəbul otağına və məhkəmə binasına girişdə məlumatın olub-olmamasına aiddir. Belə ki, xüsusilə CEPEJ-in komitəsi vətəndaşların qəbulu üçün xüsusi otağın və əməkdaşların olub-olmaması, xüsusi qaydaların (müraciət edən şəxslər üçün nəzərdə tutulan qaydaların) istifadə edilib-edilməməsi, "Tanışlıq günləri"nin təşkil olunub-olunmaması və s. mövzular üzrə sualları tərtib etmişdir.

Üçüncü bölmə məhkəmə binasının xaricinə və ona bitişik əraziyə aiddir. Ələlxüsus bu bölmədə məhkəmə binasının xaricdən tanınıb-tanınmaması, məhkəmə binasına aparan ictimai nəqliyyat marşrutlarının olub-olmaması, cinayət işləri üzrə aparılan proseslərin iştirakçıları üçün xüsusi giriş-çıxışın olub-olmaması və s. barədə suallar verilmişdir.

Dördüncü bölmədə iclasların təşkili və iclasın başlanmasını gözləyərkən, habelə digər prosessual hərəkətlər üçün vətəndaşların sərf etdikləri vaxta aid suallar verilmişdir. Bu bölmədə toplu müəllifləri aşağıdakı məqamlara toxunur: proses iştirakçılarına məlumatın və bildirişlərin təqdim edilməsinin yolları və üsulları, gözləmə otaqlarının olub-olmaması, məhkəmə binası daxilində rahat şəraitin (yeməkxana, yemək və içmək satışını həyata keçirən avtomatlar, tualet otaqları və s.) yaradılıb-yaradılmaması.

Beşinci bölmə vəkillərin və digər məhkəmə əməkdaşlarının fəaliyyəti üçün şəraitin yaradılmasına aiddir. Bu bölmədə CEPEJ vəkillə onun müştərisi arasında müzakirələr aparılması üçün xüsusi otağın olub-olmaması, işlərin ayrı-ayrı kateqoriyaları (misal

üçün, həddi-büluğa çatmayan şəxslərin iştirak etdiyi işlər və s.) üçün istifadə edilən xüsusi məhkəmə zalının təşkil edilib-edilməməsi kimi məqamlara toxunur.

Altıncı bölmədə məhkəmə binası daxilində təhlükəsizlik məsələsinə aid suallar yer almışdır. Bu bölmədə aşağıda qeyd edilən mövzular əhatə edilmişdir: hakimlərin və məhkəmələrin digər işçilərinin mühafizəsi; yalnız məhkəmə işçiləri üçün nəzərdə tutulan xüsusi otaqların olub-olmaması, cavabdehlər üçün nəzərdə tutulan xüsusi otaqların olub-olmaması və s.

Yeddinci bölmədə verilmiş suallar əlil vətəndaşlara aiddir.

Səkkizinci bölmədə məhkəmələrin işində məlumatın və müasir telerabitə vasitələrinin istifadəsinə dair suallar təqdim olunur. Bu bölməyə müəlliflər məhkəmənin İnternet saytının olması, vətəndaşların iştirak etdikləri iş barədə məlumatı İnternet vasitəsilə əldə etməsi, videokonfrans vasitələrinin istifadəsi və s. mövzular üzrə sualları daxil ediblər.

Doqquzuncu bölmədəki suallar məhkəmələrlə ictimaiyyətin münasibətlərinə aiddir.

Onuncu bölmə məhkəmə binalarının inşası və daxili təchizatı ilə bağlı memarlıq və layihələndirmə məsələlərinin həllində hakimlərin və məhkəmə məmurlarının iştirakına aid suallara həsr olunub.

Və nəhayət, sonuncu, on birinci bölmə suallar toplusunun özünün təkmilləşdirilməsinə aiddir.

### *4.2.6. "Məhkəmələrin fəaliyyət göstərdiyi yerlərin təşkili və onlardan istifadə imkanlarına dair Rəhbər Qaydalar"*[72]

Bir tərəfdən yeni məhkəmə binalarının inşası və ya mövcud məhkəmə binalarının yenidənqurulması işləri zamanı müvafiq qə-

[72] CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi (CEPEJ-GT-QUAL), *"Məhkəmələrin fəaliyyət göstərdiyi yerlərin təşkili və onlardan istifadə imkanlarına dair Rəhbər Qaydalar"*, Strasburq, 12 dekabr 2014-cü il, CEPEJ(2014)15.

rarların qəbul edilməsi üçün məsul olan şəxslər və aidiyyəti məmurlar tərəfindən istifadə edilə bilən istinad şərtlərini müəyyən etmək məqsədilə, digər tərəfdən isə vətəndaşların məhkəmələrdən istifadə imkanlarının yaxşılaşdırılması və Avropa Şurasının üzv dövlətlərində ədalət mühakiməsinin həyata keçirilməsinin səmərəliliyini yüksəltmək üçün Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə tərəfindən *"Məhkəmələrin fəaliyyət göstərdiyi yerlərin təşkili və onlardan istifadə imkanlarına dair Rəhbər Qaydalar"* işlənib hazırlanmışdır. Sözügedən sənəd üzv dövlətlərin pilot məhkəmə *"Məhkəmələrin fəaliyyət göstərdiyi yerlərin təşkili və onlardan istifadə imkanlarına dair məlumatın toplanması üçün Suallar Toplusu"*na cavab olaraq təqdim etdiyi məlumat əsasında tərtib edilmişdir. Sənəd "Pilot məhkəmələr şəbəkəsi" layihəsi çərçivəsində CEPEJ-in 11-12 dekabr 2014-cü ildə keçirilmiş plenar iclasında müzakirə olunmuş və qəbul edilmişdir.

Sənədin giriş hissəsində qeyd edilmişdir ki, ədalət mühakiməsi sisteminin vətəndaşlara təqdim etdiyi xidmətlərin səmərəliliyinin yüksəldilməsi və keyfiyyətinin yaxşılaşdırılması, əlalxüsus da bu sahədə çalışan peşəkarların və sadə vətəndaşların ümidlərinin doğrulması Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının fəaliyyətinin mühüm tərkib hissəsini təşkil edir. Bu məqsədilə Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə, digər tədbirlərlə bərabər, məhkəmə sisteminin təşkilinin təkmilləşdirilməsi məqsədilə, habelə məhkəmə sisteminin həm maddi, həm də logistik nöqteyi-nəzərdən yüksək səviyyədə işləməsi ilə bağlı siyasətçilər və məhkəmələr üçün konkret təkliflər işləyib hazırlamağı təklif etmişdir.

CEPEJ hesab edir ki, məhkəmə binalarının inşası, yaxud yenidənqurulması zamanı ədalət mühakiməsinin keyfiyyəti təmin olunmalı və məhkəmələrə müraciət edən şəxslərin maraqları nəzərə alınmalıdır. Qeyd edilir ki, vətəndaşların, əlalxüsus əlil şəxslərin məhkəmə binalarında qəbulu üçün daha mükəmməl şərtlər yaratmaqla vətəndaşların məhkəmələrə müraciət imkanları ge-

nişləndirilməli, informasiya texnologiyaları vasitəsilə məhkəmələrə müraciət edən vətəndaşlar tərəfindən məlumat əldə edilməsi üçün imkan yaradılmalı, məhkəmə işçiləri üçün münasib iş şəraiti təqdim edilməli, müdafiə hüququ və ya saxlanılmış şəxslərin hüquqlarının istifadəsi təmin olunmalıdır.

Bu sənəddə məhkəmə binaları, məhkəmə binalarının yerləşməsi, adaptasiya imkanları, məhkəmələrin fasiləsiz işinin təmin olunması, məhkəmə binalarının eyniləşdirilməsi, məhkəmə binalarına giriş-çıxış yolları, məhkəmə binasına çatmaq və daxil olmaq üçün məlumat, məhkəmənin işi ilə əlaqədar nişanların və məlumatın yerləşdirilməsi, binanın funksional məqamları, dəqiqliklə müəyyən edilmiş sahələr, vətəndaşların qəbulu, vəkillər, dövlət ittihamçıları üçün nəzərdə tutulmuş otaqlar, xüsusilə hakimlər, məhkəmə işçiləri üçün nəzərdə tutulmuş otaqlar, məhkəmə zallarının sayı, növü və ölçüləri, məhkəmə zalları üçün nəzərdə tutulan avadanlıqlar, gözləmə otağının layihəsi, sübutların alınması üçün otağın layihəsi və s. məqamlar üzrə şərtlər əksini tapmışdır. İlk dəfə olaraq Rəhbər Qaydalarda məhkəmə binalarının planı üzrə şərtlər təqdim olunmuşdur və bunun vasitəsilə Avropa Şurasının üzv dövlətlərinə məhkəmə binalarına münasibətdə ümumi tələbləri müəyyən etmək imkanı verilmişdir. Bu məqamla bağlı təklif edilmişdir ki, məhkəmə binası daxilində üç ayrıca hissə müəyyən olunsun: vətəndaşların qəbulu üçün nəzərdə tutulan hissə, məhkəmə işçiləri və hakimlər üçün nəzərdə tutulan hissə və təhlükəsizlik zonası. Müvafiq olaraq, bina daxilində təhlükəsizlik tədbirləri və hərəkət qaydaları da bu müxtəlif hissələr və zona üzrə ayrıca müəyyən olunmalıdır (zonalaşma). Bi nanın bu qaydada ayrı-ayrı hissələrə və zonaya bölünməsi hakimləri və məhkəmə işçilərini lazımsız təzyiqdən qoruyur, onların işinin səmərəliliyini artırır, tərəflərlə məhkəmə işçiləri və hakimlər arasında məhkəmə binası daxilində qeyri-rəsmi ünsiyyətin səviyyəsini aşağı salır.

Qeyd edilmişdir ki, ictimaiyyətə məhkəmə binasına hansı yollarla gəlib çıxmaq və məhkəmə binasından necə istifadə etmək barədə məlumat təqdim olunmalıdır. Əlalxüsus məhkəmənin internet səhifəsində məhkəmənin ünvanı, məhkəməyə gəlmək üçün istifadə edilə bilən ictimai nəqliyyat marşrutları, məhkəmənin iş vaxtı, məhkəmə zallarının yerləşmə planı, iclasların keçirilmə vaxtı və s. məlumat yerləşdirilməlidir. Qeyd edilənlərə əlavə olaraq, məhkəmə binasını xaricdən, memarlıq üslubu, girişə yaxın bir yerdə olan nişan, misal üçün, bayraq və ya digər xarici eyniləşdirmə vasitələri, yaxud da ki, binanın fasadında yerləşdirilmiş və kifayət qədər böyük ölçülü nişan vasitəsilə eyniləşdirmək mümkün olmalıdır.

Əlil vətəndaşların məhkəmə binasına gəlib çatması və məhkəmə binasından istifadə etməsi məsələlərinə xüsusi diqqət verilir. Avropa Şurası Parlament Assambleyasının 1592 və 1642 saylı qərarlarına müvafiq olaraq, ümumi istifadə üçün yararlı memarlıq və layihələndirmə qaydalarından istifadə etməklə və əlavə maneələr yaratmamaq şərti ilə məhkəmələrin yerləşdiyi binalar əlil vətəndaşların istifadəsi üçün uyğun qaydada inşa edilməli və qurulmalıdır. Qeyd edilmişdir ki, ayrılan maliyyə vəsaitləri nöqteyi-nəzərindən hansısa ciddi məhdudiyyətlər olarsa, işlər mərhələlərlə, əlil vətəndaşlar üçün lazımi şərait yaradılması məqsədilə daha vacib işlərdən başlamaqla aparılmalıdır. Təklif edilmişdir ki, işlər aşağıda qeyd edilən ardıcıllıqla aparılsın: binanın girişi və çıxışı, qəbul otağı, işin kateqoriyasından (cinayət prosesi, mülki proses, kollegiyada baxılan iş) asılı olaraq bir məhkəmə zalı, qəbul otağı və məhkəmə zallarına yaxın yerdə tualet otaqları. Əlil arabalarından istifadə edən vətəndaşlar üçün məhkəmə binasından istifadə imkanlarının yaradılmasına əlavə olaraq digər əlil şəxslərin tələbləri də nəzərə alınmalıdır: misal üçün, görmə qabiliyyəti zəif olan şəxslər üçün daha mükəmməl işıqlandırma və nişanlanma, eşitmə qabiliyyəti zəif şəxslər üçün xüsusi eşitmə vasitələri təmin edilməli, otaqlarda qapıların tu-

tacaqlarının və işıq yandırma-söndürmə vasitələrinin yerləşmə hündürlüyü tənzimlənməlidir.

Məhkəmə zallarında yeni texnologiyaların istifadəsi imkanları ilə əlaqədar qeyd edilmişdir ki, logistik avadanlıq yeni texnologiyaların istifadəsinə də imkan verməlidir. Məhkəmə zalında avadanlıq belə qaydada yerləşdirilməlidir ki, iclasın lazımi qaydada keçirilməsi və bütün iştirakçılar üçün zalın hər bir nöqtəsini tam görmək imkanları təmin edilmiş olsun.

Bu sənəd ədalət mühakiməsinin həyata keçirilməsinin səmərəliliyinin yüksəldilməsi və Avropa dövlətlərində vətəndaşların məhkəmə sistemindən istifadə ilə əlaqədar zəruri imkanlarla təmin olunması işində mühüm və unikal rol oynamaqdadır.

### *4.2.7. "Avropa Şurasının üzv dövlətlərində məhkəmə sistemində ekspertlərin roluna dair Suallar Toplusu"*[73]

Bu sənəd də CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi tərəfindən bütövlükdə məhkəmə sistemi işinin keyfiyyətinə aid olmaqla işlənib hazırlanan sənədlər sırasında istisna təşkil edir. Qeyd ediləndən başqa, ilk nəzərdən belə bir qənaətə gəlmək olar ki, məhkəmə işində ekspertlərin iştirakı məsələsinin məhkəmə işinin keyfiyyətinə ümumiyyətlə aidiyyəti yoxdur.

Suallar toplusu eksperimental/pilot məhkəmələr üçün nəzərdə tutulmuşdur və ekspertlərin məhkəmə proseslərində iştirakı barədə qeyd edilən məhkəmələrin rəy və münasibətini öyrənmək üçün istifadə olunur. Başqa sözlə desək, CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi tərəfindən hazırlanmış digər sənədlərə, misal üçün, *"Ədalət mühakiməsi və məhkəmə fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi üzrə Suallar*

[73] CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi (CEPEJ-GT-QUAL), *"Avropa Şurasının üzv dövlətlərində məhkəmə sistemində ekspertlərin roluna dair Suallar Toplusu"*, Strasburq, 20 dekabr 2013-cü il, CEPEJ-GT-QUAL(2013)7RevE.

*Toplusu"*na və *"Məhkəmələrin fəaliyyət göstərdiyi yerlərin təşkili və onlardan istifadə imkanlarına dair məlumatın toplanması üçün Suallar Toplusu"*na bənzər olaraq, bu toplu ilə də komitə tərəfindən işlənib hazırlanmış bir neçə digər sənəddə olduğu kimi, məlumatın vətəndaşlar arasında rəy sorğusu aparmaqla deyil, üzv dövlətlərdə fəaliyyət göstərən məhkəmə hakimləri və işçilərindən toplanması nəzərdə tutulmuşdur. CEPEJ tərəfindən hazırlanmış müəyyən digər sənədlərə oxşar olaraq, bu suallar toplusu da CEPEJ-in Pilot Məhkəmələr Şəbəkəsinə təqdim olunmalıdır.

Ekspertlərin məhkəmə prosesində iştirakının təşkilinin ümumi qaydalarına gəldikdə, aşağıda qeyd edilmiş suallar tərtib edilmişdir:

- məhkəmə prosesində ekspertlərin iştirakına dair məsələləri tənzimləyən qanunvericilik aktlarının adları və sayı, həmin qanunvericilik aktlarında bu mövzuya həsr edilmiş maddələrin sayı;
- məhkəmə prosesində ekspertlərin rolunun müəyyən olunması (misal üçün, hakimin köməkçisi, tərəflərin köməkçisi və s.).

Bu bölmədə verilmiş suallardan biri məhkəmə prosesində ekspertlərin rolunun təsvir edilməsini nəzərdə tutur. Digər suallar da, məhkəmə prosesinin müxtəlif iştirakçıları ilə müqayisədə, ekspertlərin rolunu müəyyənləşdirmək məqsədinə xidmət edir: məhkəmənin digər nümayəndələri ilə müqayisədə ekspertlərin statusunun müəyyən olunması; ekspert rəyini və digər mürəkkəb məlumatı (misal üçün, iş üzrə sübutların bir hissəsini təşkil edən texniki məlumatı) başa düşməkdə hakimə köməklik göstərmək məqsədilə köməkçilərin təyin edilməsi qaydasının istifadə olunub-olunmaması. Komissiya pilot məhkəmələrdən ekspertlərin müxtəlif kateqoriyalarına (şahid-ekspert, məhkəmə eksperti, ekspert-qiymətləndirici, məhkəmə ekspertizası üzrə ekspert və s.) həvalə edilən müxtəlif vəzifələrin təsvirini təqdim etməyi xahiş edir. Bu sənəddə qoyulan digər bir sual hüquqi şəxsin ekspert kimi təyin

edilə bilməsi məsələsinə aiddir. Suallar toplusunda, artıq qeyd edilənlərə əlavə olaraq, "ekspert"ə aid vəzifələrin başqa şəxsə həvalə olunması, habelə artıq təyin edilmiş ekspert üçün köməkçinin təyin edilə bilməsi məsələsindən də bəhs olunur. CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsinin marağını ekspert rəyində istifadə edilən ifadələr də cəlb etmişdir: texniki rəy, ifadə, qənaət və s.

Suallar toplusunda əksini tapmış digər məsələ ekspert rəylərinin istifadəsi (əlalxüsus da ekspert rəylərinin nə qədər tez istifadə olunması) ilə bağlıdır. Misal üçün, İşçi Qrup ekspert rəyinin istifadə edildiyi məhkəmə işlərin sayı (son beş il ərzində), ekspertlərin məhkəmə prosesinə cəlb edildiyi işlərin sayı ilə ekspertləri məhkəmə prosesinə cəlb etmədən baxılmış işlərin sayı arasında olan nisbət, ekspertlərin daha çox istifadə edilən kateqoriyaları (tibbi ekspert, tikinti işləri eksperti, avtomobillər üzrə ekspert, tədqiqatçı ekspert, ekspert-alim) barədə məlumatın toplanması üçün suallardan da istifadə edir. Nəhayət, ekspert rəyinin istifadəsinə aid bölmədə komitə tərəfindən ekspert xidmətlərinin haqqının ödənilməsi üçün vəsait olmaması səbəbindən, məhkəmələrin nə qədər tez ekspert xidmətlərindən istifadə edilməsindən imtina etməsi barədə suallar verilmişdir.

Topluda digər mövzular barədə də suallar verilmişdir, misal üçün: məhkəmə işlərinə cəlb edilən ekspertlərin peşəkar birlikləri (kollegiya və s.), müxtəlif sahələri əhatə edən məhkəmə ekspertiza qiymətləndirməsi, ekspert təhlilinin hakimlər tərəfindən aparılması.

Həm cinayət, həm də mülki işlər üzrə işə cəlb edilən ekspertlərə ödənilən xidmət haqqına ayrıca bir bölmə həsr edilmişdir. Bu mövzu ilə bağlı müəlliflər ekspertlərin xidməthaqqı barədə qərar çıxarmaq səlahiyyətinə malik olan rəsmi orqanlar (Ədliyyə Nazirliyi, məhkəmə və ya qanunverici orqan) və ekspertlərin xidməthaqqının ödənilməsi üçün məsul olan rəsmi orqanlar (məh-

kəmə, Ədliyyə Nazirliyi, tərəflər və ya digər şəxslər) tərəfindən məlumatın təqdim edilməsi üçün suallar tərtib etmişlər.

Prosessual məsələlərlə bağlı məqamlar suallar toplusunun ayrıca bir bölməsində təsvir edilmişdir. Qeyd edilən bölmənin bir hissəsi məhkəmə proseslərinə münasibətdə ekspert rəylərinin əhəmiyyətindən bəhs edir. Ələlxüsus müəlliflər aşağıda qeyd edilmiş mövzular üzrə məlumatın təqdim edilməsi üçün suallar tərtib etmişlər:

- məhkəmə tərəfindən işə baxılması müddəti ərzində ekspert rəyinin nəzərə alınması məcburidir və ya məcburi deyil və ekspert rəyinin əhəmiyyəti hansı səviyyədədir (rəy qərarın çıxarılması üçün əsas kimi qəbul olunur, ya yox, yaxud da ki, hakimlər ekspert rəyindən yalnız sübutların qiymətləndirilməsi zamanı istifadə edirlər və s.);
- ekspert rəyinin məhkəmə qərarına nə dərəcədə təsir edə bilməsinə münasibətdə hansısa məhdudiyyətlər qoyulub, ya yox (hakim qərarın hansı hissəsinin ekspert rəyinə əsasən çıxarılmasını izah etməyə borcludurmu, hakim qərarını çıxararkən ekspert rəyinə istinad etməməsinin səbəblərini izah etməyə borcludurmu və s.);
- ekspert rəyinin istifadə edilməməsi və s. hallar üçün izahatı təqdim etməməsi səbəbindən hakimə münasibətdə hansısa cəza tədbirlərindən istifadə edilə bilərmi;
- məhkəmə ekspert rəyini etibarsız hesab edə bilər, ya yox və edə bilərsə, hansı səbəblərə istinadən (ekspertin qərəzli olması, ekspert tərəfindən qeyri-münasib üsul və metodların istifadəsi, məhkəmə tərəfindən ekspertin lazımi səriştəyə malik olan şəxs kimi qəbul edilməməsi və s.).

Eyni məhkəmə işi ilə əlaqədar, lakin fərqli bir ixtisas sahəsinə aid olmaqla əlavə ekspert rəyinin təqdim edilməsini tələb etmək imkanının olub-olmaması məsələsi də CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi tərəfindən nəzərdən keçirilmişdir. Sənəddə əksini tapmış prosessual məqamlardan

biri proses iştirakçılarının müraciətinə əsasən işin mahiyyəti üzrə baxılmasına başlanmasından qabaq hakimin ekspertin köməyi üçün müraciət edə bilməsidir.

CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsinin ayrıca olaraq toxunduğu digər bir mövzu ekspertlərin işi ilə bağlı proses iştirakçılarına təqdim edilən prosessual zəmanətlərə aiddir. Bu məsələ ilə bağlı suallar toplusunda əksini tapmış suallar aşağıda qeyd edilmiş məqsədlərə xidmət edir: proses iştirakçılarına ekspert işinin gedişi barədə məlumat təqdim olunur, qeyd edilən iştirakçılar sual və qeydlərini təqdim etmək imkanına malik olur və ekspert rəyinin son mətni təqdim edilməzdən qabaq proses iştirakçıları tərəfindən təqdim edilmiş sual və qeydlərin nəzərə alınması mümkünlüyünün təhlili; qarşılıqlı dindirmənin aparılması imkanlarının təhlili; tərəflərin müraciətinə əsasən ekspertin fəaliyyət dairəsini məhdudlaşdırmaq üçün məhkəmənin səlahiyyəti; tərəflərin özlərinin işə ekspert cəlb etmək hüququ (bu, mümkün olduqda bu qaydada işə cəlb edilən ekspertin rəyinin məhkəmə tərəfindən təyin edilən ekspertin rəyi ilə eyni qüvvəyə malik olub-olmaması müəyyən edilməlidir).

Ekspertlərin işinin digər prosessual məqamlarına münasibətdə suallar toplusunda aşağıda qeyd edilmiş suallar verilmişdir:

- ekspertlər kim tərəfindən təyin olunur (tərəflər, məhkəmə, birlikdə – tərəflər və məhkəmə tərəfindən);
- tərəflər şəxsən ekspertlərini seçə bilərmi;
- ekspertlərin lisenziyalaşdırma və akkreditasiya sistemi mövcuddurmu;
- müvafiq siyahı tərtib edilmişsə, məhkəmə eksperti həmin siyahıdan seçməyə borcludurmu;
- ekspert rəyi məhkəmə baxışı zamanı hansı qaydada təqdim edilir (yazılı rəy, şifahi qaydada, proses iştirakçıları ilə bərabər qarşılıqlı çıxışlar ərzində).

Suallar toplusunun bir bölməsi ekspertlərin məsuliyyəti və ekspertlərə münasibətdə tətbiq edilə bilən cəza növlərinə həsr

edilmişdir. Hər şeydən öncə CEPEJ-in Ədalət mühakiməsinin keyfiyyəti üzrə Komitəsi ekspertlər vəzifələrini yerinə yetirərkən onlara münasibətdə cəza tədbirlərinin tətbiqinin mümkünlüyü və cəza mümkündürsə, hansı növ cəzaların tətbiqinin mümkün olması ilə əlaqədar suallar tərtib etmişdir (misal üçün, ekspert rəyinin etibarsız hesab edilməsi, ekspertin üzərinə cərimə qoyulması, müvafiq ekspertin adının ekspertlər siyahısından çıxarılması, ekspertin xidməthaqqının məbləğinin azaldılması, cinayət əməli üçün sanksiya, mülki məsuliyyət və s.). Başqa sözlə desək, müəlliflər ekspert təhlili aparılarkən yol verilmiş səhvlər üçün ekspertin məsuliyyətə cəlb edilə bilinməsinin mümkün olub-olmadığını müəyyən etməyə çalışmışlar. Bu mövzu ilə bağlı CEPEJ həmin məsuliyyətin növü (mülki, cinayət, digər), ekspertlərin fəaliyyətinə nəzarəti həyata keçirmək, ekspertlərin işdə buraxdıqları səhvləri aşkara çıxarmaq və bundan sonra, müvafiq qaydada, ekspertə münasibətdə cəzanın tətbiq edilə bilməsi barədə qərar çıxarmaq səlahiyyətinə malik olan şəxs/qurum (tərəflər, hakim və b.) haqqında məlumat toplanmasında maraqlıdır. Maraq doğuran digər məqamlar ekspertlərin məsuliyyətinin sığortası və bu kimi sığortanın əldə edilməsini yoxlamaq hüququna malik olan səlahiyyətli şəxsin kimliyidir. Nəhayət, bu mövzu üzrə sonuncu sual şəxsin "ekspert" statusunu daşıması faktının ona aid olan mülki və ya cinayət məsuliyyətinə təsir edib-etməməsinə bağlıdır.

Digər bölmə ekspertlərin məhkəmə tapşırığı üzrə iş üçün ayrılan müddətə həsr olunub. Burada əsas diqqət ekspertlərin fəaliyyətinin ləngimələrə yol verilmədən aparılması zərurətinə yönəlmişdir ki, bu da, əlbəttə, təbiidir – məhkəmə işinin hansı müddətdə baxılması və həll olunması son nəticə etibari ilə ekspert rəyindən asılı ola bilər. Müvafiq olaraq, birinci sual məhkəmə prosesi çərçivəsində ekspertin işi üçün ayrılan müddətin müəyyən edilə bilinməsi və bu kimi məhdudiyyətlərin formasına (işin mahiyyəti üzrə baxılmasına başlamazdan qabaq, məhkə-

mənin qərarına əsasən müəyyən edilmiş qrafikə uyğun olaraq, ekspertin işi üçün ayrılan müddətin məhdudlaşdırılması; prosessual qanunvericilik əsasında ayrı-ayrı şərtlərin müəyyən edilməsi; ekspertin işi ilə əlaqədar şərtlərin müəyyən edilməsinə münasibətdə məhkəmələrin tam səlahiyyəti və s.) aiddir.

Digər bir sual ekspert rəyinin formasına və ekspert rəyi tərtib edilərkən məcburi qaydada istifadə edilməli olan plana bağlıdır. CEPEJ tərəfindən həmçinin ekspertin işinə münasibətdə ləngimələrə səbəb olan və daha tez-tez rastlaşılan hallar (ekspertlərin sayının, texniki avadanlıqların və ya prosessual qaydaların kifayət sayda və həcmdə olmaması; ekspertlərin səriştəsi ilə bağlı problemlər; ekspertlərə eyni zamanda bir neçə işin tapşırılması) barədə məlumatın təqdim edilməsi təklif edilmişdir. Qeyd edilənlərə əlavə olaraq, CEPEJ ekspertlərin qatıldığı məhkəmə işləri ilə bağlı statistik məlumatın əldə edilməsinə də maraq göstərir, misal üçün: ekspertin iştirakı məhkəmə prosesinin nə qədər uzanmasına səbəb olur; məhkəmə prosesi çərçivəsində, orta hesabla, məhkəmə ekspertin işi üçün nə qədər vaxt ayıra bilər; məhkəmələrdə ekspert rəylərinin qeydiyyatı və təsdiqi üçün istifadə edilə bilən sistem mövcuddurmu; hər bir ekspertə həvalə edilən işlərin sayına nəzarəti həyata keçirmək hüququna malik olan səlahiyyətli şəxs varmı; hakimlər ekspert rəyinə münasibətdə hansı səlahiyyətlərə malikdirlər (ekspert rəyinin hazırlanması üçün vaxt verilməsi və uzadılması, ekspert rəyinin əhatə etməli olduğu sahənin genişləndirilməsi və ya azaldılması; ekspertə onun işi ilə əlaqədar köməklik göstərilməsi, misal üçün, ekspertin apardığı təhlil üçün zəruri sənədlərin tələb olunması; ekspert vəzifə və ya öhdəliklərini müəyyən edilmiş vaxt ərzində yerinə yetirmədikdə əvəz olunmasının tələb edilməsi).

Sonuncu bölmədə təcrübədə tətbiq edilən iş prinsipləri barədə bir sıra suallar verilir və həmin suallara respondentlərin cavabı beşballı şkala üzrə qiymət kimi verilir. Bu bölmədə aşağıdakı suallar yer almışdır:

- qərarlar qəbul edərkən hakimlər ekspertlərin rəyinə nə dərəcədə istinad edir;
- ekspertlərin iş sahələri üzrə biliklərini artırmaq məqsədilə hakimlər üçün xüsusi təlim kursları və proqramlar təşkil edilir;
- fəaliyyət göstərdikləri sahə üzrə biliklərini artırmaq məqsədilə ekspertlər üçün xüsusi təlim kursları və proqramlar təşkil edilir;
- digər bir ayrıca sual ekspertin səriştəsinin hansı üsulla müəyyən olunmasına aiddir və bu sualla əlaqədar respondentlər ekspertin səriştəsini müəyyən etmək üçün hansı üsulların (akkreditasiya, lisenziya alınması, peşəkar təşkilat tərəfindən hazırlanmış iş qaydalarının tətbiqi, ekspertlərə şamil edilən xüsusi şərtlər və s.) istifadə edilməsi haqqında məlumat təqdim etməlidirlər.

Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə tərəfindən, həmçinin, ekspertləri işə həvəsləndirmək və ekspertlərin işində ləngimələrin aradan qaldırılmasını təmin etmək məqsədilə ayrı-ayrı dövlətlərin hansı təşəbbüslərlə çıxış etmələri barədə məlumatın təqdim edilməsi təklif edilmişdir. Belə təşəbbüslər olduqda CEPEJ respondentlərdən həmin təşəbbüslərin kim tərəfindən qəbul edilməsi (məhkəmə, hökumətin siyasi orqanları, təhsil müəssisələrinin nümayəndələri, şəxsən məhkəmə ekspertləri) barədə məlumatı təqdim etməyi xahiş edir. Qeyd edilənlərə əlavə olaraq, CEPEJ məhkəmə ekspertlərinin fəaliyyətinə aid ən əhəmiyyətli problemlər (ekspert çatışmazlığı, işləri ilə əlaqədar ekspertlərdə məsuliyyət hissinin aşağı olması, etimad səviyyəsinin aşağı olması, ekspertin qərəzli olması və s.) barədə məlumat təqdim edilməsini nəzərdə tutmuşdur. Nəhayət, sonuncu sual ekspertlərin işi ilə əlaqədar kitab, monoqrafiya və elmi işlərdən ibarət tədris mühitinin, habelə bu mövzu üzrə mütəmadi dərc edilən ixtisaslaşmış nəşrlərin və İnternet məkanında xüsusi səhifələrin olub-olmamasına aiddir.

### *4.2.8. "Məhkəmə prosesləri üzrə məhkəmələr tərəfindən təyin edilən ekspertlərin vəzifələrinə dair Rəhbər Qaydalar"*[74]

Avropa Şurasının üzv dövlətlərini təmsil edən Pilot Məhkəmələr Şəbəkəsi tərəfindən Avropa Şurasının üzv dövlətlərində məhkəmə sistemində ekspertlərin roluna dair suallar toplusu əsasında cavablar təqdim edildikdən sonra Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə tərəfindən "*Məhkəmə prosesləri üzrə məhkəmələr tərəfindən təyin edilən ekspertlərin vəzifələrinə dair Rəhbər Qaydalar*" hazırlanmış və CEPEJ-in 11-12 dekabr 2014-cü il tarixləri arasında keçirilmiş 24-cü plenar iclasında qəbul edilmişdir.

Bu sənədin məqsədi məhkəmə işinə baxış müddətində məhkəmə tərəfindən ekspert təyin edildikdə bu qaydada təyin edilmiş ekspertin rolu barədə qanunverici orqan, hakim və işin bütün tərəflərinə istinad xarakterli məlumatı təqdim etməkdən ibarətdir. Bu sənədin mətnində "məhkəmə tərəfindən təyin edilən ekspert" dedikdə *"Avropanın məhkəmə sistemləri haqqında CEPEJ-in Hesabatı"*nda verilmiş məna nəzərdə tutulur və həmin tərifə uyğun olaraq, ekspertlər özlərinin hansısa bir fakt barədə xüsusi elmi, yaxud texniki biliklərini məhkəmənin sərəncamına verirlər. Bu tərif Avropa Şurasının üzv dövlətlərinin məhkəmə sistemləri daxilində ekspertlərin roluna aid ümumi prinsiplər barədə məlumatı təqdim etmək məqsədinə xidmət edir. Qeyd edilənə əlavə olaraq, bu tərif məhkəmə prosesi zamanı ekspertlərin işinə münasibətdə hüquqi təfsir və qanunun tətbiqini aydınlaşdıran prinsipləri müəyyən edir. Qeyd edilən prinsiplər hüququn bütün sahələrinə münasibətdə, işin mahiyyəti üzrə baxışından əvvəlki mərhələ və işin mahiyyəti üzrə məhkəmədəki baxış mərhələsinə şamil edilir və bu qayda yalnız mülki işlərə deyil, həmçinin cinayət işlərinə və inzibati işlərə də aiddir.

---

[74] CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi (CEPEJ-GT-QUAL), *"Məhkəmə prosesləri üzrə məhkəmələr tərəfindən təyin edilən ekspertlərin vəzifələrinə dair Rəhbər Qaydalar"*, Strasburq, 12 dekabr 2014-cü il, CEPEJ(2014)14.

Bu sənədin məqsədi, sadəcə olaraq, mövcud qanunvericilik aktları və prosessual qaydaların prinsiplərinə əsasən, ümumilikdə ekspertin təyinatının tələb olunub-olunmaması və hansı hallarda tələb olunmasına dair suallara cavab verməkdən ibarət deyil. Məqsəd ekspertlərin seçilməsi və təyin edilməsi, ekspert tərəfindən rəy hazırlanması və ekspert rəyinin məhkəmə prosesi zamanı istifadəsinə aid meyarların müəyyən edilməsidir.

Rəhbər Qaydalarda ekspertin üzərinə düşən vəzifələr, ekspertin seçilməsi və əvəz olunması, tərəflərin müəyyən etdiyi şərtlər, ekspertin tərəflər və ya məhkəmə tərəfindən təyin olunması, ekspert rəyinin (hesabatının) tərtib edilməsinə dair şərtlər/ekspert rəyinin forması, ekspertin hüquq və öhdəlikləri, əlavə ekspertiza keçirilməsi və ekspert vəzifələrini icra etmədiyi halda ekspertə cəzanın tətbiqi mümkünlüyü, ekspert rəyinin cinayət və ya mülki proses zamanı mahiyyəti, ekspertin biliklərinin qiymətləndirilməsi, ekspert təyin edildikdən sonra və seçim proseduru zamanı məhkəmənin sərəncamında olan nəzarət imkanları və s. barədə məlumat verilmişdir.

Qeyd edilmişdir ki, ekspert rəyinin predmetinə dair müstəqil qalmalı və tərəflərdən hər birinə münasibətdə qərəzsiz mövqedən çıxış etməlidir. Məhkəmədə işə mahiyyəti üzrə baxılmasına qədər, tərəflərdən birinin təşəbbüsü ilə xüsusi ekspert rəyinin hazırlanması məqsədilə ekspertin təyin edilməsinə icazə verilmir. Qeyd edilənlərə əlavə olaraq, maraqların toqquşmasına yol verməmək üçün ekspert heç bir tərəflə sıx şəxsi münasibətlərə malik olmamalıdır. Ekspert zəmanət verməlidir ki, onun rəyi qərəzsiz tərzdə, fərdi maraqlarını nəzərə alınmadan təqdim edilmişdir.

Qaydalarda üzv dövlətlərin ekspertlərin təyin edilməsi zamanı istifadə edilməli olan müxtəlif meyarlar əksini tapmışdır, misal üçün, ekspertlərin biliklərinin müəyyən olunması, faktiki müstəqillik və şəxsi-qərəzsizlik, vaxt amili və texniki/fərdi imkanlar, nəzərdə tutula bilən xərclər, məhkəmə ekspertizası üzrə təcrübə/konkret bir peşə sahəsi üzrə ixtisaslaşan ekspert, təhlilin

nəticələrinin proqnozlaşdırıla bilinməsi, dil bilikləri/ekspertin milliyyəti, ekspertin biliklərinə əminliyi və rəyinə istinadı. Bu meyarların təfsirinə münasibətdə Komissiya tərəfindən üzv dövlətlər üçün çox faydalı məsləhətlər verilmişdir. Misal üçün, seçim zamanı ən aşağı xidməthaqqı məbləği meyar olmalı deyil; ekspertin seçimi onun əvvəllər məhkəmələrdə ekspert qismində çıxış edib-etməməsindən asılı olmamalıdır, təhlilin nəticələrinin proqnozlaşdırıla bilinməsi seçim üçün meyar olmalı deyil.

Qeyd edilən sənəddə əksini tapmış prinsiplərə əsasən, Avropa Şurasının hər bir üzv dövləti ya məhkəmə prosesi ilə əlaqədar ekspertlərin hüquq və vəzifələrinə münasibətdə normativ hüquqi sənəd qəbul etməli, yaxud mövcud qaydaların ekspertlərin işinə şamil edilən minimum standartlara cavab verməsini təmin etmək üçün mövcud qaydalara nəzarət, həmin qaydalara əlavə və dəyişikliklər etməlidir.

## *4.3. Üzv dövlətlərin məhkəmələri tərəfindən hazırlanmış məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının nəticələri haqqında hesabatlar*

### *4.3.1. "İtaliyanın Turin və Kataniya şəhərlərində məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının nəticələri haqqında Hesabat"*[75]

İtaliyada məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğuları Turin və Kataniya şəhərlərində yerləşən pilot/eksperimental məhkəmələrdə keçirilmişdir.

Qeyd edilən sorğuların əsas məqsədləri aşağıda göstərilir:

- İtaliyanın məhkəmə sistemi ilə birbaşa təmasda olmuş vətəndaşların məhkəmə sisteminin işindən məmnunluqlarının ümumi səviyyəsi;
- ictimai rəyin dəyişməsinin və gələcəkdə vətəndaşların məhkəmə sisteminin işində məmnunluqlarında baş verən tendensiyaların müəyyən edilməsinə imkan yaratmaq üçün əsas göstəricilər barədə məlumatın işlənib hazırlanması;
- ədalət mühakiməsinin keyfiyyətini yüksəltmək məqsədilə məhkəmə sisteminin işinə dair ən az məmnunluq qazanmış fəaliyyət məqamlarının müəyyən edilməsi;
- sosial və demoqrafik yanaşmadan istifadə etməklə (misal üçün, yaş üzrə, cins üzrə və s.), vətəndaşların ayrı-ayrı kateqoriyaları arasında məhkəmə sistemindən məmnunluq səviyyəsinin təhlil edilməsi.

---

[75] G.Oberto, *"Ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyasının fəaliyyəti çərçivəsində məhkəmələrə müraciət edən şəxslərin məmnunluq səviyyəsini müəyyən etmək məqsədilə aparılan sorğulara tətbiq edilən metodologiyanın istifadəsində Fransanın Klermon-Ferran Məhkəməsinə köməklik göstərmək üçün keçirilmiş ekspert iclasının Hesabatı"*, Klermon-Ferran, 5 aprel 2012-ci il.

Sorğu üçün məsul olan komitənin tərkibi müxtəlifliyi ilə seçilmişdir. Bu komitənin tərkibinə İtaliya Respublikasının Ədliyyə Nazirliyinin nümayəndələri (və eyni zamanda CEPEJ üzvləri), apellyasiya məhkəməsi və milli tribunalların nümayəndələri, hakimlər və vəkillər, universitet professorları, statistik məlumatın işlənməsi sahəsini təmsil edən mütəxəssislər daxil olmuşdur.

Sorğu maliyyə dəstəyi təqdim edilmədən keçirilmişdir. Sorğunun keçirilməsində yalnız məhkəmələrin daxili resurslarından istifadə edilmiş və vətəndaşlar arasında sorğu keçirilməsi üçün könüllülər – tələbələr işə cəlb olunmuşdur. Nəticədə sorğu keçirilməsi üçün hazırlıq işləri təşkilatçılar tərəfindən həvəsləndirmə və təlim görüşlərinin təşkil olunmasını da əhatə etmişdir. Sorğunun nəticələrini yaxşılaşdırmaq məqsədilə müsahibələri aparan şəxslər üçün xüsusi təlim təşkil edilmiş və onlara sorğunu hansı qaydada keçirmək, özlərini sorğu zamanı necə aparmaq, sualları hansı qaydada düzgün tərtib etmək və s. mövzular izah edilmişdir.

Sorğu zamanı bir neçə yüz respondentlə müsahibələr aparılmışdır. Hədəf qrupu "məhkəmə müştəriləri"ndən ibarət idi – yəni məhkəmə prosesi çərçivəsində məhkəmə ilə birbaşa təmasda olmuş şəxslərdən – şahid, işin tərəfləri, işin tərəflərinin qohumları, məhkəmə tərcüməçiləri və hətta ekspertlər. Vətəndaşların müəyyən kateqoriyaları – vəkillər, hakimlər, məhkəmə icraçıları və məhkəmələr, hüquq mühafizə orqanlarının digər nümayəndələri sorğudan xaric edilmişdir.

Sorğu gedişində verilən suallar aşağıda qeyd edilmiş ümumi mövzuları əhatə etməklə vətəndaşların məhkəmə işinin müxtəlif məqamlarından məmnunluq səviyyəsini müəyyən etməyə yönəlmişdir:

- məhkəmə binaları, onların planı və təmizlik, səliqə-sahmanın səviyyəsi;
- iclasların keçirilmə vaxtına riayət və onların davam etdiyi müddət;

- hakimlərin peşəkarlıq səviyyəsi, onların səriştəsi və davranış qabiliyyəti;
- məhkəmələr barədə məlumatın müvafiq İnternet səhifələrində yerləşdirilməsi;
- məhkəmə coğrafi yerləşməsi və məhkəmələrə aparan nəqliyyat yol və marşrutları.

Sorğu aparılmazdan qabaq məlumatlandırma və təbliğat kampaniyası da təşkil olunmuşdur: sorğunun keçirilməsinə dair məlumatı əks etdirən plakatlar müvafiq məhkəmə binalarında asılmışdır. Vətəndaşların sorğu barədə məlumatlandırılması məqsədilə hazırlıq işlərində hakimlər və vəkillər də iştirak etmişlər.

Cavablar İnternet vasitəsilə toplanmışdır. Məlumatın işlənməsi cavabların mərkəzləşdirilmiş elektron monitora yerləşdirilməsi vasitəsilə aparılmışdır və bu, nəticələr barədə məlumatın İşçi Qrupun üzvlərinə real vaxt rejimində təqdim olunmasına imkan yaratmışdır.

Hansı pilot məhkəməni əhatə etməsindən asılı olaraq, sorğuların nəticələri də fərqlidir. Misal üçün, Turində vətəndaşların məhkəmə xidmətinin işindən məmnunluq səviyyəsi Kataniya ilə müqayisədə daha yüksək olmuşdur. Turindəki respondentlərin 38%-i kifayət qədər yüksək məmnunluq səviyyəsini qeyd etmişdir. Kataniyada isə məhkəməyə müraciət edən şəxslərin yalnız 18%-nin məhkəmədən yüksək səviyyədə məmnun qaldığı qeyd edilmişdir. Bundan başqa, Turindən olan respondentlərin 15%-i məhkəmə işindən qətiyyən məmnun qalmamışdır. Kataniyada isə bu rəqəm 30% olmuşdur. Bizim fikrimizcə, qeyd edilən rəqəmlər ölkənin Turin şəhərinin yerləşdiyi, kifayət qədər yüksək həyat səviyyəsi ilə müşahidə olunan şimal hissəsi ilə İtaliyanın daha kasıb olan cənub hissəsi arasındakı sosial və iqtisadi fərqlərin təzahürüdür.

Vətəndaşların məhkəmə işindən məmnun qalmaması üçün əsas səbəblər Turində və Kataniyada, demək olar, eyni olmuşdur. Bu iki şəhərin hər birində vətəndaşları daha çox narahat edən səbəblər məhkəmə işlərinə aid hüquqi xidmətlərin qiymətinin yük-

şək olması, məhkəmə işinin həddən çox vaxt aparması və prosessual hərəkətlərin müəyyən edilmiş vaxtlarda və müddətlərdə aparılmaması olmuşdur. Eyni zamanda, hakimlərin və məhkəmə məmurlarının səriştəsi, onların qərəzsizliyi və ünsiyyət qabiliyyəti kimi əhəmiyyətli məqamlar üzrə hər bir məhkəməyə münasibətdə yüksək qiymət alınmışdır.

### *4.3.2. "Avstriyanın Linç Regional Məhkəməsinin işində notariusların və vəkillərin məmnunluq sorğusunun nəticələri haqqında Hesabat"*

Əvvəlki hesabata bənzər sorğu 2011-ci ilin may ayında CEPEJ-in Pilot Məhkəmələr Şəbəkəsinin iştirakçısı olan pilot/eksperimental məhkəmələrdən biri, Linç Regional Məhkəməsinə münasibətdə aparılmışdır. Lakin bu dəfə respondentlər qrupu bu kimi sorğularda adətən iştirak edən şəxslər dairəsindən fərqli olmuşdur. Sorğu notariuslar və vəkillər arasında aparılmışdır. Respondentlərə aşağıda qeyd edilmiş mövzuları əhatə edən suallar verilmişdir:

- məhkəmə işi;
- məhkəmə işçi heyəti;
- məlumat və işin tərəfləri ilə əlaqə;
- infrastruktur;
- prosessual hərəkətlərin gedişi.

Əvvəlki hesabatda olduğu kimi, bu dəfə də sorğunun əsas məqsədi ədalət mühakiməsinin keyfiyyətini müəyyən etmək olmuşdur.

Beləliklə, sorğunun nəticələrindən aydın olmuşdur ki, Linç məhkəməsinə müraciət etmiş vəkil və notariusların rəyinə əsasən məhkəmənin işinə aid olan başlıca çatışmazlıq məhkəmə işləri ilə bağlı hüquqi xidmətlərin qiymətinin yüksək olmasıdır. Əksər hallarda respondentlər sənədlərin dövriyyəsi ilə əlaqədar xərclərin məbləğinin prosessual sənədin surətinin təmin edilməsi qiymə-

tinin, habelə rüsumlar və hüquqi xidmət haqlarının məbləğlərinin yüksək olduğunu qeyd etmişlər.

Avstriyada fəaliyyət göstərən vəkil və notariusların rəyinə əsasən, bu ölkənin məhkəmə işinin keyfiyyətinə aid digər mühüm məqam kadrlar məsələsidir. Linç məhkəməsinə müraciət etmiş hədəf qrupunun ayrı-ayrı üzvləri inzibati işçi heyətinin qərəzli olması və onların işlərinin keyfiyyət səviyyəsi barədə bir neçə mənfi rəy bildirmişlər. Baxmayaraq ki, kadrlarla bağlı məsələnin kritik həddə çatmasını söyləmək üçün əsas yoxdur, aydın olmuşdur ki, bu sahədə islahatlara zərurət var.

Məlumat və işin tərəfləri ilə əlaqə sahəsində əsas problem hakimlərin iş rejiminin gərgin olmasına bağlı olmuşdur. Avstriyada fəaliyyət göstərən vəkil və notariusların bu məqam üzrə narahatlığı kifayət qədər ciddidir və bu səbəbdən, respondentlərin fikrinə əsasən, sıra tədbirlərin həyata keçirilməsinə ehtiyac var. Respondentlər həmçinin işin tərəfləri və məhkəmə prosesinin digər iştirakçıları ilə hakimlər arasında əlaqə və münasibətlər məsələsinə müasir rabitə vasitələri müstəvisindən yenidən baxmağın labüdlüyünü qeyd etmişlər. Misal üçün, təklif edilmişdir ki, məhkəmə prosesinin iştirakçıları ilə ünsiyyət qurmaq üçün hakimlər tərəfindən telefon bağlantısından istifadə olunmalıdır. Buna əlavə olaraq, məhkəmədə prosessual hərəkətlərin həyata keçirilməsi üçün müddətləri qısaltmaq və bununla ədalət mühakiməsinin keyfiyyətini yüksəltmək məqsədilə inzibati işçi heyəti üzvlərinin iştirak səviyyəsini azaltmaq üçün də hakimlərlə vətəndaşlar arasında ünsiyyət üçün rabitənin bu növündən istifadə tövsiyə edilmişdir.

Maraqlıdır ki, Avstriyada fəaliyyət göstərən notarius və vəkilləri ən çox qane edən məqam məhkəmələrin təşkili olmuşdur. Məhkəmələrə ayrılan maliyyə dəstəyinə münasibətdə məmnunluq səviyyəsi bir qədər aşağı olmuşdur, lakin qeyd etmək lazımdır ki, Avstriya ictimaiyyəti üçün bu məqam təəccüblü deyildi.

Məhkəmədə prosessual hərəkətlərin gedişinə münasibətdə vəziyyət xeyli fərqli olmuşdur. Vəkil və notariusların bu sahə

üzrə rəyi fəlakət həddində olmasa da, onlar məhkəmə qərarlarının yazılma tərzinin və məhkəmə iclasları zamanı istifadə edilən xüsusi ifadələrin çətinliklə başa düşülməsi məsələlərindən tamamilə narazı olmuşlar.

Hədəf qrupu məhkəmələr barədə məlumatın İnternet vasitəsilə paylanmasının durumundan razı qalmışdır.

Sorğu müəllifləri son beş il ərzində ədalət mühakiməsinin həyata keçirilməsi işində əldə edilmiş dəyişikliklərdən notarius və vəkillərin nə dərəcədə razı qalması haqqında da suallar vermişlər. Cavablar kifayət qədər müsbət olmuşdur və respondentlərin əksəriyyəti qeyd olunan müddət ərzində ədalət mühakiməsinin keyfiyyətinin yüksəldiyini qeyd etmişlər.

### *4.3.3. "Gürcüstanda məhkəmələrə müraciət edən şəxslərin məmnunluq sorğusunun nəticələri haqqında Hesabat"*

Gürcüstanın məhkəmə sistemində (Tbilisi, Rustavi, Qori, Kutaisi, Zuqdidi və Batumi şəhərləri əhatə edilməklə) məhkəmələrə müraciət edən şəxslər arasında 2012-ci ildə keçirilmiş məmnunluq sorğusunun məqsədləri aşağıda qeyd edildiyi kimi olmuşdur:

- məhkəmələrə müraciət edən şəxslərin məhkəmə sistemindən məmnunluqlarının ümumi səviyyəsinin müəyyən olunması;
- vətəndaşların məhkəmə sisteminə etimadının səviyyəsinin müəyyən olunması;
- ədalət mühakiməsinin keyfiyyətinə münasibətdə müsbət dəyişikliklərin müəyyən edilməsi üçün göstəricilərin tərif edilməsi;
- məhkəmə sistemi işində müsbət dəyişikliklərə nail olmaq üçün münasib çalışma üsullarının işlənib hazırlanması məqsədilə zəif cəhətlərin müəyyən olunması;
- məhkəmə xidmətinə münasibətdə vətəndaşların ayrı-

ayrı kateqoryialarının məmnunluq səviyyəsinin müəyyən olunması.

Qeyd etmək lazımdır ki, digər ölkələrdə aparılmış bu kimi sorğularla müqayisədə ictimai rəyin müəyyən edilməsi üçün keçirilmiş bu sorğu çərçivəsində respondentlərin və müsahib iştirakçıların sayı xeyli çox olmuşdur. Gürcüstanda məhkəmələrə müraciət edən şəxslər arasında keçirilmiş sorğuda təxminən 2000 nəfər iştirak etmişdir. Respondentlərin seçimi artıq İtaliyada seçilmiş, istifadə edilmiş və sınaqdan keçmiş sxem üzrə aparılmışdır – belə ki, Gürcüstanda, Avstriyada aparılan sorğudan fərqli olaraq, respondentlər məhkəmə sektorunu təmsil edən peşəkarlar (misal üçün, vəkillər, notariuslar və b.) deyildi. Sorğu ədalət mühakiməsinin həyata keçirilməsi işində iştirak etmiş sadə vətəndaşlar arasında aparılmışdı. Hədəf qrupunda vətəndaşların aşağıda sadalanan kateqoriyalarının nümayəndələri iştirak etmişdi:

- iddiaçılar (ən çox sayda respondent);
- cavabdehlər;
- vəkillər və nümayəndələr;
- şahidlər;
- məhkəmə prosesi iştirakçılarının ailə üzvləri;
- ekspertlər;
- tərcüməçilər;
- sadə inzibati məsələlərlə bağlı (misal üçün, hansısa hüquqi sənədin alınması məqsədilə) məhkəmələrə müraciət etmiş vətəndaşlar və digər şəxslər (misal üçün, jurnalistlər).

Qeyd edilənlərdən başqa, sorğunun nəticələrinin mötəbərliyi müəlliflər tərəfindən bütün kateqoriyalardan olan işlərə (mülki, cinayət və inzibati) dair respondentlərlə müsahibələr aparılması ilə təsdiq olunur.

Tədqiqat aparılması üçün istifadə edilmiş metodologiya CEPEJ tərəfindən müəyyən edilmiş şərtlərə cavab verir və sorğu keçirilməsi üçün standart vasitə olmaqla Komissiya tərəfin-

dən hazırlanmış suallar toplusu əsasında müəyyən edilir. Suallar toplusuna 8 sualdan ibarət giriş hissəsi, 56 əsas sual və 4 demoqrafik sual daxil edilmişdir. Sualların cavabları da artıq sınaqdan keçmiş metod əsasında tərtib edilmişdir – respondentlər cavablarını suala 1-dən 5-ə qədər olan şkala üzrə qiymət qoymaqla təqdim etməli idilər. Başqa sözlə desək, ədalət mühakiməsinin keyfiyyətinin qiymətləndirilməsi 5 ballıq şkala üzrə aparılmışdır.

Sorğunun nəticələrindən bəlli olmuşdur ki, ümumilikdə məhkəmələrə müraciət edən şəxslərin məmnunluq səviyyəsi kifayət qədər yüksəkdir. Sorğu üzrə orta bal 4.5 olmuşdur. Əslinə qaldıqda, məhkəmə fəaliyyətinin ayrı-ayrı məqamlarına münasibətdə (inzibati işçi heyətinin iş səviyyəsindən məmnunluq; məhkəmə binaları və infrastruktur; ədalət mühakiməsinin həyata keçirilməsinin sürəti və ədalət mühakiməsinin ləngimələrə yol vermədən icra edilməsi; məhkəmə işi; hakimlər və s.) suallara cavabların orta balı 4.4-4.6 arasında olmuşdur. Eyni zamanda, sorğunun hansı məhkəməyə aid olmasından asılı olaraq, cavablarda müəyyən kiçik fərqlər müşahidə edilmişdir. Belə ki, məhkəmələrə müraciət edən şəxslərin cavabları üzrə ən yüksək məmnunluq balı 4.74 (Qori məhkəməsi), ən aşağı məmnunluq balı 4.28 (Tbilisi məhkəməsi) olmuşdur.

Hakimlərə etimadın səviyyəsi üzrə də suallara verilən cavablardan yüksək bal qazanılmışdır, bununla bərabər, təşkilatçıların gəldikləri qənaətlər fərqli olmuşdur. Verilən qiymət 4.1 ilə 4.6 arasında olmuşdur. Lakin sorğu təşkilatçıları qeyd etmişlər ki, məhkəmə sisteminin digər nümayəndələri ilə müqayisədə hakimlərin etimad üzrə topladıqları bal ən aşağı olmuşdur və bu da narahatlıq doğuran nəticədir. Hakimlərə ən aşağı etimad səviyyəsi Batumi və Tbilisi şəhərlərində yerləşən məhkəmələr üzrə müşahidə olunmuşdur.

Eyni zamanda, inzibati işçi heyətinin işinə kifayət qədər yüksək qiymət verilmişdir. Məhkəmələrin bu kateqoriyadan olan işçilərinə vətəndaşların etimad səviyyəsi 4.6 olmuşdur. Bu bölmə üzrə respondentlər tərəfindən işçilərin səriştə və bacarıqları, onlar

tərəfindən vətəndaşlara təqdim edilən köməklik, sadə vətəndaşların başa düşə biləcəkləri dillə ünsiyyət qurmaq/ümumi müsbət ünsiyyət vərdişləri və s. qeyd edilmişdir. Vətəndaşların məhkəmə işçilərinə etimad səviyyəsinin qiyməti 4.5 baldan aşağı düşməmişdir. Öz növbəsində, Batumi və Tbilisi şəhərlərində yerləşən məhkəmələrin işçi heyətinə münasibətdə məhkəmə sisteminin bu kateqoriyadan olan nümayəndələri üçün vətəndaşlar ən aşağı etimad səviyyəsini nümayiş etdirmişlər (4.4).

Ədalət mühakiməsinin həyata keçirilməsinin sürəti üzrə cavablarda orta bal 4.4 olmuşdur. Bu mövzu ilə bağlı respondentlər tərəfindən aşağıda qeyd edilən məsələlərə toxunulmuşdur: məhkəmələr tərəfindən qərarların qanunvericiliklə müəyyən edilmiş müddət ərzində çıxarılması; tələb edilən məlumatın təqdim edilməsinin sürəti; məhkəmə tərəfindən işə baxılmanın sürəti; məhkəmə iclasları zamanı hakimlərin punktuallağı və s. Sualların bu kateqoriyası üzrə vətəndaşları ən çox narahat edən məsələ kimi işlərə baxılma müddəti qeyd edilmişdir (4.3).

Məhkəmə işinə münasibətdə aşağıda qeyd edilmiş suallardan istifadə olunmuşdur: məhkəməyə çağırış vərəqlərinin mətninin sadə və başadüşülən olması; məhkəmələr tərəfindən vətəndaşlara təqdim olunan məlumatın sadə və başadüşülən olması; məhkəmələrin təşkili; məhkəmə qərarlarının izah hissəsi; məhkəmə işinin şəffaflığı; ümumilikdə məhkəmələrə göstərilən etimad. Bu suallar üzrə orta bal kifayət qədər yüksək olmuşdur - 4.4. Buna baxmayaraq, sonuncu sual üzrə vətəndaşların verdiyi orta bal (hakimlərə göstərilən etimad bölməsinə oxşar olmaqla) ən aşağı olmuşdur (4.1). Bu və digər suallara verilmiş cavablar üzrə ən aşağı nəticələr isə Tbilisi məhkəməsinə təsadüf edir (3.9).

Burada digər bir maraqlı məqamı qeyd etmək lazımdır: sorğu aparıcıları respondentlərdən məhkəmələrlə ünsiyyətdə olduqdan sonra onların mövqeyində baş vermiş dəyişikliyə qiymət verməyi təklif etmişdilər. Maraqlıdır ki, bu suala verilən cavablar üzrə də orta bal yüksək olmuşdur. Belə ki, respondentlərin, demək olar,

40%-nin rəyi yüksək olaraq qalmış, 33% respondentin rəyi isə daha yüksək olmuşdur.

Gürcüstanda keçirilmiş sorğunun nəticəsinə əsasən demək olar ki, məhkəmə işinə vətəndaşlar tərəfindən verilən ümumi qiymət müsbət olmuşdur və respondentlərin təxminən 60%-i öz ölkələrində ədalət mühakiməsinin keyfiyyətindən razı, yaxud da çox razı qalmışlar. 2012-ci il üçün Gürcüstanda məhkəmə sisteminin işinə verilən orta qiymət, beş ballıq şkala üzrə, 3.9 bala bərabər olmuşdur.

Sorğudan həmçinin məlum olmuşdur ki, Gürcüstan əhalisinin əksər hissəsi məhkəmələrə etimad göstərməyi davam etdirir (respondentlərin 50.4%-i çox razı, 34.7%-i razı olmuşdır). Lakin bu suala aid orta bal, dörd ballıq şkala üzrə, 3.3 olmuşdur.

Respondentlərin təxminən 80%-i (78.1%) hesab edir ki, Gürcüstan məhkəmələri korrupsiyadan azaddır. Eyni zamanda, Rustavi şəhərində respondentlərin yalnız üçdə-ikisi (66%) Gürcüstan məhkəmələrində rüşvətin olmadığı qənaətindədir. Müəlliflər tərəfindən korrupsiya olub-olmaması məsələsi respondentlərin ayrı-ayrı kateqoriyalarına istinadən qiymətləndirilmişdir, bu isə etimadın səviyyəsi ilə qərarın respondentin xeyrinə və ya respondentə qarşı çıxarılması faktı arasında olan asılılığı müəyyən etməyə imkan vermişdir. Digər tendensiyalar da müəyyən olunmuşdur, misal üçün: cinayət işlərin tərəflərində etimad səviyyəsi daha aşağı olmuşdur; yaşı 45-dən yuxarı olan vətəndaşlarla müqayisədə daha cavan respondentlərin məhkəmələrə etimadı yüksək idi; qadınların məhkəmələrə etimadının səviyyəsi kişilərlə müqayisədə daha aşağıdır; və nəhayət, işləyən vətəndaşlarla müqayisədə işsizlərin və ya təqaüddə olan şəxslərin məhkəmələrə etimadının səviyyəsi daha aşağıdır.

Hakimlərin korrupsiya əməllərinə qurşanmasının qiymətləndirilməsinə gəldikdə, aşağıda qeyd edilmiş tendensiyalar müşahidə olunmuşdur: cavabdehlər və məsuliyyətə cəlb edilmiş şəxslər arasında hakimlərin korrupsiyaya qurşanmasına inananların

sayı daha yüksəkdir, iddiaçılar arasında isə eyni mövqedən çıxış edən vətəndaşların sayı nisbətən aşağı olmuşdur; cinayət işinin iştirakçıları arasında hakimlərin korrupsiya əməllərinə geniş dairədə qurşanmasını hesab edənlərin sayı nisbətən aşağı idi, mülki və inzibati işlərdə isə hakimlərin rüşvət aldıqlarını hesab edən şəxslərin sayı daha yüksək olmuşdur. Bu, kifayət qədər mənfi tendensiyadır və sorğunun nəticələri nümayiş etdirir ki, hakimlərin korrupsiyaya qurşanmış olmaları mövqeyindən daha çox son vaxtlar (bir ildən az müddət ərzində) məhkəmələrlə təmasda olmuş şəxslər çıxış edir. Sorğunun nəticələri həmçinin nümayiş etdirmişdir ki, hakimlərin korrupsiya əməllərinə qurşanıb-qurşanmaması məsələsinə dair rəyə ən çox təsir göstərən amil çıxarılmış qərar olmuşdur: belə ki, xeyirlərinə məhkəmə qərarı çıxarılmış respondentlər arasında hakimlərin korrupsiyaya qurşanmış olduqlarını hesab edən şəxslərin sayı daha aşağıdır.

# FƏSİL 5

## Mübahisələrin həllinin alternativ üsullarının tətbiqinə və məhkəmə qərarlarının icrası işində çətinliklərin həllinə münasibətdə Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının fəaliyyəti

### *5.1. Mediasiya sahəsində Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının fəaliyyəti*

Mübahisələrin həlli ilə əlaqədar mediasiyanın istifadəsinə dair Avropa Şurası Nazirlər Komitəsinin tövsiyələrinin icrası üçün müvafiq şəraitin yaradılmasını təmin etmək məqsədilə CEPEJ daxilində Mediasiya üzrə Komitə yaradılmışdır. Bu komitəyə ilk istinad Mediasiya üzrə CEPEJ-in Komitəsinin 8-10 mart 2006-cı il tarixdə keçirilmiş birinci iclasının hesabatında verilmişdir[76]. Qeyd edilən sənədin qoşmasında Mediasiyaya dair CEPEJ-in Komitəsinin Əsasnaməsi verilmiş[77] və qeyd olunmuşdur ki, CEPEJ-in bu komitəsi Avropa Şurası Nazirlər Komitəsinin tövsiyələrinin üzv dövlətlərə təsirini qiymətləndirmək[78], mövcud töv-

[76] Mediasiya üzrə Komitə, Strasburq, 8-10 mart, 2006-cı il, İclas Hesabatı, CEPEJ-GT-MED(2006)4.

[77] Mediasiya üzrə Komitənin (CEPEJ-GT-MED) Əsasnaməsi CEPEJ tərəfindən 6-cı plenar iclasda qəbul edilmişdir, CEPEJ(2007)4, Strasburq, 22 yanvar 2007-ci il.

[78] Burada nəzərdə tutulmuşdur: *Ailə münasibətlərinə aid mediasiya üzrə Rec(98)1 saylı Tövsiyə; Cinayət işlərinə aid mediasiya üzrə Rec(99)19 saylı Tövsiyə; İnzibati orqanlarla vətəndaşlar arasında mübahisələrə aid mediasiya üzrə Rec(2001)9 saylı Tövsiyə; Mülki işlərə aid mediasiya üzrə Rec(2002)10 saylı Tövsiyə.*

siyələrin səmərəli icrasına töhfə vermək və mübahisələrin həllinin alternativ üsullarına (ələlxüsus da mediasiyaya) münasibətdə yeni beynəlxalq hüquqi sənədlərin hazırlanmasında iştirak etmək üçün yaradılmışdır.

Bu komitə 6 üzvdən[79] (CEPEJ ekspertindən) ibarət olur və onun üzvləri mediasiya və mübahisələrin həllinin digər alternativ üsulları üzrə zəruri biliklərə malik olur. CEPEJ-in bu komitəsi Avropa Şurasının digər qurumları ilə əməkdaşlıq edir və özünün vəzifələrinin icrası ilə bağlı həmin qurumlarla bərabər çalışır. Mediasiya üzrə Komitənin işinə ayrı-ayrı qeyri-hökumət təşkilatları və pilot/eksperimental məhkəmələr də dəstək verir, misal üçün, ayrı-ayrı dövlətlərin məhkəmə sistemi çərçivəsində mediasiya prinsiplərinin istifadəsinə dair təcrübədən alınan məlumatla təmin edirlər.

CEPEJ-in Mediasiya üzrə Komitəsinin ilk iclası bir tərəfdən ölkə səviyyəsində mediasiya metodunun istifadəsi qaydasının müəyyən olunmasına və mübahisələrin digər alternativ həlli üsullarının nə qədər səmərəli olmasının öyrənilməsinə, digər tərəfdən isə Avropa Şurasının aidiyyəti tövsiyələrinin icrasının təsirinin qiymətləndirilməsini aparmaq üçün istifadə olunan sənədlərin işlənib hazırlanmasına həsr edilmişdir. Deyilən səbəblərdən komitə tərəfindən üzv dövlətlərə ünvanlanan və məqsədi üzv dövlətlərdə mübahisələrin həllinin alternativ üsulları (o cümlədən mediasiya) barədə məlumat toplanmasını təmin eləmək və müvafiq məlumatı ümumi şəkildə cədvəl formasında təqdim etmək olan suallar toplusu hazırlanmışdır[80]. Qeyd etmək lazımdır ki, bu suallar toplusu üzv dövlətlərdə çalışan və müvafiq üzv dövlətdə mediasiya proseduru barədə alternativ mənbədən məlumat təqdim edə bilən mediatorların da rəyini öyrənmək məqsədilə eyni zamanda CEPEJ-in İnternet səhifəsində yerləşdirilmişdir.

[79] Komitənin 6 üzvü CEPEJ-in Bürosu tərəfindən Komissiyanın üzvləri sırasından təyin edilir. Komitə Portuqaliya, Almaniya, Litva, Çex Respublikası, İngiltərə və Sloveniya ekspertlərindən ibarətdir. Sonuncu iclasa sədrliyi Litvadan olan nümayəndə etmişdir.

[80] Mediasiya üzrə Komitə (CEPEJ-GT-MED(2006)3).

### *5.1.1. "Mediasiyaya dair Avropa Şurasının Tövsiyələrinin təsirinin qiymətləndirilməsinin Təhlili"*[81]

Bu hesabat Mediasiya üzrə Komitə (CEPEJ-GT-MED) tərəfindən hazırlanmış ən irihəcmli sənəddir və 200-dən çox səhifədən ibarətdir. Hesabatın birinci hissəsi CEPEJ-in suallar toplusu ilə bağlı üzv dövlətlərin müvafiq təşkilatları tərəfindən aparılmış işə həsr olunur və ümumilikdə CEPEJ-in yanaşmasının, xüsusən də CEPEJ-in Mediasiya üzrə Komitəsinin işinin nə qədər ciddi olduğunu müəyyən edir. Hesabatın ikinci hissəsi ayrı-ayrı dövlətlərin məhkəmə sistemləri çərçivəsində Avropa Şurasının təqdim etdiyi tövsiyələrin icrası işinin keyfiyyətinin təhlilinə həsr edilir və bu bölmədə Avropa Şurasının hər bir tövsiyəsi komitənin ekspertləri tərəfindən ayrıca təhlil olunur.

Ailə münasibətlərinə aid Mediasiyaya dair Rec(98)1 saylı Tövsiyə ilə əlaqədar komitə qeyd etmişdir ki, ailə hüququ üzrə hüquqi məsləhətlər təqdim edən vəkillərin əksəriyyətinin Avropa Şurasının bu sənədindən xəbəri var. Komitə həmçinin qeyd etmişdir ki, Avropa Şurasının tövsiyəsi həm məhkəmə təcrübəsi, həmçinin də ali təhsil müəssisələrində hüquq üzrə tədrisə kifayət qədər böyük təsir göstərmişdir. Bunlarla bərabər, üzv dövlətlərdə mübahisələrin həllinin alternativ üsullarının mümkün qədər geniş istifadəsini təmin edə bilən normativ hüquqi aktlar kifayət qədər müfəssəl yazılmayıb. Eyni zamanda, müəlliflər digər bir tendensiyanı da qeyd etmişlər ki, bu, tövsiyənin əsas prinsiplərinin ayrı-ayrı dövlətlərin qanunvericiliyinə daxil edilməsidir.

Bu hesabatda komitə ailə münasibətləri ilə bağlı yaranan mübahisələrin həllində mübahisələrin həllinin alternativ üsullarının istifadəsi imkanlarından vətəndaşların az məlumatlı olduğunu tənqidlə qeyd edir. Ailə mübahisələrinin həlli üçün me-

[81] Mediasiya üzrə Komitə (CEPEJ-GT-MED), *"Mediasiyaya dair Avropa Şurasının tövsiyələrinin təsirinin qiymətləndirilməsinin Təhlili"*, Strasburq, 3 may 2007-ci il, CEPEJ(2007)12.

diasiya metodunun məhdud istifadəsi də hakimlərlə vətəndaşlar arasında mübahisənin bu məhkəmədənkənar qayda vasitəsilə həllinə etimadın olmaması ilə izah edilir.

Nəzərə alsaq ki, məhkəmə prosesi ilə müqayisədə mediasiya metodunun xeyli üstünlükləri var, misal üçün, ailə mübahisələrinin mediasiya metodu ilə həlli daha ucuz başa gəlir, ailə mübahisələrinin həlli üçün mediasiya metodundan az-az istifadə kifayət qədər təəccüblü görünür. Əksər üzv dövlətlərdə ailə mübahisələri üzrə həm mediasiya metodunun istifadəsi, həmçinin də məhkəmə prosesinin xərclərinin işin tərəfləri tərəfindən ödənilməsini nəzərə alaraq, komitənin rəyinə əsasən qeyd etmək lazımdır ki, mübahisələrin həllinin alternativ üsulları barədə daha geniş məlumatın vətəndaşlara çatdırılmasına ehtiyac var.

Qeyd edilənlərdən başqa, komitə hesab edir ki, əksər üzv dövlətlərdə mübahisələrin həllinin alternativ üsulları üçün ayrılan maliyyə dəstəyinin səviyyəsi kifayət qədər deyil. Buna əlavə olaraq, mediatorların təlimi məsələsində hökumətin daha geniş dairədə iştirakına ehtiyac var. Dövlət orqanları tərəfindən mediatorların statusu barədə ümumi qaydalar işlənib hazırlanmalıdır, ələlxüsus da mediatorların fəaliyyəti ilə bağlı bir sıra baş prinsiplər müəyyən edilməlidir (misal üçün, məxfiliyin qorunması prinsipi və ya uşaqların mediasiya prosesində məcburi iştirakı). Qeyd edilənlərə əlavə olaraq, müəlliflər mediasiyanın nəticəsi olaraq imzalanan müqaviləyə və xüsusən də həmin müqavilənin məcburi hüquqi qüvvəsinə diqqət yetirirlər – baxmayaraq ki, bütün üzv dövlətlər belə müqavilənin qüvvəsini tanıyırlar, hələ də bu kimi müqavilələrin qüvvəsi yetərli deyil.

Ailə mübahisələri üzrə mediasiya ilə əlaqədar Avropa Şurasının tövsiyələrinin icrasının təhlilinin nəticələri ilə tanış olduqdan sonra komitə tərəfindən aşağıdakı təkliflər işlənib hazırlanmışdır:

- həm vətəndaşlar, həm də hakimlər arasında mübahisələrin həllinin alternativ üsulları barədə məlumatlandırmanın genişləndirilməsi;

- tərəflər arasında maliyyə vəsaitlərinin səviyyəsinin törədə biləcəyi qeyri-bərabərliyi aradan qaldırmaq üçün maliyyə yardımının məbləğinin artırılması;
- uşaqların maraqlarının daha ciddi surətdə nəzərə alınması;
- mediasiya üçün davranış məcəlləsinin işlənib hazırlanması;
- Avropanın bütün ölkələri üzrə müdiasiya sahəsinə aid təlimin standartlaşdırılması;
- ayrı-ayrı dövlətlərin daxili qanunvericiliyində mediasiya nəticəsində bağlanan sazişin statusunun möhkəmləndirilməsi;
- ərlə arvad və ya müxtəlif üzv dövlətlərin vətəndaşları arasında olan mübahisələrə münasibətdə beynəlxalq səviyyədə ailə mübahisələri üzrə mediasiya rəhbər qaydalarının hazırlanması;
- ailə mübahisələrinə münasibətdə mübahisələrin alternativ həlli üsullarının istifadəsinin mümkün olması barədə vətəndaşlara məlumat təqdim etmək vəzifəsinin hakimlərə tapşırılması;
- məxfiliyin qorunması qaydasının standart şərtə çevrilməsi və bu qayda pozulduğu halda cəzaların müəyyən edilməsi;
- ailə mübahisələrinə münasibətdə mübahisələrin alternativ həlli üsullarının istifadəsi ilə əlaqədar ayrılan maliyyə yardımı üçün üzv dövlətin vəsaitlərinin məbləğinin artırılması;
- mediator statusunu almaq üçün xüsusi qaydaların işlənib hazırlanması;
- uşaqların ailə mübahisələrinə münasibətdə mübahisələrin alternativ həlli üsullarının istifadəsi prosesində iştirakına dair şərtlərin təkmilləşdirilməsi;
- mediasiya nəticəsində bağlanmış sazişdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi ilə əlaqədar qaydaların müəyyən olunması.

- Mülki işlərə aid mediasiyaya dair Rec(2002)10 saylı Tövsiyədə komitənin hazırladığı hesabatın mətni təhlil edilmişdir. Mediasiya üzrə Komitə qeyd etmişdir ki, Avropa Şurasının bu tövsiyəsi üzv dövlətlərdə vəkillik peşəsi üzrə çalışanlar tərəfindən qəbul olunur və Avropa universitetlərində hüquq fakültələrinin tədris proqramının tərkib hissəsi hesab edilir. Deyilənlərdən başqa, müəlliflər qeyd etmişlər ki, əksər üzv dövlətlərdə bu tövsiyənin müddəaları daxili qanunvericiliyə də salınmışdır. Eyni zamanda, komitə qeyd edir ki, vətəndaşların heç də hər zaman mübahisələrin alternativ üsullarla həlli imkanlarına dair məlumatı olmur. Müvafiq olaraq, komitə tövsiyə edir ki, üzv dövlətlər ictimaiyyət arasında bu mövzu üzrə məlumatlandırma aparsın və mübahisələrin alternativ üsullar ilə həllinin bəzi məqamları, misal üçün, mediasiyanın daha az xərc tələb etməsi, daha az rəsmi olması və daha az vaxt aparması və s. barədə təşviqat kampaniyası keçirsin. Komitə qeyd etmişdir ki, demək olar, bütün üzv dövlətlərdə vasitəçilik fəaliyyəti Mülki-Prosessual Məcəllə və ya digər qanunvericilik aktları ilə tənzimlənir və bu, mülki hüquq münasibətlərinin mahiyyət etibarilə mübahisələrin alternativ üsullarla həllinə münasibətdə ən uyğun hüquq sahəsi olması ilə izah edilə bilər.

Komitə həmçinin qeyd etmişdir ki, bəzi üzv dövlətlərdə mübahisələrin alternativ üsullarla həllinə kifayət qədər maliyyə vəsaitləri ayrılmır. Bundan başqa, qeyd edilmişdir ki, cəmiyyətin mediasiya prinsipi ilə tanış olmadığı ölkələrdə hökumət tərəfindən bu kimi çalışmaya ayrılan maliyyə vəsaitlərinin məbləği çox azdır.

İşin tərəflərinə mübahisələrin alternativ üsullarla həlli məqsədilə maliyyə vəsaitlərinin ayrılması məsələsində ölkədən ölkəyə kifayət qədər böyük fərqlər var: bəzi ölkələrdə bütün xərcləri işin tərəfləri ödəyir; digər dövlətlərdə hökumət tərəfindən maliyyə yardımı proqramları həyata keçirilir.

Komitə qeyd etmişdir ki, əksər ölkələrdə mediatorların üzərinə düşən vəzifələri hakimlər həyata keçirə bilməzlər. Bundan başqa, qeyd edilmişdir ki, hakimlər işin tərəflərinə mediasiyanın istifadə edilə bilməsi imkanları barədə məlumat verməlidir. Bunlara baxmayaraq, Avropa dövlətlərində mediasiyanın istifadə edilib-edilməməsi barədə qərarı işin tərəfləri verir.

Komitə tərəfindən izah edilmişdir ki, əksər dövlətlərdə mediatorlara şamil edilən şərt və qaydaları müəyyən edən rəsmi sənədlər mövcuddur. Komitə təklif etmişdir ki, mediatorların məsuliyyət səviyyəsini yüksəltmək məqsədilə onların fəaliyyətinə aid olan qiymətləndirmə sistemi yaradılsın. Qeyd edilənlərə əlavə olaraq, üzv dövlət tərəfindən peşə təlimi proqramları təşkil olunur. Bu məsələ ilə bağlı üzv dövlətlərə təklif edilmişdir ki, mediasiya vəzifəsinə namizədlərə şamil edilən tələblər, mediatorların peşə səriştəsi və təlimi üzrə şərtlər haqqında müxtəlif dövlətlərin qanunvericilik müddəaları eyniləşdirilsin.

Komitə qeyd etmişdir ki, mediatorlara münasibətdə məxfiliyin qorunmasına dair öhdəlik heç də bütün üzv dövlətlərdə qəbul olunmayıb.

Baxmayaraq ki, mülki işlərə münasibətdə mediasiya məcburi hesab edilmir, ayrı-ayrı dövlətlərin qanunvericiliyi ilə mediasiya nəticəsində bağlanmış sazişlərə tam hüquqi qüvvə verilmişdir.

Komitə Avropa Şurasının bu tövsiyəsinin icrası işini təkmilləşdirmək üçün aşağıda verilmiş təkliflərlə çıxış etmişdir:

- mediasiyanın müsbət cəhətləri barədə vəkillər və vətəndaşlar arasında məlumatlandırma dairəsini genişləndirmək;
- eyni iş üzrə hakim vəzifələri ilə mediator vəzifələrinin bir şəxs tərəfindən icra edilməsinin mümkünsüzlüyü barədə müddəanı qəbul etmək;
- mediasiyaya müraciət etmiş tərəflər arasında maliyyə nöqteyi-nəzərindən qeyri-bərabərliyin azaldılması üçün şərait yaratmaq;

- mediasiya fəaliyyətini beynəlxalq səviyyədə mövcud qaydalara uyğun etməklə qeyd edilən fəaliyyətin səmərəliliyini artırmaq məqsədilə mediasiya proseduruna münasibətdə keyfiyyət tələblərini standartlaşdırmaq;
- bütün üzv dövlətlərdə mediatorların üzərinə məxfiliyin qorunmasına dair öhdəlik qoyulmasını nəzərdə tutmaq;
- mediator vəzifəsinə namizədlərə şamil olunan tələblərin eyniləşdirilməsi və s.

Cinayət işlərinə aid Mediasiyaya dair Rec(99)19 saylı Tövsiyə CEPEJ komitəsinin üzvləri arasında daha ziddiyyətli rəylərin təqdim edilməsinə gətirib çıxarmışdır.

Belə ki, misal üçün, qeyd edilir ki, bu tövsiyənin elm aləmində geniş tanınması ilə bərabər və əksər dövlətlərin qanunvericiliyində müvafiq qaydaların nəzərdə tutulmasına baxmayaraq, vəkillərin bu tövsiyə barədə məlumatları bir o qədər çox deyil. Bundan başqa, müəlliflər qeyd etmişlər ki, üzv dövlətlərin ictimaiyyəti cəza məsələləri üzrə vasitəçilik xidmətlərindən xəbərdardır. Lakin qeyd edilənlərlə bərabər, komitə vurğulamışdır ki, cinayət işlərinə münasibətdə mediasiya prosedurundan istifadə haqqında vətəndaşlara daha geniş məlumat vermək üçün ictimaiyyət arasında məlumatlandırma işlərinin aparılmasına zərurət var.

Komitə qeyd edir ki, mülki işlərdən fərqli olaraq, cinayət işlərinə münasibətdə mediasiya üsulundan bütün hallarda istifadə etmək olmaz. Buna baxmayaraq, müəlliflər qeyd edirlər ki, mediasiya üsulundan cinayət işinin bütün mərhələlərində istifadə etmək olar. Mülki işlərlə müqayisədə cinayət işləri üzrə məxfiliyin qorunması şərti daha sərt tətbiq olunmalıdır: cinayət işlərinin xüsusi mahiyyətini nəzərə alsaq, bu, təəccüblü görünmür.

Komitənin gəldiyi maraqlı bir qənaət bundan ibarətdir ki, cinayət işlərinə münasibətdə mediasiya üsulundan xərclərə varmadan istifadə edilir. Həmçinin qeyd edilir ki, cinayət işlərinə aid mediasiya üsulunun istifadəsi ilə bağlı, demək olar, heç bir

maliyyə yardımı ayrılmır və bütün üzv dövlətlərdə prosessual xərcləri dövlət ödəyir. Bununla bərabər, komitə qeyd edir ki, mediasiya üsulundan istifadəsilə bağlı müəyyən xərclərin ödənilməsi şübhəli şəxs qismində çıxış edəndən tələb oluna bilər.

Mediasiya üsulunun mahiyyəti və nəticələri barədə məlumatın iştirakçılara təqdim edilməsi məsələsinə komitə tərəfindən xüsusi diqqət verilir. Cinayət işləri üzrə tərəflərin mövqeyinin xüsusiyyətlərini nəzərə alaraq, mediatorların səriştəsinin yüksək olması mediasiya üsulundan istifadəyə etimadı artırır. Nəticədə mediasiya üsulundan istifadə barədə əhali arasında məlumatlandırma səviyyəsinin yüksəldilməsi və mediatorların yüksək peşə keyfiyyətlərinə malik olmasının təmin olunması cinayət işlərinə münasibətdə mediasiya üsulunun müvəffəqiyyətinə zəmanət verir. Bu kimi zəmanətə dəstək olaraq, daxili qanunvericilik əsasında mediatorların peşə keyfiyyətlərinə şamil edilən tələblərlə nəzərdə tutulmalıdır ki, mediatorlar hüquqi, psixoloji və pedaqoji vərdişlərə sahib olmalıdırlar. Cinayət işlərinin xüsusiyyətlərini nəzərə alıb, CEPEJ-in komitəsi tövsiyə edir ki, üzv dövlətlər mediatorların mütəmadi olaraq peşə təlimi keçməsini tələb etməlidirlər.

Bütün üzv dövlətlərdə mediasiya üsulunun tətbiqinin nəticəsi olaraq bağlanan saziş şübhəli şəxs qismində çıxış edən tərəfə münasibətdə cinayət isinin xitamı üçün əsasdır və qeyd edilən saziş mütləq hüquqi qüvvəyə malikdir.

Bu tövsiyənin icrasının təhlili nəticəsində komitə tərəfindən bir sıra təkliflər işlənib hazırlanmışdır:

- cinayət işləri üzrə mediasiya üsulunun istifadəsinə ictimaiyyətin etimadını artırmaq məqsədilə tədbirlər həyata keçirmək;
- işlərin mediatorlara həllinin tapşırılması ilə əlaqədar məhkəmələrin səriştəsini müəyyən etmək;
- cinayət işi üzrə mediasiya üsulunun tətbiqi ilə bağlı hərəkətlərdə iştirak edən yetkinlik yaşına çatmamış şəxslərin hüquqlarına zəmanətləri müəyyən etmək;

- cinayət işi üzrə mediasiya üsulunun tətbiqi ilə bağlı hərəkətlərdə iştirak edən həssas əhali təbəqələrinin nümayəndələrinin hüquqlarına zəmanətləri müəyyən etmək;
- mediatorların müstəqilliyinin təmin edilməsi ilə bağlı şərait yaratmaq;
- mediatorların peşə səriştəsi üzrə tələblərinə şamil edilən qaydaları müəyyən etmək;
- məxfiliyin qorunmasına aid qaydaları təkmilləşdirmək;
- mediasiya üsulunun tətbiqi ilə bağlı maliyyə yardımı mənbələrini müəyyən etmək.

İnzibati orqanlarla vətəndaşlar arasında mübahisələrə aid Mediasiyaya dair Rec(2001)9 saylı Tövsiyənin təhlili üzrə iş kifayət qədər mürəkkəb olmuşdur. Belə ki, komitə tərəfindən qeyd edilmişdir ki, bu üsuldan heç də bütün üzv dövlətlər istifadə etmir, buna da səbəb, çox güman, sözügedən Tövsiyənin müddəalarının daxili qanunvericilikdə əks etdirilməsinin səviyyəsinin qənaətbəxş olmamasıdır. Misal üçün, komitə qeyd etmişdir ki, bu Tövsiyədən bütün vəkillərin məlumatı yoxdur və bu çatışmazlığı aradan qaldırmaq üçün vasitəçiliyin bu üsulu barədə daha geniş məlumatlandırma aparılmalıdır.

Ayrı-ayrı üzv dövlətlərin istifadə etdiyi bu mediasiya üsulunun növləri də müxtəlifdir: məhkəmədə işə baxılmasına başlanana qədər qismən mediasiya; hökumət tərəfindən təyin edilən barışıq komitələri; və faktiki olaraq, inzibati orqanlarla vətəndaşlar arasındakı mübahisələrin tamamilə məhkəmədənkənar, mediasiya ilə həlli. Bunlara varmadan komitə mediasiya üsulunun bu kateqoriyasının qanunvericilik nöqteyi-nəzərindən tənzimlənməsi barədə üzv dövlətlərdən daha dolğun məlumat əldə etmək iqtidarında olmamışdır. Həmçinin qeyd edilir ki, vətəndaşlarla inzibati orqanlar arasında olan mübahisələrin mediasiya üsulunun istifadəsi ilə həlli barədə onlar kifayət qədər məlumat almırlar.

Nəticədə bu Tövsiyənin icrası işində ciddi çatışmazlıqları aradan qaldırmaq üçün komitə tərəfindən üzv dövlətlərə aşağıdakı təkliflər təqdim olunmuşdur:

- vətəndaşlar, vəkillər və hüquq sahəsini təmsil edən elm işçiləri arasında məlumatlandırma işi aparmaq;
- tərəflərin mübahisələrin alternativ üsullar vasitəsilə həlli barədə qəbul etdikləri qərarın hakim tərəfindən qəbul edilməsinə imkan verən prosessual qaydaları işləyib hazırlamaq;
- mediatorların peşə səriştəsi və peşə təlimi standartlarına dair qaydaları müəyyən etmək və s.

Başqa sözlə desək, üzv dövlətlərin təqdim etdiyi məlumatın Avropa Şurasının bu Tövsiyəsinin qənaətbəxş icrası qənaətinə gəlmək imkanı verməməsi səbəbindən inzibati orqanlarla vətəndaşlar arasında olan mübahisələrin məhkəmədə deyil, alternativ üsullar vasitəsilə həlli təcrübəsinin genişləndirilməsi işi daha fəal surətdə aparılmalıdır.

### *5.1.2. "Mediasiyaya dair Avropa Şurasının Tövsiyələrinin tətbiqinə dair Rəhbər Qaydalar"*

Bu Rəhbər Qaydalar[82] Avropa Şurasının tövsiyələrinin üzv dövlətlərin daxili qanunvericiliyinə təsirinin qiymətləndirilməsinin təhlili aparıldıqdan sonra Mediasiya üzrə Komitənin üçüncü iclasında hazırlanaraq təsdiq edilmişdir. Qeyd edilən sənəd Mediasiya üzrə Komitə mediasiya sahəsində Avropa Şurasının tövsiyələrinin icrasında bir sıra çatışmazlıqları aşkar etdikdən sonra ərsəyə gəlmişdir.[83] Nəticədə bu iclasda qəbul

---

[82] Mediasiya üzrə Komitə (CEPEJ-GT-MED), 3-cü iclas, Strasburq, 3-4 aprel 2007-ci il, CEPEJ-GT-MED(2007)9.

[83] Qeyd etmək lazımdır ki, yuxarıda istinad olunan hesabata əlavə olaraq CEPEJ-in komitəsi üzv dövlətlərdə mediasiya üsullarının səmərəliliyinin təhlilinə aid bir sıra sənədləri də nəzərdən keçirmişdir və həmin sənədlər komitənin apardığı təhlil və hazırkı Rəhbər Qaydaların işlənib hazırlanması üçün əsas olmuşdur. Bax: Julyen LHUILLIER, *"Cinayət işləri üzrə mediasiya üsulunun Avropada istifadəsinin vəziyyəti və perspektivləri"*, CEPEJ-GT-MED(2007)8E, 22 avqust 2007-ci il; Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ), *"Mediasiya"*, İsveçrə nümayəndə heyətinin müraciəti əsasında hazırlanmış hesabat, CEPEJ(2003)25(D2) E, 5 dekabr 2003-cü il.

edilmiş qərarın yekunu olaraq qeyd edilən sənəd üzv dövlətlərdə Avropa Şurasının artıq mövcud olan tövsiyələrinin icrası üzrə işləri sürətləndirmək, Avropa Şurası tərəfindən isə tövsiyələri təkmilləşdirmək məqsədilə onlara əlavə və dəyişikliklər etmək və daxili qanunvericiliyə daxil edilməsinə daha münasib şərait yaratmaq məqsədilə qəbul olunmuşdur.

Əvvəlki bölmədə müzakirə edilmiş hesabata münasibətdə olduğu kimi, bu dəfə də komitə tərəfindən artıq mövcud olan plana uyğun olaraq Rəhbər Qaydalar işlənib hazırlanmışdır. Rəhbər Qaydaların məqsədlərini aşağıdakı kimi ifadə etmək olar:

- ailə münasibətlərinə və mülki işlərə aid mübahisələr üzrə mediasiya üsulunun tətbiqi ilə bağı tövsiyələrin daha yaxşı icrası;
- cinayət işlərinə aid mübahisələr üzrə mediasiya üsulunun tətbiqi ilə bağı tövsiyələrin daha yaxşı icrası;
- inzibati orqanlarla vətəndaşlar arasında yaranan mübahisələrin məhkəmə yolu ilə deyil, alternativ üsullarla həllinə aid mübahisələr üzrə mediasiya üsulunun tətbiqi ilə bağı tövsiyələrin daha yaxşı icrası.

"*Ailə münasibətlərinə və mülki işlərə aid mübahisələr üzrə mediasiya üsulunun tətbiqi ilə bağlı tövsiyələrin daha səmərəli icrası üzrə Rəhbər Qaydalar*"[84] aşağıda qeyd edilmiş sahələri əhatə edən təkliflər planına uyğun olmaqla işlənib hazırlanmışdır:

- mediasiya prosedurlarının istifadəsinin mümkünlüyü və keyfiyyəti;
- vətəndaşların mediasiya üsullarından istifadə etmək imkanları;
- mediasiya üsullarından istifadə imkanları barədə vətəndaşlar arasında məlumatlandırma səviyyəsi.

Bu mövzu ilə bağlı komitə ilk növbədə üzv dövlətlərdə mediasiya prosedurlarının istifadəsinin mümkünlüyü və keyfiyyəti

---

[84] CEPEJ-in "*Ailə münasibətlərinə və mülki işlərə aid mübahisələr üzrə mediasiya üsulunun tətbiqi ilə bağlı tövsiyələrin daha səmərəli icrası üzrə Rəhbər Qaydalar*"ı, Strasburq, 7 dekabr 2007-ci il, CEPEJ(2007)14.

məsələsini, ələlxüsus da mediasiya üsulundan istifadə imkanlarının üzv dövlətin bütün ərazisi boyunca mövcud olması məsələsini təhlil etmişdir. Bu istiqamət üzrə komitə tərəfindən aşağıda verilmiş təkliflər hazırlanmışdır:

- maliyyə dəstəyi və kadr potensialını artırmaq;
- hakimləri mübahisələrin həlli məqsədilə alternativ üsulların istifadəsi imkanları ilə bağlı işin tərəflərinə məlumat təqdim etməyə təşviq etmək;
- vəkillər birliklərinin təsis sənədlərində vəkillər tərəfindən müştərilərə mübahisələrin həlli məqsədilə alternativ üsulların istifadəsi imkanları barədə məlumat təqdim etmək öhdəliyini nəzərdə tutmaq;
- məxfiliyin qorunması qaydasına münasibətdə tənzimlənməni nəzərdə tutan müfəssəl qanunvericilik müddəalarını qəbul etmək; bu müddəalara əməl olunmasını prosesin hər bir mərhələsi üçün məcburi eləmək və bu müddəaların pozulması hallarına münasibətdə cəzalar müəyyənləşdirmək;
- mediatorların təlimi və səriştəsi ilə əlaqədar qanunvericiliyin tənzimlənməsi çərçivəsini təkmilləşdirmək;
- uşaqların maraqlarını nəzərə almaq (ailə münasibətlərinə aid mübahisələr üzrə keçirilən mediasiya tədbirləri ilə əlaqədar);
- ailə münasibətləri və mülki işlər üzrə mediatorların fəaliyyətini tənzimləyən qanunvericilik sənədləri toplusunu yaratmaq;
- mediatorların fəaliyyətini tənzimləyən məcəllənin pozulması halında mediatorların məsuliyyətə cəlb olunması ilə bağlı intizam prosedurlarını hazırlamaq.

Komitənin rəyinə əsasən mediasiya üsulundan istifadə imkanları aşağıda qeyd edilən məqamları nəzərdə tutur: vasitəçilərin xidməthaqqının mə bləğinin ağlabatan olması və bu üsulun istifadəsi ilə əlaqədar müxtəlif məhdudiyyətlərin olmaması.

Mübahisələrin alternativ həlli üsulları barədə vətəndaşlar arasında məlumatlandırma səviyyəsinin yüksəldilməsi zərurətinin nəticəsi olaraq komitə tərəfindən aşağıda qeyd edilən təkliflər hazırlanmışdır: mübahisələrin alternativ həlli üsulları haqqında vətəndaşlara məlumat təqdim edilməlidir və vətəndaşlar mübahisələrin alternativ həlli üsullarından istifadə etmək imkanına malik olmalıdırlar (bu təklif yalnız üzv dövlətlərə aid deyil, həmçinin CEPEJ-in özünə aiddir – belə ki, komitə bu mövzu ilə bağlı CEPEJ-in İnternet səhifəsində ayrıca bir bölmənin yaradılmasını təklif edir); məhkəmə işlərinə çıxan vəkillərin və proses iştirakçılarının mübahisələrin alternativ həlli üsulları haqqında məlumatlandırma səviyyəsi yüksəldilməlidir; müvafiq halda, tərəflər mübahisələrin alternativ həlli üsullarından istifadədən imtina etmişlərsə, məhkəmə işi ilə əlaqədar çəkilmiş xərclərin kompensasiya olunmasından imtina edilməlidir; mübahisələrin alternativ həlli üsullarının istifadəsinə dair hakimlərin məlumatlandırma səviyyəsi yüksəldilməlidir; hakimlərlə mediatorlar arasında əlaqələr təşviq etdirilməlidir; vəkillərin mübahisələrin alternativ həlli üsulları haqqında məlumatlandırma səviyyəsi yüksəldilməlidir; mübahisələrin alternativ həlli üsullarının istifadəsi qaydaları işinə qeyri-hökumət təşkilatları da cəlb olunmalıdır.

*"Cinayət işlərində mediasiya üsulunun istifadəsi ilə bağlı mövcud tövsiyələrin həyata keçirilməsinin təkmilləşdirilməsinə dair Rəhbər Qaydalar"*[85] yuxarıda qeyd edilmiş sənədlər planına uyğun olmaqla hazırlanıb. Nəticədə sənədin mətnində həmçinin mediasiya üsulunun istifadəsinin mümkünlüyü və keyfiyyəti, bu üsulun vətəndaşlar tərəfindən faktiki istifadəsi və bu üsulun istifadəsi ilə bağlı vətəndaşlar arasında məlumatlandırmanın artırılması barədə təkliflər təqdim olunmuşdur.

Cinayət işləri üzrə mediasiya üsulunun istifadə imkanları və keyfiyyəti ilə bağlı komitə aşağıdakı məqamları qeyd edir:

[85] CEPEJ-in *"Cinayət işlərində mediasiya üsulunun istifadəsi ilə bağlı mövcud tövsiyələrin həyata keçirilməsinin təkmilləşdirilməsinə dair Rəhbər Qaydalar"*ı, Strasburq, 7 dekabr 2007-ci il, CEPEJ(2007)13.

- üzv dövlətlər cinayət işləri ilə əlaqədar mediasiya üsulunun istifadəsi üzrə qaydaların işlənib hazırlanması və tətbiqi üçün səylər göstərməlidir, ələlxüsus müvafiq proqramların həyata keçirilməsi üçün maliyyə vəsaitləri ayırmalıdırlar;
- hakimlər, prokurorlar və hüquq mühafizə orqanları cinayət işləri üzrə mediasiya üsulunun istifadəsinin mümkünlüyü haqqında vətəndaşlara məlumat verməli, habelə mediasiya prosesində fəal iştirak etməli, mediatorlarla əməkdaşlıq etməlidirlər;
- üzv dövlətlər potensial surətdə mediasiya prosesində iştirak edə bilən, sosial sahədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etməlidir;
- vəkillər vətəndaşlara cinayət işləri üzrə vasitəçilik üsulunun istifadəsinin mümkün olması barədə məlumat verməyə borcludurlar;
- cinayət işləri üzrə mediasiya üsulunun istifadəsinə aid qayda, prosedur və məlumat daim təkmilləşdirilməlidir və bu məqsədə nail olmaq üçün hökumətlərə qeyd edilmiş qaydaların tətbiqinə dair monitorinq sistemi yaratmaq, bunun vasitəsilə mediasiya üsulunun istifadəsi işindəki çatışmazlıqları müəyyən etmək imkanını qazanmaq təklif olunur.

Yuxarıda qeyd edilənlərə əlavə olaraq, üzv dövlətlərə aşağıda verilmiş təkliflər ünvanlanmışdır:

- cinayət işi üzrə mediasiya üsulundan istifadə ilə bağlı bütün mərhələlərdə məxfiliyin qorunması öhdəliyinin tətbiqini təmin etmək;
- mediator vəzifəsinə namizədlərə şamil edilən şərt və tələblərin siyahısını müəyyən etmək;
- mediatorların təhsili və peşə təlimi ilə əlaqədar qaydalar işləyib hazırlamaq;
- yetkinlik yaşına çatmamış vətəndaşların hüquqlarının

müdafiəsinə xidmət edən şərt və tələbləri müəyyən etmək;

- cinayət işləri üzrə mediasiya üsulunun istifadəsinə dair normativ hüquqi aktlar toplusu yaratmaq;
- yuxarıda qeyd edilmiş normativ hüquqi aktların müddəalarının pozulması hallarına münasibətdə mediatorların məsuliyyətini müəyyən etmək;
- və nəhayət, cinayət işləri üzrə mediasiya üsulunun istifadəsinə münasibətdə beynəlxalq miqyasda istifadə olunan qaydalar işləyib hazırlamaq.

Komitənin rəyinə əsasən mediasiya üsulunun istifadəsi imkanlarının təkmilləşdirilməsi aşağıda qeyd edilmiş şərtləri ehtiva edir: həm zərərçəkmiş şəxslərin, həm də təqsirləndirilən şəxslərin hüquqlarının müdafiəsi səviyyəsini yüksəltmək, ələlxüsus qeyd edilən şəxslərə mediasiya prosesinin mahiyyəti və nəticələri barədə məlumat təqdim etmək; mediasiya prosesinin iştirakçılarına maliyyə yardımı təqdim etmək; və bu üsulun istifadəsi ilə bağlı hər hansı məhdudiyyətləri aradan qaldırmaq.

Mediasiya üsulunun istifadəsi imkanlarına dair vətəndaşlar arasında məlumatlandırma səviyyəsinin yüksəldilməsi ilə bağlı olaraq, komitə tərəfindən aşağıda qeyd edilmiş təkliflər işlənib hazırlanıb:

- mübahisələrin alternativ həlli üsullarının istifadəsinin müsbət cəhətləri və qeyd edilən üsulların istifadəsi ilə bağlı xüsusi şərtlər haqqında məlumat bütün vətəndaşlara təqdim olunmalıdır (bu təklif yalnız üzv dövlətlərə aid deyil, həmçinin CEPEJ-in özünə aiddir – belə ki, komitə bu mövzu ilə bağlı CEPEJ-in İnternet səhifəsində ayrıca bir bölmənin yaradılmasını təklif edir);
- qanunvericiliklə nəzərdə tutulmalıdır ki, hüquqmühafizə orqanları mübahisələrin alternativ həlli üsullarının istifadəsi imkanları barədə məlumatı həm zərərçəkmiş, həm də təqsirləndirilən şəxslərə təqdim etməlidir;

- cinayət işləri üzrə mübahisələrin alternativ həlli üsullarının istifadəsi haqqında hüquq mühafizə orqanlarının nümayəndələri arasında məlumatlandırma səviyyəsi yüksəldilməlidir;
- cinayət işləri üzrə mübahisələrin alternativ həlli üsullarının istifadəsi haqqında məhkəmə işçiləri arasında məlumatlandırma səviyyəsi yüksəldilməlidir, hakimlərlə mediatorlar arasında əlaqələr təşviq etdirilməlidir;
- cinayət işləri üzrə mübahisələrin alternativ həlli üsullarının istifadəsi haqqında vəkillər arasında məlumatlandırma səviyyəsi yüksəldilməlidir;
- cinayət işləri üzrə mübahisələrin alternativ həlli üsullarının istifadəsi ilə bağlı qaydaların işlənib hazırlanması işinə qeyri-hökumət təşkilatları və sosial xidmətlər sahəsinin nümayəndələri cəlb olunmalıdır.

*"İnzibati orqanlarla vətəndaşlar arasında mübahisələrin məhkəmə vasitəsilə deyil, mediasiya üsulunun istifadəsi ilə həllinə dair mövcud tövsiyələrin həyata keçirilməsinin təkmilləşdirilməsinə dair Rəhbər Qaydalar"*[86] yuxarıda qeyd edilmiş sənədlərin planına uyğun olmaqla hazırlanmışdır. Nəticədə sənədin mətnində həmçinin mediasiya üsulunun istifadəsinin mümkünlüyü və keyfiyyəti, bu üsulun vətəndaşlar tərəfindən faktiki istifadəsi və bu üsulun istifadəsi ilə bağlı vətəndaşlar arasında məlumatlandırmanın artırılması barədə təkliflər təqdim olunmuşdur.

İnzibati orqanlarla vətəndaşlar arasında olan mübahisələr üzrə mediasiya üsulunun istifadəsi imkanları və keyfiyyəti ilə bağlı komitə aşağıdakı məqamları qeyd edir:

- hökumət orqanları (və əsasən də vətəndaşlara şamil edilən qərarları qəbul edən inzibati orqanlar) ilə vətəndaşlar arasında olan mübahisələrin məhkəmə vasitəsilə

[86] CEPEJ-in *"İnzibati orqanlarla vətəndaşlar arasında mübahisələrin məhkəmə vasitəsilə deyil, mediasiya üsulunun istifadəsi ilə həllinə dair mövcud tövsiyələrin həyata keçirilməsinin təkmilləşdirilməsinə dair Rəhbər Qaydalar"ı,* Strasburq, 7 dekabr 2007-ci il, CEPEJ(2007)15.

deyil, mediasiya üsulundan istifadə ilə həllinə dair tədbirləri həyata keçirməlidir;

- hökumətin daha yüksək səviyyəsində, inzibati orqanlarla vətəndaşlar arasında olan mübahisələrin məhkəmə vasitəsilə deyil, mediasiya üsulundan istifadə ilə həllinə dair qaydalar işlənib hazırlanmalıdır;
- inzibati xarakterli işlərin sayının azaldılması məqsədilə inzibati aktların qanuniliyini qiymətləndirmək məqsədilə daxili qaydaların işlənib hazırlanması məqsədəmüvafiq hesab olunur;
- hakimlər inzibati orqanlarla vətəndaşlar arasındakı mübahisələrin məhkəmə vasitəsilə deyil, mediasiya üsulunun istifadəsi yolu ilə həllinə dair tərəflərə daha müfəssəl məlumat təqdim etməlidirlər;
- həmçinin vəkillərin üzərinə inzibati orqanlarla vətəndaşlar arasında olan mübahisələrin məhkəmə vasitəsilə deyil, mediasiya üsulundan istifadə ilə həllinə dair məlumat təqdim etmək öhdəliyi qoyulmalıdır;
- inzibati orqanlarla vətəndaşlar arasında olan mübahisələrin məhkəmə vasitəsilə deyil, mediasiya üsulundan istifadə ilə həllinə dair qaydaların tətbiqinə nəzarət edilməli, bunun vasitəsilə cari qanunvericilik təkmilləşdirilməli, daha geniş istifadə olunmalıdır;
- təklif olunur ki, inzibati işlər üzrə mediatorların səriştəsi, təhsili, peşə təlimi və vəzifələrinin icrasına nəzarətə aid olan şərt və tələblərdə əlavə və dəyişikliklər edilsin;
- inzibati işlər üzrə mediasiya üsulunun istifadəsinə dair normativ hüquqi aktlar toplusu tərtib olunmalıdır; bu toplunun müddəaları pozulduğu halda mediatorları məsuliyyətə cəlb etmək mümkün olmalıdır; inzibati işlər üzrə mediasiya üsulunun istifadəsinə münasibətdə beynəlxalq miqyasda istifadə olunan qaydalar işlənib hazırlanmalıdır.

Komitənin rəyinə əsasən inzibati orqanlarla vətəndaşlar arasında olan mübahisələrin məhkəmə vasitəsilə deyil, mediasiya üsulundan istifadə ilə həllinə dair imkanların təkmilləşdirilməsi ilk mərhələdə mediasiya üsulunun tətbiqinin inzibati orqanın özü tərəfindən təşkili, müstəqil mediatorun istifadəsini nəzərdə tutur; bu isə mediatorun xidmətlərinin qiymətinin aşağı olması və maliyyə yardımının ayrılmasına imkan verir.

İnzibati işlər üzrə mediasiya üsulundan istifadə barədə məlumatlandırma səviyyəsinin yüksəldilməsi zərurətinə istinadən komitə aşağıdakı təklifləri işləyib hazırlamışdır: ilk növbədə mübahisələrin həllinin alternativ üsullarının istifadəsinin müsbət cəhətləri barədə məlumat bütün vətəndaşlara təqdim olunmalıdır (bu təklif yalnız üzv dövlətlərə aid deyil, həmçinin CEPEJ-in özünə aiddir – belə ki, komitə bu mövzu ilə bağlı Komissiyanın İnternet səhifəsində ayrıca bölmə yaradılmasını təklif edir).

Komitənin digər təklifi inzibati orqanlarla vətəndaşlar arasında olan mübahisələrin məhkəmə yolu ilə deyil, mediasiya üsulundan istifadə ilə həll edilməsi imkanları barədə məlumatın vətəndaşlara təqdim edilməsinə dair öhdəliyin hökumət orqanlarının üzərinə qoyulması, müvafiq hallarda, tərəflər mübahisələrin həllinin alternativ üsullarından istifadə etmədikdə, inzibati proses zamanı çəkilmiş xərclərin kompensasiya edilməsindən imtina edilməsinə bağlıdır.

Komitə həmçinin təklif etmişdir ki, hakimlər arasında mübahisələrin həllinin alternativ üsullarından istifadə barədə məlumatlandırma səviyyəsi yüksəldilsin, hakimlərlə mediatorlar arasında olan əlaqələr genişləndirilsin. Nəhayət, təklif edilir ki, inzibati orqanlarla vətəndaşlar arasında olan mübahisələrə münasibətdə onların həllinin alternativ üsullarından istifadə barədə vəkillərin məlumatlandırma səviyyəsi yüksəldilsin.

## *5.2. Məhkəmə qərarlarının icrasına dair Avropa Şurası standartlarının tətbiqinə münasibətdə Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının fəaliyyəti*

CEPEJ-in Məhkəmə qərarlarının icrası üzrə Komitəsi (CEPEJ-GT-EXE) Komissiyanın ən gənc qurumudur və rəsmi olaraq fəaliyyətinə yalnız 2009-cu ildə başlamışdır.[87] Bu komitənin fəaliyyətinin intensivliyinin aşağı olması məhz bu faktla izah oluna bilər. Bugünə qədər qeyd edilən komitə yalnız iki ekspertlər iclası keçirmiş və yalnız bir mühüm sənədi – *"Məhkəmə qərarlarının icrası ilə əlaqədar Avropa Şurasının mövcud Tövsiyələrinin icrasının təkmilləşdirilməsinə dair Rəhbər Qaydalar"*ı işləyib hazırlamışdır[88]. Bu komitənin yaradılması haqqında CEPEJ-in qərarı 2008-ci ilin sonunda CEPEJ-in 12-ci plenar iclasında qəbul edilmişdir[89] və elə həmin iclasda Komissiyanın bu qurumunun Əsasnaməsi işlənib hazırlanmışdır[90].

Əsasnamədə ilk növbədə Məhkəmə qərarlarının icrası üzrə Komitənin yaradılması haqqında qərarın məqsədi qeyd edilmişdir: "…Mülki və inzibati işlərə münasibətdə yerli məhkəmələrin qərarlarının icrası işinin təkmilləşdirilməsi ilə bağlı Avropa Şurasının mövcud Tövsiyələrinin daha yaxşı icrası". Aşağıda komitəyə həvalə olunan ayrı-ayrı vəzifələr qeyd edilir:

- ölkə səviyyəsində məhkəmə qərarlarının icrası sahəsində Avropa Şurasının standartlarının tətbiqinin təsirinin qiymətləndirilməsi;

---

[87] Komitənin ekspertlərinin ilk iclası 29-30 yanvar 2009-cu il tarixlərində keçirilmişdir. Bax: Komitənin 1-ci iclasının hesabatı, Strasburq, 20 mart 2009-cu il, CEPEJ-GT-EXE(2009)3.

[88] CEPEJ-in *"Məhkəmə qərarlarının icrası ilə əlaqədar Avropa Şurasının mövcud Tövsiyələrinin icrasının təkmilləşdirilməsinə dair Rəhbər Qaydalar"*ı, CEPEJ(2009)11REV2, Strasburq, 17 dekabr 2009-cu il.

[89] CEPEJ-in 12-ci plenar iclası, Strasburq, 10-11 dekabr 2008-ci il.

[90] Məhkəmə qərarlarının icrası üzrə Komitənin Əsasnaməsi (CEPEJ-GT-EXE) CEPEJ-in 12-ci plenar iclasında qəbul edilmişdir.

- üzv dövlətlərdə məhkəmə qərarlarının icrası sahəsində Avropa Şurası standartlarının səmərəli icrasına münasibətdə qaydaların işlənib hazırlanması;
- məhkəmə qərarlarının icrası işini təkmilləşdirmək məqsədilə keyfiyyət standartlarının hazırlanması və səviyyəsinin yüksəldilməsi. Özünün fəaliyyəti ilə bağlı komitəyə artıq aparılmış və nəticələri eksperimental/pilot məhkəmələr səviyyəsində tətbiq edilmiş məhkəmə qərarlarının icrasına aid tədqiqatların nəticələrini istifadə etmək təklif edilmişdir[91].

Komitə CEPEJ-in Bürosu tərəfindən təyin edilən altı ekspertdən ibarətdir[92]. Komitənin tərkibinə daxil olan ekspertlərə əlavə olaraq, qrupun işində digər mütəxəssislər də iştirak edə bilər[93]. Lakin həmin mütəxəssislərin bu komitənin işində iştirakı ilə bağlı xərclər CEPEJ-in büdcəsi hesabına deyil, Avropa Şurasının üzv dövlətlərinin vəsaitləri hesabına ödənilir. Məhkəmə qərarlarının icrası üzrə Komitə işinə hüquqi şəxsləri (təşkilatları) və onların ayrı-ayrı bölmələrini müşahidəçi qismində (səs vermək hüququ təqdim olunmadan) cəlb edə bilər. Həmin təşkilatlar sırasına aşağıda qeyd edilənlər daxildir: Məhkəmə İşçilərinin Beynəlxalq Birliyi (UIHJ); Avropa Birliyinin Avropa Komissiyası; Avropa Şurasının Hüquq Sahəsində Əməkdaşlıq üzrə Avropa Komissiyası (CDCJ).

CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi (CEPEJ-GT-QUAL) Məhkəmə qərarlarının icrası üzrə Komitənin vəzifələrini üzərinə götürmüşdür və hazırda

---

[91] CEPEJ-in 2-ci plenar iclası, Strasburq, 19 mart 2007-ci il, iclasın hesabatı, 3 aprel 2007-ci il, CEPEJ(2007)9.

[92] Bu komitə CEPEJ-in Bürosu tərəfindən CEPEJ üzvləri sırasından təyin olunur. Komitənin tərkibinə Xorvatiya, Yunanıstan, Almaniya, Monako, Rusiya və İngiltərənin nümayəndələri daxildir. Sonuncu iclasa sədrliyi Almaniya nümayəndəsi etmişdir.

[93] İlk növbədə bu, Avropa Şurasının digər qurumlarının üzvləri olan və Məhkəmə qərarlarının icrası üzrə Komitənin işində iştirak edən CEPEJ ekspertlərinin yalnız köməkçi rolunda çıxış etmələrinə işarə edir. Misal üçün, CEPEJ-in digər ekspertləri və CEPEJ-in Prezidenti komitənin fəaliyyətinə qatıla bilər.

Avropa Şurası tərəfindən məhkəmə qərarlarının icrasının təkmilləşdirilməsi ilə bağlı hazırlanmış qaydaların daha mükəmməl icrasına xidmət edən şərtlərin təşviq etdirilməsi işi ilə məşğuldur. Özünün 15-ci iclasında Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL) məhkəmə qərarlarının icrasına aid müəyyən problemləri nəzərdən keçirmiş və CEPEJ-in tərtib etdiyi qaydaların bu sahədəki əhəmiyyətini vurğulamışdır. Müzakirələrin sonunda Məhkəmə İşçilərinin Beynəlxalq Birliyi növbəti iclas üçün məhkəmə qərarlarının icrasına aid əsas məqamlar barədə hesabat hazırlanması məqsədilə CEPEJ-in üzvlərinə özünün tərtib etdiyi əsas suallar toplusu vasitəsilə toplanmış məlumatla tanış olmaq imkanı yaradacağını bildirmişdir. Beləliklə, həmin sənədlə tanış olduqdan sonra komitə qeyd edilən mövzu üzrə sonrakı tədbirlərin nə qədər məqsədəmüvafiq olması barədə qərar verə biləcək. Məhkəmə İşçilərinin Beynəlxalq Birliyini təmsil edən Metyo Şardo məhkəmə qərarlarının icrası üzrə problemlərə həsr edilmiş sənədi təqdim etmişdir və bu sənədin məqsədi həm mövcud qaydaların mümkün olan ən yaxşı icrasını təşviq etdirməkdən, həmçinin ən tez-tez rast gəlinən problemləri, həm də məhkəmə qərarlarının icrası işində daha çox maneələr yaradan məqamları vurğulamaq olmuşdur. Sənəddə həll edilməsi üçün ilk növbədə diqqət tələb edən altı problem qeyd olunmuşdur. Bu mövzu ilə bağlı Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə tərəfindən həyata keçirilməli olan işlər barədə müzakirə aparılmışdır. Məhkəmə qərarlarının icrasına münasibətdə mövcud qaydaların həyata keçirilməsinə olan zərurəti təşviq etdirmək və məhkəmə nümayəndələrinə məhkəmə qərarlarının icrası işində yaranan yeni maneələrin həlli işində köməklik göstərmək işinə münasibətdə qrup belə bir qərara gəlmişdir ki, yeni standartlar işləyib hazırlamağa və ya məhkəmə qərarlarının icrası üçün Avropa və ümumdünya səviyyəsində nümunə olan mövcud qaydaları təkrarlamağa ehtiyac yoxdur. Portuqaliyadan olan ekspert Joao Arsenio De Oliveyra təklif

etmişdir ki, qrup diqqətini hazırda öyrənilməmiş bir sahə olan, Avropada məhkəmə qərarlarının icrası ilə bağlı ən mükəmməl çalışma qaydalarının təhlilinə yönəltsin. Məhkəmə İşçilərinin Beynəlxalq Birliyi və komitənin bir neçə üzvü razılaşmışlar ki, hər bir Rəhbər Qaydalar üzrə ən mükəmməl çalışma qaydaları toplusunu yaratmaq çox faydalı olar. Metyo Şardo qeyd edib ki, Məhkəmə İşçilərinin Beynəlxalq Birliyi zəruri məlumata sahibdir və özünün bilik və təcrübəsini komitə ilə bölüşməyə hazırdır (hətta zərurət olduqda ekspert qismində çıxış etməklə). Bu müzakirələrin sonunda Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə Avropa Şurasının bütün üzv dövlətlərindən məlumat toplamaqla məhkəmə qərarlarının icrası üzrə ən mükəmməl çalışma qaydaları barədə toplu yaratmaq haqda qərar qəbul etmiş və bu işlə bağlı təcrübədə zəruri köməyi təqdim etməkdən ötrü CEPEJ-in Katibliyinə göstəriş vermişdir.

### *5.2.1. Avropa dövlətlərində məhkəmə qərarlarının icrası*[94]

Bu hesabat CEPEJ-in Məhkəmə qərarlarının icrası üzrə Komitəsinin (CEPEJ-GT-EXE) fəaliyyətinin nəticəsi deyil. Sözügedən hesabat qeyd edilən komitə yaradılmazdan öncə kənar ekspertlərin köməyi ilə tərtib edilmişdir. Qeyd edilənlərə əlavə olaraq CEPEJ-in müraciətinə əsasən İsveçrə və Fransadan olan tədqiqatçılar tərəfindən hazırlanmış bu hesabatda təklif edilmişdir ki, Komissiya özünün tərkibində ixtisaslaşmış komitə yaratsın.

Hesabat CEPEJ tərəfindən toplanmış statistik və digər məlumat, habelə yuxarıda qeyd edilən hüquq nəzəriyyəçiləri tərəfindən ayrı-ayrı dövlətlərin qanunvericiliyi üzrə aparılmış araş-

[94] Məhkəmə qərarlarının icrası üzrə Tədqiqat Qrupu tərəfindən hazırlanmış (Nansi Universiteti, Nansi/İsveçrənin Müqayisəli Hüquq İnstitutu) və 8-ci iclasında Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitə (CEPEJ-GT-EVAL) tərəfindən müzakirə edilmiş hesabat. Bax: Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitənin (CEPEJ-GT-EVAL) 8-ci iclası, 8-9 noyabr 2007-ci il, iclasın hesabatı, Strasburq, 14 noyabr 2007-ci il, CEPEJ-GT-EVAL(2007)14.

dırmalar əsasında hazırlanmışdır. Hesabat iki bölmədən ibarətdir: birinci bölmədə məhkəmə qərarlarının icrasına aid üsullar, ikinci bölmədə isə həmin üsulların səmərəliliyi barədə məlumat verilmişdir.

Ələlxüsus birinci bölmədə məhkəmə qərarlarının icrası işinə aid olan özəl və dövlət qurumlarından bəhs edilir. Burada müəlliflər qeyd edilən qurumların ayrıca olaraq mülki və cinayət işləri üzrə hansı qaydada təşkilatlanması məsələsini müzakirə edirlər. Xüsusən müəlliflər qeyd edirlər ki, bu məsələyə münasibətdə vahid bir yanaşma mövcud deyil – məhkəmə qərarlarının icrası həm dövlət (misal üçün, hakimlər), həmçinin də özəl strukturlar tərəfindən həyata keçirilə bilər. Buna baxmayaraq, cinayət işləri üzrə, demək olar ki, bütün üzv dövlətlərdə məhkəmə qərarlarının icrası ilə dövlət qurumları məşğul olur (hakim, prokurorluq orqanları, penitensiar müəssisələr, Ədliyyə Nazirliyinin ayrı-ayrı bölmələri).

Məhkəmə qərarlarının icrası üçün xərclərin yüksək olmasının məhkəmə qərarlarının icrası işində ciddi çətinliklər yarada bilməsini nəzərə alaraq, ekspertlərin xüsusi marağına məhkəmə qərarlarının icrası işinə ayrılan maliyyə yardımı səbəb olmuşdur. Bu mövzu ilə bağlı, aşkar səbəblər üzündən, ekspertlər yalnız mülki işlər üzrə qərarların icrası ilə bağlı xərclərin təhlilini aparmışlar.

Hesabatda məhkəmə qərarlarının icrası işinin səmərəliliyinə, əlaxüsus məhkəmə qərarlarının icrası işinin şəffaflığına, məhkəmə qərarlarının icrası xərclərinin proqnozlaşdırıla bilinməsinə və məhkəmə qərarlarının icrası vasitələrinin nə qədər səmərəli olmasına aid mövzular nəzərdən keçirilmişdir.

İkinci bölmə məhkəmə qərarlarının icrası üsullarının və qanunvericilik müddəalarının yerinə yetirilməsi mexanizmlərinin təhlili ilə başlayır. Belə ki, xüsusilə ekspertlər tərəfindən məhkəmə icraçılarının səriştə səviyyəsi, onların ilkin tədris və peşə təlimi məsələləri nəzərdən keçirilmişdir. Qeyd edilənlərə əlavə olaraq, bu bölmədə məhkəmə icraçılarının statusu, onların fəaliyyətinin

təşkilinə və fəaliyyətlərinə nəzarət məsələlərinə də toxunulur. Misal üçün, ekspertlər tərəfindən məhkəmə icraçılarının işi ilə əlaqədar keyfiyyət standartlarının olub-olmaması, məhkəmə icraçılarının işinə nəzarət və müşahidə funksiyasını yerinə yetirən qurumlar (hakimlər, prokurorluq orqanları, xüsusi qurumlar və s.), məhkəmə icraçılarına tətbiq edilən intizam tədbirləri və s. mövzuların təhlili aparılmışdır.

Statistik məlumat əsasında maraqlı bir məqam aşkar edilmişdir: əksər hallarda vətəndaşların məhkəmə icraçılarının işi ilə əlaqədar şikayətləri xərclərin kifayət qədər yüksək olması və məhkəmə qərarının icrası prosesinin xeyli vaxt aparmasına bağlıdır. Ekspertlər həmçinin məhkəmə icraçılarına qarşı başlanmış intizam işlərinin sayı, məhkəmə icraçılarının üzərinə intizam tədbiri qoymaqla qəbul edilmiş qərarların sayını təhlil ediblər[95].

Hesabatda ayrıca olaraq müzakirə edilmiş digər mövzu məhkəmə qərarlarının icrası işinin səmərəliliyidir. Bu mövzu ilə əlaqədar ekspertlər xüsusən məhkəmə qərarlarının icrası işinə sərf edilən müddət məsələsinə toxunublar. Bəzi üzv dövlətlərin qanunvericiliyində mövcud olan ayrı-ayrı müddəaların təhlili əsasında müəlliflər belə qənaətə gəliblər ki, məhkəmə qərarlarının icrasına sərf edilən vaxt qəti olaraq müəyyən edilmiş deyil, qabaqcadan proqnozlaşdırılan olmalıdır. Qeyd etmək lazımdır ki, məhkəmə qərarlarının icrası işinə münasibətdə bu şərtin icrası müvafiq tərəflərə icra prosesinin hansı mərhələdə olması barədə məlumatın təqdim edilməsi vasitəsilə həyata keçirilə bilər. Müəlliflər tərəfindən məhkəmə qərarlarının icrası ilə bağlı qaydaların pozulması halları üçün məsuliyyət məsələsi də müzakirə edilib.

---

[95] Qeyd etmək lazımdır ki, Rusiya Federasiyasında həm məhkəmə icraçılarına qarşı başlanmış intizam işlərinin sayı, həm də məhkəmə icraçılarına tətbiq olunmuş intizam tədbirlərinin sayı kifayət qədər yüksək olmuşdur. 2004-cü ilin statistik məlumatına əsasən belə işlərin və tədbirlərin sayı Avropa Şurasının bütün digər üzv dövlətlərində olan saydan yüksək olmuşdur.

### *5.2.2. "Məhkəmə qərarlarının icrası ilə əlaqədar Avropa Şurasının mövcud Tövsiyələrinin tətbiqinin təkmilləşdirilməsinə dair Rəhbər Qaydalar"*[96]

Yuxarıda qeyd edilən hesabatdan fərqli olaraq, bu sənəd CEPEJ-in Məhkəmə qərarlarının icrası üzrə Komitəsi tərəfindən işlənib hazırlanmışdır. Bundan başqa, əvvəlki hesabatın hazırlanmasında iştirak etmiş kənar ekspertlər sözügedən sənədin hazırlanması işinə də qatılmışlar.

Rəhbər Qaydaların ilk sətirlərindən göründüyü kimi, müəlliflər məhkəmə qərarlarının icrası işinin düzgün aparılmasını ölkənin məhkəmə sisteminə vətəndaşların etimadını şərtləndirən amillərdən biri olduğunu qeyd etmiş və məhkəmə qərarlarının icrası işinin qanunun aliliyinin tərkib hissəsi olduğunu vurğulamışlar. Nəticədə məhkəmə icraçılarının rolu qanunun aliliyi prinsipinin icrasına və məhkəmə prosesi iştirakçılarının hüquqlarının müdafiəsinə münasibətdə çox böyük əhəmiyyət kəsb edir, onların fəaliyyətinin qanunvericilik müstəvisindən tənzimlənməsi və vətəndaşların məhkəmə icraçılarının işindən məlumatlı olması isə insan hüquqlarına riayət ediləcəyinə zəmanət olur.

Komitə tərəfindən təqdim edilmiş təkliflər sırasında müəlliflər məhkəmə qərarlarının icrası prosesinin təqdim etdiyi imkanlardan istifadə etmək üçün şərait yaradılmasının zəruriliyini qeyd ediblər. İlk növbədə bu, məhkəmə icraçılarının coğrafi nöqteyi-nəzərdən çalışma imkanlarını nəzərdə tutur, yəni məhkəmə icraçılarının səlahiyyətləri və iş imkanları müvafiq üzv dövlətin bütün ərazisinə şamil olunmalıdır. Burada da qeyd edilir ki, məhkəmə qərarlarının icrası üzrə imkanların istifadəsi dilin maneəyə çevrilməsinin qarşısının alınmasını nəzərdə tutur, yəni təmin edilməlidir ki, tərəflər iştirak etdikləri icra prosesini anlamaq iqtidarında olmalı və mümkün olarsa, vəkilin iştirakına ehtiyac

[96] CEPEJ-in *"Məhkəmə qərarlarının icrası ilə əlaqədar Avropa Şurasının mövcud Tövsiyələrinin tətbiqinin təkmilləşdirilməsinə dair Rəhbər Qaydalar"*ı, Strasburq, 17 dekabr 2009-cu il, CEPEJ(2009)11REV2.

olmadan prosesdə iştirak edə bilməlidirlər. Nəhayət, komitə tövsiyə edir ki, üzv dövlətlər icra prosesinin bütün iştirakçılarının statusu və hüquqlarını mümkün qədər dəqiq müəyyən etməli və bununla onların məhkəmə qərarının icrası işindəki müvafiq rolunu möhkəmlətməlidir.

Komitənin fikrinə əsasən, proses üzrə tərəflərə məlumat təqdim edilməsi məsələsinə xüsusi diqqət verilməlidir. Belə ki, müəlliflər tərəfindən qeyd olunur ki, icra prosesinin müxtəlif məqamları barədə proses iştirakçılarına məlumatın təqdim olunması Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi ilə nəzərdə tutulmuş ədalət mühakiməsi hüququnun tərkib hissəsini təşkil edir. Komitə təklif etmişdir ki, məhkəmə qərarının icrası prosesinin bütün əhəmiyyətli məqamları barədə bütün maraqlı tərəflərə məlumat təqdim edilsin.

Komitə həmçinin üzv dövlətlərə təklif edir ki, məhkəmə icraçıları tərəfindən çıxarılan qərarların statusu müəyyən edilsin.

Rəhbər Qaydaların kifayət qədər böyük hissəsi məhkəmə icraçılarının səriştəsi, təlimi, hüquq və vəzifələri, onların işi üzərində nəzarət məsələlərinə həsr edilib. İlk növbədə komitə tövsiyə edir ki, məhkəmə icraçısı vəzifəsinə namizədə şamil edilən tələblər müəyyən olunmalı və zəruri hallarda məhkəmə qərarının icrası işinin nə qədər uğurlu olması son nəticə etibarilə məhkəmə icraçısının səriştəsindən asılı olduğundan artırılmalıdır. Bundan başqa, təklif edilir ki, məhkəmə icraçılarının peşə təlimi üzrə tələblər artırılsın və məhkəmə icraçılarının məcburi olaraq peşə təlimindən keçməli olduqları müəyyən edilsin. Üzv dövlətlərə həmçinin tövsiyə olunur ki, məhkəmə icraçılarının hüquqlarının müdafiəsi, həmçinin məhkəmə icraçıları və onların işi üzrə nəzarətin həyata keçirilməsi və məlumat toplanması məqsədilə məhkəmə icraçılarının fəaliyyəti vahid bir qurum daxilində təşkil edilsin və aparılsın.

Məhkəmə icraçılarının hüquq və vəzifələri məsələsi komitənin apardığı araşdırmaların ayrıca bir predmeti olmuşdur. Ko-

mitə müəyyən edir ki, məhkəmə icraçılarının əsas vəzifələrinə əlavə olaraq, daxili qanunvericilik məhkəmə qərarlarının icrasının təmin edilməsi ilə əlaqədar məhkəmə icraçılarının üzərinə əlavə vəzifələr də qoya bilər (əmlak üzərinə həbs qoyulması; müflisləşmə prosedurunun həyata keçirilməsi; sübutlar toplusunun mühafizəsinin təmin edilməsi və s.). Nəhayət, komitənin rəyinə əsasən, məhkəmə icraçılarının hüquq və vəzifələri mövzusu həmçinin onların davranışı ilə bağlı etik məqamları da əhatə edir və komitə təklif edir ki, üzv dövlətlər bu məsələni məhkəmə icraçılarına şamil edilən normativ hüquqi sənədlər çərçivəsində tənzimləməlidir. Qeyd edilən normativ hüquqi sənədlərlə məhkəmə icraçılarının işi ilə bağlı peşə standartları müəyyən edilməlidir.

Sənədin ayrıca bölməsi məhkəmə qərarlarının icrası işinin xüsusi məqamlarına aid edilib.

Misal üçün, bu bölmədə proses iştirakçılarına məlumat təqdim edilməsi ilə əlaqədar bir sıra qaydalar əksini tapıb. Qeyd olunur ki, iddiaçıya cavabdeh barədə məlumat verilməlidir ki, cavabdehə qarşı çıxarılmış məhkəmə qərarının səmərəli qaydada icrası mümkün olsun. Bu məqsədə nail olmaq üçün üzv dövlətlərə məhkəmə icraçılarına cavabdehin əmlakı barədə məlumatı əldə etmək imkanlarını təqdim etmək təklif edilir. Həmçinin məhkəmə icraçılarını məhkəmə qərarının icrası üçün zəruri olan bütün məlumatla təmin etməkdən ötrü tənzimləyici çərçivənin işlənib hazırlanması tövsiyə olunur. Eyni zamanda, bu kimi işləri həyata keçirərkən üzv dövlətlər Avropa Şurası tərəfindən qəbul edilmiş standartlara riayət etməklə fərdi məlumatın məxfiliyinin qorunmasını təmin etməlidirlər.

Komitə tərəfindən məhkəmə qərarının icrası xərclərinə aid olmaqla da təkliflər təqdim olunmuşdur. Belə ki, üzv dövlətlərə məhkəmə qərarının icrası xərclərini nizamlamaq təklif edilir. Digər bir təklif məhkəmə qərarlarının icrası işi ilə əlaqədar hökumət dəstəyi sistemini yaratmaqdan ibarətdir. Komitə məhkəmə qərarlarının icrasına çəkilən xərclərin şəffaf olması məsələsini

vurğulayır və qeyd edir ki, nəticə etibarilə bu, iddiaçının üzərinə düşən maliyyə yükünün azalmasına gətirib çıxaracaq. Misal üçün, tövsiyə olunur ki, üzv dövlət məhkəmə qərarlarının icrası işi ilə bağlı rüsumlar cədvəlini qəbul etsin. İcra tədbirinin nə qədər mürəkkəb olması və qiyməti nəzərə alınmaqla, məhkəmə qərarının icrası işinin hər bir mərhələsi üzrə xərclərin məbləğinin müəyyən edilməsi aparılmalıdır. Təklif edilir ki, cavabdeh tərəfindən məhkəmə qərarının icrası ilə əlaqədar xərclərin kompensasiya edilməsini nəzərdə tutan şərt də qəbul edilsin.

Komitənin apardığı təhlilin digər bir mövzusu məhkəmə qərarlarının icrası işinin müddəti olmuşdur. Buradan məhkəmə qərarlarının icrası işinin müddətinin ağlabatan olmasına dair təklif təbiidir. Nəzərdə saxlamaq lazımdır ki, ağlabatan müddət və müddətin proqnozlaşdırılma prinsipləri hər bir məhkəmə prosesinin tərkib hissəsidir və məhkəmə qərarlarının icrası mərhələsini də bunlardan ayırmaq olmaz. Məhkəmə qərarlarının icrasına sərf edilən vaxtı azaltmaq məqsədilə üzv dövlətlərə aşağıda qeyd edilən işləri həyata keçirmək təklif olunur:

- proses iştirakçıları və məhkəmə icraçıları arasındakı ünsiyyətin elektron formatda aparılmasının təşviq etdirilməsi;
- məhkəmə qərarlarının icrasını sürətləndirmək üçün elektron qaydaların işlənib hazırlanması;
- cavabdeh tərəfindən məhkəmə qərarının icrası işini ləngitmək imkanlarının məhdudlaşdırılması.

Nəhayət, Məhkəmə qərarlarının icrası üzrə Komitə məhkəmə icraçılarının fəaliyyətinə nəzarət məsələsinə toxunur. Əlalxüsus təklif edilir ki, məhkəmə qərarlarının icrasına aid keyfiyyət standartları qəbul olunmalı və həmin standartlara istinadən məhkəmə icraçılarının işinə mütəmadi olaraq nəzarət edilməlidir. Bu, nəzarətin müstəqil üsulundan istifadə etməklə məhkəmə icraçılarının işinə mütəmadi olaraq nəzarət etmək və keyfiyyətin qiymətləndirilməsi tədbirlərini həyata keçirmək üçün imkan

verəcək. Qeyd edilənlərə əlavə olaraq təklif edilir ki, hökumət qarşısında hesabat verən, vəzifəsi məhkəmə icraçılarının işinə daim nəzarət etmək olan qurumlar yaradılsın. Sonda qeyd edilir ki, məhkəmə icraçıları hər hansı pozuntuya yol verdikdə onlara qarşı intizam araşdırmasına başlamaq və müvafiq intizam tədbirlərindən istifadə etmək zəruridir.

# FƏSİL 6

## Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası ilə üzv dövlətlər arasında əməkdaşlıq[97]

### *6.1. Nümunə kimi Şərq Tərəfdaşlığı Ölkələrində Məhkəmə-Hüquq İslahatlarının Genişləndirilməsi üzrə Birgə Proqram*

#### *6.1.1. "Səmərəli məhkəmə sistemi üzrə Hesabat"*

Bu hesabat Avropa İttifaqı ilə Avropa Şurası tərəfindən birlikdə həyata keçirilən Şərq Tərəfdaşlığı Ölkələrində Məhkəmə-Hüquq İslahatlarının Genişləndirilməsi üzrə Birgə Proqram çərçivəsində hazırlanmışdır. Hesabatda Avropa tərəfdaşlığı ölkələri – Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova və Ukraynada ədalət mühakiməsi sisteminin səmərəliliyi təhlil edilmişdir. Hesabat qeyd edilən dövlətlərdə ədalət mühakiməsi sisteminin Avropa standartlarına nə dərəcədə cavab verdiyini araşdırır və qeyd edilən sistemlərin işinin təkmilləşdirilməsi üçün rəhbər qaydaların işlənib hazırlanması ilə bağlı köməklik təqdim edir.

Hesabat CEPEJ tərəfindən 2010-2012-ci illəri əhatə edən dövr üçün məhkəmələrin işinin qiymətləndirilməsi layihəsi zamanı, yəni yuxarıda qeyd edilən qiymətləndirmə hesabatının

---

[97] Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) tərəfindən Avropada və Avropa xaricində 10 əməkdaşlıq layihəsi həyata keçirilir, misal üçün, Şərq Tərəfdaşlığı üzrə Birgə Proqram, Albaniya, Azərbaycan, Xorvativa, Moldova, Türkiyə, Ukrayna, İordaniya, Mərakeş və Tunisdə əməkdaşlıq proqramları icra olunur.

hazırlanması müddətində toplanmış məlumat əsasında tərtib edilmişdir. Sözügedən hesabatın hazırkı kitabın mətnində istinad edilən qiymətləndirmə hesabatından əsas fərqi məhkəmələrin işinin qiymətləndirilməsinə münasibətdə regional yanaşmanın istifadəsindən ibarətdir ki, bu, deyilən dövlətlərin məhkəmə sistemlərinin işində mövcud olan ümumi problemləri aşkara çıxarmağa və həmin problemlərin aradan qaldırılması üçün vahid təkliflərin hazırlanmasına imkan verir (hesabatın həcmi 300 səhifədən çoxdur).

Hesabatın birinci hissəsində "Avropa Məhkəmə Sistemləri" 2012-ci il üzrə Hesabatdan çıxarışlar təqdim edilmişdir (sözügedən hesabat 2010-cu ildə toplanmış məlumat əsasında hazırlanmışdır). Təbiidir ki, bu hesabatın diqqət mərkəzində Şərq Tərəfdaşlığı ölkələrindən beşi durur. Məhkəmələrə aid hesabatda beş ölkə üzrə statistik məlumatlar müqayisə olunur, həmin ölkələrə aid göstəricilər Avropada qəbul edilmiş nəzarət meyarları üzrə təhlil edilir. Məhkəmə sisteminin inkişaf tarixini təhlil etmək məqsədilə ekspertlər son üç qiymətləndirmə dövrünün məlumatından istifadə etmişlər. Oxşar iqtisadi, sosial və hüquq durumları olan ölkələrdə durumun müqayisəli qiymətləndirilməsi çərçivəsində xüsusi diqqət beş üzv dövlətdə toplanmış məlumata verilmişdir. Qeyd edilənlərə əlavə olaraq, birinci bölmədə müvafiq dövlətlərin hüquq sahəsi üzrə milli statistik təhlilləri təqdim edilmişdir, müvafiq tədqiqatlarda müəyyənləşdirilmiş prosessual müddətlər ərzində həll olunmuş qalan işlərin sayı, müəyyən edilmiş prosessual müddətlər ərzində həll edilmiş işlərin faiz nisbəti, həllini gözləyən işlərin sayı, habelə məhkəmə sisteminin səmərəliliyi və işinin keyfiyyəti prioritet məsələlər kimi nəzərdən keçirilmişdir. Hesabatda həmçinin məhkəmə sistemlərinin 28 müxtəlif göstərici üzrə müfəssəl və sistematik müqayisəsi təqdim edilmişdir.

İkinci bölmədə Şərq Tərəfdaşlığı ölkələrinin məhkəmə sistemlərinin fəaliyyətinə münasibətdə məlumatın müfəssəl və sis-

tematik müqayisəsi təqdim olunmuşdur. Bu bölmədə təsvir edilən nəzarət meyarları (göstəricilər) məhkəmə sisteminin müxtəlif aspektlərinin müfəssəl qiymətləndirilməsini aparmağa imkan verir. Ələlxüsus bölmədə ümumi vəziyyətin və məhkəmə sisteminin səmərəliliyinin qiymətləndirilməsinin nəticələri verilmişdir: işlərin dövriyyəsi (müəyyən edilmiş prosessual müddətlər ərzində həll edilməmiş qalan işlərin sayı, müəyyən olunmuş prosessual müddətlər ərzində həll edilmiş işlərin faiz nisbəti, həllini gözləyən işlərin sayı və s.), məhkəmə sisteminin səmərəliliyi və fəaliyyət göstəriciləri. Hesabatın ikinci hissəsində, qeyd edilənlərə əlavə olaraq, istifadə olunmuş tədqiqat metodu və onun istifadəsinin nəticələri təsvir edilmişdir.

Nəhayət, hesabatın üçüncü hissəsində institusional nöqteyi-nəzərdən qeyd edilən ölkələrin potensial inkişaf imkanları müzakirə olunur. Bu bölmədə aparılan monitorinq işləri, statistik məlumatın qiymətləndirilməsi işinin ayrı-ayrı hissələri, habelə qeyd edilənlərin ümumilikdə məhkəmələr və məhkəmə sisteminə aid tərtib edilmiş ümumi strategiya əsasında istifadə imkanları müzakirə olunur. Başqa sözlə desək, bu bölmədə məhkəmələrdə səmərəliliyin qiymətləndirilməsi proseduru üzərində aparılan monitorinq tədbirləri təsvir olunur.

Hesabatın qeyd edilən bölmələrinə daha yaxından nəzər salaq.

Ən böyük bölmə olan *"Məhkəmələrə maliyyə dəstəyi və həddən artıq yüksək iş yükü həcmi"* adlanan birinci bölmədə yalnız Şərqi Avropa ölkələrində məhkəmə sistemləri barədə statistik məlumat deyil, həmçinin məhkəmə sistemlərinin işinin təkmilləşdirilməsinə aid təkliflər yer aldığı üçün daha maraqlı məlumatlar verilmişdir. Bu bölmə altı fəsildən ibarətdir:

- məhkəmə sisteminin fəaliyyətinin qiymətləndirilməsi qaydası;
- məhkəmə sistemi üçün maliyyə dəstəyi;
- hakimlər, digər məhkəmə işçiləri və onların əməkhaqqı;
- məhkəmələrin fəaliyyətinin operativ idarə olunması;

- məhkəmələrin fəaliyyəti: işlərin dövriyyəsi sürəti və həllini gözləyən işlərin sayı;
- müqayisəli təhlil (28 göstərici).

*"Məhkəmə sisteminin işinin qiymətləndirilməsi qaydası"* adlanan birinci bölmədə statistik məlumatı müqayisə üçün uyğun bir formata salmaq istiqamətində səylər əksini tapmışdır. Ələlxüsus bu fəsildə ümumi daxili məhsul, ölkənin ölçülərinə lazımi qaydada istinadlar edilməklə təhlil olunan ölkələrin sosial və iqtisadi göstəriciləri, büdcə məlumatı nəzərə alınır. Faktiki olaraq bu fəsil metodoloji giriş hissəsidir və bu səbəbdən, ən az maraq doğuran biridir.

*"Məhkəmə sistemi üçün maliyyə dəstəyi"* adlanan ikinci fəsildə, əsasən, hökumət tərəfindən məhkəmə sisteminə ayrılan maliyyə dəstəyinə xas tendensiyalar və dəyişikliklər təsvir edilir. Bu fəsildə qeyd edilir ki, təhlil olunan Şərq Tərəfdaşlığı ölkələrində məhkəmə sisteminə ayrılan maliyyə dəstəyi daim artır və artım sürəti hətta Qərbi Avropa ölkələrində müşahidə ediləndən də artıqdır. Bu səbəbdən məhkəmələr üçün büdcədən ayrılan vəsaitlərin məbləğinin artırılmasına dair, demək olar ki, heç bir təklif yer almamışdır.

Müəlliflərin gəldiyi digər bir nəticə məhkəmələrin infrastrukturu və məhkəmə üçün maddi dəstəyin yaxşılaşdırılmasına kifayət qədər vəsaitlərin ayrılması ilə yanaşı, işçi heyəti üçün nəzərdə tutulan resursların həcminin müvafiq nisbətdə artmamasından ibarətdir. Bu vəziyyətin əksi Moldovada müşahidə edilir – burada hakimlərin peşə təliminə böyük məbləğlər ayrılır. Azərbaycanda dövlət büdcəsinin ayırmaları xeyli artmışdır və əsasən, məhkəmələrin infrastrukturunun yaxşılaşdırılması, bölgələrdə yeni məhkəmələrin yaradılması, məhkəmələrdə informasiya texnologiyalarının geniş tətbiqi üçün istifadə olunur[98].

[98] Ətraflı məlumat üçün bax: Azərbaycan Respublikasının Ədliyyə Naziri Fikrət Məmmədovun *"Məhkəmə hakimiyyətinin demokratik cəmiyyətdəki rolu"* adlanan, 26 may 2015-ci il tarixdə keçirilmiş və Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasının yaradılmasının 10-cu ildönümünə həsr edilmiş Beynəlxalq Konfransdakı çıxışı.

CEPEJ tərəfindən Şərq Tərəfdaşlığı ölkələrinin əksəriyyətində məhkəmələrə ayrılan maliyyə yardımı məsələləri ilə əlaqədar məhkəmələrlə hökumətlər arasında əməkdaşlığın səviyyəsinin aşağı olduğu qeyd edilmiş, bundan narahatlıq ifadə olunmuşdur. Xüsusən CEPEJ qeyd etmişdir ki, büdcə üzrə qərarlar qəbul etmək səlahiyyətinə malik yüksək səviyyəli hökumət orqanları məhkəmələrin büdcəsinin formalaşmasına münasibətdə məhkəmələrin rəyini nəzərə almır.

Hüquqi yardım üçün ayrılan maliyyə yardımı ilə əlaqədar da müəyyən narahatlıq ifadə edilmişdir. Misal üçün, qeyd olunmuşdur ki, yalnız Gürcüstanda və Moldovada vətəndaşlar nəzərdə tutulan hüquqi yardım üçün ayrılan vəsaitlərin məbləği Avropa İnsan Hüquqları Konvensiyasının müddəalarına uyğun gəlir.

Məhkəmələr üçün ayrılan maliyyə yardımı məsələsinə münasibətdə ümumi qənaət kimi CEPEJ tərəfindən qeyd edilmişdir ki, bütün məlumat ümumi daxili məhsul (ÜDM) və ölkə əhalisinin sayı barədə məlumatla tutuşdurduqdan sonra məlum olmuşdur ki, bütün Ölkələrində məhkəmə sistemi üçün ayrılan vəsaitlərin cəmi məbləği Avropada qəbul edilmiş nəzarət meyarlarına uyğundur. Büdcədən ayrılan vəsaitlərin məbləğindən başqa, həmin məbləğlərin məhkəmə, prokurorluq orqanları və hüquqi yardım sistemi arasında hansı nisbətlər ilə bölüşdürülməsi məsələsi də böyük əhəmiyyət kəsb edir. Məhkəmə sistemilə qanunun aliliyi arasında tarazlığı təmin etmək məqsədilə təklif olunur ki, tətbiq edilə bilən Avropa nəzarət meyarlarına uyğun olmaqla, tələb edildiyindən çox vəsait alan sahələrin payına düşən artıq vəsaitlər tələb edildiyindən az vəsait alan sahələrin xeyrinə yenidən bölüşdürülməlidir.

*"Hakimlər, digər məhkəmə işçiləri və onların əməkhaqqı"* adlanan üçüncü fəsildə qeyd edilmişdir ki, Şərqi Avropa ölkələrində ədalət mühakiməsi, demək olar ki, tamamilə peşəkar hakimlər tərəfindən həyata keçirilir və məhz bu amil Avropa standartları üzrə məhkəmə əməkdaşlarının sayının aşağı olmasının səbəbi kimi

qeyd edilə bilər. Son illər ərzində ayrı-ayrı ölkələrdə məhkəmə işçilərinin sayında baş verən dəyişikliklərin istiqamətləri də fərqli olmuşdur. Gürcüstanda məhkəmə işçilərinin sayında azalma müşahidə olunmuşdur; Ukrayna və Azərbaycanda isə, əksinə, məhkəmə işçilərinin sayı artmışdır.

Məhkəmə işçilərinə aid həmçinin qeyd etmək olar ki, Avropada ümumi tendensiya bir hakimə düşən məhkəmə işçilərinin sayının azalmasından ibarət olmuşsa, Şərq Tərəfdaşlığı ölkələrində vəziyyət ölkədən-ölkəyə fərqli olmuşdur: Azərbaycanda məhkəmə işçilərinin sayı artmışdır, Ermənistan və Moldovada isə məhkəmə işçilərinin sayı nisbətən aşağıdır və daha da azalmaqda davam edir.

Nəhayət, əməkhaqqı ilə bağlı qeyd edilmişdir ki, Moldova istisna olmaqla, tədqiq edilən ölkələrdə hakimlərin əməkhaqqı məbləği Avropada qəbul edilmiş nəzarət meyarlarına uyğun gəlir. Prokurorluq orqanlarına gəldikdə, əməkhaqqı üzrə göstəricilər Avropada qəbul edilmiş orta göstəricilərdən bir qədər aşağıdır. 2008-ci ilin maliyyə və iqtisadi böhranından sonra hakimlərin məvacibi xeyli aşağı düşmüşdür (Azərbaycan və Gürcüstan istisna olmaqla). Azərbaycan və Moldovada hakimlərin əməkhaqqı məbləği Avropada qəbul edilmiş orta göstəricilərdən aşağıdır. Bu səbəbdən CEPEJ təklif etmişdir ki, əməkhaqqı məbləği Avropada qəbul edilmiş nəzarət meyarlarının səviyyəsinə qədər artırılsın.

*"Məhkəmələrin fəaliyyətinin operativ idarə olunması"* adlanan dördüncü fəslə əsasən, məhkəmələrin sayı məsələsinə həsr olunmuş və bu göstərici üzrə sözügedən ölkələr Avropa ölkələrində əhali sayına düşən məhkəmələrin sayı üzrə müşahidə edilən statistikaya uyğundur. Həmçinin qeyd edilib ki, Azərbaycan və Gürcüstanda məhkəmə idarəçiliyinin peşəkarlıq səviyyəsini yüksəltmək məqsədilə fəal səylər göstərilmişdir (yeni informasiya texnologiyaları, keyfiyyətə nəzarət sistemləri tətbiq edilmiş, monitorinq və qiymətləndirmə metodlarından istifadə

olunmuşdur)[99]. Ukrayna, Ermənistan və Moldovoda məhkəmələrin idarə olunması sahəsində müasir metodların istifadəsinin genişləndirilməsi işində hansısa irəliləyiş qeydə alınmayıb. Bu mövzu ilə bağlı məhkəmələrin müasirləşdirilməsi (yəni yeni informasiya texnologiyaları, monitorinq, qiymətləndirmə və keyfiyyətə nəzarət siyasətlərinin tətbiqi və istifadəsi) və məhkəmələrin işinin təkmilləşdirilməsi üçün CEPEJ peşəkarlıq səviyyəsinin yüksəldilməsi və məhkəmələrin müstəqilliyinin genişləndirilməsini tövsiyə edir.

*"Məhkəmələrin fəaliyyəti: işlərin dövriyyəsi sürəti və həllini gözləyən işlərin sayı"* adlanan beşinci fəsil müəyyən edilmiş prosessual müddətlər ərzində həll edilməmiş qalan işlərin faiz payına, müəyyən edilmiş prosessual müddətlər ərzində həll edilmiş işlərin faiz payına və baxılmalarını gözləyən işlərin sayına həsr edilib. Burada qeyd edilmişdir ki, təhlil edilmiş ölkələrdə prosessual müddətlərə riayətin səviyyəsi fərqlidir:

- Ermənistan və Moldovada mövcud olan durum narahatlıq doğurur;
- Gürcüstanda qəbul edilmiş islahatlar müsbət nəticə vermişdir;
- Azərbaycanda vəziyyət tədricən yaxşılaşmaqdadır;
- Ukrayna üzrə əldə olan məlumat dəqiq qənaətə gəlməyə imkan vermir.

Hesabatın "28 göstərici üzrə müqayisəli təhlil" adlanan sonuncu fəsli məhkəmələrin işinin fəaliyyətinin səmərəliliyinin müqayisəli təhlili məqsədilə hazırlanmışdır. Qeyd edilən səbəbdən

[99] Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatları barədə daha ətraflı məlumat əldə etmək üçün bax: Azərbaycan Respublikasının Ədliyyə Naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun məqalələri (müsahibələri) – "*Azərbaycanda məhkəmə-hüquq sahəsində həyata keçirilən islahatların prioritet istiqamətləri müasir infrastrukturun yaradılması və mütərəqqi informasiya texnologiyalarının tətbiqinin təmin olunmasıdır*"; *"Elektron məhkəmə" ədalət mühakiməsinə vətəndaş etimadının artmasına xidmət edir"; "Azərbaycanın məhkəmə islahatları artıq beynəlxalq aləmdə tanın*ır, *lakin biz bununla kifayətlənmir, bu istiqamətdəki işimizi davam etdiririk*" (http://justice.gov.az/dec_top1.php).

bu fəsildə müəlliflər maliyyə dəstəyi, məhkəmələrdə iş yükü və fəaliyyət göstəricilərini müfəssəl qaydada öyrənmişlər. 2006, 2008 və 2010-cu illər üçün Şərq Tərəfdaşlığı ölkələri tərəfindən təqdim edilmiş məlumata əsasən müəlliflər məhkəmələrdə iş yükünün həcmini və məhkəmələrin işinin nəticələrini müəyyən etmişlər. Qeyd edilən məlumatı vahid standartlara uyğunlaşdırdıqdan sonra həmin məlumat Avropa Şurasının hazırkı 47 üzv dövlətinin məhkəmə sistemlərinin işinə aid olan meyarlara, habelə müvafiq ərazi inzibati vahidlərinə istinadən təhlil edilmişdi. Bütün 28 əsas göstəricini "vahid standartlar"a uyğunlaşdırmaq məqsədilə həyata keçirilmiş statistik çevrilmələr xüsusi diqqətə layiqdir - məhz həmin çevrilmələrin nəticələri bütün 28 göstərici üzrə keyfiyyət müqayisəsini aparmağa imkan vermişdir və bu səbəbdən tədqiq edilən məhkəmə sisteminə münasibətdə müsbət və mənfi cəhətləri müəyyən etməyə imkan verir.

Hesabatın birinci bölməsinə əsasən aşağıdakı qənaətlərə gəlmək mümkündür:

- məhkəmə resurslarına gəldikdə, məhkəmələrin resursları orta meyarlara cavab verən Ukrayna istisna olmaqla, təhlil edilmiş qalan beş dövlətdə resurslar bazası Avropa Şurası üzrə qəbul edilmiş orta göstəricidən aşağıdır. Gürcüstan və Azərbaycan üzrə hakimlərin əməkhaqqı məbləği istisna təşkil edir və bu istiqamət üzrə təhlil apararkən müəlliflər hakimlərin vergilər və digər məcburi ayırmalar daxil olmaqla əməkhaqqı məbləğlərini ölkə üzrə orta əməkhaqqı məbləği ilə müqayisə etmişlər;
- məhkəmələrin iş yükünə gəldikdə, Ukrayna istisna olmaqla, təhlil edilmiş qalan beş dövlətdə bir il ərzində məhkəmələrə təqdim edilən işlərin sayı (məhkəmələrin iş yükü) Avropa Şurasının üzv dövlətlərində 100 nəfərə düşən orta göstəricidən artıq olmamışdır;
- müəyyən edilmiş prosessual müddətlər ərzində həll edilən işlərin faiz nisbətinə gəldikdə, Gürcüstanda bu

göstərici orta göstəricidən, bir qayda olaraq, yüksəkdir; Ukrayna və Azərbaycanda göstərici orta göstəriciyə uyğundur; lakin Ermənistan və Moldovada müşahidə olunan faiz nisbəti orta göstəricidən aşağıdır;

- baxılmasını gözləyən işlərin sayına gəldikdə, beş dövlətdən hər birində baxılmasını gözləyən işlərin sayı orta göstəricilərdən aşağıdır; lakin Gürcüstanda belə işlərin sayının azalmasına doğru tendensiya olsa da, Ermənistan və Moldovada bu kateqoriyaya aid işlərin sayı artmaqdadır, bu isə, birbaşa olaraq, qeyd edilən ölkələrdə məhkəmələrin üzərinə düşən iş yükünün lazımi qaydada idarə edilməməsinin nəticəsidir.

Hesabatın ikinci hissəsi *"Məhkəmələrdə iş praktikasının müqayisəsi: işlərin dövriyyəsi, işin səmərəliliyi və məhkəmələrin məhsuldarlığı"* adlanan bölmədə də təhlil edilmiş, ölkələr üzrə bir sıra statistik məlumatlar verilmiş, təhlillər aparılmış və tövsiyələr hazırlanmışdır.

Belə ki, Ermənistana münasibətdə qeyd olunmuşdur ki, nə hakimlərin sayı, nə də məhkəmə sisteminə yatırılan maliyyə vəsaitlərinin məbləği məhkəmələrə təqdim edilən işlərin sayına (sistemin ilkin meyarlar üzrə tənzimlənməsi) və müəyyən edilmiş prosessual müddətlər ərzində həll edilmiş işlərin sayına (sistemin əldə edilmiş nəticələrə istinadən tənzimlənməsi) uyğun gəlir. Bu fəsildən həmçinin aydın olur ki, məhkəmə sistemi üçün büdcə ayırmalarının artması və məhkəmə sisteminin işinin nəticələri arasında qarşılıqlı əlaqə yoxdur (bu, daha çox 2010-2011-ci illəri əhatə edən dövrə aiddir). Bu ölkədə məhkəmə sisteminin inkişafına dair ümumi tendensiya, demək olar ki, bütün göstəricilər üzrə mənfi olmuşdur. Hakimlərin və baxılmış işlərə sayı azalmış, iş yükü isə artmışdır. Eyni zamanda, sistemin fəaliyyət nəticələri də aşağı düşmüşdür ki, bu da, öz növbəsində, işlərin baxılması və həlli işində ləngimələri, habelə həll edilməmiş qalan işlərin sayını artırmışdır. Bu səbəbdən CEPEJ tərəfindən

Ermənistana ilk növbədə məhkəmələrin operativ idarə olunması işində kəmiyyət göstəricilərinə diqqət yetirmək, sonra isə həmin göstəricilərə istinadən prosessual müddətlərə riayət olunmasına aid problemləri müəyyən edərək lazımi tədbirləri həyata keçirmək tövsiyə olunmuşdur.

Azərbaycana gəldikdə, CEPEJ qeyd etmişdir ki, ilkin meyarlar və nəticə göstəriciləri arasında təxmini əlaqə müşahidə olunmaqdadır və hakimlərin sayının artmasına baxmayaraq, bu artım məhkəmələrə daxil olan işlərin sayındakı artıma uyğun gəlmir. Uzun müddətdir ki, baxılmış işlərin sayı artmaqdadır və müəyyənləşdirilmiş prosessual müddətlər ərzində baxılmış və həll edilmiş işlərin sayı 95%-dən artıq bir səviyyədə qalmışdır. Məhkəmələrin ayrı-ayrı kateqoriyalarına münasibətdə aşağıdakı qənaətlərə gəlmək olar: iqtisadi mübahisələrə və inzibati işlərə baxan məhkəmələr 2010-cu ilə qədər sürəkli bir müddət ərzində ardıcıl fəaliyyət göstərmişlər; 2011-ci ildən onların fəaliyyət göstəriciləri aşağı düşmüşdür ki, bu da xüsusi diqqət tələb edən bir məsələdir. Ağır cinayətlər üzrə işlərə baxan məhkəmələrdə kifayət qədər aşağı səmərəlilik/aşağı fəaliyyət göstəriciləri müşahidə olunmuşdur. Eyni zamanda, nisbi iş yükünə baxmayaraq, həmin məhkəmələr ədalət mühakiməsini müəyyən edilmiş prosessual müddətlər ərzində həyata keçirməyə müvəffəq olmuşlar. Azərbaycandakı məhkəmə sistemi ilə bağlı CEPEJ aşağıda verilmiş təkliflərlə çıxış etmişdir:

- müəyyən edilmiş prosessual müddətlər ərzində baxılmış və həll olunmuş işlərə faiz göstəricisinin aşağı olması və potensial surətdə ləngimələrin baş verməsi riski haqqında məlumatlandırma təmin olunmalıdır;
- iqtisadi mübahisələrə və inzibati işlərə baxan məhkəmələrin fəaliyyət göstəricilərinin aşağı düşməsinə xüsusi diqqət verilməlidir;
- Bakı Ağır Cinayətlər Məhkəməsinin müsbət təcrübəsini təhlil etmək məsləhət görülür;

- Lənkəran Ağır Cinayətlər Məhkəməsinin üzərinə düşən iş yükünü nəzərə alaraq qeyd edilən məhkəmənin əlavə münasib işçi heyəti ilə təmin olunması zəruridir.

Gürcüstanla əlaqədar CEPEJ ən az narahatlıq ifadə etmişdir. Belə ki, qeyd olunmuşdur ki, işlərin dövriyyəsinə münasibətdə Gürcüstanın göstəriciləri ən yaxşısıdır, işlərə baxılması və həllinə sərf edilən müddət çox aşağıdır. Buna baxmayaraq, CEPEJ Gürcüstana tövsiyə etmişdir ki, məhkəmələrin fəaliyyətinin göstəricilərində baş verən kəskin azalmaya xüsusi diqqət verilsin, iş yükü ilə məhkəmə işçiləri arasındakı nisbətə qəti əməl olunsun. Ümumilikdə hakimlərin sayının azalması məhkəmələrə daxil olan işlərin sayının azalmasına uyğun gəlsə belə, işçiləri kifayət qədər səriştəli olmayan bir çox məhkəmə "daha az səmərəli/səmərəsiz" fəaliyyətdədir. İşçilərinin sayı lazım olandan yüksək olan, lakin eyni zamanda daha az səmərəli olan məhkəmələrə gəldikdə, tövsiyə olunur ki, həmin məhkəmələrin birləşməsi işi (və ya bu məhkəmələrdə işçilərin ixtisarı) davam etdirilsin və iş yükü ilə işçilərin sayı arasında nisbətə qəti olaraq əməl edilsin.

Moldovaya gəldikdə, qeyd olunmuşdur ki, ümumilikdə və bəzi istisnalarla, məhkəmələrə təqdim edilən və baxılaraq həll edilmiş işlərin sayı münasibdir, lakin baxılmamış qalan işlərin sayında baş verən son dəyişikliklər narahatlıq üçün əsas verməkdədir. Belə ki, qeyd olunmuşdur ki, işlərin səmərəli tərzdə və yubanmadan aparılmasına varmadan əksər göstəricilər üzrə mənfi tendensiya müşahidə olunmaqdadır. İşdə ciddi dəyişikliklər yer alır, bu isə resursların istifadəsində dəyişikliklər aparılması zərurətinə işarə edir. Son iki il ərzində işçilərin sayı və büdcə üzrə baş verən artım baxılan və həll edilən işlərin sayına təsirini göstərməmiş, buna səbəb isə investisiyaların əsasən məhkəmələrin infrastrukturuna yatırılmasıdır. Moldovada iş yükü ilə maliyyə dəstəyi arasında yuxarıda qeyd edilən uyğunsuzluq, çox güman ki, fəaliyyət prinsipi əsasında resursların daha geniş istifadə zərurətinə işarə edir.

Ukrayna üzrə qeyd olunmuşdur ki, maliyyə vəsaitləri qoyuluşunun artması nəticəsində azından 2011-ci ildə məhkəmələrə təqdim edilib baxılan və həll edilən işlərin sayı artmış, fəaliyyət səviyyəsinin yüksəlməsinə şərait yaradılmışdır. Baxmayaraq ki, bütün göstəricilər sistemin stabilliyinə işarə edir, belə bir qənaətə gəlmək olur ki, müvafiq idarəçilik strukturları məhkəmə sisteminə yatırılan maliyyə vəsaitləri ilə əldə edilən nəticələr arasındakı tarazlığı qoruyub saxlayır.

Hesabatın *"Siyasi potensialın təqdim etdiyi imkanlar"* adlanan üçüncü bölməsi məhkəmələrə müraciət edən şəxslərin təqdim etdiyi məlumata istinadən məhkəmə sistemləri üzərində monitorinqin və məhkəmə sisteminin işinin keyfiyyəti və səmərəliliyinin yüksəlməsi üçün qiymətləndirmə vasitələrinin əhəmiyyətinə həsr olunmuşdur. Bu bölmədə müəlliflər məhkəmələrin işinə münasibətdə vətəndaşların rəyinin vacibliyini vurğulayır, müvafiq ölkələrin hökumətlərinə məhkəmə sistemində islahatlar aparılması barədə ayrı-ayrı tədbirlərin seçilməsi haqda qərar verərkən məhkəməyə müraciət edən şəxslərin (vətəndaşların) rəyini nəzərə almağı tövsiyə edirlər. Qiymətləndirmə və monitorinq vasitələri, məhkəmə sisteminin səmərəliliyinin yüksəldilməsi məhkəmələrin işinin keyfiyyətini artırmağa xidmət edir və qeyd edilənlər vasitəsilə məhkəmə sistemi daxilində islahatlar siyasəti daha ardıcıl surətdə həyata keçirilə bilir.

Məhkəmələrə münasibətdə səmərəli qiymətləndirmə və monitorinq mexanizmini yaratmaq üçün üzv dövlətlərə bu kimi sistemin yaradılması işində beş mərhələdən keçmək tövsiyə olunur:

- hər hansı məhkəmə sistemi çərçivəsində xəbərdarlıq təqdim olunmadan məhkəmələrin işinə dair statistik məlumat toplanır, bu, məsuliyyəti və nəzarəti təmin edir;
- monitorinq və qiymətləndirmə sisteminin konstitusiya hüququna uyğun gəlməsini (hakimlərin müstəqilliyi prinsipinin icra olunmasını) təmin etmək üçün tənzimləmə çərçivəsi işlənib hazırlanır;

- institusional dəyişikliklər vasitəsilə məhkəmə sisteminə münasibətdə xüsusi qiymətləndirmə və monitorinq qurumlarının yaradılması, mövcud qurumların vəzifə və səlahiyyətlərində dəyişikliklər edilməsi nəzərdə tutulur;
- bilavasitə monitorinq və qiymətləndirmə yalnız monitorinq və qiymətləndirmə sisteminin yaradılması işindəki əvvəlki mərhələlər üzrə iş başa çatdıqdan sonra həyata keçirilir: əslində, səmərəli monitorinq və qiymətləndirmə sisteminin istifadəsi yalnız tənzimləyici çərçivə və müvafiq qurumlar müəyyən edildikdən sonra mümkündür;
- səmərəli monitorinq və qiymətləndirmə sisteminin yekun mərhələsi fəaliyyət və məsuliyyət mexanizmlərinin yaradılması, yəni monitorinqin nəticələrinin təcrübədə istifadəsi və bunun bəhrəsinin alınmasıdır.

Hesabatın bu bölməsində müəlliflər hökumət orqanlarından məhkəmə sisteminə ayrılan maliyyə dəstəyinin həcminin sistemin fəaliyyətinin nəticələrindən asılı olmaqla müəyyən olunması prinsipinin istifadə edilməsini, yəni dövlətin idarə olunması sistemi daxilində fərqli marketinq və xüsusi tənzimləmə prinsipinin istifadəsini təklif edirlər. Nəzərdə tutulur ki, məhkəmə işçisinə münasibətdə məsuliyyət mexanizmi əldə edilmiş nəticələrə istinadən tənzimlənir, bu isə, maliyyə dəstəyi artırılmadan, məhkəmənin imkanlarını (potensialını) artırmış olur. CEPEJ tərəfindən icrası tövsiyə olunan fəaliyyət siyasəti aşağıda qeyd edilmiş prinsiplərə əsaslanır:

- hər bir quruma münasibətdə dəqiq və ölçülə bilən nəticələrlə müşayiət olunan məqsədlər müəyyən olunur;
- hər bir quruma müəyyən edilmiş məqsədlərə nail olmaq üçün zəruri resurs və səlahiyyətlər təqdim olunur;
- faktiki və hədəf fəaliyyət göstəriciləri konkret müəyyən olunur;

- müəyyən edilmiş hədəflərə nail olmaq üçün aparılan işlərin nəticələri barədə məlumat müfəssəl surətdə, dəqiq və mütəmadi təqdim edilir;
- nəticələr barədə hesabat qanunverici orqana təqdim olunur və ictimaiyyətin diqqətinə çatdırılır;
- yüksək fəaliyyət göstəriciləri mükafatlandırılmalı, fəaliyyət göstəricilərinin kifayətedici səviyyədə olmaması cəzalandırılmalıdır.

Məhkəmə sistemi daxilində fəaliyyət nəticələrinə əsaslanan maliyyə dəstəyi sistemi yalnız məhkəmələrə münasibətdə deyil, həmçinin hakimlər üçün tətbiq olunmalıdır. Belə ki, hakimlərin işinin məqamları aşağıda sadalanan meyarlar üzrə qiymətləndirilməlidir:

- prosessual müddətlər;
- işlərin dövriyyəsi;
- səmərəlilik (daxil olan işlərin sayı, həll olunan işlərin sayı və/yaxud sərf olunan vaxtın müəyyən olunması);
- keyfiyyət.

### *6.1.2. "Vəkillik institutu üzrə Hesabat"*

Vəkillik institutu haqqında hesabat ədliyyə nazirlikləri, vəkillər kollegiyalarının, vətəndaş cəmiyyətlərinin nümayəndələri və Avropa Şurası məsləhətçilərindən (ekspertlərindən) ibarət qrup tərəfindən hazırlanmışdır. Bu hesabat Avropa Şurası ilə Avropa İttifaqı tərəfindən birlikdə həyata keçirilən "Şərq Tərəfdaşlığı Ölkələrində Məhkəmə-Hüquq İslahatlarının Genişləndirilməsi" Birgə Layihəsi çərçivəsində işlənib tərtib olunmuşdur. Bu proqramın məqsədi məlumatın və aparıcı təcrübə barədə mübadilə vasitəsilə Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova və Ukraynada məhkəmə sistemində aparılan islahatlar prosesinə dəstək təqdim etməkdən ibarətdir.

Hesabat 300-dən çox səhifədən və 5 fəsildən ibarətdir: vəkillər kollegiyasının rolu, vəkillik fəaliyyətini həyata keçirmək

üçün qaydalar, vəkillərin təlimi, intizam məsuliyyəti və davranış məcəlləsi. Hesabatın müəllifləri tərəfindən, əsasən, səmərəli iş qaydaları və region üzrə tendensiyaları aşkar etməyə imkan verən müqayisəli təhlil metodundan istifadə olunmuşdur; bu metod ilə bərabər hesabat üzrə iş zamanı qanunvericiliyin təhlili aparılmış, hər bir ölkədə mövcud olan təcrübə öyrənilmişdir.

*"Vəkillər kollegiyasının rolu"* adlanan birinci fəsildə Vəkillər Kollegiyasının rolunun ümumi qiymətləndirilməsi verilir, beynəlxalq hüquqa, təcrübəyə zidd ola bilən məqamların təhlili təqdim olunur, bu fəsil ayrı-ayrı dövlətlərdə qanunvericiliyin Avropa standartlarına daha da uyğunlaşdırılması məqsədilə yeni müddəaların işlənib hazırlanmasına dair tövsiyələrə həsr edilmişdir. Bu fəsildə müəlliflər tərəfindən qeyd edilir ki, Ukrayna istisna olmaqla, bütün qalan dövlətlərdə müstəqil peşəkar vəkillər kollegiyaları mövcuddur. Ukraynada hər hansı peşəkar vəkillər kollegiyası yoxdur, bu isə Avropa standartlarına uyğun deyil. Lakin vəkillər birlikləri və digər qurumlar (peşəkarlıq səviyyəsi və nizam-intizam komissiyaları, Ali Vəkillik Komissiyası) var ki, bunlar, bütövlükdə, peşəkar bir qurumun yerini verməsə də, peşəkar vəkillər kollegiyasına xas bəzi vəzifələri həyata keçirirlər. Nəticədə CEPEJ tərəfindən tövsiyə olunmuşdur ki, Ukraynada müstəqil, peşəkar vəkillər kollegiyası yaradılsın.

Ümumilikdə götürüldükdə, ayrı-ayrı dövlətlərin müvafiq qanunvericiliyi ilə vəkillik peşəsinin tənzimlənməsi qaydaları Avropa standartlarına uyğun gəlir. Buna baxmayaraq, qeyd edilmişdir ki, vəkillik peşəsinə aid olan qanunvericilik aktları təkmilləşdirilə bilər. Xüsusən CEPEJ-in mütəxəssislərinin fikrincə, Ermənistan və Azərbaycanda hazırkı qanunvericiliklə "qanunun aliliyinin genişləndirilməsi" vəkillər kollegiyasının vəzifələrindən biri kimi qeyd olunmalıdır. Azərbaycanda qüvvədə olan qanunvericilikdə vəkillər kollegiyasının idarəetmə orqanlarının yaradılmasına münasibətdə məhdudiyyətlər və qeyri-müəyyən meyarlar nəzərdə tutulmuşdur. Təklif edilir ki, bu

müddəalara yenidən baxılsın. Moldova və Gürcüstandakı qanunvericiliklə vəkillər kollegiyasının ümumi təsviri təqdim edilməmiş, baxmayaraq ki, bu, ölkə daxilində vəkillər kollegiyalarının rolu və vəzifələrini müəyyən etmək işində başlanğıc nöqtədir. Bu səbəbdən təklif edilir ki, həmin ölkələrin qanunvericiliyinə vəkillər kollegiyasının ümumi təsviri daxil edilsin, kollegiyanın fəaliyyətini əks etdirən müddəalar verilsin. Bundan başqa, məlum olur ki, Moldovada kollegiyada katibliyin iş potensialı, yəni işçi heyətinin üzvlərinin sayı kifayətedici deyil. Bu isə kollegiya tərəfindən aparılan fəaliyyətin səmərəliliyinə mənfi təsir göstərir. Nəhayət, CEPEJ məsləhətçilərini narahat edən daha bir məqam Moldova və Ermənistanda vəkillər kollegiyaları üçün ayrılan vəsaitlərin onların fəaliyyətinin bütün istiqamətlərini, ələlxüsus da kollegiyanın maraqlarının təmsil edilməsi və təşviq etdirilməsi üçün kifayət etməməsidir.

Bu fəsildə ayrıca olaraq müzakirə edilmiş daha bir məsələ vəkillik peşəsi daxilində vəkillər kollegiyasının tutduğu hökmran mövqedir. Burada qeyd edilmişdir ki, Ukraynada məhkəmədə nümayəndəlik də, hüquqi məsləhətçilik üzrə vəkillər inhisara malik deyillər. CEPEJ tövsiyə edir ki, qanunvericilikdə dəyişikliklər edilsin və cinayət işləri üzrə müdafiəni aparmaq hüququ yalnız vəkillərə mənsub olsun. Layihənin iştirakçıları olan heç bir ölkədə vəkillər hüquqi məsləhətçilik üzrə inhisara malik deyillər. Baxmayaraq ki, bəzi Avropa dövlətlərində qanunvericilik bu kimi xidmətlərin yalnız vəkillər tərəfindən göstərilməsini nəzərdə tutur, inhisarın olmaması hazırda Avropada qüvvədə olan standartlara zidd deyil. Azərbaycan, Gürcüstan və Moldovada cinayət işləri üzrə müdafiəni həyata keçirmək hüququna yalnız vəkillər sahibdir, Ermənistan və Ukraynada bu, qismən belədir. CEPEJ məsləhətçiləri qeyd etmişlər ki, bu iki ölkədə vəkil olmayan şəxs belə cinayət işi üzrə müdafiəni həyata keçirə bilər. Nəticədə bu iki ölkəyə dövlətin bu məsələ üzrə siyasətinə yenidən baxmaq tövsiyə edilmişdir.

Moldova istisna olmaqla, vəkillər mülki işlər üzrə təmsilçilikdə inhisara malik deyillər. Azərbaycan və Ukraynada mülki işlər üzrə nümayəndə kimi hər hansı şəxs çıxış edə bilər, digər ölkələrdə bu hüquq, müstəsna olaraq, vəkillərə mənsubdur – Ermənistana aid müəyyən istisnalarla və bəzi məhkəmələrə aid qismən inhisarçılıq şərti ilə (Gürcüstan). Lakin ən yüksək keyfiyyətli hüquqi yardımın təqdim edilməsi üçün ekspertlər təklif edir ki, vəkillərə mülki işlər üzrə də inhisar hüququnun verilməsi məsələsi nəzərdən keçirilsin.

*"Vəkillik fəaliyyətini həyata keçirmək üçün qaydalar"* adlanan ikinci fəsildə layihənin əhatə etdiyi dövlətlərə münasibətdə kifayət qədər müsbət rəylər yer alıb. Buna baxmayaraq, müəlliflər qeyd edir ki, Şərqi Avropanın bir çox dövlətində vəkillər kollegiyalarına aid olan qanunvericilik aktları və nizamnamələrdə inzibati xarakterli müddəalara həddindən çox yer verilib (Ermənistan, Moldova və Ukrayna). Bundan başqa, bir çox hallarda vəkillər kollegiyalarının nizamnamələri qanunvericilik müddəalarını təkrarlamaqla bərabər, bəzi qanunvericilik müddəaları ilə ziddiyyət təşkil edən şərtləri də əks etdirir (Moldova). Nəticədə CEPEJ tövsiyə edir ki, ölkələr vəkillər kollegiyalarının fəaliyyətini tənzimləyən mətnlərin qısaldılması və müddəaların nizamnamələrdə və qanunvericilik aktlarında təkrarlanması hallarının aradan qaldırılması mümkünlüyünü nəzərdən keçirsinlər. CEPEJ məsləhətçiləri məsləhət görmüşlər ki, Azərbaycan və Ukrayna lisenziyalaşdırma orqanlarının müstəqilliyinə aid qanunvericiliklərini təkmilləşdirsinlər və inhisarçılıq institutu geniş tətbiq edilsin. Gürcüstan qanunvericiliyində yuxarıda qeyd edilmiş problemlərin müasir və münasib həlli metodlarından istifadə olunub – bu ölkənin təcrübəsindən nümunə kimi regionun digər ölkələri də istifadə edə bilər.

*"Vəkillərin peşə təlimi"* adlanan üçüncü fəsildə peşə təliminin müxtəlif növləri barədə məlumat verilmişdir (ilkin tədrisdən başlayaraq peşə fəaliyyəti zamanı peşə təlimi proqramlarında iştiraka

qədər). İlkin tədrislə əlaqədar qeyd olunub ki, heç bir ölkədə qanunvericilikdə vəkil olmaq üçün tədrisin 1-ci və 2-ci səviyyələri arasında fərq qoyulmamışdır. Avropa İttifaqının Vəkillər Kollegiyası və Hüquqşünaslar Birliklərinin Şurası tərəfindən belə bir fərq müəyyən edilməmişdir. Bu səbəbdən, qeyd edilən məsələ ilə əlaqədar olaraq, ölkələrin qanunvericiliklərinin Avropa standartlarına cavab vermədiyini söyləmək mümkün deyil. Bununla bərabər, qeyd olunmuşdur ki, Avropa Peşə Səriştəsi Qaydalarına uyğun olaraq, "tam hüquqi təhsil" ifadəsi müvafiq şəxsin üzərinə hüquq üzrə bakalavr diplomuna sahib olmaq öhdəliyini qoyur.

İlkin tədrisə münasibətdə CEPEJ tərəfindən qeyd edilmişdir ki, bu, heç də bütün ölkələr üzrə şərt deyil, hətta kifayət qədər nadir bir haldır. Ermənistan və Azərbaycan vəkillər üçün ilkin tədris üzrə institusional proqramları tətbiq etmiş ilk Şərqi Avropa ölkələri olmuşlar. Bu səbəbdən qeyd edilən ölkələrin qanunvericiliyi müvafiq Avropa standartlarına da uyğundur (lakin müvafiq proqramların nə qədər səmərəli olduğunu hazırda müəyyən etmək mümkün deyil). Bu fakt səbəbindən CEPEJ ekspertləri tərəfindən bütün ölkələrə gələcək vəkillər üçün məcburi peşə təlimi şərtini müəyyən etməyi təklif edirlər və tövsiyə edirlər ki, belə proqramlar dəqiq müəyyən edilmiş məqsədlərə xidmət etsin və şəffaf seçim prosesi əsasında icra olunsun. Ekspertlər həmçinin təklif etmişlər ki, qeyd edilən tədris proqramının nəzəri hissəsi üçün kifayət qədər vaxt ayrılsın (300 saat vaxtın ayrılması münasib bir qayda hesab oluna bilər) və proqramın məzmunu vəkillik peşəsi üzrə səriştə və vərdişlərin inkişaf etdirilməsinə xidmət etsin. Nəzəri hissə başa çatdıqdan sonra azı iki ay ərzində hüquqi məsləhətlər mərkəzində məcburi təcrübə təlimi təşkil olunmalıdır. Təcrübə təliminin növü və müddətləri ölkədən-ölkəyə fərqlənə bilər, lakin demək olar ki, bütün dövlətlərdə məcburidir.

Peşə fəaliyyəti zamanı (işdən ayrılmadan) təşkil edilən təlimə gəldikdə, müəlliflər qeyd edirlər ki, demək olar, bütün dövlətlərdə bu proqramlar kənardan maliyyələşdirilir. Baxmayaraq ki, bəzi

hallarda təlim proqramı hər il hazırlanır, maliyyə vəsaitlərini təqdim edən şəxsin məqsədləri və prioritetlərindən asılı olaraq, bu proqramın tərkibində də dəyişikliklər baş verə bilər. Belə təlim proqramı mövcud vəsaitlərin məbləğini nəzərə almaqla təşkil edilir, təlim üzrə zərurətlərin müfəssəl təhlili əsasında deyil, ayrı-ayrı şəxslərin vəsait ayırmasından asılı olmaqla keçirilir. Bir çox hallarda belə təlim formal xarakter daşıyır və bunu, əsasən, peşə fəaliyyəti zamanı (işdən ayrılmadan) keçirilməli olan peşə təlimi kurslarında müəyyən sayda saat ərzində iştirakla bağlı şərt qoymuş dövlətlər barədə söyləmək mümkündür. Peşə fəaliyyəti zamanı təlimin stabilliyini və səmərəliliyini təmin etmək məqsədilə dövlətlər bu kimi tədbirlərin keçirilməsi xərclərini ödəmək üçün iştirak haqqı prinsipini tətbiq etməlidirlər. Bundan başqa, belə təlim kursları vəkillər üçün maraqlı olmalı, onların peşə fəaliyyəti zamanı rastlaşdıqları faktiki tələblərə cavab verməlidir. Bu səbəbdən ekspertlər təklif edirlər ki, hər il vəkillərin bu kimi tələblərinin müfəssəl təhlil və qiymətləndirilməsi aparılsın. Kredit/bal sistemi tətbiq etmiş ölkələrdə (misal üçün, Ukraynada artıq belə sistemdən istifadə olunur), həmin kreditlərin/balların hansı qaydada toplanmalı olmasını müəyyən etmək vacibdir.

*"Vəkillərin inzibati məsuliyyəti"* adlanan dördüncü fəsildə müəlliflər tərəfindən bəzi ölkələrin qanunvericiliyində hələ də etik davranış məcəlləsinin müddəalarının pozulması halında, avtomatik olaraq, intizam işinin başlanması və intizam cəzasının qoyulması mümkünlüyü qeyd edilmişdir. Ekspertlər həmin ölkələrə (Ermənistan, Gürcüstan və Moldova) məsləhət görürlər ki, belə müddəalar qanunvericilikdən çıxarılsın. Bir neçə dəfə CEPEJ qeyd etmişdir ki, intizam prosedurları müvafiq tərzdə tətbiq olunan qaydalara əsasən həyata keçirilməlidir (Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsinin müəyyən etdiyi prinsiplərə riayət etməklə, yəni barəsində intizam tədbiri icra edilən hüquqşünasa onun prosessual hüquqlarına əməl edilməsi imkanı təqdim edilməklə). CEPEJ təklif etmişdir ki, Azərbaycan

və Ukraynada vəkillərin hüquqları genişləndirilsin, Moldovada vəkillərin hüquqları daha dəqiq müəyyən olunsun. Şərqi Avropanın bəzi ölkələrində qanunvericilik vəkilin yol verdiyi pozuntu ilə onun üzərinə qoyula bilən cəza arasında asılılığı müəyyən etmir. Bundan başqa, Ukraynada intizam tədbirlərinin siyahısı çox qısadır və pozuntunun səviyyəsinə uyğun gələn bir cəza tədbirindən istifadə etmək imkanı vermir. Bu məsələ ilə əlaqədar Gürcüstan və Moldova tərəfindən qəbul edilmiş müddəalar və normativ hüquqi aktlar Şərqi Avropanın digər dövlətləri tərəfindən qəbul edilə bilən tədbirlərə münasibətdə yaxşı nümunə ola bilər.

*"Vəkillər kollegiyasının davranış məcəlləsi: təsiri, əhatə dairəsi və intizam məsuliyyətinin müəyyən olunması"* adlanan beşinci fəsildə müəlliflər tərəfindən qeyd edilmişdir ki, beş dövlətin hər birində vəkillərin fəaliyyəti ilə bağlı xüsusi davranış məcəlləsinin qəbul olunmasına ehtiyac var. Ermənistan, Azərbaycan, Gürcüstan və Moldovada belə bir məcəllə vəkillər kollegiyalarının ümumi yığıncağı tərəfindən qəbul edilmişdir. Ukrayna bu şərtə hələ də əməl etməmişdir. Bu səbəbdən potensial təşkilat, çətinliklərə varmadan vəkillər kollegiyası tərəfindən davranış məcəlləsinin qəbuluna aid qaydalarda dəyişiklik edilməlidir. Gələcək üçün təklif olunur ki, bütün ölkələrdə davranış məcəlləsinin qəbulu prosesi səsvermədən deyil, fəal müzakirələrdən başlansın. Bu məsləhət ümumi bir qeyd kimi təqdim edilir, yəni hansısa konkret ölkənin təcrübəsinə istinadən verilmir.

Davranış məcəlləsinin məzmununa gəldikdə, Gürcüstan və Moldovada vəkillər kollegiyalarının davranış məcəllələri münasib qaydada tarazlaşdırılmış sənədlərin nümunəsi kimi qəbul oluna bilər və həmin məcəllələr, ümumi prinsipləri müəyyən etməklə bərabər, müvafiq normaların sonrakı inkişafı və təfsiri üçün də kifayət qədər yer qoyur. Azərbaycan və Ukraynadan olan vəkillərə məsləhət bilinir ki, mövcud sənədlərin ya həddən artıq ikinci dərəcəli məsələləri müzakirə etməsi (Ukrayna), yaxud da həddən artıq qeyri-müəyyən və qeyri-konstruktiv olması

(Azərbaycan) səbəbindən yeni davranış məcəlləsinin müzakirəsi və yenidən işlənib hazırlanması imkanlarını nəzərdən keçirsinlər. CEPEJ vəkillər kollegiyaları və birliklərinə həm davranış məcəllələri, həm də onların əsaslandığı dəyərləri inkişaf etdirməyi və təkmilləşdirməyi məsləhət görür. Davranış məcəlləsinin müddəalarına daha qəti və dəqiq əməl edilməsinə nail olmaq üçün tövsiyə olunur ki, vətəndaşlar və potensial müştərilər arasında da davranış məcəlləsinin müddəaları barədə məlumatlandırma aparılsın, belə ki, müştərinin vəkilin vəzifələrinə aludə olması davranış məcəlləsində əksini tapmış qaydalara riayət etməyi təşviq etdirəcək, bunun vasitəsilə isə vəkillərin xidmətlərinin səviyyəsi yüksələcək.

### *6.1.3. "Məhkəmə təlimi üzrə Hesabat"*

Şərq Tərəfdaşlığı Birgə Proqramının əhatə etdiyi ölkələr üçün *"Məhkəmə təlimi üzrə Hesabat"* Avropa Şurasının məsləhətçiləri, habelə üzv dövlətlərin hüquq sahəsində tədris müəssisələrinin, ədliyyə nazirliklərinin və vətəndaş cəmiyyətinin nümayəndələri tərəfindən birlikdə hazırlanmışdır. Bu hesabat Avropa Şurası ilə Avropa İttifaqı tərəfindən birlikdə həyata keçirilən "Şərq Tərəfdaşlığı Ölkələrində Məhkəmə-Hüquq İslahatlarının Genişləndirilməsi" Birgə Layihəsi çərçivəsində işlənib tərtib olunmuşdur. Bu proqramın məqsədi məlumat və aparıcı təcrübə barədə mübadilə vasitəsilə Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova və Ukraynada məhkəmə sistemində aparılan islahatlar prosesinə dəstək təqdim etməkdən ibarətdir.

Bu hesabat Şərqi Avropa dövlətlərində əldə edilmiş nailiyyətləri ümumiləşdirmək, bu sahədə əldə edilmiş irəliləyişi qiymətləndirmək, məhkəmə sistemi daxilində peşə təliminin səviyyəsini Avropa Şurasının müəyyən etdiyi standartlar səviyyəsinə qədər yüksəltmək üçün zəruri olan tədbirləri müəyyən etmək məqsədilə hazırlanmışdır. Hesabatda müxtəlif mövzular, misal üçün, tədris

müəssisələrinin təşkili və məsuliyyəti, tədris müəssisələrinə qəbul, ilkin və peşə fəaliyyəti zamanı təqdim edilən kursların strukturu, metodologiyası və qiymətləndirilməsi barədə müzakirə verilmişdir.

Hesabatın *"Məhkəmə sistemində təlimin Avropa standartları"* adlanan birinci fəslində məhkəmə-hüquq sahəsində peşə təliminə dair məsələləri tənzimləyən Avropa Şurasının sənədləri barədə ümumi məlumat təqdim olunmuşdur. Xüsusən müəlliflər qeyd edirlər ki, bu sahədə ən vacib sənədlər aşağıda istinad olunanlardır: *"Hakimlərin müstəqilliyi, səmərəliliyi və rolu haqqında"* Rec(2010)12 saylı Tövsiyə; *"Hakimlərin statusu haqqında"* Avropa Xartiyası; Avropa Hakimlərinin Məşvərətçi Şurasının (CCJE) 1 (2001) saylı Rəyinin 10-13-cü bəndləri, 3 (2002) saylı Rəyi və *"Dövlət və Avropa səviyyəsində hakimlər üçün münasib ilkin və peşə fəaliyyəti zamanı təlim proqramları haqqında"* 4 saylı Rəyi[100] (bu rəy mövzuya dair əsas sənəddir və təlimə aid bütün məsələləri nəzərdən keçirir).

*"Məhkəmə sistemində təlim üçün məsul olan təşkilatlar"* adlı ikinci fəsildə, əsasən, məhkəmə sistemi üçün təlim proqramları təqdim edən müəssisələrin müstəqilliyi məsələsindən bəhs olunur ki, bu, məhkəmə sisteminə münasibətdə səmərəli təlim və təkrar təlim işinin qurulmasına münasibətdə əsas şərtdir. CEPEJ məsləhətçiləri tərəfindən bu kimi təşkilatlara münasibətdə icra və qanunverici orqanların təsirinin aradan qaldırılması zərurəti vurğulanıb və bu şərtə *"Hakimlərin statusu haqqında"* Avropa Xartiyası xidmət edir. Müəlliflər tərəfindən qeyd edilir ki, hazırda layihənin iştirakçısı olan hər bir ölkədə məhkəmə sistemi üçün təlimlə bağlı məsul olan xüsusi qurum var ki, bu da, özlüyündə, kifayət qədər böyük nailiyyətdir. Bununla bərabər, həmin təşkilatların statusu və fəaliyyətini tənzimləyən qanunvericilik

[100] Daha ətraflı məlumat üçün bax: Azərbaycan Respublikası Ədliyyə Nazirinin müavini Azər Cəfərovun *"Hakimlərin tədrisi ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsinin üsullarından biri kimi"* adlanan Beynəlxalq Konfransda çıxışı (Bakı, 29-30 sentyabr 2014-cü il).

aktlarının təhlilindən məlum olur ki, bəzi ölkələrdə (Azərbaycan, Ermənistan və Ukrayna) həmin təşkilatların operativ idarəçilik və çalışma məsələlərinə münasibətdə kifayət qədər müstəqillik səviyyəsi təmin olunmamışdır. Eyni zamanda, bir sıra ölkələrdə (Gürcüstan, Moldova) bu kateqoriyaya aid tədris müəssisələri tam müstəqillik qazanmışlar və bu regionda bu sahədə əldə edilmiş nailiyyətlərlə bağlı digər ölkələr üçün nümunə ola bilərlər.

Bir qayda olaraq, bu kimi tədris müəssisələrinin əksər hissəsi yalnız hakimləri və hakimliyə namizədləri hazırlayır; hazırda isə onlar getdikcə məhkəmə sisteminin digər iştirakçıları üçün də təlim proqramları təqdim edirlər. Bir müəssisə daxilində məhkəmə sisteminin bütün iştirakçıları üçün təlim kurslarının təşkili prinsipinə keçid, bir sıra ölkələr üçün, onların ölçüləri və məhdud maliyyə resurslarını nəzərə alsaq, ağlabatan görünür. Maliyyə amilindən başqa, bir müəssisə daxilində müxtəlif tədris proseslərinin birləşdirilməsi səylərin əlaqələndirilməsi sayəsində əlavə optimallaşdırmaya da imkanlar açır. Bu məqamla bağlı müəlliflər təklif edirlər ki, ayrı-ayrı ixtisaslar üzrə tam təlim proqramları təqdim edən vahid bir müəssisənin yaradılması ilə bərabər, eyni müəssisə daxilində məhkəmə sisteminin bütün iştirakçıları üçün vahid tədris və təlim proqramından da istifadə olunsun.

Bununla bərabər, qeyd edilir ki, vahid tədris və təlim prosesindən istifadə edən müəssisələrin yaradılmasının verdiyi fayda və təmin etdiyi səmərəlilik həmin təşkilatları onların əsas məqsədindən – peşəkar hüquqi tədrisdən yayındırmamalıdır. Moldova nümunə kimi götürülməklə, bu məsələ təfərrüatları ilə araşdırılır, lakin digər dövlətlərə də bu məqamı nəzərə almaq tövsiyə edilir.

CEPEJ-in fikrinə əsasən, xüsusi diqqət tələb edən digər bir məqam tədris müəssisələri üçün ayrılan maliyyə resurslarına bağlıdır. Bu kimi müəssisələrin kənar donorlardan asılılığının qarşısını almaq üçün ölkələr tərəfindən kifayət qədər büdcə vəsaitləri ayrılmalı, bunula tədris prosesində əsas rolun kənar donorlara mənsub olması durumu aradan qaldırılmalıdır. Hö-

kumət tərəfindən maliyyə dəstəyinin təqdim edilməsinə zəmanət qeyd edilən müəssisələr tərəfindən maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün xidmətin hədəf kateqoriyasına aid olmayan şəxslərə (misal üçün, hakim olmayan hüquqşünaslara) "satılması" riskini azaldır.

*"Peşə təliminə qəbul"* adlanan üçüncü fəsildə qeyd edilir ki, son illər ərzində Şərq Tərəfdaşlığı ölkələri tərəfindən məhkəmə sistemi üçün nəzərdə tutulan peşə təliminə qəbula namizədlərin müəyyən olunması işində irəliləyişə nail olmaq üçün müəyyən tədbirlər həyata keçirilmişdir. Hakimlərin peşə səriştəsini yüksəltmək istiqamətində müsbət addım müvafiq qanunvericilik aktlarında edilən əlavə və dəyişikliklərdir. Namizədlərin seçimi üçün məsul olan qurumların hüquqi statusu və tərkibi Avropa standartlarına uyğunlaşdırılmışdır. Bəzi ölkələrdə (Ermənistan, Ukrayna) yeni qəbul edilmiş qanunvericilik aktlarına dair dəyişiklik və sadələşdirmələrə ehtiyac var. Bir tərəfdən bu qurumların üzərinə böyük həcmdə sırf texniki iş düşür (həddən artıq yüksək tənzimləmə), digər tərəfdən isə, qeyd edilən qurumlar ən mühüm məsələlər üzrə ən sadə işlərlə məşğul olmaq imkanından məhrum olurlar. Şərqi Avropanın əksər ölkələrində peşə təliminə namizəd üçün nəzərdə tutulan proqrama qəbula dair məlumatın məzmun səviyyəsi aşağıdır. Elanlarda aşağıda qeyd edilən məqamlar əksini tapmır:

- boş iş yerlərinin sayı (Ermənistan, Azərbaycan, Moldova, Ukrayna);
- seçim qaydası (Ermənistan);
- imtahan nəticələrini qiymətləndirmək üçün istifadə edilən metodlar (Moldova);
- qəbul komissiyasının tərkibi və işinə dair qaydalar;
- imtahan testlərinin müəllifləri və İmtahan Şurasının üzvləri (Azərbaycan, Ukrayna);
- seçim qaydalarına əsasən qəbul edilmiş qərarlardan şikayət prosedurunun şərtləri və qaydaları (Ukrayna).

Ukraynada seçimlə bağlı istifadə edilən sosial yoxlama proseduru məlumatın şəffaf və ədalətli olmasını təmin etmək əvəzinə bunları sual altına qoyur. Layihənin iştirakçısı olan bütün ölkələrdə test imtahanı yazılı surətdə keçirilir, əksəriyyətində imtahan zamanı cavablar şifahi təqdim edilir. Məsləhət görülür ki, əsas diqqət qiymətləndirmə prosesinə verilsin, əsasən də subyektivliyin qarşısını almaq məqsədilə şifahi imtahanlara münasibətdə.

*"İlkin təlim"* adlanan dördüncü fəsildə qeyd olunur ki, layihədə iştirak edən bütün ölkələr ilkin təlimin prosessual və institusional tənzimlənməsi məqsədilə tədbirlər həyata keçirmişlər. Bura bütün ölkələrdə məcburi olan nəzəri mühazirələr və təcrübə təlimi daxildir (Ukrayna istisna olmaqla; Ukraynada müvafiq qaydalar qəbul edilib, lakin hələ ki tətbiq olunmur). Avropa standartları ilə müqayisədə ən böyük çatışmazlıq ilkin təlim proqramlarının müddəti və məzmununa bağlıdır. Təcrübə təlimini formal bir tədbirə çevirməmək üçün, məsləhətdir ki, təlimin müddəti və məzmunu optimallaşdırılsın. İlkin təlim proqramının müddəti sürəkli ola bilər (bir il, bundan azı altı ay nəzəri mühazirələr və təxminən altı ay təcrübə təlimi üçün). CEPEJ ekspertlərinə təqdim edilmiş təlim proqramlarına əsaslanaraq belə qənaətə gəlmək olar ki, əksər dövlətlərdə ilkin təlim proqramları əsasən nəzəri biliklərin təkmilləşdirilməsinə xidmət edir. CEPEJ məsləhət bilir ki, peşə təlimi proqramları işlənib hazırlanarkən müvafiq normativ hüquqi aktlarda nəzəri hissə ilə təcrübə hissəsi arasında optimal nisbət qorunub saxlanılsın. Təlimin məcburi hissəsi Avropa İnsan Hüquqları Konvensiyasına aid məsələləri də əhatə etməlidir.

CEPEJ həmçinin zəruri hüquqi vərdişlərə deyil, sadəcə olaraq biliklərin təqdim edilməsinə xidmət edən metodologiyanı tənqid etmişdir. Bu fakt üzündən ekspertlər tövsiyə edir ki, bütün müəllimlər/təlimçilər/mühazirəçilər üçün məcburi təlim təşkil olunmalıdır: həmin təlim qeyd edilən keyfiyyətlərin aşılanmasına xidmət etməlidir. Buna əlavə olaraq, müəllimləri təyin edərkən normativ hüquqi aktlara əsasən tədris müəssisəsi və onun əmək-

daşları ilə bağlı əvvəldən müəyyən olunmuş şərtlər nəzərə alınmalıdır.

Moldova istisna olmaqla, layihənin aid olduğu bütün ölkələrdə hakimlər və prokurorlar üçün təlim ayrıca təşkil olunur. CEPEJ təklif edir ki, təlim birlikdə keçirilsin. Hakimlər və prokurorlar arasında qarşılıqlı anlaşmanı yaxşılaşdırmaq məqsədilə təklif edilir ki, birgə təlim sahəsində müxtəlif formalardan tədricən istifadə edilsin.

*"Peşə fəaliyyəti zamanı təlim"* adlanan beşinci fəsildə müəlliflər qeyd edirlər ki, Gürcüstan istisna olmaqla, layihənin aid olduğu bütün ölkələrdə peşə fəaliyyəti zamanı təlim məcburidir. Beş ölkənin təlim mövzularının seçiminə münasibətdə istifadə etdikləri yanaşmalar kifayət qədər fərqlidir. Bəzi ölkələrdə hakimlər özləri təlim mövzusunu seçə bilər (Azərbaycan, Moldova, Gürcüstan və Ukrayna); digər ölkələrdə, mövzular/məcburi saatların yalnız müəyyən bir hissəsini seçmək imkanı verilir (Ermənistan), başqa yerlərdə isə bu hüquq ümumiyyətlə verilmir (Moldova). Bundan başqa, bəzi ölkələrdə ilk dəfə hakim vəzifəsinə və ömürlük hakim vəzifəsinə təyin edilənlər üçün məcburi təlim kursları nəzərdə tutulur (Azərbaycan, Ukrayna). Bütün yanaşmalar Avropada qəbul edilmiş standart və təcrübəyə uyğun gəlir. Təlimin səmərəliliyi və keyfiyyətini yüksəltmək məqsədilə CEPEJ ekspertləri aşağıda qeyd olunan təkliflərlə çıxış etmişlər:

- təlim proqramları hazırlanarkən tədris sahəsində zərurətlərin müfəssəl təhlilinin tətbiqi, müxtəlif instansiyaları təmsil edən məhkəmələrin hakimlərinin rəyinin, digər məlumatın, o cümlədən ictimai rəyin, ayrı-ayrı ölkələr üzrə hesabatların, analitik yazıların, tədqiqatların və s. istifadə edilməsi
- peşə inkişafının keyfiyyətini yüksəltmək məqsədilə təlim səviyyəsini yüksəltmək və gələcək tələbatını müəyyən etmək üçün davamlı əsasda qiymətləndirmə aparılması tövsiyə olunur.

*"İnsan hüquqları üzrə təlim"* adlanan altıncı fəsildə müəlliflər qeyd edir ki, bütün ölkələrdə ilkin təlim proqramlarına insan hüquqları üzrə xüsusi kurs da daxildir. Bu səbəbdən, demək olar ki, təlim proqramları Avropada mövcud olan standart və ən mütərəqqi təcrübəyə uyğundur.

Bununla bərabər, insan hüquqları mövzusu peşə fəaliyyəti zamanı təklif edilən təlim proqramlarında strukturlu bir tərzdə təqdim edilməyib. Təlim, əsasən, nəzəri xarakter daşıyır və xüsusən də Avropa Konvensiyasının ayrı-ayrı maddələri və BMT-nin insan hüquqlarının müdafiəsi mexanizmlərinə həsr edilir. Daxildə hüquqi müdafiə vasitələrinə istinadlara çox az-az rast gəlinir. CEPEJ ekspertləri təklif edir ki, təlimin diqqəti Avropa Konvensiyası ilə əlaqədar olan hüquqi qaydalar əsasında insan hüquqları ilə təcrübəyə bağlı məqamlara yönəlsin.

Avropa Konvensiyasına aid ayrı-ayrı məsələlər müxtəlif tədris material və proqramlarına daxil edilə bilər. İnsan hüquqları üzrə təlimin məqsədləri insan hüquqlarının müdafiəsinə xidmət edən sistemin əsas məqamları barədə hakimlərə məlumat təqdim etməkdən ibarətdir. Bu məqsədə nail olmağın qəbul edilmiş üsullarından biri digər hakimlərə məlumat təqdim və məsləhət təklif edə bilən hakimlər dairəsini müəyyən etməkdən ibarətdir. Bu faktı nəzərə alaraq CEPEJ ekspertləri məsləhət görürlər ki, təlim Avropa Məhkəməsinin qərarları ilə bilavasitə tanış olan peşəkarlar, yəni məhkəmə daxilində xüsusi təlim keçmiş hakim və prokurorlar, habelə insan hüquqlarının müdafiəsi sahəsini təmsil edən digər peşəkarlar (alimlər, qeyri-hökumət təşkilatlarının nümayəndələri və d.) tərəfindən təşkil olunsun. Misal üçün, Azərbaycanda Avropa İnsan Haqları Məhkəməsinə təqdim edilən ərizələrin sayını azaltmaq məqsədilə müxtəlif qabaqlayıcı tədbirlərdən istifadə olunur, məsələn, hakimlər üçün təlim və seminarlar təşkil edilir, Avropa İnsan Hüquqları Konvensiyasının müddəaları və Avropa Məhkəməsinin qərarları yerli məhkəmələrdə öyrənilir, insan hüquq və azadlıqlarının

müdafiəsini genişləndirmək məqsədilə milli tədbirlər planı həyata keçirilir, habelə Avropa Məhkəməsinin Avropa İnsan Hüquqları Konvensiyasının müddəalarının pozulması haqqında bütün qərarları geniş təhlil olunur[101].

[101] Daha ətraflı məlumat üçün bax: Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin 24 oktyabr 2014-cü il tarixdə Avropa İnsan Hüquqları Məhkəməsinin Prezidentinin iştirakı ilə keçirilmiş *"Avropa İnsan Hüquqları Konvensiyasının müddəalarının tətbiqi işində milli hakimlərin rolu"* adlı Beynəlxalq Konfransdakı çıxışı; 2014-cü ilin məhkəmə ili elan edilməsi münasibəti ilə 31 yanvar 2014-cü il tarixdə keçirilmiş və *"Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icrası: məhkəmələrin birgə məsuliyyəti"* adlanan seminarda Avropa İnsan Hüquqları Məhkəməsinin dəvəti ilə çıxışı (http://www.1news.az/society/20141024115442087.html); Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun 2014-cü ildə Avropa Şurası Parlament Assambleyası Monitorinq Komitəsinin müxbirləri ilə görüş zamanı çıxışı (http://www.br.az/politics/20120614124116728.html).

## *6.2. Üzv dövlətlərlə sahəvi əməkdaşlığın xüsusiyyətləri (Azərbaycan Respublikasının misalında)*

Əvvəlki fəsillərdə müzakirə edilmiş sənədlərə əlavə olaraq Komissiya tərəfindən ayrı-ayrı Avropa dövlətlərinin məhkəmə sisteminin müxtəlif sahələrinə dair hesabatlar da tərtib olunur. CEPEJ tərəfindən Avropa Şurasının bir sıra üzv dövlətləri ilə 12 sahəvi əməkdaşlıq layihəsi həyata keçirilmiş və bu dövlətlər sırasına Azərbaycan, Ermənistan, Bolqarıstan, Xorvatiya, Fransa, Sloveniya, Malta, Hollandiya, Portuqaliya, Rusiya Federasiyası, İsveçrə və İngiltərə daxildir[102]. Qeyd edilən xüsusi əməkdaşlıq layihələrindən biri *"Azərbaycanda hakimlərin seçilməsinin siyasəti və qaydaları"* olmuşdur[103].

CEPEJ-in 16-cı plenar iclasında Azərbaycanda hakimlərin seçilməsi və təyin olunmasına aid qaydalar və prosedurların tədqiqatı və təhlilini aparmaq barədə qərar qəbul olunmuşdur. CEPEJ Bürosunun qərarına əsasən bu layihə 2011-ci ilin sentyabr ayında qeyd edilən sahədə ixtisaslaşan ekspertlər – Norveç Məhkəmələr İdarəsinin Beynəlxalq Katibliyinin rəisi, CEPEJ-in Büro üzvü Audun Berq (Norveç), Xorvatiyanın Ədliyyə Akademiyasının direktoru və CEPEJ-in Lissabon Şəbəkəsinin nü-

---

[102] *"Ermənistanda məhkəmə sisteminin təşkili haqqında"* CEPEJ-in Hesabatı, Strasburq, 28 may 2009-cu il, CEPEJ-COOP(2009)3; *"Hollandiyada məhkəmələrin ərazi aidiyyəti üzrə"* CEPEJ-in Hesabatı, Strasburq, 5 dekabr 2003-cü il, CEPEJ(2003)18(D3); *"Portuqaliyada məhkəmə fəaliyyətində informasiya və kommunikasiya texnologiyalarının tətbiqi və istifadəsi haqqında"* CEPEJ-in Hesabatı, Strasburq, 11 iyun 2009-cu il, CEPEJ-COOP (2009)4; *"Rusiya Federasiyasında dövlətə və dövlət qurumlarına qarşı mülki işlər üzrə yerli məhkəmələr tərəfindən çıxarılmış qərarların icrası işindəki problemlərin araşdırılması haqqında"* CEPEJ-in Hesabatı, Strasburq, 9 dekabr 2005-ci il, CEPEJ(2005)8; *"Azərbaycanda məhkəmə sisteminə dair statistik məlumatların toplanması və işlənilməsi haqqında"* CEPEJ-in Hesabatı və s.

[103] CEPEJ-in *"Azərbaycanda hakimlərin seçilməsinin siyasət və qaydalarının qiymətləndirilməsi Hesabatı",* Strasburq, 10 yanvar 2012-ci il, CEPEJ-COOP(2011)1.

mayəndəsi İvana Qoraniç (Xorvatiya)[104], habelə Avropa Şurasının xüsusi nümayəndəsi tərəfindən həyata keçirilmişdir.

Təhlil hakimlərin seçilməsi qaydalarını tənzimləyən normativ hüquqi aktlar, habelə ekspertlərin Azərbaycana etdikləri səfər zamanı Məhkəmə-Hüquq Şurasının üzvləri, Hakimlərin Seçki Komitəsinin üzvləri, Ali Məhkəmə Aparatının rəhbəri, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvləri, Ədliyyə Nazirliyinin nümayəndələri, ATƏT-in nümayəndələri və Avropa Şurasının Bakı Nümayəndəliyinin rəhbəri ilə keçirilmiş görüşlərdən əldə olunmuş məlumat əsasında aparılmışdır. Buna əlavə olaraq, ekspertlər şəxsən test imtahanının keçirilməsi prosesini müşahidə etmişlər.

Aparılmış işlərin nəticəsi olaraq CEPEJ nümayəndələri tərəfindən müvafiq hesabat tərtib olunmuş və həmin hesabatda xüsusən qeyd edilmişdir ki, son 10 il ərzində Azərbaycan məhkəmə sisteminin vəziyyətini yaxşılaşdırmaq və özünü tənzimləmə strukturu və tədbirlərini Avropa Şurasının standartları səviyyəsinə qaldırmaq məqsədilə bir sıra irihəcmli islahatlar həyata keçirilmişdir.

Müəlliflər tərəfindən həmçinin qeyd olunmuşdur ki, Azərbaycanda Konstitusiya Məhkəməsi, Ali Məhkəmə və apellyasiya məhkəmələrinin hakimləri Milli Məclis tərəfindən, digər məhkəmələrin hakimləri isə Məhkəmə-Hüquq Şurasının təqdimatı əsasında Prezident tərəfindən təyin olunur. Hakimlərin təyin olunması prosesinin əsas iştirakçısı Məhkəmə-Hüquq Şurasıdır. Şura, məhkəmə hakimiyyətinin özünü idarə edən qurumu olmaqla, səlahiyyəti çərçivəsində məhkəmə sisteminin müstəqilliyi, təşkili və fəaliyyətini təmin edir; namizədlərin seçilməsi üçün məsuliyyət

[104] Lissabon Şəbəkəsi Avropanın tədris müəssisələrinin bir şəbəkəsi olaraq 1995-ci ildə təsis edilmiş və təcrübə/məlumat mübadiləsi aparmaq, qeyd edilən müəssisələrin daha da inkişaf etməsini təmin etmək məqsədilə hüquq sahəsində təlim və tədris xidmətlərini təqdim edir. 2011-ci ildən Lissabon Şəbəkəsi Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının tərkibinə keçirilərək onun işində fəal iştirak edir.

daşıyır; hakimlərin işini qiymətləndirir və onların bir vəzifədən digərinə keçirilməsi barədə qərarlar verir; zərurət yarandıqda, hakimlərə qarşı intizam tədbirləri tətbiq edir; hakimlərə və məhkəmə sisteminə aid digər məsələləri həll edir, ədliyyə sistemi daxilində muxtariyyət və özünüidarə prinsipləri əsasında digər vəzifələri həyata keçirir[105]. Hakimlərin Seçki Komitəsi (HSK) Məhkəmə-Hüquq Şurası tərəfindən yaradılmış və namizədlərin seçilməsi və onların təyin edilməsinə dair təqdimatların hazırlanması işində fəal rol oynayır.

Namizədlərin seçilməsi və müvafiq qaydada onların təyin olunması işi bir neçə mərhələdə aparılır: test keçirilməsi, imtahanlar (yazılı və şifahi); Ədliyyə Akademiyasında təlim (nəzəriyyə kursu və məhkəmələrdə təcrübə), təlim başa çatdıqdan sonra nəticələri üzrə şifahi və yazılı imtahanlar, bundan sonra – HSK və MHŞ üzvləri ilə müsahibə, müsbət qərar qəbul edildikdə, – seçilmiş şəxsin müvafiq məhkəmədə hakim vəzifəsinə təyin edilməsinə dair təklif Azərbaycan Respublikasının Prezidentinə təqdim olunur.

Bu prosedurla müfəssəl qaydada tanış olduqdan sonra CEPEJ ekspertləri belə qənaətə gəlmişlər ki, Azərbaycanda qüvvədə olan prosedur onun ədalətli seçim meyarlarına əsaslanması, şəffaf və kifayət qədər səmərəli olması şərtləri ilə Avropada qəbul edilmiş standart və tələblərə cavab verir. Müəlliflər tərəfindən həmçinin qeyd edilmişdir ki, hakimlərin təyin edilməsi işinin iştirakçıları olan qurumlar – Hakimlərin Seçki Komitəsi və Məhkəmə-Hüquq Şurası da Avropa standartlarına cavab verir.

Məhkəmə-hüquq sahəsində islahatları hazırlayarkən Azərbaycan inkişaf etmiş ölkələrin təcrübəsi, ümumbəşəri demokratik prinsipləri, habelə Azərbaycanda dövlətçilik tarixi və adət-ənənələrini nəzərə almışdır. Bunların nəticəsi olaraq hazırda Məhkəmə-Hüquq Şurası Azərbaycanda məhkəmə sisteminin inkişafı işində mühüm rol oynayır və özünün fəaliyyətini, ilk

105 http://jlc.gov.az/e_mhs.php

növbədə müstəqillik, qanunilik, şəffaflıq, səmərəlilik, idarəçilik, qərəzsizlik, obyektivlik əsasında qurmuş, bütün qeyd edilənlərə görə cəmiyyətdə böyük hörmət qazanmışdır[106].

Hakimlərin seçimi, onların təyin edilməsi və fəaliyyətlərinin qiymətləndirilməsinin ədalət mühakiməsinin səmərəliliyini təşviq etdirmək işində əsas amillər sırasına daxil olduğunu, məhkəmə sisteminin təşkilati müstəqilliyi, habelə hakimlərin qərəzsizliyi və şəxsi müstəqilliklərini təmin etdiyini nəzərə alaraq, Məhkəmə-Hüquq Şurasının yaradılması və fəaliyyəti çox böyük əhəmiyyətə malikdir[107].

Hesabatın sonuncu hissəsində müəlliflər bəzi rəylərini və bir sıra təkliflərini oxuculara təqdim etmişlər. Xüsusən qeyd edilir ki, *"Məhkəmələr və hakimlər haqqında"* qanun[108] və *"Məhkəmə-Hüquq Şurası haqqında"* qanuna[109] əsasən tənzimlənən və ədalət mühakiməsinin səmərəliliyini artırmaq məqsədilə Avropa Şurası ilə məhsuldar əməkdaşlıq çərçivəsində işlənib hazırlanmış Azərbaycanda hakimlərin təyin edilməsinə dair yeni seçim proseduru qanunun aliliyi siyasətinin əsas prinsiplərinə cavab verir – hakimlərin təyin edilməsi proseduru kifayət qədər şəffafdır, müvafiq qaydada idarə olunan, təminatlı demokratik nəzarət altında həyata keçirilir; qeyd edilənlərə əlavə olaraq, seçim sistemi hakimlərin müstəqilliyi prinsipinə də uyğundur, namizədlərin se-

[106] Daha ətraflı məlumat üçün bax: Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərovun 26 may 2015-ci il tarixdə keçirilmiş, Məhkəmə-Hüquq Şurasının yaradılmasının 10-cu ildönümünə həsr edilmiş *"Məhkəmə hakimiyyətinin demokratik cəmiyyətdəki rolu"* adlı Beynəlxalq Konfransdakı çıxışı.

[107] Daha ətraflı məlumat üçün bax: Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin 26 may 2015-ci il tarixdə keçirilmiş, Məhkəmə-Hüquq Şurasının yaradılmasının 10-cu ildönümünə həsr edilmiş *"Məhkəmə hakimiyyətinin demokratik cəmiyyətdəki rolu"* adlı Beynəlxalq Konfransdakı çıxışı.

[108] *"Məhkəmələr və hakimlər haqqında"* №310-IG saylı 10 iyul 1997-ci il tarixli Azərbaycan Respublikasının Qanunu (21 dekabr 2012-ci il üçün edilmiş əlavə və dəyişikliklərlə) // E-qanun.az, 1997, № 5, M. 413.

[109] *"Məhkəmə-Hüquq Şurası haqqında"* №818-IIG saylı 28 dekabr 2004-cü il tarixli Azərbaycan Respublikasının Qanunu (22 oktyabr 2013-cü il üçün edilmiş əlavə və dəyişikliklərlə) // "Azərbaycan" qəzeti, 1 fevral 2005-ci il, № 23.

çim qaydaları kifayət dərəcədə müvafiq şəxslərin peşəkar və fərdi xüsusiyyətlərini nəzərə alır.

Baxmayaraq ki, faktiki olaraq hakimlər Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin olunur, hakimlərin təyin edilməsinə dair təklif müxtəlif müstəqil dövlət qurumları – Məhkəmə-Hüquq Şurası və Hakimlərin Seçki Komitəsi tərəfindən təqdim edilir. Bu strukturların tərkibi və onların üzvlərinin seçilməsi Avropa və beynəlxalq standartlara cavab verir. Hakimlərin Seçki Komitəsi özünün fəaliyyətini şəffaf tərzdə qurmaqla Avropa ekspertlərində müsbət təəssürat yaratmışdır.

Bunlara əlavə olaraq, namizədlərin biliklərinin bir neçə səviyyədən ibarət proses çərçivəsində yoxlanılması imkan verir ki, hakim vəzifəsinə yalnız ədalət mühakiməsinin səmərəli tərzdə həyata keçirilməsinə xidmət etmək üçün bilik və bacarıqlara malik namizədlər seçimdən keçsin.

Ümumilikdə Azərbaycanda tətbiq olunan hakimlərin seçim sisteminin ətraflı təhlili əsasında CEPEJ-in monitorinq qrupu bu prosedurun müsbət təcrübə kimi digər Avropa dövlətlərində istifadə edilməsi üçün tövsiyə olunması qənaətinə gəlmişdir.

Azərbaycanda hakimlərin seçim proseduru barədə müsbət rəylə çıxış edən təşkilat yalnız Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) olmamışdır. Avropa İttifaqının birgə həyata keçirdiyi "Şərq Tərəfdaşlığı Ölkələrində Məhkəmə-Hüquq İslahatlarının Genişləndirilməsi" layihəsi üzrə hesabatda Azərbaycanda hakim vəzifəsinə namizədlərin seçim sistemi *(modus operandi)* Avropada bu sahədə istifadə edilən ən mükəmməl təcrübə kimi qeyd edilmişdir.

Azərbaycanın hakimlərin seçilməsi və təyin olunması sisteminin müsbət qiymətləndirilməsi ilə yanaşı, ekspertlər mövcud sistemin daha da təkmilləşdirilməsi üçün bir neçə təkliflə çıxış etmişlər. Ümumilikdə bu təkliflər hakimlərin müstəqilliyinin daha da gücləndirilməsi, məhkəmə hakimiyyətinin şəffaflığının, habelə ictimaiyyətin və hakim vəzifəsinə namizədlərin ona inamının daha da artırılmasına xidmət etməli olan tədbirlər barədədir.

İlk növbədə qeyd etmək lazımdır ki, ekspertlərin fikrincə, Məhkəmə-Hüquq Şurası hər bir hakimin fəaliyyətinin qiymətləndirilməsi və onların irəli çəkilməsi meyarlarını işləyib hazır etməlidir. Bu meyarlar normativ sənəddə öz əksini tapmalıdır və bütün aidiyyəti şəxslər həmin sənədlə tanış olmaq imkanına malik olmalıdırlar.

İkincisi, vakant hakim vəzifələri barədə təfərrüatlı məlumatın ictimaiyyətin diqqətinə çatdırılması zəruridir. Bu məlumatda vakant iş yerlərinin sayı, həmin iş yerinin hansı məhkəmədə olması, məhkəmənin harada yerləşməsi və s. məlumatlar yer almalıdır. Bu, hakimlərin seçilməsi işinin şəffaflığını artıracaq, onların müstəqilliyinə zəmanət verəcək və nəticə etibarilə vətəndaşların məhkəmə hakimiyyətinə etimadını yüksəldəcəkdir.

Üçüncüsü, hakimlərə tətbiq edilən beş illik sınaq müddəti müddəasına yenidən baxılmalıdır, həmin müddət ümumiyyətlə ləğv olunmasa da, qısaldılmalıdır. Bu məsələ ilə bağlı qeyd etmək lazımdır ki, verilən təklif Azərbaycan hökuməti tərəfindən artıq nəzərə alınmış və sınaq müddəti üç ilə qədər azaldılmışdır.

Yuxarıda qeyd edildiyi kimi, son illər ərzində Azərbaycanda məhkəmə infrastrukturunun müasirləşdirilməsi, məhkəmələrin, hakimlərin və məhkəmə işçilərinin sayının artırılması, ədalət mühakiməsinə müraciət etmək imkanlarının asanlaşdırılması, elektron məhkəmə sisteminin yaradılması və məhkəmə sisteminin idarə olunması işində informasiya texnologiyalarının tətbiqi məqsədilə bir sıra genişmiqyaslı məhkəmə-hüquq islahatları həyata keçirilmişdir[110]. 2012-ci ilin dekabr ayının 7-8-də CEPEJ-in plenar iclasında 47 üzv dövlətin nümayəndələrinə Azərbaycanda qısa müddət ərzində bu sahədə görülmüş işlər barədə geniş təqdimat keçirilmişdir. Avropalı ekspertlər tərəfin-

[110] Daha ətraflı məlumat üçün bax: Azərbaycan Respublikasının Ədliyyə Naziri Fikrət Məmmədovun CEPEJ-in 23-cü plenar iclasının Açılış Mərasimində çıxışı (Bakı, 3-4 iyul 2014-cü il); Müsahibəsi: *"Azərbaycanın məhkəmə islahatları artıq beynəlxalq aləmdə tanın*ır, *lakin biz bununla kifayətlənmir, bu istiqamətdəki işimizi davam etdiririk*" (http://justice.gov.az/dec_top1.php).

dən Azərbaycan hökumətinin bu sahədə gördüyü işlər yüksək qiymətləndirmiş və onlar belə qənaətə gəlmişlər ki, ədalət mühakiməsi sistemində səmərəli islahatların aparılması, məhkəmələrin unikal infrastrukturunun yaradılması, ən müasir informasiya texnologiyalarının və yeniliklərin tətbiqi sahəsində Azərbaycan bir çox Avropa ölkələrinə nümunə ola bilər.

Qeyd etmək lazımdır ki, Avropa Şurasının üzv dövlətləri arasında ilk dəfə olaraq məhz Azərbaycanda Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası tərəfindən mütəmadi olaraq tərtib edilən *"Avropa Məhkəmə Sistemlərinin qiymətləndirilməsi haqqında hesabatlar"* milli dilə tərcümə edilmişdir ki, bu da, öz növbəsində, Avropa standartlarına riayət etməklə qanunun aliliyi prinsipini rəhbər tutaraq, məhkəmə-hüquq sistemini inkişaf etdirmək üçün bu dövlətin niyyətinin bariz təzahürüdür.

Avropa Ədliyyə Nazirlərinin 31-ci Görüşü 19-21 sentyabr 2012-ci il tarixində Vyanada (Avstriyada) keçirilmişdir. CEPEJ tərəfindən hazırlanmış *"2010-cu ilin məlumatı əsasında Məhkəmə Sistemlərinin Qiymətləndirilməsi haqqında"* Hesabatın (2012-ci ilin nəşri) müxtəlif Avropa mətbu orqanlarının nümayəndələri qarşısında təqdimat mərasimi bu tədbirlə yanaşı təşkil olunmuşdur. Bu təqdimat mərasimi üç ədliyyə naziri – Avstriya (ev sahibliyi edən), Fransa və Azərbaycan (Avropanın qalan 44 ədliyyə nazirini təmsil edən) tərəfindən keçirilmişdir. Azərbaycanın ədliyyə nazirinin təqdimat mərasimində iştirakı bu ölkənin CEPEJ-in işində fəallığının və məhkəmə sistemində uğurla aparılan islahatların nailiyyətlərinin tanınması və qəbul edilməsinin göstəricisidir – Azərbaycan kifayət qədər qısa müddət ərzində məhkəmə sistemini bütövlükdə yenidən qura bilmişdir.

Bu fakt CEPEJ-in tərtib etdiyi hesabatda da qeyd olunmuş və müəlliflər bildirmişlər ki, Azərbaycanda məhkəmə sisteminə ayrılan büdcə vəsaitlərinin məbləği artmaqdadır, bu isə Azərbaycanda daimi iqtisadi inkişafın təzahürüdür, nəticədə məhkəmə, hakim və məhkəmə işçilərinin sayı xeyli artmış, məhkəmə in-

frastrukturu yenilənmiş, məhkəmə binalarının layihələndirilməsi üçün vahid standartlar işlənib qəbul olunmuş və tətbiq edilmiş, ən müasir informasiya texnologiyalarından istifadə etməklə bütün məhkəmələri əhatə edən vahid veb-portal yaradılmışdır. Həmin tədbirlər nəticəsində ədalət mühakiməsi sisteminə vətəndaşların əlçatanlığının genişləndirilməsi və məhkəmələrin məhsuldarlığının artırılması xüsusi əhəmiyyət kəsb edir, çünki Avropanın bir çox ölkəsində məhkəmə işlərinə əsassız olaraq uzun müddət ərzində baxılması problemi hələ də qalmaqdadır.

Eyni zamanda, Azərbaycanda məhkəmə sistemi daxilində aparılan islahatlara bu ölkənin Ədalət Mühakiməsi Sisteminin Səmərəliliyi üzrə Avropa Komissiyası ilə əməkdaşlığı xeyli təsir göstərmişdir. Bu sahədə aparılan bir sıra islahatlar və qanunvericiliyə edilən əhəmiyyətli dəyişikliklər CEPEJ-in hesabatlarına əsaslanmışdır. Bununla yanaşı, həmin hesabatlar Dünya Bankı tərəfindən Azərbaycanda məhkəmə sisteminin müasirləşdirilməsi sahəsində həyata keçirilən irihəcmli layihələrin də əsasını təşkil etmişdir.

Azərbaycanla CEPEJ arasında fəal əməkdaşlığın daha bir göstəricisi 2011-ci ildə Azərbaycan Respublikası nümayəndəsinin CEPEJ-in Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitəsinin (CEPEJ-GT-EVAL) üzvü seçilməsi olmuşdur. Bu komitə daxilində Azərbaycan nümayəndəsi Estoniya və İsveçrəyə qiymətləndirmə səfərlərində fəal iştirak etmiş, 2015-ci ildə CEPEJ-in ekspertlərinin Litvaya qiymətləndirmə səfəri zamanı qrupun işinə rəhbərlik etmiş və sonradan ekspertlər qrupunun tərkibində Slovakiyanın məhkəmə statistikası sisteminin qiymətləndirilməsi səfərində olmuşdur. Bu qiymətləndirmə səfərlərində Fransa, Avstriya, Hollandiya, Monako və İngiltərənin hakimləri, ədliyyə nazirlikləri və ali ədliyyə şuralarının məsul əməkdaşları da iştirak etmişlər.

Eyni zamanda, digər əhəmiyyətli hadisə 2014-cü ilin dekabr ayında keçirilən 25-ci plenar iclasda Komissiyanın işində fəal

və məhsuldar iştirakına görə Azərbaycan nümayəndəsinin gizli səsvermə və 47 üzv dövlətin verdiyi səs çoxluğu ilə CEPEJ-in ali idarəetmə orqanı olan Bürosuna dörd üzvündən biri seçilməsi olmuşdur.

2014-cü ildə CEPEJ-lə Azərbaycan arasında olan münasibətlər yeni, daha yüksək bir səviyyəyə çıxmışdır – CEPEJ-in fəaliyyəti dövründə ilk dəfə olaraq plenar iclası Strasburq şəhərindən kənarda – Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilmişdir. 3-4 iyun 2014-cü il tarixdə keçirilmiş Komissiyanın 23-cü plenar iclasına Avropanın müxtəlif dövlətlərinin məhkəmə və ədliyyə sistemlərini təmsil edən 100 nəfərdən çox nümayəndəsi qatılmışdır. Plenar iclasın Strasburqdan kənarda keçirilməsi barədə qərarın qəbul edilməsi Azərbaycanın Komissiyanın işində fəal iştirakı və məhkəmə sistemində apardığı uğurlu islahatlarla bağlı olmuşdur.

CEPEJ-in plenar iclasını Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluğunun direktoru Filip Buaye və Azərbaycan Respublikasının Ədliyyə Naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov açmışlar. Ədliyyə Nazirinin rəhbərliyi altında ölkənin bütün ədliyyə sisteminin uğurla yenidən qurulması işi aparılır və o, Avropada fəal və məhsuldar – islahatçı ədliyyə naziri kimi tanınır.

Plenar iclasın Bakı şəhərində keçirilməsi avropalı ekspertlərə məhkəmə-hüquq sahəsində aparılan islahatların müvəffəqiyyətini qiymətləndirməyə imkan vermişdir. İclasda iştirak edən Azərbaycanın Ali Məhkəməsinin sədri Ramiz Rzayevin dəvəti ilə Komissiyanın üzvləri Ali Məhkəmənin yeni binasına – Ədalət Sarayına səfər etmişlər[111].

Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının işinin tanıdılması və ictimaiyyətə Komissiyanın fəaliyyəti barədə daha geniş məlumatın təqdim edilməsi məqsədilə

[111] Ədalət Sarayının inşası təşəbbüsü Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevə məxsusdur və qeyd edilən layihə onun birbaşa nəzarəti altında müvəffəqiyyətlə həyata keçirilmişdir.

plenar iclas başa çatdıqdan sonra məhkəmələrin, prokurorluq orqanlarının, digər təşkilatların və ədalət mühakiməsi sisteminin 120 nəfərdən çox nümayəndəsi CEPEJ-in Prezidenti Jon Steysi (İngiltərə) və Azərbaycan Respublikası Ədliyyə Nazirinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü, əməkdar hüquqşünas Azər Cəfərovun sədrliyi altında keçirilmiş İnformasiya Seminarında iştirak etmişlər. Azər Cəfərov 2004-cü ildə yaradılmış və məhkəmə sisteminin fəaliyyətini tənzimləyən bir çox qanunvericilik aktlarının layihələrini hazırlamış Avropa Şurasının Birgə İşçi Qrupunun həmsədri olaraq Azərbaycanda məhkəmə sisteminin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Seminarda CEPEJ-in vitse-prezidenti Qeorq Stava[112] və Azərbaycanın CEPEJ-dəkı nümayəndəsinin[113] Komissiyanın fəaliyyəti barədə məruzələri dinlənilmişdir. Tədbir zamanı CEPEJ-in üç komitəsinin rəhbəri – professor Jan-Pol Jan (Fransa), hüquq elmləri doktorları Jak Bühler (İsveçrə) və Fransua Peyşer (İsveçrə) müzakirələrdə fəal iştirak etmişlər.

Qeyd olunanlardan göründüyü kimi Azərbaycan artıq Avropa Şurasının Avropa məkanında ədliyyə və ədalət mühakiməsinə dair standartların hazırlanması və digər üzv dövlətlərdə tətbiqinin qiymətləndirilməsi kimi mühüm əhəmiyyət kəsb edən fəaliyyətində səmərəli və fəal iştirak etməyə başlamışdır.

---

[112] Hazırda Qeorq Stava (Avstriya) Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) Prezidentidir.

[113] CEPEJ-də Azərbaycanın birinci nümayəndəsi Ədliyyə Nazirliyinin Təşkilat-analitik idarəsinin rəisi Çingiz Qasımov (2002-2003-cü illər), ikinci nümayəndəsi Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət baş idarəsinin rəisi Azər Cəfərov (2004-cü il) olmuşdur. 2005-ci ildən etibarən Azərbaycanın CEPEJ-də nümayəndəsi Bakı Şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi Ramin Qurbanovdur.

## Nəticə

Özünün analitik və məsləhətçi vəzifələrini həyata keçirməklə Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) dünya miqyasında böyük etimad qazanmışdır.

Bir tərəfdən Komissiya üzv dövlətlərin məhkəmə sistemlərinin qiymətləndirilməsi ilə bağlı əsas fəaliyyəti çərçivəsində müvafiq dövlətlərin məhkəmə və icra hakimiyyəti orqanlarının nümayəndələri ilə birbaşa əlaqə və ünsiyyət yaratmaq zəruriyyətindədir, çünki onlar məhkəmə sistemlərinin müxtəlif sahələrini Avropa Şurasının standartlarına uyğunlaşdırmaqda və bu sahədə Komissiya ilə əməkdaşlıq etməkdə maraqlıdırlar.

Digər tərəfdən, Komissiyanın qiymətləndirmə (analitik) fəaliyyəti ilə bərabər, onun nüfuzu məhkəmə sistemlərinin ən müsbət təcrübələrinin yaradılması və məhkəmə sistemlərinin səmərəliliyinin artırılmasına dair tövsiyələrin, o cümlədən məhkəmə statistikası sisteminin qiymətləndirilməsi vasitələrinin tərtib olunması və məhkəmə sistemlərinin müxtəlif aspektlərinin təhlilinə əsaslanır.

Beləliklə, Komissiyanın fəaliyyətinin dəyəri nəinki üzv dövlətlərin məhkəmə sistemlərinin təşkili üçün məsul olan orqanların (əsasən də onların ədliyyə nazirliklərinin), həm də hüquq cəmiyyətinin nümayəndələri, hakimlər, prokurorlar, vəkillər, məhkəmə işçiləri və hüquqşünas-alimlərin də maraqlarına xidmət edir.

**Qoşma 1**

Strasburq, 5 fevral 2004-cü il

CEPEJ/GENERAL (2003)1

**Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) yaradılması haqqında Res(2002)12 saylı**

**Qərar**

*(Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən Nazir müavinlərinin 18 sentyabr 2002-ci il tarixdə keçirilmiş 808-ci iclasında qəbul edilmişdir, Nazir müavinlərinin 19 mart 2003-cü il tarixdə keçirilmiş 832-ci iclasında və 04 fevral 2004-cü il tarixdə keçirilmiş 870-ci iclasında qəbul edilmiş əlavə və dəyişikliklərlə)*

Bu qərara daxildir:

1 saylı Əlavədə göstərilən CEPEJ-in Əsasnaməsi
2 saylı Əlavədə göstərilən Avropa Şurasının seçilmiş tövsiyələri

## Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) yaradılması haqqında Res(2002)12 saylı

## QƏRAR

*(Avropa Şurası Nazirlər Komitəsi tərəfindən Nazir müavinlərinin 18 sentyabr 2002-ci il tarixdə keçirilmiş 808-ci iclasında qəbul edilmişdir)*

Avropa Şurasının Nizamnaməsinin 15.a və 16-cı maddələrinin müddəalarına müvafiq olaraq;

Avropa demokratiyalarının əsaslandığı qanunun aliliyi prinsipinin ədalətli, səmərəli və hər kəsin müraciət edə biləcəyi məhkəmə sistemləri olmadan mövcudluğunun mümkün olmaması faktını qəbul edərək;

Qanunun aliliyi prinsipinin yalnız vətəndaşlar qanuni hüquqlarından və qeyri-qanuni hərəkətlərə qarşı müdafiə vasitələrindən istifadə edə biləcəyi bir mühitdə reallıq ola biləcəyini təsdiq edərək;

Digər tədbirlərlə yanaşı, müxtəlif məhkəmə sistemlərinin əldə etdiyi nailiyyətlərin təhlil olunması, ədalət mühakiməsinin səmərəliliyi və ədalətli olmasına aid beynəlxalq hüquqi sənədlərin icrasının təmin edilməsi və Avropada məhkəmə sistemlərinin işinin təkmilləşdirilməsi üçün konkret tədbirlərin tərif olunması yolu ilə dövlətlər arasında əməkdaşlığın genişləndirilməsi zərurətini vurğulayaraq;

Ədalət mühakiməsi sisteminin işi ilə əlaqəli olan bütün tərəflər arasında daha geniş münasibətlərin qurulması zərurətini təsdiqləyərək;

Ədalət mühakiməsindən istifadə imkanlarını təmin etmək, məhkəmə sisteminin işi və səmərəliliyini yüksəltmək, məhkəmə-

lərdə işlərə baxılması və həlli ilə bağlı olan xərclərin məbləğini azaltmaq və məhkəmə sistemi tərəfindən vətəndaşlara təqdim edilən xidmətlərin dairəsini genişləndirmək üçün bütün münasib məlumat və informasiya texnologiyalarının tam istifadəsinin zəruri olduğunu qəbul edərək;

Avropa İnsan Hüquqları Konvensiyası, ələlxüsus qeyd edilən Konvensiyanın 5, 6, 13 və 14-cü maddələri ilə təsbit edilən müddəaları, habelə Avropa İnsan Hüquqları Konvensiyasının protokollaranın müvafiq şərtləri, Avropa İnsan Haqları Məhkəməsi tərəfindən qəbul edilmiş qərarları, ədalət mühakiməsinin ədalətli olması və səmərəliliyi sahəsində Avropa Şurası tərəfindən qəbul olunmuş müvafiq beynəlxalq hüquqi sənədləri və qeyd edilənlərin lazımi qaydada icrası zərurətini nəzərə alaraq,

Qeyd edilənlərə əlavə olaraq, məhkəmə sisteminin işi ilə bağlı monitorinq qaydaları üzrə Nazirlər Komitəsi tərəfindən qəbul edilmiş qərarları nəzərə alaraq;

Avropa Ədliyyə Nazirlərinin 20-ci (1996-cı il, Budapeşt şəhərində), 22-ci (1999-cu il, Kişinyov şəhərində), 23-cü (2000-ci il, London şəhərində) və 34-cü (2001-ci il, Moskva şəhərində) konfranslarında qəbul edilmiş qərarları nəzərə alaraq;

Avropa Hüquqi Əməkdaşlıq Komitəsi (CDCJ) tərəfindən Avropa Cinayət Hüququ Problemləri Komitəsi (CDPC) ilə məsləhətləşmələrdə hazırlanmış, ədalət mühakiməsinin səmərəliliyini yüksəltmək məqsədilə dövlətlər tərəfindən həyata keçirilən qənaətcil tədbirlər haqqında hesabatı nəzərə alaraq;

Avropa Şurası və onun üzv dövlətləri tərəfindən həyata keçirilən çoxtərəfli və ikitərəfli hüquqi əməkdaşlığı qeyd edərək və bu işlərin nəticələri üzrə tədbirlərin məhkəmə sisteminin işinin təkmilləşdirilməsi məqsədilə qanunvericilik sahəsində və digər sahələr üzrə konkret təkliflər vasitəsilə həyata keçirmək zərurətinə əmin olaraq;

Ədalət mühakiməsi sisteminin səmərəli işinə münasibətdə insan hüquqları və qanunun aliliyinin müdafiəsi və təşviqi sa-

həsində Avropa Şurasının müxtəlif qurumları tərəfindən həyata keçirilmiş işləri, ələlxüsus Avropa Hüquqi Əməkdaşlıq Komitəsi (CDCJ), Avropa Cinayət Hüququ Problemləri Komitəsi (CDPC), İnsan Hüquqları üzrə Rəhbər Komitə (CDDH) və Avropa Hakimlərinin Məşvərətçi Şurası (CCJE) tərəfindən həyata keçirilmiş işləri nəzərə alaraq;

Aşağıda qeyd edilmiş prinsipləri nəzərə alaraq:

*I. Vətəndaşlar üçün ədalət mühakiməsi sistemindən istifadə imkanının təmin edilməsi və məhkəmələrin səmərəli işi*

*1. Vətəndaşlar üçün ədalət mühakiməsi sistemindən istifadə imkanının təmin edilməsi*

i. Vətəndaşların mülki hüquq və vəzifələri, hər hansı cinayət əməlləri ilə əlaqədar olan bütün işlər üzrə ədalət mühakiməsi sisteminə müraciət etmək və ondan istifadə etmək hüququ təmin edilməlidir; ədalət mühakiməsinin maraqları tələb etdikdə, vətəndaşlar hüquqi yardım və məsləhətlərdən istifadə etmək imkanına sahib olmalıdırlar.

ii. Bu məqsədə münasibətdə, digər məqamlar ilə bərabər, Avropa Şurası tərəfindən qəbul edilmiş 2 saylı Əlavədə istinad edilən müvafiq beynəlxalq hüquq sənədlərinin müddəaları nəzərə alınmalıdır.

*2. Məhkəmə proseslərinin səmərəliliyi*

i. Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsinə əməl etmək və bunun vasitəsilə ədalət mühakiməsinin ağlabatan müddət ərzində həyata keçirilməsini təmin etmək, eyni zamanda ədalətli mühakimə prinsipinə riayət etmək üçün bütün zəruri tədbirlər həyata keçirilməlidir. Qeyd edilənlərlə bağlı məhkəmələrdə işlərə baxılması və həlli zamanı əsassız ləngimələrin aradan qaldırılması və müvafiq məhkəmə xərclərinin məbləğinin aşağı salınması ilə əlaqədar tədbirlər həyata keçirilməlidir.

ii. Ədalət mühakiməsinin səmərəliliyinə zəmanət verilməlidir və bu vəzifəyə münasibətdə Avropa Şurası tərəfindən qəbul edilmiş 2 saylı Qoşmada istinad edilən müvafiq beynəlxalq hüquq sənədlərinin müddəaları nəzərə alınmalıdır.

iii. İddiaların təmin edilməsi ilə bağlı sadə və sürətli prosedurlar vasitəsilə müdafiə xarakterli, müvəqqəti və digər təcili tədbirlərdən istifadə etmək mümkün olmalıdır və bu kimi tədbirlər, qəti və yekun olmasa belə, tərəflərin və üçüncü şəxslərin hüquqlarının səmərəli müdafiəsini, habelə ədalət mühakiməsinin səmərəliliyini təmin etməlidir.

*3. Məhkəmə qərarlarının icrası*

i. Bütün məhkəmə qərarları səmərəli surətdə və ağlabatan müddət ərzində icra olunmalıdır.

ii. Məhkəmə icraçılarının xidmətlərindən istifadə edildikdə, məhkəmə icraçıları və yaxud məhkəmə qərarlarının icrası işinə cəlb edilən digər şəxslər vəzifələrini qanunauyğun surətdə, ədalətli, qərəzsiz, səmərəli və şəffaf tərzdə həyata keçirməlidir.

*II. Ədalət mühakiməsi sistemi iştirakçılarının statusu*

*1. Hakimlər*

i. Hakimlərin müstəqilliyi və qərəzsizliyini qorumaq, müdafiə etmək və buna zəmanət vermək, eyni zamanda onların peşə səriştəsi və səmərəli işini təmin etmək məqsədilə bütün zəruri tədbirlər həyata keçirilməlidir.

ii. Bu məqsədlə Avropa Şurası tərəfindən qəbul edilmiş 2 saylı Əlavədə istinad edilən müvafiq beynəlxalq hüquq sənədlərinin müddəaları nəzərə alınmalıdır.

*2. Prokurorlar*

i. Prokurorların statusu və rolunu qorumaq və təşviq etdirmək, eyni zamanda, onların səriştəsi və səmərəli işini təmin etmək məqsədilə bütün zəruri tədbirlər həyata keçirilməlidir, nəticə etibarilə prokurorluq orqanlarının nümayəndələri peşə vəzifə və öhdəliklərini hər hansı qeyri-qanuni müdaxilə olmadan həyata keçirmək imkanına malik olmalıdır.

ii. Bu məqsədlə Avropa Şurası tərəfindən qəbul edilmiş 2 saylı Qoşmada istinad edilən müvafiq beynəlxalq hüquq sənədlərinin müddəaları nəzərə alınmalıdır.

*3. Vəkillər*

i. Vəkillik fəaliyyətinin sərbəst surətdə həyata keçirilməsinə imkan yaratmaq və eyni zamanda, vəkillərin səriştəsini, məhkəmə prosesi zamanı məsuliyyətli işi və davranışını təmin etmək məqsədilə bütün zəruri tədbirlər həyata keçirilməlidir.

ii. Bu məqsədlə Avropa Şurası tərəfindən qəbul edilmiş 2 saylı Əlavədə istinad edilən müvafiq beynəlxalq hüquq sənədlərinin müddəaları nəzərə alınmalıdır.

*4. Peşə təlimi*

i. İlkin və davamlı peşə təlimi ədalət mühakiməsi sistemində çalışan hər kəsin hüquq və vəzifəsi, ədalət mühakiməsinin özünün vəzifələrini həyata keçirməsinin zəruri şərtidir.

ii. Vəkillərin ilkin və davamlı peşə təlimi, ələlxüsus Avropa Şurası tərəfindən qəbul edilmiş 2 saylı Əlavədə istinad edilən müvafiq beynəlxalq hüquq sənədlərinin müddəaları nəzərə alınmaqla, təmin olunmalıdır.

*III. Ədalət mühakiməsinin həyata keçirilməsi və məhkəmələrin idarə olunması*

i. *Ədalət mühakiməsinin münasib tərzdə həyata keçirilməsi və məhkəmələrin səmərəli surətdə idarə olunması* məhkəmə sisteminin lazımi şəkildə çalışmasının mühüm şərtidir və digər məqamlarla bərabər, büdcədən müvafiq məbləğdə vəsaitlərin ayrılmasını tələb edir. Bu məsələ ilə əlaqədar Avropa Hüquqi Əməkdaşlıq Komitəsi (CDCJ) və Avropa Cinayət Hüququ Problemləri Komitəsi (CDPC) tərəfindən Avropa Ədliyyə Nazirlərinin 2000-ci ildə London şəhərində keçirilmiş 23-cü Konfransında təqdim edilmiş və ədalət mühakiməsinin keyfiyyətini yüksəltmək istiqamətində qənaətcil tədbirlərin istifadəsinə həsr olunmuş hesabat nəzərə alınmalıdır.

ii. *Ədalət mühakiməsinin həyata keçirilməsi və məhkəmələrin idarə olunması* işini təkmilləşdirmək məqsədilə Avropa Şurası tərəfindən qəbul edilmiş 2 saylı Əlavədə istinad edilən müvafiq beynəlxalq hüquq sənədlərinin müddəaları nəzərə alınmalıdır.

*IV. İnformasiya və rabitə texnologiyalarının istifadəsi*

i. Ədalət mühakiməsinin səmərəliliyini yüksəltmək məqsədilə, ələlxüsus da ədalət mühakiməsi sisteminə müraciət və istifadə imkanlarını genişləndirmək, məhkəmələrdə işlərə baxılması və həlli müddətlərini qısaltmaq, vəkillərin peşə təlimini yaxşılaşdırmaq, habelə ədalət mühakiməsinin həyata keçirilməsi və məhkəmələrin idarə olunmasını təkmilləşdirmək üçün informasiya və kommunikasiya texnologiyalarının istifadəsi təşviq etdirilməlidir.
ii. Bu məqsədlə Avropa Şurası tərəfindən qəbul edilmiş 2 saylı Əlavədə istinad edilən müvafiq beynəlxalq hüquq sənədlərinin müddəaları nəzərə alınmalıdır.

Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) yaradılması və Komissiyanın Əsasnaməsinin təsdiq edilməsi barədə qərar qəbul olunmuşdur. CEPEJ Avropa Hüquqi Əməkdaşlıq Komitəsi (CDCJ) ilə əməkdaşlıq etməli və fəaliyyətini qeyd edilən komitə ilə əlaqələndirməlidir.

*Res(2002)12 saylı Qərara 1 saylı Əlavə*

## Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ)

## ƏSASNAMƏSİ

### Maddə 1 – Komissiyanın məqsədləri

Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (bundan sonra – CEPEJ) məqsədi (a) hər bir vətəndaşa qanuni hüquqlarından səmərəli istifadə etmək üçün imkan yaratmaqla və bununla vətəndaşların ədalət mühakiməsi sisteminə etimadını artırmaqla, üzv dövlətlərin ədalət mühakiməsi sisteminin işini və fəaliyyətinin səmərəliliyini yüksəltməkdən və (b) ədalət mühakiməsinin səmərəliliyi və ədalətli olması sahəsində Avropa Şurası tərəfindən qəbul edilmiş beynəlxalq hüquqi sənədlərin daha mükəmməl icrasına imkan verməkdən ibarətdir.

### Maddə 2 – Komissiyanın vəzifələri

1. Avropa Şurasının digər qurumlarının işinə xələl yetirmədən və artıq bu sahədə aparılmış işləri nəzərə almaqla, CEPEJ ayrı-ayrı istiqamətlər üzrə üzv dövlətlərin digər üzv dövlətlər və CEPEJ-in fəaliyyətində iştirak edən beynəlxalq təşkilatlarla əməkdaşlığını təşviq etdirir və buna şərait yaradır. CEPEJ aşağıda qeyd edilən vəzifələri daşıyır:

*a.* bu qərarın giriş hissəsində istinad edilən prinsiplərə əsasən ayrı-ayrı məhkəmə sistemlərinin əldə etdiyi nailiyyət və nəticələrin təhlilini aparmaq və bu işə münasibətdə, digər üsullarla bərabər, ümumi statistik meyar və qiymətləndirmə üsullarından istifadə etmək;

*b.* problemləri və vəziyyətin təkmilləşdirilməsi və yaxşılaşdırılması üçün imkanların mövcud olduğu sahələri aşkara çıxarmaq, məhkəmə sistemlərinin fəaliyyətinə münasibətdə fikir mübadiləsini həyata keçirmək;

*c.* üzv dövlətlərin konkret tələblərini nəzərə almaq şərtilə, üzv dövlətlərin məhkəmə sistemlərinin fəaliyyətinin qiymətləndirilməsi və çalışmasının təkmilləşdirilməsi üçün konkret yolları müəyyən etmək;

*d.* üzv dövlətlərin müraciətinə müvafiq surətdə bir və ya bir neçə üzv dövlətə köməklik, o cümlədən Avropa Şurasının qəbul etdiyi standartlara riayət etmək işində yardım göstərmək;

*e.* Avropa Şurası Nazirlər Komitəsi tərəfindən təsdiq edilməsi üçün Avropa Şurasının müvafiq rəhbər komitələrinə, ələlxüsus Avropa Hüquqi Əməkdaşlıq Komitəsinə yeni beynəlxalq hüquqi sənədlərin layihəsinin və ya mövcud hüquqi sənədlərə əlavə və dəyişikliklərin hazırlanmasını təklif etmək.

CEPEJ nəzarət və ya monitorinq orqanı deyil.

## Maddə 3 – İş metodları

CEPEJ vəzifələrini aşağıda qeyd edilən üsullarla həyata keçirir:

*a.* göstəricilərin müəyyən olunması və işlənib hazırlanması, keyfiyyət və kəmiyyət məlumatlarının toplanması və təhlili, qiymətləndirmənin üsul və meyarlarının tərif edilməsi;

*b.* hesabat, statistik məlumat, tövsiyələr, ən mükəmməl çalışma qaydaları, təlimat, tədbirlər planı, rəy və ümumi qeydlərin hazırlanması;

*c.* tədqiqat institutları, sənədləşmə və elmi mərkəzlərlə əlaqələrin yaradılması;

*d.* ayrı-ayrı hallarda müvafiq sahə üzrə ixtisaslaşan və Komissiyaya onun məqsədlərinə çatmaq işində köməklik edə bilən səriştəli şəxs, mütəxəssis və ya qeyri-hökumət təşkilatlarının işində iştirak etmək üçün dəvət olunması və dinləmələrin keçirilməsi;

*e.* ədalət mühakiməsi sahəsində çalışan peşəkarların şəbəkələrinin yaradılması.

## Maddə 4 – Prosedur qaydalar

1. CEPEJ 2-ci maddənin 1-ci bəndinin *a*, *b*, *c* və *e* yarımbəndlərində istinad olunan işləri özünün təşəbbüsü ilə həyata keçirə bilər.

2. CEPEJ 2-ci maddənin 1-ci bəndinin *d* yarımbəndində istinad olunan işləri bir və ya bir neçə üzv dövlətin müraciəti əsasında həyata keçirə bilər.

3. Avropa Şurasının Parlament Assambleyası, Avropa İnsan Haqları Məhkəməsi, Avropa Şurasının müvafiq komitələri, xüsusən Avropa Hüquqi Əməkdaşlıq Komitəsi (CDCJ), Avropa Cinayət Hüququ Problemləri Komitəsi (CDPC), İnsan Hüquqları üzrə Rəhbər Komitə (CDDH) və Avropa Hakimlərinin Məşvərətçi Şurası (CCJE), habelə Baş katibin müraciətinə əsasən CEPEJ rəyini təqdim edir.

4. Avropa Şurasının rəhbər komitələri, xüsusən Avropa Hüquqi Əməkdaşlıq Komitəsi (CDCJ), Avropa Cinayət Hüququ Problemləri Komitəsi (CDPC) və İnsan Hüquqları üzrə Rəhbər Komitə (CDDH) xüsusi tədbirlər planı, ən mükəmməl çalışma qaydalarının təhlili və ya rəhbər qaydaların hazırlanması məqsədilə CEPEJ-ə müraciət edə bilərlər.

5. Avropa Şurasının üzvü olmayan hər hansı dövlət, habelə beynəlxalq təşkilat Nazirlər Komitəsinin razılığını almaq üçün

komitəyə müraciət etməklə CEPEJ-in fəaliyyətindən bəhrələnə bilər.

## Maddə 5 – CEPEJ-in tərkibi

1. CEPEJ vəzifələrinin yerinə yetirilməsi və məqsədlərinə nail olunması işinə daha çox töhfə verə bilən, mülki, cinayət və/yaxud inzibati işlər üzrə ədalət mühakiməsi sisteminin idarə olunması, çalışması və səmərəliliyi üzrə müfəssəl biliklərə malik olan ekspertlərdən ibarət olur.

2. Avropa Şurasının hər bir üzv dövləti tərəfindən CEPEJ-ə yüksək ixtisaslı bir ekspert təyin edilir. Qeyd edilən ekspertlərin, habelə CEPEJ-in Prezidentinin yol və gündəlik xərcləri Avropa Şurasının büdcəsi hesabına ödənilir. CEPEJ-in hər bir üzvü tərəfindən, həmin üzvün vəsaitləri hesabına, əlavə ekspertlər təyin edilə bilər.

3. Parlament Assambleyasının və Avropa İnsan Haqları Məhkəməsinin prezidentləri, habelə Avropa Şurasının rəhbər komitələrinin sədrləri, ələlxüsus Avropa Hüquqi Əməkdaşlıq Komitəsinin (CDCJ) sədri, yaxud onların nümayəndələri səs vermək hüququna malik olmamaq şərti ilə CEPEJ-in işində və iclaslarında iştirak edə bilərlər.

## Maddə 6 – Müşahidəçilərin və Avropa İttifaqının Komissiyanın işində iştirakı

1. Res(76)3 saylı Qətnaməyə müvafiq qaydada CEPEJ-ə müşahidəçilər qəbul oluna bilər.

2. Avropa İttifaqının CEPEJ-in işində iştirakı məsələləri 15 iyun 1987-ci il tarixdə Avropa Şurası ilə Avropa İttifaqı arasında bağlanmış sazişlə tənzimlənir (5 noyabr 1996-cı il tarixdə Avropa Şurasının Baş katibi və Avropa İttifaqının Prezidenti arasında aparılmış məktublar mübadiləsi vasitəsilə edilmiş əlavə və dəyi-

şikliklər nəzərə alınmaqla).

Tərəflər arasındakı əməkdaşlığın ayrı-ayrı şərtləri əlavə razılaşmalar vasitəsilə müəyyən edilə bilər.

## Maddə 7 – CEPEJ-in işinin təşkil olunması

1. CEPEJ özünün Prosedur Qaydalarını qəbul edir.
2. CEPEJ:
   a. ildə azı bir dəfə plenar iclas keçirir;
   b. mövcud resurslar çərçivəsində hərəkət etməklə, zərurət yarandıqda, işçi qruplar (komitələr) yarada, konkret mövzulara həsr edilmiş iclaslar keçirə bilər; və
   c. yeni informasiya texnologiyalarının təqdim etdiyi imkanları xüsusilə nəzərə alaraq fəaliyyəti barədə məlumatın ictimailəşdirilməsi haqqında qərar qəbul edə bilər.
3. Avropa Şurasının Baş katibi tərəfindən təqdim edilən katib CEPEJ-in işində Komissiyaya köməklik göstərir.
4. CEPEJ üzvləri səs vermək hüququna malikdir.
5. CEPEJ illik fəaliyyət proqramını tərtib edərək Baş katibə təqdim edir və Baş katib, ümumi prioritet məsələlər və ayrılan resursları nəzərə almaq şərti ilə, ümumi Fəaliyyət Proqramının hazırlanması işində CEPEJ-in təqdim etdiyi proqramı da nəzərə alır.
6. Nazirlər Komitəsinə təqdim edilməzdən öncə illik fəaliyyət hesabatı CEPEJ tərəfindən təsdiq olunmalıdır.
7. Hesabat Nazirlər Komitəsi tərəfindən təsdiq edildikdən sonra CEPEJ özünün illik fəaliyyət hesabatını dərc etdirir.

## Maddə 8 – Əlavə və dəyişikliklər

1. Bu Əsasnamə, 2 saylı Əlavə və Qərarın giriş hissəsində istinad edilən prinsiplər üzrə əlavə və dəyişikliklər Avropa Şu-

rasının Nazirlər Komitəsi tərəfindən, CEPEJ ilə məsləhətləşmələr aparıldıqdan sonra, Avropa Şurasının Nizamnaməsinin 20.d maddəsində nəzərdə tutulan çoxluğun səsləri ilə qəbul olunur.

2. CEPEJ bu Əsasnamə, 2 saylı Əlavə və Qərarın giriş hissəsində istinad edilən prinsiplər üzrə əlavə və dəyişikliklər barədə təklifini Nazirlər Komitəsinə təqdim edə bilər və Nazirlər Komitəsinin belə təklif barədə qərarı yuxarıda qeyd edilən səs çoxluğu ilə qəbul olunur.

*Res(2002)12 saylı Qərara 2 saylı Əlavə*

## Avropa Şurasının qəbul etdiyi seçilmiş

## TÖVSİYƏLƏRİ[114]

- *Vətəndaşlar üçün ədalət mühakiməsi sistemindən istifadə imkanının təmin edilməsi və məhkəmələrin səmərəli işi*

- *Vətəndaşlar üçün ədalət mühakiməsi sistemindən istifadə imkanının təmin edilməsi*

- Tövsiyə Res(76)5 – Mülki, iqtisadi və inzibati işlər üzrə hüquqi yardım haqqında;
- Tövsiyə Res(78)8 – Hüquqi yardım və hüquqi məsləhətlər haqqında;
- Tövsiyə Rec(81)7 – Ədalət mühakiməsi sisteminə müraciət və istifadə imkanlarının təşviq etdirilməsi haqqında;
- Tövsiyə Rec(93)1 – Aztəminatlı şəxslərin məhkəmələr və ədalət mühakiməsi sisteminə müraciət və istifadə imkanlarının səmərəliliyi haqqında;
- Tövsiyə Rec(98)1 – Ailə mübahisələri üzrə mediasiya haqqında;
- Tövsiyə Rec(99)19 – Cinayət işləri üzrə mediasiya haqqında;
- Tövsiyə Rec(2001)9 – İnzibati qurumlarla vətəndaşlar arasında mübahisələrin həllində məhkəmələrə alternativ olan üsulların istifadəsi haqqında;
- Tövsiyə Rec(2002)10 – Mülki işlərdə mediasiya haqqında.

[114] Bax: www.legal.coe.int. Avropa Şurası tərəfindən qəbul edilmiş sənədlərin siyahısı üçün bax: http://conventions.coe.int

- *Məhkəmə proseslərinin səmərəliliyi*

▪ Tövsiyə Rec(84)5 – Ədalət mühakiməsinin işini təkmilləşdirmək məqsədilə qəbul edilmiş mülki proses qaydaları haqqında;
▪ Tövsiyə Rec(86)12 – Məhkəmələrin üzərinə həddindən artıq böyük iş yükünün düşməsinin qarşısının alınması və belə iş yükünün azaldılmasına xidmət edən tədbirlər haqqında;
▪ Tövsiyə Rec(87)8 – Cinayət işlərinə baxılması və həlli prosesinin sadələşdirilməsi haqqında;
▪ Tövsiyə Rec(95)5 – Mülki və kommersiya mübahisələri üzrə apellyasiya sistem və prosedurlarının tətbiqi və təkmilləşdirilməsi haqqında.

- *Məhkəmə qərarlarının icrası*

▪ Tövsiyə Rec(2003)16 – İnzibati hüquq sahəsində inzibati orqanların və məhkəmələrin qərarlarının icrası haqqında;
▪ Tövsiyə Rec(2003)17 – Məhkəmə qərarlarının icrası haqqında.

● *Ədalət mühakiməsi sahəsində çalışan peşəkarların statusu*

- *Hakimlər*

▪ Tövsiyə Rec(94)12 – Hakimlərin müstəqilliyi, səmərəliliyi və rolu haqqında

- *Prokurorlar*

▪ Tövsiyə Rec(2000)19 – Cinayət işləri üzrə ədalət

mühakiməsi sistemində dövlət ittihamçılarının rolu haqqında

- *Vəkillər*

- Tövsiyə Rec(2000)21 – Vəkillik peşəsinin sərbəstliyi haqqında

- *Peşə təlimi*

- Tövsiyə Rec(94)12 – Hakimlərin müstəqilliyi, səmərəliliyi və rolu haqqında;
- Tövsiyə Rec(2000)19 – Cinayət işləri üzrə ədalət mühakiməsi sistemində dövlət ittihamçılarının rolu haqqında;
- Tövsiyə Rec(2000)21 – Vəkillik peşəsinin sərbəstliyi haqqında.

● *Ədalət mühakiməsinin həyata keçirilməsi və məhkəmələrin idarə olunması*

- Tövsiyə Rec(87)8 – Cinayət işlərinə baxılması və həlli prosesinin sadələşdirilməsi haqqında;
- Tövsiyə Rec(95)12 – Cinayət işlərinə münasibətdə ədalət mühakiməsi sisteminin idarə olunması haqqında;
- Tövsiyə Rec(2001)2 – Məhkəmə sistemlərinin və hüquqi məlumat sistemlərinin qənaətcil surətdə layihələndirilməsi və təkrarən layihələndirilməsi haqqında;
- Tövsiyə Rec(2001)3 – Yeni texnologiyaların istifadəsi vasitəsilə məhkəmə xidmətlərinin və digər xidmətlərin vətəndaşlara təqdim olunması haqqında.

- *İnformasiya və kommunikasiya texnologiyalarının istifadəsi*

  - Tövsiyə Rec(2001)2 – Məhkəmə sistemlərinin və hüquqi məlumat sistemlərinin qənaətcil surətdə layihələndirilməsi və təkrarən layihələndirilməsi haqqında;
  - Tövsiyə Rec(2001)3 – Yeni texnologiyaların istifadəsi vasitəsilə məhkəmə və digər xidmətlərin vətəndaşlara təqdim olunması haqqında;
  - Tövsiyə Rec(2003)14 – Ədalət mühakiməsi sahəsi üzrə məlumat sistemlərinin qarşılıqlı çalışması haqqında.

**Qoşma 2**

Strasburq, 19 mart 2003-cü il

CEPEJ/GENERAL (2003)3

## Ədalət mühakiməsinin səmərəliliyinə dair Avropa Komissiyası (CEPEJ)

## PROSEDUR QAYDALAR

### İnsan Hüquqları və Qanunun Aliliyi Baş Direktorluğu tərəfindən hazırlanmışdır

Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (bundan sonra CEPEJ),

18 sentyabr 2002-ci il tarixdə Nazir müavinlərinin 808-ci iclasında qəbul edilmiş "Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) yaradılması haqqında" Res(2002)12 saylı Qərarı nəzərə alaraq,

CEPEJ-in Əsasnaməsini əsas götürərək,

CEPEJ-in Əsasnaməsinin 7-ci maddəsinin 1-ci bəndinə uyğun olaraq 18 fevral 1976-cı il tarixdə Nazir müavinlərinin 254-cü iclasında qəbul edilmiş, "Struktur, əsas rəhbər qaydalar və iş metodları" haqqında Res(76)3 saylı Qərarın müddəalarına xələl gətirmədən;

Aşağıda verilmiş Prosedur Qaydaları qəbul edir:

## Fəsil 1
## CEPEJ-in Təşkili

### Maddə 1. CEPEJ-in Tərkibi

CEPEJ-in Əsasnaməsinin 5-ci maddəsinə müvafiq olaraq, hər bir üzv dövlət özünün nümayəndə heyətini təyin edir.

### Maddə 2. Prezidentin və Vitse-prezidentin seçilməsi

1. CEPEJ səs vermək hüququna malik olan üzv dövlətlər tərəfindən təyin edilmiş ekspertlər (bundan sonra – "ekspertlər" deyərək istinad olunacaq) arasından özünə Prezident və Vitse-prezident seçir. Prezident seçilmiş ekspert əvəzinə müvafiq üzv dövlət nümayəndə heyətinin yeni üzvü kimi əlavə ekspert təyin edə bilər. Həmin ekspertin də xərcləri Avropa Şurasının vəsaitləri hesabına ödənilir.

2. Prezident və Vitse-prezident iki il müddətinə seçilir. Onlar bir dəfə yenidən tutduqları vəzifəyə seçilə bilər.

3. Səsvermə gizli aparılır və qərar sadə səs çoxluğu ilə qəbul olunur.

### Maddə 3. Büronun tərkibi və vəzifələri

1. Büro Prezident, Vitse-prezident və 2 nəfərdən çox olmamaq şərti ilə ekspertlərdən ibarətdir. Büronun bütün üzvləri iki il müddətinə seçilir. Onlar bir dəfə yenidən tutduqları vəzifəyə seçilə bilər.

2. Səsvermə gizli aparılır və qərar sadə səs çoxluğu ilə qəbul olunur.

3. Büro aşağıda qeyd edilən vəzifələri daşıyır:

- CEPEJ-in Əsasnaməsində verilmiş baş prinsipləri nəzərə almaqla CEPEJ-in Əsasnaməsinin 3-cü maddəsində istinad olunan məsələlərə dair təkliflərini vermək;

- (i) ayrı-ayrı ölkələrə təqdim edilən köməklik tədbirləri, (ii) aşağıda verilmiş 7-ci bəndə əsasən ayrı-ayrı ölkələrə göstərilən köməkliklə əlaqədar xidmətlərindən istifadə edilə bilən mütəxəssislər və (iii) ayrı-ayrı ölkələrə göstərilməsi nəzərdə tutulan köməkliyin şərtləri barəsində, müvafiq hallarda, CEPEJ-ə təkliflər təqdim etmək;
- məsləhətçilərin təyin edilməsi barədə CEPEJ-ə təkliflər təqdim etmək;
- işçi qrupların (komitələrin) fəaliyyətini əlaqələndirmək və üzvlərini təyin etmək;
- CEPEJ-in iclaslarının gündəliyinin layihələrini hazırlamaq;
- aşağıda verilmiş 12-ci bəndə uyğun olaraq hazırkı Prosedur Qaydalara hər hansı əlavə və dəyişikliklər barədə təklifin CEPEJ-ə təqdim olunub-olunmaması barədə qərar çıxarmaq;
- illik fəaliyyət hesabatının birinci layihəsini hazırlamaq;
- CEPEJ üçün nəzərdə tutulan illik fəaliyyət hesabatının layihəsini hazırlamaq;
- CEPEJ tərəfindən Büroya tapşırılmış hər hansı digər vəzifələri həyata keçirmək.

## Maddə 4. Sənədlər

1. CEPEJ tərəfindən baxılmalı olan bütün sənədlərin hazırlanması və dövriyyəsi üçün məsuliyyəti Katiblik daşıyır. Bir qayda olaraq və fövqəladə hallar səbəbindən baş verə bilən ləngimələri nəzərə almaqla, sənədlər iclasın başlanmasına azı iki həftə qalmış nümayəndə heyəti rəhbərlərinə və CEPEJ-in Əsasnaməsinin 5-ci maddəsinin 3-cü bəndində və 6-cı maddəsində qeyd edilən digər nümayəndələrə təqdim edilir və/yaxud CEPEJ-in İnternet səhifəsində yerləşdirilir.

2. CEPEJ tərəfindən digər qayda barəsində qərar verilməzsə və "Avropa Şurasının sənədlərinin istifadəsi" haqqında Nazirlər Komitəsinin Res(2001)6 saylı Qərarını nəzərə alaraq CEPEJ tərəfindən və ya CEPEJ üçün hazırlanmış bütün sənədlər münasib vasitələrlə, o cümlədən CEPEJ-in İnternet səhifəsində yerləşdirilməklə ictimaiyyətin diqqətinə təqdim olunur.

### Maddə 5. Yetərsay

Yetərsay nümayəndə heyətlərinin əksəriyyətinin iştirakından ibarət olur.

### Maddə 6. İşçi qruplar (komitələr)

İşçi qrup (komitə) yaradıldığı halda müvafiq qrup (komitə) CEPEJ tərəfindən təyin edilən maksimum üzvdən ibarət olur və onun üzvlərinin yol və gündəlik xərcləri Avropa Şurası tərəfindən ödənilir.

### Maddə 7. Mütəxəssislər

1. Müraciətə əsasən hər bir nümayəndə heyəti CEPEJ-ə aid olan mövzular üzrə ixtisaslaşan mütəxəssislər barədə məlumat təqdim etməlidir.

2. Bu bəndə istinad edilən mütəxəssislərin xidmətlərindən CEPEJ-in Əsasnaməsinin 2.2 maddəsində istinad olunan və ayrı-ayrı ölkələr üçün nəzərdə tutulan köməklik proqramları ilə bağlı istifadə oluna bilər.

# Fəsil 2
# ÖLKƏLƏR ÜÇÜN KÖMƏKLİK TƏDBİRLƏRİ

## Maddə 8. Ümumi şərtlər

1. Bu fəsildə verilmiş maddələr CEPEJ-in Əsasnaməsinin 2.d maddəsinin müddəalarının təfsiri və tətbiqi üçün nəzərdə tutulub.

2. Ölkələr üçün köməklik tədbirləri bir və ya bir neçə üzv dövlətin müraciəti əsasında həyata keçirilə bilər və könüllü olaraq qarşılıqlı yardım prinsipi əsasında icra olunur. Belə tədbirlər CEPEJ-in Əsasnaməsinin 1-ci maddəsində qeyd edilmiş məqsədlərə xidmət etməli və müvafiq büdcə vəsaitlərinin ayrılması şərti ilə təşkil olunmalıdır.

3. Müvafiq ölkənin/ölkələrin müraciətinə əsasən CEPEJ müvafiq maliyyə ili ərzində yerinə yetirilməli olan ölkələr üçün köməklik tədbirlərinin sayını, o cümlədən CEPEJ-in illik büdcəsini nəzərə alaraq, müvafiq tədbirlərin əhatə dairəsi və müddətini müəyyən edir.

## Maddə 9. Mütəxəssislər qrupları

1. Mütəxəssislər qruplarının (bundan sonra "mütəxəssislər qrupu" deyərək istinad olunacaq) tərkibi barəsində təkliflər Büro tərəfindən CEPEJ-ə təqdim olunur.

2. CEPEJ tərəfindən digər qərar qəbul olunmazsa, mütəxəssislər qrupu üç mütəxəssisdən ibarət olur və Katibliyin bir üzvü mütəxəssislər qrupunun işinə köməklik edir.

3. CEPEJ Büronun təkliflərini təsdiq etməzdən qabaq müvafiq mütəxəssislərin adları rəylərin təqdim olunması üçün tədbirlərin aid olduğu ölkəyə təqdim olunur. Müvafiq ölkə namizəd mütəxəssislərə dair razılığını verməzsə və CEPEJ bu qərarı əsaslı hesab edərsə, Büro tərəfindən digər namizədlər barədə məlumat verilməlidir.

## Maddə 10. Ölkələrə səfərlər

1. CEPEJ zəruri hesab etdikdə və müvafiq ölkənin razılığı ilə, müvafiq ölkədə hüquq və təcrübə barəsində əlavə, CEPEJ-in işi üçün faydalı olan məlumat toplamaq məqsədilə aidiyyəti ölkəyə səfər təşkil edilə bilər.

2. CEPEJ tərəfindən həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin aid olduğu ölkə tərəfindən təqdim edilən proqram layihəsinə əsasən mütəxəssislər qrupu mümkün qədər qısa müddət ərzində səfər proqramını razılaşdırmalıdır. Səfərin tarixləri Katiblik tərəfindən müvafiq ölkə ilə məsləhətləşmələr vasitəsilə müəyyən edilir və Büro tərəfindən qəbul edilmiş səfərlər proqramına uyğun gəlməlidir.

3. Ölkəyə səfərə başlamazdan qabaq mütəxəssislər qrupu ilə Katiblik arasında ilkin fikir mübadiləsinin aparılması məqsədilə hazırlıq iclası keçirilir.

4. Səfərlə bağlı həllini tapmamış qalan bütün məsələləri müzakirə etmək məqsədilə səfər olunan ölkənin rəsmi qurumları ilə ölkə daxilində yekun görüş keçirilir.

5. Yerinə yetirilmiş işlərin nəticələrinə dair ümumi rəyi hazırlamaq məqsədilə ölkəyə səfərin sonunda mütəxəssislər qrupu ilə Katibliyin birgə iclası keçirilir. Təqdim edilən qeydlər barədə məlumat sonda Katiblik tərəfindən ümumiləşdirilir və Katiblik hesabatın ilkin layihəsini hazırlayır.

6. Müvafiq hallarda CEPEJ və ya onun Bürosu hesabat üzrə işin başa çatdırılması məqsədilə əlavə tədbirləri müəyyən edir.

# Fəsil 3
# CEPEJ ÜZRƏ İLLİK ÜMUMİ HESABAT

## Maddə 11. İllik hesabat

1. Əsasnamənin 7-ci maddəsinin 6-cı bəndinə müvafiq olaraq Katiblik hər il illik fəaliyyət hesabatının ilkin layihəsini CEPEJ-

in Bürosuna təqdim edir. CEPEJ-in Bürosu hesabat layihəsi ilə tanış olduqdan sonra hesabat müvafiq təqvim ili ərzində CEPEJ-in birinci iclasında qəbul olunur və əvvəlki ili bütövlükdə əhatə edir. Bundan sonra hesabat Nazirlər Komitəsinə təqdim olunur. Nazirlər Komitəsindən dəvət aldıqda CEPEJ-in Prezidenti hesabatı Nazirlər Komitəsinə şifahi qaydada məruzə edir. Bundan sonra hesabat Parlament Assambleyasına təqdim olunur.

2. Digər məlumatla bərabər, hesabatda CEPEJ-in işinin təşkili və daxili çalışma metodları, habelə hesabat dövrü ərzində qəbul edilmiş sənədlərin mətnləri verilir.

## Fəsil 4
## SON MÜDDƏALAR

### Maddə 12. Əlavə və dəyişikliklər

1. Hər hansı üzv dövlət hər hansı vaxt bu Əsasnaməyə əlavə və dəyişikliklər edilməsi təklifi ilə çıxış edə bilər. Belə təklif yazılı surətdə tərtib olunur və Büroya təqdim edilir. Büronun CEPEJ-ə təqdim edilib-edilməməsi barəsində qərarı Büro çıxarır.

2. Büro təklifin CEPEJ-ə təqdim edilməməsini qət edərsə, bu barədə CEPEJ-ə müvafiq məlumat təqdim olunur və təklif gündəliyə yalnız belə halda salına bilər ki, müvafiq vaxtda CEPEJ-in üzvlərinin dörddə biri təklifin lehinə səs versin.

3. CEPEJ səslərin üçdə iki çoxluğu ilə təklif edilmiş əlavə və dəyişiklikləri qəbul edə bilər.

### Maddə 13. Prosedur Qaydaların qüvvəyə minməsi

Bu Prosedur Qaydalar 19 mart 2003-cü il tarixdə qüvvəyə minir.

**Qoşma 3**

**Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə**
**Avropa Komissiyası**
**(CEPEJ)**

**2002-2014-cü illər ərzində keçirilmiş plenar iclaslarda qəbul olunmuş qərarlar barədə**

## QISA MƏLUMAT

**24-cü plenar iclas (Strasburq, 11-12 dekabr 2014-cü il)**

- Məhkəmələrin fəaliyyət göstərdiyi yerlərin təşkili və onlardan istifadə imkanlarına dair Rəhbər Qaydalar (CEPEJ(2014)15).
- Məhkəmə proseslərində məhkəmə ekspertlərinin roluna dair Rəhbər Qaydalar (CEPEJ(2014)14).
- Məhkəmədə işlərə baxılması və həlli vaxtının idarə olunmasına dair yenidən işlənmiş Rəhbər Qaydalar (CEPEJ(2014)16).
- Məhkəmələrdə həddən artıq yüksək iş yükünün yaranmasının qarşısının alınması və azaldılması tədbirləri ilə bağlı Nazirlər Komitəsinin Rec(86)12 saylı Tövsiyəsinin yenilənməsinin Hüquqi Əməkdaşlıq üzrə Avropa Komitəsinə (CDCJ) təklif olunması barədə (CEPEJ(2014)19 saylı Rəy.
- CEPEJ-in Bürosunun seçilməsi: Prezident olaraq Qeorq STAVA (Avstriya), Vitse-prezident olaraq İrakli ADEİŞVİLİ (Gürcüstan), üzv olaraq xanım İvana BORZOVA (Çex Respublikası) və Ramin QURBANOV (Azərbaycan).

## 23-cü plenar iclas (Bakı, 3-4 iyul 2014-cü il)

- "Avropanın məhkəmə sistemləri haqqında" Hesabat – 2014-cü ilin nəşri (CEPEJ(2014)16).
- CEPEJ-in Avropa Birliyi ilə Albaniyada Birgə Proqramın bu yaxında başladılması: "Ədalət mühakiməsinin səmərəliliyinə dəstək (SEJ)". Bu proqram vasitəsilə CEPEJ Albaniyanın bütün məhkəmələri ilə əməkdaşlıq edəcək.
- CEPEJ alətləri vasitəsilə məhkəmələrin idarə olunmasına dəstək vermək üçün Norveç Qrantları və Xorvatiya ilə Əməkdaşlıq Proqramının icrasının başlanması.
- CEPEJ-in Əsasnaməsi əsasında mediasiyanı təbliğ etmək üçün İsveç rəsmiləri (SIDA) və Türkiyə ilə qarşıdan gələn Əməkdaşlıq Proqramının icrasının başlanması.
- CEPEJ-in qiymətləndirilməsi əsasında ədalət mühakiməsinin səmərəliliyi istiqamətində Azərbaycanda, Ermənistanda, Gürcüstanda, Moldovada və Ukraynada Avropa İttifaqı ilə Şərq Tərəfdaşlığı Ölkələri üçün Birgə Proqram çərçivəsində baş verən dəyişikliklər məmnuniyyətlə qeyd edilmişdir.
- CEPEJ-in öz metodologiyasına və alətlərinə əsaslanaraq aparıcı rol oynadığı Mərakeş, Tunis və İordaniya ilə Avropa Şurasının Qonşuluq Siyasətində baş verən dəyişikliklərin alqışlanması.

## 22-ci plenar iclas (Strasburq, 5-6 dekabr 2013-cü il)

- "Məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının aparılması üzrə məhkəmələr üçün nəzərdə tutulmuş Yoxlama Siyahısı" adlı texniki sənəd (CEPEJ(2013)15).
- "Keyfiyyətli ədalət mühakiməsi çərçivəsində məhkəmələrə müraciətlərin dəstəklənməsi üzrə tədbirlər planının

hazırlanmasına dair Rəhbər Qaydalar"a yenidən baxılmışdır (CEPEJ(2013)7Rev1).

- "Məhkəmələrdə işlərə baxılması və həlli müddətlərinin idarə olunması üzrə Rəhbər Qaydalar"a yenidən baxılmışdır (CEPEJ(2008)8Rev3).
- 14-15 noyabr 2013-cü il tarixlərində Latviyaya məhkəmə statistikası sistemi ilə bağlı ekspert qiymətləndirilməsi səfərinə və 2014-cü ildə Estoniyaya, Litvaya (birgə), İsveçə və Ukraynaya ediləcək yeni səfərlərə dair Hesabat.
- Azərbaycanın dövlət orqanlarına 3-4 iyul 2014-cü il tarixlərində CEPEJ-in Avropa Şurasında ilk dəfə 23-cü plenar iclasının ölkələrində keçirilməsinə dair etdikləri təklifə görə minnətdarlıq bildirilib.

**21-ci plenar iclas (Strasburq, 20-21 iyun 2013-cü il)**

- Yeni Qiymətləndirmə Sxeminə dəyişikliklər (CEPEJ(2012)12Rev).
- "CEPEJ-in keyfiyyətli ədalət mühakiməsi sistemi daxilində ədalət mühakiməsi sistemindən istifadəni dəstəkləyən ədalət mühakiməsi sisteminin təşkilat quruluşunun yaradılması üzrə rəhbərliyi" (CEPEJ(2013)7).
- "Bəzi tövsiyələrə təklif edilən dəyişikliklər – müqayisəvi cədvəl" Sənədi (CEPEJ(2013)4).

**20-ci plenar iclas (Strasburq, 6-7 dekabr 2012-ci il)**

- CEPEJ-in 10-cu ildönümünün qeyd olunması mərasiminin Avropa Şurasının Baş katibi müavininin, Nazirlər Komitəsinin Sədrinin, Avropa İnsan Haqları Məhkəməsinin Prezidentinin, İnsan Hüquqları üzrə Müvəkkilin, həmçinin səfirlər və ədliyyə işçilərinin iştirakı ilə qeyd olunması.

- Məhkəmə sistemlərinin Qiymətləndirilmə Sxeminin nəzərdən keçirilmiş mətni və onun növbəti izahlı qeydi (CEPEJ(2012)13).
- Elmi ekspertlər Fransua KALVE CALVEZ və Nikolas RUGIS (CEPEJ(2012)16) tərəfindən hazırlanan "Avropa Şurasının üzv dövlətlərində Avropa İnsan Haqları Məhkəməsinin presedent qanununa əsasən məhkəmə icraatlarının müddəti" hesabatının yenidən işlənmiş versiyasının "CEPEJ araşdırmaları" seriyası altında nəşr olunmasına qərar verilmişdir.
- Avropa İttifaqı ilə Şərq Tərəfdaşlığı Ölkələri (Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova, Ukrayna) üzrə Birgə Proqram çərçivəsində "Avropa Məhkəmə Sistemləri – 2012-ci ilin nəşri" Hesabatı əsasında CEPEJ-GT-EVAL Komitəsinin ekspertləri tərəfindən hazırlanan "Ədalət mühakiməsinin səmərəliliyi" Hesabatının alqışlanması.
- CEPEJ-in Bürosunun təkrar seçimi: Prezident olaraq Jon Steysi (İngiltərə), Vitse-prezident olaraq Qeorq STAVA (Avstriya), üzvlər olaraq Audun BERQ (Norveç) və İrakli ADEİŞVİLİ (Gürcüstan).

**19-cu plenar iclas (Strasburq, 5-6 iyul 2012-ci il)**

- Avropanın məhkəmə sistemləri haqqında Hesabat – 2012-ci ilin nəşri (CEPEJ(2012)5).
- Baş katibin Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının 10-cu ildönümündə – Strasburq, 6-7 dekabr 2012-ci il tarixində mümkün iştirakı ilə bağlı KoHallvard QORSET, Hanne YUNKER və Marja RUOTANEN üçün hazırlanmış Hesabat.
- Ekspertlərin Azərbaycanda məhkəmə statistikası sistemi ilə bağlı apardıqları ekspert qiymətləndirməsinə dair məlumatın qeydi götürüldü.

- Avropanın məhkəmə sistemlərinin qiymətləndirilməsi hesabatına ilk dəfə Nazirlər Komitəsinin 12 may 2009-cu il tarixli "Gender bərabərliyinin reallığa çevrilməsi" Bəyanatına uyğun olaraq məhkəmə sistemləri çərçivəsində gender məsələlərilə bağlı vəziyyətə həsr olunmuş spesifik fəslin daxil edilməsinin vurğulanması və Qabor SZEPLAKİ-NAGİNİN (Macarıstan) CEPEJ-in gender məsələləri üzrə xüsusi məruzəçisi təyin olunması.
- Avropa Şurasının Qonşuluq Siyasətinin – Avropa İttifaqı ilə "Cənub ölkələri qonşuluğunda demokratik islahatların gücləndirilməsi" üçün Mərakeş, Tunis və İordaniya ilə Birgə Proqramın inkişaf etdirilməsinin alqışlanması.
- Nazirlər Komitəsi tərəfindən CEPEJ-də müşahidəçi status verilmiş İsrail nümayəndə heyəti salamlanmışdır.
- Avropa İttifaqının Notariatlar Şurasına müşahidəçi statusunun verilməsi.
- Büroya 7 dekabr 2012-ci ildə Strasburqda keçirilən 20-ci plenar iclas çərçivəsində CEPEJ-in 10-cu ildönümünü qeyd etmək üçün CEPEJ-in xüsusi sessiyasını hazırlamaq həvalə edilmişdir.

**18-ci plenar iclas (Strasburq, 7-8 dekabr 2011-ci il)**

- Elmi ekspert Daniela Piana (İtaliya) tərəfindən hazırlanan "Məhkəmə sisteminin idarə olunması işində monitorinq və qiymətləndirmə üzrə" Tədqiqat.
- Azərbaycan nümayəndəsinin ölkəsində məhkəmə sisteminin müasirləşdirilməsi prosesinə dair müfəssəl Təqdimatı.
- "Azərbaycanda hakimlərin seçimi prosesinə dair Hesabat" (CEPEJ-COOP(2011)1), məruzəçi Audun BERQ (Norveç) və Ramin QURBANOV (Azərbaycan).

## 17-ci plenar iclas (Strasburq, 28-29 iyun 2011-ci il)

- "Avropada məhkəmə proseslərinin müqavilə çərçivəsi" Hesabatı (CEPEJ (2010)10).
- İnternet səhifəsində "SATURN Mərkəzinin prosessual müddətlərin idarə olunması alətlərinin istifadəsi – yeddi sınaq layihənin sintezləşdirilmiş Hesabatı"nın (CEPEJ-SATURN(2011)2) və metodologiya üzrə Kitabçanın dərc edilməsi.
- Lissabon Şəbəkəsi üçün dörd üzvdən ibarət Büronun yaradılması və ona fəaliyyətlər üzrə CEPEJ-ə təkliflər vermək və hakimlərin və prokurorların təlimləndirilməsi çərçivəsində CEPEJ-in alətlərindən düzgün istifadə olunmasına imkan verən konkret təkliflər ifadə etməsi həvalə olunmuşdur.
- Audun BERQin (Norveç) xanım Eva FERNQVİSTİNi (İsveç) əvəz edərək təyinat müddətinin sonuna kimi Büroya üzv seçilməsi.

## 16-cı plenar iclas (Strasburq, 9-10 dekabr 2010-cu il)

- Qiymətləndirmə Sxeminin (CEPEJ (2010)11) və növbəti izahedici qeydin (CEPEJ(2010)12) nəzərdən keçirilmiş mətni.
- "Monteneqroda məhkəmə şəbəkəsinin müasirləşdirilməsinin təhlili haqqında" Hesabat (CEPEJ-COOP(2010)2).
- Azərbaycanla məhkəmə sisteminin (həmçinin inzibati məhkəmələrin) və hakimlərin seçimi prosesinin təşkilinə dair əməkdaşlıq etməyə razılıq əldə edilmişdir.
- Ermənistanla məhkəmə sədrlərinin rotasiyası (bir-birlərini əvəzləməsi) məsələsi üzrə əməkdaşlıq etməyə razılıq əldə edilmişdir.

- Avropa Məhkəməsinin gələcəyinə aid olan İnterlaken Konfransından irəli gələn məsələlərin həlli ilə bağlı üzv dövlətlərdə Avropa Konvensiyasının 6-cı maddəsinə münasibətin yaxşılaşdırılmasına töhfə vermək üçün Avropa İnsan Haqları Məhkəməsi və İnsan Hüquqları üzrə Rəhbər Komitə ilə əməkdaşlığa tam istəyinin olmasının təsdiqlənməsi.
- CEPEJ-in Bürosunun seçilməsi: Prezident olaraq Jon STEYSİ (İngiltərə), Vitse-prezident olaraq Qeorq STAVA (Avstriya), üzv olaraq xanım Eva FERNQVİIST (İsveç) və İrakli ADEİŞVİLİ (Gürcüstan).
- Nazirlər Komitəsi tərəfindən CEPEJ-in təklifi və dəstəyi ilə hazırlanmış "Hakimlər: müstəqillik, səmərəlilik və öhdəliklər" üzrə Rec(2010)12 saylı Tövsiyənin qəbulunun alqışlanması.

**15-ci plenar iclas (Strasburq, 9-10 sentyabr 2010-cu il)**

- Avropanın məhkəmə sistemlərinə dair Hesabat – 2010-cu ilin nəşri (CEPEJ(2010)xx).
- "Avropa Şurasının 8 üzv dövlətində məhkəmələrin və məhkəmə sistemlərinin təşkilinin keyfiyyətinin idarə olunması üzrə" Tədqiqat (CEPEJ (2010)3).
- "Avropa Şurasının üzv dövlətlərində məhkəmə istifadəçilərinin məmnunluq sorğusunun reallaşdırılmasına dair" Hesabat (CEPEJ(2010)2).
- "Avropa Şurasının üzv dövlətlərində məhkəmə istifadəçilərinin məmnunluq sorğusunun reallaşdırılmasına dair" Rəhbər Qaydalar (CEPEJ(2010)1).
- "Birləşmiş Ərəb Əmirliklərinin Abu Dabi Əmirliyinin məhkəmə departamentinin iş göstəricilərinin araşdırılmasına dair" Hesabat (CEPEJ-COOP(2010)1).

## 14-cü plenar iclas (Strasburq, 9-10 dekabr 2009-cu il)

- Məhkəmə qərarlarının icrası ilə əlaqədar Avropa Şurasının Tövsiyələrinin daha mükəmməl tətbiqinə dair CEPEJ-in Qaydaları (CEPEJ(2009)11).
- "Portuqaliyada işlərin dövriyyəsi siyasəti və məhkəmədə baxılmamış işlərin yığılıb qalması ilə mübarizənin qiymətləndirilməsinə dair" Hesabat (CEPEJ-COOP(2009)1).
- "Maltada və Rusiya Federasiyasında məhkəmə statistikası sisteminin ekspert qiymətləndirilməsinə dair" Hesabat.
- Avropa Şurası və Avropa İttifaqı tərəfindən həyata keçirilən "Ədliyyənin Kristal Tərəzisi" nominasiyasının birgə təşkilinin davamı.
- 25 oktyabrda üzv dövlətlərdə Avropada Ədliyyə Gününün təşviq edilməsi.
- Qeorq STAVAnın (Avstriya) xanım İvana BORZOVAnın (Çex Respublikası) əvəzinə təyinat müddətinin sonuna qədər Büroya üzv seçilməsi.
- Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) dövlət orqanlarının onların məhkəmə sisteminin fəaliyyətini qiymətləndirmək üçün CEPEJ-də missiya təşkil etməsi ilə bağlı xahişi.

## 13-cü plenar iclas (Strasburq, 10-11 iyun 2009-cu il)

- Məhkəmə sistemlərinin qiymətləndirilməsi üçün Sxemin yenidən işlənmiş versiyası (CEPEJ(2009)5) və onun izahlı qeydi (CEPEJ(2009)6).
- Bolqarıstanda hakimlərin, prokurorların və məhkəmə prosesində iştirak edən hakimlərin iş yükünü qiymətləndirmə metodlarına; ayrı-ayrı hakimlərin, prokurorların və məhkəmə tədqiqatçılarının işinin qiymətləndirilməsi meyarlarına və məhkəmələrin və prokurorluqların təsnifatlaş-

dırılması üçün meyarlara və göstəricilərə dair Hesabat (CEPEJ-COOP(2009)2).

- "Portuqaliyanın Ədliyyə Nazirliyinin dematerializasiyası və məhkəmələrdə informasiya texnologiyalarından istifadə olunması siyasətinə dair" Hesabat (CEPEJ-COOP(2009)4).
- "Ermənistanda məhkəmələrin təşkilinə dair" Hesabat (CEPEJ-COOP(2009)3).
- Hakimlərin və prokurorların tədrisinə məsul olan şəxslər və təşkilatlar arasında məlumat mübadiləsi üzrə Avropa Şəbəkəsinin (Lissabon Şəbəkəsi) fəaliyyətinin CEPEJ-in fəaliyyət proqramı çərçivəsində inkişaf etdirilməsi.

**12-ci plenar iclas (Strasburq, 10-11 dekabr 2008-ci il)**

- CEPEJ-in Ədalət mühakiməsi sisteminin statistik məlumatı üzrə Rəhbər Qaydaları (GOJUST) (CEPEJ(2008)11).
- Məhkəmə sistemi daxilində işlərə baxılması və həlli müddətlərinin idarə olunmasına münasibətdə SATURN Mərkəzinin Qaydaları (EUGMONT) (CEPEJ (2008)8).
- CEPEJ-in Bürosunun iki illik müddətə yenidən seçilməsi: Prezident olaraq Fausto de SANTİS (İtaliya), Vitse-prezident olaraq Jon STEYSİ (İngiltərə), üzv olaraq xanım Elsa QARSİA MALTRAS de BLAS (İspaniya) və xanım İvana BORZOVA (Çex Respublikası).

**11-ci plenar iclas (Strasburq, 2-3 iyul 2008-ci il)**

- "Avropanın məhkəmə sistemləri haqqında" Hesabat – 2008-ci ilin nəşri (CEPEJ(2008)3).
- Məhkəmə sistemlərinin və məhkəmələrin işinin keyfiyyəti üzrə Yoxlama Siyahısı (CEPEJ(2008)2).
- CEPEJ-in Məhkəmə sisteminin qiymətləndirilməsi üzrə

Komitəsinin üzvlərinin 2008-ci ildə Fransaya, Bosniya və Herseqovinaya və Polşaya etdiyi üç pilot qiymətləndirmə səfərinin nəticələrinin Təqdimatı.

- CEPEJ-in Pilot Məhkəmələr Şəbəkəsinin onun komitələrinin işinə daha yaxından cəlb etmək qərarı qəbul olunmuşdur.
- Avropa Hakimlərinin Məşvərətçi Şurasının (CCJE) məhkəmə qərarlarının keyfiyyəti ilə bağlı CEPEJ ilə əməkdaşlığı.

**10-cu plenar iclas (Strasburq, 5-6 dekabr 2007-ci il)**

- "Avropada ədalət üzrə əsas məlumat" Siyahısı (CEPEJ (2007)27).
- Məhkəmə statistikasına dair pilot ekspert qiymətləndirilməsi əməkdaşlığı prosesinin yaradılması və bu məqsədlə həmin prosesin məqsədlərinin və metodologiyasının təsdiqi və prosesin (CEPEJ-GT-EVAL(2007)25) həyata keçirilməsinin CEPEJ-in Avropa məhkəmə sisteminin qiymətləndirilməsi üzrə Komitəsinə həvalə edilməsi.
- Avropa Şurasının cinayət işlərində mediasiya (CEPEJ(2007)13), ailə işlərində və mülki işlərdə mediasiya (CEPEJ(2007)14), inzibati orqanlarla vətəndaşlar arasında mübahisələrin alternativ həllinə dair (CEPEJ (2007)15) mövcud tövsiyələrinin daha səmərəli həyata keçirilməsi üzrə Qaydalar.
- CEPEJ ilə daha yaxından əməkdaşlıq etmək istəyən tədris və elmi-tədqiqat institutları şəbəkəsinin yaradılması və Büroya belə bir şəbəkənin təşkili üçün şərtlərin hazırlanmasının həvalə edilməsi (CEPEJ-in Tədris Şurasının yaradılması vasitəsilə).
  - CEPEJ-in aşağıdakı araşdırmaları üzrə nəşrlər:
  - Xanım Daria SOLENİK (Nansi Universitetinin Hüquq fakültəsi) tərəfindən hazırlanan "Avropada ədalət mühakiməsinin əlçatan olması" (CEPEJ(2007)24Prov);

- Xanım Julien LHUİLLER (Nansi Universitetinin Hüquq fakültəsi) tərəfindən hazırlanan "Avropada məhkəmə qərarlarının icrası" (CEPEJ(2007)20Prov);
- Marko VELİKONYA (Məhkəmə sistemləri üzrə Boloniya Tədqiqat İnstitutu) tərəfindən hazırlanan "Avropa dövlətlərinin məhkəmə sistemlərində informasiya və kommunikasiya texnologiyalarının istifadəsi (ICT)" (CEPEJ (2007)22Prov);
- Birmingem Universitetinin (Birləşmiş Krallıq) Hüquq fakültəsi, l'Institut des Hautes Études sur la Justice (Fransa), Boloniya və Florensiya (İtaliya) universtitetləri tərəfindən hazırlanan "Məhkəmə işçilərinin təlimləndirilməsi və təhsilinin qiymətləndirilməsi aləti – Avropada hakimlərin dəyişən təlim ehtiyaclarının qarşılanması" (CEPEJ(2007)23Prov).

- ➢ Xanım İvana BORZOVAnın (Çex Respublikası) Marqus SARAPUUnu (Estoniya) əvəz edərək təyinat müddətinin sonuna kimi Büronun üzvü seçilməsi.
- ➢ CEPEJ-in yaradılmasının 5-ci ildönümünün qeyd edilməsi.

**9-cu plenar iclas (Strasburq, 13-14 iyun 2007-ci il)**

- ➢ Məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Sxemə yenidən baxılmışdır (CEPEJ(2007)11).
- ➢ Aix-Marseille III Universitetinin (Fransa) həyata keçirdiyi "Avropada məhkəmə sahəsində ümumi məhkəmə mədəniyyəti üçün təkmilləşdirmə işləri və çətinliklər" tədqiqatına dəstək verilməsinə dair razılıq.
- ➢ "Mediasiya ilə bağlı tövsiyələrin təsirinin qiymətləndirilməsi" (CEPEJ(2007)12) üzrə təhlilinin işçi sənəd kimi nəşri.
- ➢ Beynəlxalq Məhkəmə İcraçıları Birliyi (UIHJ) CEPEJ-in məhkəmə qərarlarının icrasına dair tədqiqatına maraqlarını təsdiq etmişdir.

## 8-ci plenar iclas (Strasburq, 6-8 dekabr 2006-cı il)

- "Avropa Məhkəməsinin presedent hüququna əsasən məhkəmə proseslərinin müddətinə dair" Hesabat (CEPEJ (2006)15).
- "Şimali Avropa ölkələrində məhkəmələrdə işlərə baxılması və həlli müddətinin qısaldılmasına dair" Hesabat (CEPEJ (2006)14).
- "Məhkəmə proseslərində işlərə baxılması və həlli vaxtının idarə olunması üzrə ən qabaqcıl təcrübə" Toplusu (CEPEJ (2006)13).
- Üzv dövlətlərdə məhkəmə müddətlərinə dair dəqiq biliklərin əldə olunması üçün lazım olan məlumatın toplanması məqsədilə CEPEJ-in Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Mərkəzinin (SATURN Centre) formalaşdırılması.
- CEPEJ Bürosunun seçilməsi: Prezident olaraq Fausto de SANTİS (İtaliya), Vitse-prezident olaraq Jon STEYSİ (İngiltərə) və üzv olaraq xanım Elsa QARSİA MALTRAS de BLAS (İspaniya) və Marqus SARAPUU (Estoniya).
- Avropanın Məhkəmə Şurası Şəbəkəsinə (ENJC) və ABŞ-ın Vəkillər Kollegiyasına müşahidəçi statusunun verilməsi – Mərkəzi Avropa və Avrasiya Hüquq Təşəbbüsü (ABA-CEELI).

## 7-ci plenar iclas (Strasburq, 6-7 iyul 2006-cı il)

- "Avropanın məhkəmə sistemləri haqqında" Hesabat – 2004-cü ilin nəşri (CEPEJ (2006)4 Rev).
- Müşahidəçilərə iki illik müddətə Avropanın Məhkəmə Təlimləri Şəbəkəsi (ENJT) statusunun verilməsi.
- Avropa Komissiyasının Vitse-prezidenti və Ədalət Mühakiməsi, azadlıq və mühafizə üzrə Komissarı Franko

FRATTİNİ Avropa Şurası ilə Avropa Komissiyası arasında əməkdaşlığın vacibliyini vurğulamışdır.

- Avropa Şurası Nazirlər Komitəsinin mediasiyaya dair Tövsiyələrinin təsirinin qiymətləndirilməsi.

**6-cı plenar iclas (Strasburq, 7-9 dekabr 2005-ci il)**

- "Məhkəmələrdə işlərə baxılması və həlli üzrə müddətlərin təhlili üçün göstəricilərin Yoxlama Siyahısı" (CEPEJ (2005)12 Rev).
- CEPEJ tərəfindən Hüquqi Əməkdaşlıq üzrə Avropa Komitəsinə (CDCJ) hazırlanan Avropa Hakimlərinin Avropa Şurasının (CCJE) Rəyinin həyata keçirilməsi üzrə Fəaliyyət Planı (CEPEJ (2005)11).
- "Rusiya Federasiyasında mülki işlər üzrə məhkəmələrin dövlətə və onun orqanlarına qarşı çıxardığı qərarlarının icrası ilə bağlı problemlərə dair Hesabat" (CEPEJ (2005)8).
- Ciaran KELLİnin (İrlandiya) Pim ALBERSi (Hollandiya) əvəz edərək təyinat müddətinin sonuna qədər Büroya üzv seçilməsi.
- Dünya Bankının "Biznesin aparılması" layihəsini həyata keçirməsinə dəstək üçün "Ədalət mühakiməsinin həyata keçirilməsi" adlı yeni tədqiqatın başlanmasına marağı.
- Yaponiya nümayəndə heyətinin Yaponiyanın məhkəmə sistemində aparılan islahatlar haqqında Təqdimatı.

**5-ci plenar iclas (Strasburq, 15-17 iyun 2005-ci il)**

- Məhkəmə sistemlərinin qiymətləndirilməsi üçün Sxemin yenidən işlənmiş versiyası (CEPEJ(2005)2 Rev), Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsinin pozulması halları üzrə Hesabatın yenidən hazırlanması.
- CEPEJ-in yaradılması haqqında Res(2002)12 saylı Qə-

rarın 2 saylı Əlavəsinə hüquq sektorunda elektron sənədlərin arxivləşdirilməsi haqqında Rec(2003)15 saylı Tövsiyəni, Hüquqi yardım üçün müraciət formalarının ötürülməsi üzrə Avropa Sazişinə (CETS No.092) və onun Əlavə Protokoluna (CETS No.179) əsasən istifadə üçün xaricdə hüquqi yardım üçün müraciət forması haqqında Rec(2005)12 saylı Tövsiyəni salmaqla dəyişiklik edilməsi (qəbul edilməsi üçün Nazirlər Komitəsinə göndərilmişdir).

- CEPEJ-ə 16-17 may 2005-ci il tarixində Varşavada keçirilən Dövlət və Hökumət Başçılarının 3-cü zirvə görüşü zamanı (üzv dövlətlərin ən yüksək siyasi hakimiyyəti) qiymətləndirmə və yardım funksiyalarının verilməsi və CEPEJ-in Avropada qanunun aliliyinin gücləndirilməsində aparıcı rol oynayacağının təsdiqlənməsi qeyd olunmuşdur.

**4-cü plenar iclas (Strasburq, 30 noyabr-3 dekabr 2004-cü il)**

- Avropanın məhkəmə sistemlərinə dair birinci Hesabat 2002 (CEPEJ(2004)30).
- 2004-cü il məlumatları üzrə nəzərdən keçirilmiş Pilot Sxem və İzahlı Qeyd.
- Magistrats Européens pour la Démocratie et les Libertés (MEDEL) və İnzibati işlər üzrə Hakimlərin Avropa Federasiyasına bir illik yenilənə bilən müddətə müşahidəçi statusunun verilməsi.
- CEPEJ-in Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitəsinin (CEPEJ-GT-EVAL) formalaşdırılması.

**3-cü plenar iclas (Strasburq, 9-11 iyun 2004-cü il)**

- Xorvatiya və Sloveniyanın tələbi ilə hazırlanan "Məhkəmə sistemində yubanma halları, hakimlərin həddindən artıq yüksək iş yükü və işlərin yığılıb qalması ilə mü-

barizənin praktiki yolları"na dair İcmal Hesabat (CEPEJ(2004)5).

- Maltanın müraciəti ilə hazırlanan "Mülki ailə və kommersiya məsələlərində vasitəçiliyə hüquqi və məhkəmə yanaşmasının inkişafı" Hesabatı (CEPEJ(2004)14).
- "Məhkəmə sistemləri üçün yeni məqsəd: hər işə optimal və proqnoz edilə bilən vaxt çərçivəsində baxılması və həlli" adlı Çərçivə Proqramı (CEPEJ (2004)19 Rev1).
- "Milli məhkəmə sistemlərinin terrorizmə cavab tədbirlərinin verilməsində səmərəliliyinə dair Qiymətləndirmə" Hesabatı (CEPEJ (2004)13 Rev1).

**2-ci plenar iclas (Strasburq, 2-5 dekabr 2003-cü il)**

- CEPEJ-in yaradılması haqqında qərarın (2002)12 2-ci Əlavəsinə məhkəmə qərarlarının icrası haqqında Rec(2003)17 saylı Tövsiyəni, ədliyyə sektorunda məlumat sistemlərinin funksional uyğunluğu üzrə Rec(2003)14 saylı Tövsiyəni və inzibati qanunvericilik sahəsində inzibati və məhkəmə qərarlarının icrasına dair Rec(2003)16 saylı Tövsiyəni əlavə etməklə dəyişikliklər edilməsi.
- Məhkəmə sistemlərinin qiymətləndirilməsi üçün ilkin sxem qəbul və onun təsdiq üçün Nazirlər Komitəsinə göndərilməsi barədə qərar qəbul edilmişdir.
- Avropada Ədalət Mühakiməsi Gününün ilkin təşkilati nizamnaməsi təxmini tarix saxlanmaqla (oktyabrın son həftəsi) qəbul olunmuş və qərar təsdiq üçün Nazirlər Komitəsinə göndərilmişdir.
- Hollandiya ilə ikitərəfli fəaliyyət çərçivəsində hazırlanan ərazi yurisdiksiyası haqqında Hesabat.
- İsveçrə ilə ikitərəfli fəaliyyət çərçivəsində mediasiyaya dair hazırlanan Hesabat.
- Dünya Bankına, Avropa Məhkəmə İcraçıları Birliyinə

(EUR), Beynəlxalq Məhkəmə İşçiləri Birliyinə (UIHJ), Avropa Hakimlər Assosiasiyasına və Avropa Birliyinin Vəkillər Kollegiyası və Hüquq Cəmiyyətləri Şurasına (CCBE) yenilənə bilən bir il müddətinə müşahidəçi statusunun verilməsi.

- CEPEJ-in İnternet səhifəsinin yaradılması.
- Avropa Komissiyası ilə ədalət mühakiməsi, xüsusi olaraq Avropada Mülki Sahədə Ədliyyə Gününün təşkili və Avropada məhkəmə icraatları ilə bağlı ən qabaqcıl praktikalara yönəlik konfranslarla bağlı davamlı əməkdaşlıq etmə qərarı qəbul olunmuşdur.

**1-ci plenar iclas (Strasburq, 5-7 fevral 2003-cü il)**

- Əsasnamənin 7-ci maddəsinin 1-ci bəndinə əsasən və komitə strukturlarına, texniki tapşırıq və iş metodlarına (Nazirlər Komitəsinə qəbul edilməsi üçün göndərilməsinə qərar verilmişdir) dair Res(76)3 saylı Qərarın 2-ci Əlavəsinin 21-ci bəndinə müvafiq olaraq Prosedur Qaydaların ilkin versiyası.
- Prezidentin və Vitse-prezidentin təyinat müddətinin CEPEJ tərəfindən təsdiqlənən Prosedur Qaydalara müvafiq olaraq bir ildən iki ilə qədər uzadılması məqsədilə strukturlara, texniki tapşırığa və işçi metodlara dair Qərarının Res(76)3 2-ci Əlavəsinin 17-ci maddəsinin f bəndinə dəyişikliyin təsdiqlənməsi.
- CEPEJ-in yaradılması haqqında Res(2002)12 saylı Qərara 2 saylı Əlavəyə bu qəbul olunmuş mülki işlərdə mediasiyaya dair Rec(2002)10 saylı Tövsiyəni daxil etməklə dəyişiklik edilməsi (qəbul edilməsi üçün Nazirlər Komitəsinə göndərilməsinə dair qərar verilmişdir).
- Beynəlxalq Xüsusi Hüquq üzrə Haaqa Konfransına yenilənə bilən bir il müddətinə müşahidəçi statusunun ve-

rilməsi, Avropanın Məhkəmə İcraçıları (Rechtpfleger) İttifaqına (EUR) və İtaliya Vəkillər Kollegiyasının Unitar Təşkilatına (OUA) isə müşahidəçi statusunun verilməsinin rədd olunması.

- CEPEJ Bürosunun seçilməsi: Prezident olaraq Eberhard DEŞ (Almaniya), Vitse-prezident olaraq André POTOÇKİ (Fransa), üzvlər olaraq Alan UZELAK (Xorvatiya) və Pim ALBERSİN (Hollandiya).

**Qoşma 4**

## Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ)

## Plenar iclasların iştirakçılarının SİYAHISI

## CEPEJ ÜZVLƏRİ

**ALBANİYA**

Rovena HUSA, Məhkəmə statistikası və arxivlər departamentinin direktoru, Ədliyyə Nazirliyi, TIRANA

**ANDORRA**

Karme OBİOLS, Baş katib, Ali Ədalət Məhkəməsi, VİYELLE

**ERMƏNİSTAN**

Armen SANOYAN, Beynəlxalq müqavilələrin ekspertizası şöbəsinin rəhbəri, Beynəlxalq hüquq əməkdaşlığı departamenti, Ədliyyə Nazirliyi, YEREVAN

**AVSTRİYA**

Qeorq STAVA, Pr8, layihələr, strategiya və yeniliklər departamentinin direktoru, Federal Ədliyyə Nazirliyi, VYANA (CEPEJ-in Prezidenti)

**AZƏRBAYCAN**

Ramin QURBANOV, Hakim, Bakı Şəhəri Yasamal Rayon Məhkəməsi, "Elektron məhkəmə" sisteminin yaradılması üzrə İşçi Qrupun rəhbəri, Azərbaycanda məhkəmə sisteminin müasirləşdirilməsi üzrə Dünya Bankı Layihəsinin əlaqələndiricisi, BAKI (CEPEJ-in Bürosunun və Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitənin üzvü)

**BELÇİKA**

Dietger GEERAERT, Məhkəmə sisteminin təşkili üzrə Baş Direktorluğun Hüquq departamentinin attaşesi, Federal Ədliyyə Nazirliyi, BRÜSSEL

**BOSNİYA VƏ HERSEQOVİNA**

Draqomir VUKOYE, Bosniya və Herseqovina Məhkəməsinin Apellyasiya Bölməsinin hakimi, SARAYEVO

Rusmir ŠABETA, Ədliyyə idarəçiliyi departamentinin rəhbəri, Ali Məhkəmə və Prokurorluq Katibliyi, Bosniya və Herseqovina Şurası, SARAYEVO

**BOLQARISTAN**

Yekaterina TODOROVA, Beynəlxalq hüquqi əməkdaşlıq və Avropa məsələləri Direktorluğunun rəhbəri, Ədliyyə Nazirliyi, SOFİYA

**XORVATİYA**

İvan KRNČEÇ, nazir köməkçisi, Avropa İttifaqı və Beynəlxalq Əməkdaşlıq Direktorluğu, Ədliyyə Nazirliyi, ZAQREB

**KİPR**

Efi PAPADOPULU, Ali Məhkəmənin hakimi, NİKOSİYA

**ÇEX RESPUBLİKASI**

İvana BORZOVÁ, Mülki nəzarət departamentinin rəhbəri, Ədliyyə Nazirliyi, PRAQA (CEPEJ-in Bürosunun və Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Mərkəzinin üzvü)

**DANİMARKA**

Marianne GRAM NAYBRO, beynəlxalq əlaqələndirici, Danimarka Məhkəməsi, İnzibati İdarə, Hüquq, Təlimat və İctimaiyyətlə Əlaqələr Mərkəzi, KOPENHAGEN

**ESTONİYA**

Kaidi LİPPUS, Qanunvericilik və inkişaf bölməsinin rəhbəri, Məhkəmə idarəçiliyi siyasəti departamenti, Ədliyyə Nazirliyi, TALLİNN

**FİNLANDİYA**

Kari Samuli KİESİLĀİNEN, departament rəhbəri, Baş Direktorluq, Ədliyyə Nazirliyi, HELSİNKİ

**FRANSA**

Valéry TURCEY, Avropa və beynəlxalq münasibətlər departamentinin rəhbəri, Ədliyyə Nazirliyi, PARİS

**GÜRCÜSTAN**

İrakli ADEİŞVİLİ, Mülki işlər kollegiyasının sədri, Tbilisi Apellyasiya Məhkəməsi, TBİLİSİ (CEPEJ-in Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Mərkəzinin üzvü)

**ALMANİYA**

Mattias HEGER, Beynəlxalq mülki proses departamentinin rəhbəri, Federal Ədliyyə Nazirliyi, BERLİN

Anna-Lena LUKS, hakim, Avropa qanunvericiliyi üzrə nazir köməkçisi, Ədliyyə Nazirliyi, Baden-Württemberg, ŞTUTQART

**YUNANISTAN**

Mixalis PİKRAMENOS, Ədliyyə Nazirliyi, dövlət müşaviri, AFİNA

**MACARISTAN**

Qábor SZÉPLAKİ-NAGİ, prokuror, bölmə rəhbəri, Baş Prokurorluq, Ədliyyə Nazirliyi, BUDAPEŞT

**İSLANDİYA**

Arnfrídur EYNARSDOTTİR, Reykyavik Bölgə Məhkəməsinin hakimi, REYKYAVİK

**İRLANDİYA**

Noel RUBOTHAM, İslahatlar və inkişaf departamentinin rəhbəri, Məhkəmələr Şurası, DUBLİN

Karolayn MERFİ, Məhkəmə siyasəti idarəsinin rəhbəri, Ədliyyə və bərabərlik Direktorluğu, DUBLİN

**İTALİYA**

Fabio BARTOLOMEO, Statistik məlumat üzrə Baş Direktorluğun rəhbəri, Ədliyyə Nazirliyi, ROMA

Ciacomo OBERTO, Birinci instansiya məhkəməsinin hakimi, TURİN

**LATVİYA**

Aija BRANTA, Ali Məhkəmənin hakimi, RİQA

**LİXTENŞTEYN**

Hubert VAXTER, hökumət məmuru, Lixtenşteyn prinsipallığının hakimiyyət idarəsi, Ədliyyə Nazirliyi, Vaduts

**LİTVA**

Laima QARNELİYENE, Cinayət işləri kollegiyasının sədri, Litva Apellyasiya Məhkəməsi, VİLNÜS

**LÜKSEMBURQ**

Katrin TRİYERVEYLER, hökumət nümayəndəsi, Cinayət və məhkəmə işləri Direktorluğu, Ədliyyə Nazirliyi, LÜKSEMBURQ

**MALTA**

Françesko DEPASKUALE, Ədliyyə məhkəməsinin hakimi, Ədliyyə və Daxili İşlər Nazirliyi, VALLETTA

**MOLDOVA**

Lilia QRİMALŞİ, Avropa Məhkəməsinin qərarlarının təhlili və icrası bölməsinin rəhbəri, Hökumət nümayəndələrinin Baş Direktorluğu, Ədliyyə Nazirliyi, KİŞİNYOV

**MONAKO**

Stéfani MURU VİKSTROM, Birinci instansiya məhkəməsinin hakimi, Məhkəmələr İdarəsi, MONAKO

**MONTENEQRO**

Tijana BADNYAR, Mülki qanunvericilik departamentinin rəhbəri, Ədliyyə Direktorluğu, Ədliyyə Nazirliyi, PODQORİTSA

**NİDERLAND**

Frans VAN DER DOELEN, Menecer, Ədliyyə sistemi departamenti, Ədliyyə Nazirliyi, HAAQA

**NORVEÇ**

Audun BERQ, Beynəlxalq münasibətlər idarəsinin rəhbəri, Milli Məhkəmələr Direktorluğu, TRONDHEYM

**POLŞA**

Yakub MİXALSKİ, Dövlət katibinin köməkçisi, Ədliyyə Nazirliyi, VARŞAVA

**PORTUQALİYA**

João ARSENİO DE OLİVEYRA, Beynəlxalq münasibətlər departamentinin rəhbəri, Ədalət mühakiməsi siyasəti direktorluğu, Ədliyyə Nazirliyi, LİSSABON

**RUMINİYA**

Violeta BELEQANTE, Hüquq müşaviri, Mülki qanunvericilik bölməsinin rəhbəri, Normativ hüquqi aktlar, elmi araşdırmalar və sənədləşmənin tədqiqatı üzrə Xüsusi Direktorluq, Ədliyyə Nazirliyi, BUXAREST

**RUSİYA FEDERASİYASI**

Aleksandr PARŞİN, Məhkəmə departamentinin direktor müavini, Ali Məhkəmə, MOSKVA

Anastasiya MOSKALENKO, Məhkəmə departamentinin Beynəlxalq hüquq əməkdaşlığı şöbəsinin rəhbəri, Ali Məhkəmə, MOSKVA

Aleksandra DRONOVA, Beynəlxalq hüquq və əməkdaşlıq idarəsinin direktoru, Ədliyyə Nazirliyi, MOSKVA

Aleksandra KRİVOŞEYEVA, Məsləhətçi, Beynəlxalq hüquq və əməkdaşlıq idarəsinin məsləhətçisi, Ədliyyə Nazirliyi, MOSKVA

Maksim TOKAREV, Xüsusi nümayəndə, Rusiya Federasiyasının Avropa Şurası yanında daimi nümayəndəliyi, Ədliyyə Nazirliyi, MOSKVA

**SAN MARİNO**

Stefano PALMUÇÇİ, Ədliyyə Nazirliyi, KAİLUNYO

**SERBİYA**

Nela KUBUROVİÇ, Ədliyə nazirinin müşaviri, Ədliyyə və İctimai İdarəçilik Nazirliyi, BELQRAD

**İvana NİNÇİÇ**, Vəkillik peşəsində islahatlar layihəsinin məsləhətçisi, Avropa İnteqrasiyası və Beynəlxalq Layihələr Bölməsi, İslahatlar və İnteqrasiyanın təşviqi şöbəsi, Ədliyyə Nazirliyi, BELQRAD

**SLOVAK RESPUBLİKASI**

Ladislav DUDİTS, Hakim, Koşitse Bölgə Məhkəməsi, KOŞİTSE

**SLOVENİYA**

Marko SORLİ, Cinayət işləri kollegiyasının sədri, Ali Məhkəmə, LYUBLYANA

**İSPANİYA**

Antonio QUTYERRES KARDENETE, Beynəlxalq hüquqi əməkdaşlıq və dini məsələlər direktorluğunun rəhbəri, Ədliyyə Nazirliyi, MADRİD

**İSVEÇ**

Pia ESPELAND NUYLEN, Hüquq müşaviri, İsveç Milli Məhkəmələr Departamenti, STOKHOLM

**İSVEÇRƏ**

Jak BÜHLER, Baş katib müavini, İsveçrənin Federal Ali Məhkəməsi, LÜÇERN (Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Mərkəzinin sədri)

**"MAKEDONİYA KEÇMİŞ YUQOSLAV RESPUBLİKASI"**

Nikola PROKOPENKO, Məhkəmələr, prokurorluq orqanları və digər ədliyyə təşkilatları idarəsinin rəhbəri, Ədliyyə Nazirliyi, SKOPYE

**TÜRKİYƏ**

İbrahim ÇETİN, Hakim, Strateji inkişaf departamenti, Ədliyyə Nazirliyi, ANKARA

Sadi DEMİR, Hakim, Ədliyyə Nazirliyi, ANKARA

**UKRAYNA**

İqor SAMSİN, Ukrayna Hakimlərinin Ali Attestasiya Komissiyasının sədri, Ali Məhkəmənin hakimi, KİYEV

Polina KAZAKEVİÇ, Beynəlxalq idarənin rəhbəri, Ukrayna Hakimlərinin Ali Attestasiya Komissiyası, KİYEV

**İNGİLTƏRƏ**

Jon STEYSİ, Ədalət mühakiməsinin keyfiyyəti və səmərəliliyi üzrə Hökumətin müşaviri, LONDON

Robert RAYT, Mülki işlərin maliyyələşdirilməsi və büdcə idarəsinin rəhbəri, Ədalət mühakiməsinin istifadəsi şöbəsi, Ədliyyə Nazirliyi, LONDON

***

**CEPEJ-in KOMİTƏLƏRİNİN SƏDRLƏRİ**

**Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL)**

Fransua PEYŞER, hüquq elmləri doktoru, İsveçrənin Auditorlar Məhkəməsinin sədri, Cenevrə, İsveçrə

**Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitə (CEPEJ-GT-EVAL)**

Jan-Pol Jan, Poitri Hüquq Universitetinin professoru, Ali Məhkəmənin Kollegiya sədri, Paris, Fransa

**Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Mərkəzi (SATURN Centre)**

Jak BÜHLER, hüquq elmləri doktoru, Federal Ali Məhkəmənin Baş katibinin müavini, Lüçern, İsveçrə

***

## MÜŞAHİDƏÇİ STATUSLU DÖVLƏTLƏR

**YAPONİYA**

Takaaki ŞİNTAKU, müşavir, vəkil, Yaponiyanın Fransanın Strasburq şəhərindəki Baş Konsulluğu

**İSRAİL**

Qali AVİV, İsrail məhkəmələrinin tədqiqat idarəsinin direktoru, Ali Məhkəmə, YERUSALİM

İnbal QALON, İsrail məhkəmələrinin tədqiqat idarəsinin baş tədqiqatçısı, Ali Məhkəmə, YERUSALİM

**MƏRAKEŞ**

Mustafa SİMO, Rabat İnzibati Məhkəməsinin sədri

Soufian DRİUK, Nador Birinci instansiya məhkəməsinin sədri

Abderrafi EROUİHAN, Ədliyyə Nazirliyi

***

## DƏVƏT EDİLMİŞ DÖVLƏTLƏR

**TUNİS**

Valid ARFAOUİ, Kanton Məhkəməsinin hakimi

Raja ÇAOUAÇİ, Tunis Birinci instansiya məhkəməsinin hakimi

Monci ÇALQUM, Zaqun Birinci instansiya məhkəməsinin hakimi

**İORDANİYA**

Moh'd Avvad Haza' Al QRAİR, Amman Birinci instansiya məhkəməsinin hakimi

Xaled Abdelrazzaq M. AL NSUR, Madaba Birinci instansiya məhkəməsinin sədri

Ziad AL MUHAREB, hakim, SAHAB Magistrlər Məhkəməsi

Osama Mohammad AL XAVALDEH, keyfiyyət məsələləri üzrə mütəxəssis, Keyfiyyətin idarə olunması idarəsi, Ədliyyə Na-

zirliyi

Zied AL TALAFEH, Ədliyyə Nazirliyində idarə meneceri

Ala K. ASALİ, proqram üzrə nümayəndə

***

## MÜŞAHİDƏÇİLƏR

### AVROPA İTTİFAQININ VƏKİLLƏR KOLLEGİYALARI VƏ HÜQUQŞÜNAS BİRLİKLƏRİNİN ŞURASI *(CCBE)*

Simone KUOMO, Baş hüquq müşaviri, Avropanın Vəkillər Kollegiyaları və Hüquqşünas Birliklərinin Şurası, Brüssel, BELÇİKA

### AVROPA HAKİMLƏR BİRLİYİ *(EAJ)*

Kristof REQNAR, Beynəlxalq Hakimlər Birliyinin Prezidenti, Paris, FRANSA

### AVROPA MƏHKƏMƏ İCRAÇILARI (RECHTSPFLEGER) VƏ MƏHKƏMƏ MƏMURLARI BİRLİYİ *(EUR)*

Jan-Jak KUSTER, Birliyin Prezidenti, Strasburq, FRANSA

Vivien UAY, Strasburq Birinci instansiya məhkəməsinin məmuru, Strasburq, FRANSA

### BEYNƏLXALQ MƏHKƏMƏ İCRAÇILARI BİRLİYİ *(UIHJ)*

Leo NETTEN, Birliyin Prezidenti, Paris, FRANSA

Matyo ŞARDON, Məhkəmə icraçısı, Birliyin Birinci katibi, 78490 Monfort L'Amaury, FRANSA

### AVROPA İNZİBATİ İŞLƏR ÜZRƏ HAKİMLƏR FEDERASİYASI

Pyer VİNSENT, Birinci instansiya inzibati işlər məhkəməsinin prezidenti, Nansi şəhər İnzibati işlər üzrə Apellyasiya Məhkəməsi, FRANSA

**AVROPA İTTİFAQININ NOTARİUSLAR ŞURASI**

Edmond QRESSER, notarius, La Vantzenau, FRANSA

***

**AVROPA İTTİFAQI**

**FUNDAMENTAL HÜQUQLAR ÜZRƏ AVROPA İTTİFAQI AGENTLİYİ**

Jana QAJDOSOVA, tədqiqatçı, Azadlıq və Ədliyyə İdarəsi, Fundamental hüquqlar üzrə Avropa İttifaqı Agentliyi, Vyana, AVSTRİYA

***

**İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF TƏŞKİLATI (İƏİT)**

Martin FORST, İdarəçilik sistemlərinin təhlili və ortaqlıqlar bölməsinin rəhbəri, İctimai idarəçilik və ərazilərin inkişaf direktorluğu, PARİS

**AVROPA MƏHKƏMƏ EKSPERTİZASI VƏ EKSPERTLƏR İNSTİTUTU**

Jan-Raymon LEMAR, Versal Apellyasiya Məhkəməsinin eksperti, Kassasiya Məhkəməsi tərəfindən təsdiq edilmiş ekspert, institutun icraçı komitəsinin Rəhbəri, Levallois-Perret, FRANSA

Alain NUE, ekspert, Versal Apellyasiya Məhkəməsinin sabiq birinci sədri, FRANSA

***

**AVROPA ŞURASI**

**AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİ**

Paola TONARELLİ-LAKORE, Avropa İnsan Haqları Məhkəməsinin Qeydiyyat İdarəsi

**AVROPA HAKİMLƏRİNİN MƏŞVƏRƏTÇİ ŞURASI (CCJE)**

Gerhard REYSSNER, Beynəlxalq Hakimlər Birliyinin Prezidenti, Floridsdorf Bölgə Məhkəməsinin sədri, Vyana, AVSTRİYA

**AVROPA PROKURORLARININ MƏŞVƏRƏTÇİ ŞURASI (CCJP)**

**AVROPA HÜQUQİ ƏMƏKDAŞLIQ KOMİTƏSİ**

Yuliya FLOKERMANN, Ümumi beynəlxalq hüquq bölməsi, Federal Ədliyyə Nazirliyi, Berlin, ALMANİYA

**AVROPA CİNAYƏT PROBLEMLƏRİ KOMİTƏSİ**

Fabyen ŞALLE, Cinayət hüququ üzrə beynəlxalq hüquqi sənədlərin müzakirəsi və razılaşdırılması missiyasının rəhbəri, Cinayət işləri və əfv məsələləri direktorluğu, Ədliyyə və Azadlıq Nazirliyi, Paris, FRANSA

***

**Digər iştirakçılar**

Bartolomeo KAPPELLİNA, doktorantura üzvü, Emili Durhaym Mərkəzi, Siyasi Elmlər, Bordo, FRANSA

***

**KATİBLİK**

**DGİ – İnsan hüquqları və qanunun aliliyi – Ədalət mühakiməsi sisteminin müstəqilliyi və səmərəliliyi bölməsi**

Hanne YUNKER, Ədliyyə və hüquqi əməkdaşlıq departamentinin rəhbəri, Avropa Şurası, Strasburq, FRANSA

Stefan LEYENBERQER, CEPEJ-in katibi, Ədalət mühakiməsi sisteminin müstəqilliyi və səmərəliliyi bölməsinin rəhbəri, Avropa Şurası, Strasburq, FRANSA

Muriel DEKO, CEPEJ-in həmkatibi, Avropa Şurası, Strasburq, FRANSA

Kristel ŞURRER, inzibatçı, Avropa Şurası, Strasburq, FRANSA

Klementina BARBARO, inzibatçı, Avropa Şurası, Strasburq, FRANSA

Lidiya NAUMOSKA, statistik məlumat üzrə inzibatçı, Avropa Şurası, Strasburq, FRANSA

Yannik MENEKUR, CEPEJ Katibliyinin xüsusi müşaviri, Avropa Şurası, Strasburq, FRANSA

Sofio GELAŞVİLİ, CEPEJ-in Katibliyi, Avropa Şurası, Strasburq, FRANSA

Félisi DİARD-DETO, CEPEJ-in Katibliyi, Avropa Şurası, Strasburq, FRANSA

Qurgana LAZAROVA-DEKO, CEPEJ-in Katibliyi, Avropa Şurası, Strasburq, FRANSA

Paul MEYER, CEPEJ-in Katibliyi, Avropa Şurası, Strasburq, FRANSA

Jan-Pyer QEİLLE, İnzibati və maliyyə məsələləri idarəsi, Avropa Şurası, Strasburq, FRANSA

Annette SATTEL, İnzibati məsələlər və şəbəkələr idarəsi, Avropa Şurası, Strasburq, FRANSA

Emili UOLKER, köməkçi, Avropa Şurası, Strasburq, FRANSA

Anna XROMOVA, köməkçi, Avropa Şurası, Strasburq, FRANSA

Elisabet Hertebise, köməkçi, Avropa Şurası, Strasburq, FRANSA

**Qoşma 5**

## Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ)

## 2014-2015-ci illər üçün Fəaliyyət Proqramı

## Avropa Məhkəmə Sistemlərinin Qiymətləndirilməsi üzrə Komitənin (CEPEJ-GT-EVAL)

## ƏSASNAMƏSI (CEPEJ-in 22-ci plenar iclasında qəbul olunmuş yeni mətndə)

### 1. Komitənin vəzifələri

Res(2002)12 saylı Qərarın 1 saylı Əlavəsinin 7.2.b bəndinə müvafiq olaraq və Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) nəzdində fəaliyyət göstərməklə, Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitə (CEPEJ-GT-EVAL) Avropa dövlətlərində məhkəmə sistemlərinin işinin ədalətli tərzdə təhlili məqsədilə CEPEJ tərəfindən müəyyən edilmiş vəzifələri həyata keçirir.

Bu vəzifəni icra etmək üçün Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitə (CEPEJ-GT-EVAL), ələlxüsus:

a. Avropa dövlətlərinin məhkəmə sistemlərinə münasibətdə 2012-2014-cü illəri əhatə edən dövr üzrə təhlilləri aparır, qeyd edilən təhlilin nəticələrini işində nəzərə alır, o cümlədən, ayrı-ayrı dövlətlərin məhkəmə sistemləri üzrə məlumatı toplayır və təhlil edir, CEPEJ-in 23-cü plenar iclasına təqdim ediləcək qiymətləndirmə hesabatının layihəsini işləyib hazırlayır;

b. Hesabatın 2014-cü il tarixli nəşrinin müvafiq qaydada təbliği və tanıdılmasını təmin edir və hesabatın üzv dövlətlərə təsirini qiymətləndirir;

c. qiymətləndirmə işləri vasitəsilə əldə edilmiş nəticələrin müvafiq surətdə reallaşdırılması məqsədilə təkliflər ("Avropanın məhkəmə sistemləri üzrə Hesabat – 2014-cü ilin nəşri"), ələlxüsus məhkəmələrin işinə münasibətdə əsas fəaliyyət göstəricilərinin (xüsusən də işlərin həlli nisbəti və məhkəmələrdə işlərə baxılması və həlli vaxtı göstəriciləri) müəyyən olunması və istifadəsi ilə əlaqədar olan təklifləri hazırlayır, Avropa dövlətlərinin məhkəmə sistemlərində, bir qayda olaraq, rast gəlinən çatışmazlıqları, habelə tendensiyaları müəyyən edir;

d. "Avropanın məhkəmə sistemləri – 2014-cü ilin nəşri" Hesabatının hazırlanması, təhlili və təsdiqini aparır, həmin hesabatı "CEPEJ-in Elmi Tədqiqatları" toplusunda dərc etdirir;

e. Avropa dövlətlərinin məhkəmə sistemlərinin 2014-2016-cı illər dövrü üzrə təhlilini təşkil edir, zərurət olduqda milli əlaqələndiricilərlə məsləhətləşmələr aparır, məlumatın toplanması və işlənməsi üzrə konkret qaydaları müəyyən edir, məlumatın işlənməsi məqsədilə növbəti hesabatın strukturu və planını müəyyənləşdirir;

f. Avropa İttifaqının üzv dövlətlərinin məhkəmə sistemlərinin fəaliyyəti barədə məlumatı CEPEJ tərəfindən hazırlanmış metodologiya əsasında toplamaqla və təhlil etməklə illik nəşr olan "Avropa İttifaqının Məhkəmə Sistemlərinin Statistik Göstəriciləri"nin hazırlanması ilə əlaqədar CEPEJ-in işini əlaqələndirir və onun fəaliyyətinə dəstək verir;

g. məhkəmə sistemi üzrə statistik məlumatın ümumi təhlili üzrə əməkdaşlıq tədbirlərinin icrasını təşkil edir, həmin işlərin nəticələrinin təhlilini aparır və müvafiq hallarda aşağıda qeyd edilən məqsədlərə xidmət edən təklifləri verir:

- məhkəmə sistemi üzrə statistik məlumatın keyfiyyətinin yüksəldilməsi və statistik məlumatlar sisteminin inkişaf etdirilməsi işində üzv dövlətlərə dəstək vermək;
- ayrı-ayrı dövlətlərin məhkəmələri üzrə statistik məlumat sistemləri arasında təcrübə mübadiləsini təşkil etmək;
- ən mükəmməl çalışma qaydaları barəsində məlumat mübadiləsi aparmaq, tətbiq edilən standartları müəyyənləşdirmək və təcrübə mübadiləsinə şərait yaratmaq;
- Avropa dövlətlərinin məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə CEPEJ-in işinin şəffaflığı və mötəbərliyini təmin etmək üçün töhfə vermək və bu işi təkmilləşdirmək.

h. üzv dövlətlərdə, ələlxüsus da milli əlaqələndiricilər arasında CEPEJ-in məhkəmə sistemləri üzrə statistik məlumat haqqında qaydaların istifadəsini təşviq etdirmək və bunun vasitəsilə növbəti qiymətləndirmə dövrlərinin məqsədləri üçün vahid şərtlər üzrə məlumatın toplanması üçün imkanları genişləndirmək;

i. CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi (CEPEJ-GT-QUAL) və Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Mərkəzi (SATURN Centre) ilə əməkdaşlıq etməklə, məhkəmələrin müstəqil fəaliyyəti şərtinə riayət etməklə məhkəmə sistemləri və məhkəmələrin işinin qiymətləndirilməsi üçün metod və göstəriciləri işləyib hazırlamaq və təkmilləşdirmək.

**2. Komitənin tərkibi**

Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitə (CEPEJ-GT-EVAL) üzv dövlətlərin təklif etdiyi, CEPEJ-in Bürosu tərəfindən təyin olunan, məhkəmələrin işinin qiymətləndirilməsi sahəsində mükəmməl biliklərə malik olan CEPEJ-in 6 üzvündən və ya ekspertindən ibarətdir. Qrupun üzvlərinin yol və gündəlik xərcləri Avropa Şurasının büdcəsi hesabına ödənilir. Üzv dövlətlərin təyin etdikləri digər ekspertlər də, müvafiq dövlətlərin hesabına olmaqla, komitənin işində iştirak edə bilərlər.

Avropa Şurasının və Avropa İttifaqının müxtəlif qurumlarının nümayəndələri, səs vermək hüququ olmadan və xərcləri üçün kompensasiya ödənilmədən, Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitənin (CEPEJ-GT-EVAL) işində iştirak edə bilərlər.

Ayrı-ayrı hallarda, CEPEJ Bürosu qeyd edilən təşkilatların iştirakının komitənin işinin keyfiyyətinə müsbət təsir göstərə bilməsi qənaətində olduqda, CEPEJ-ə münasibətdə müşahidəçi statusuna malik olan qeyri-hökumət təşkilatları Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitənin (CEPEJ-GT-EVAL) işində iştirak etmək üçün dəvət oluna bilərlər.

**3. İş strukturu və metodologiya**

Büdcədən vəsait ayrılması şərti ilə Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitə (CEPEJ-GT-EVAL) tərəfindən 5 iclas keçirilir və ayrı-ayrı dövlətlərə səfərlər təşkil oluna bilər.

Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin həyata keçirilməsi ilə əlaqədar komitə Qiymətləndirmə Sxemi üzrə cavabların toplanması işini əlaqələndirmək üçün səlahiyyət verilmiş milli əlaqələndiricilər şəbəkəsinin məsləhətlərindən istifadə edə bilər.

Qeyd edilənlərə əlavə olaraq, komitə fəaliyyətini CEPEJ-in digər struktur qurumları ilə (Məhkəmə vaxtının idarə olunması

üzrə SATURN Mərkəzi (SATURN Centre) və Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi (CEPEJ-GT-QUAL)) ilə əlaqələndirir.

Bu Əsasnamənin müddəalarının yerinə yetirilməsi məqsədilə komitə kənar ekspertlərin məsləhətlərinə müraciət edə və məsləhətçilər tərəfindən hazırlanmış tədqiqat hesabatlarına istinad edə bilər.

**4. Əsasnamənin qüvvədə olduğu müddət**

Bu Əsasnamə 31 dekabr 2015-ci il tarixdə qüvvədən düşür.

## Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ)

## CEPEJ-in Bürosunun qərarına əsasən CEPEJ-in struktur qurumlarının 2014-2015-ci illər üzrə tərkibi

## Avropa Məhkəmə Sistemlərinin Qiymətləndirilməsi üzrə Komitə (CEPEJ-GT-EVAL)

1. Komitənin üzvləri:

- Jan-Pol JAN (sədr), Fransa Ali Məhkəməsinin Kollegiya sədri, Poitri Hüquq Universitetinin professoru, Paris, Fransa
- Ramin QURBANOV, hakim, Bakı Şəhəri Yasamal Rayon Məhkəməsi, "Elektron məhkəmə" informasiya sisteminin yaradılması üzrə İşçi Qrupun rəhbəri, Azərbaycanda məhkəmə sisteminin müasirləşdirilməsi üzrə Dünya Bankı Layihəsinin əlaqələndiricisi, Bakı, Azərbaycan (CEPEJ-in Bürosunun üzvü)
- Frans VAN DER DOELEN, proqram üzrə menecer, Ədliyyə sistemi departamenti, Hollandiya Ədliyyə Nazirliyi, Amsterdam, Hollandiya
- Stefani MURU VİKSTROM, hakim, Birinci instansiya məhkəməsi, Məhkəmələr Şurası, Monako
- Adis HODZİÇ, Statistik Məlumat Katibliyinin rəhbəri, Ədliyyə və Prokurorluq Şurası, Sarayevo, Bosniya və Herseqovina
- Simone KREF, hakim, Ali Regional Məhkəmə, Köln, Almaniya

2. Zərurətdən asılı olaraq adları aşağıda qeyd edilmiş şəxslər elmi ekspert kimi qrupun işində iştirak edə bilərlər:

- Beata QRUZÇİNSKA, Ədliyyə İnstitutunun elmi işçisi, Ədliyyə Nazirliyi, Varşava, Polşa
- Munira DOSSAYİ, Baş əməliyyatçı – tədqiqatçı analitik, Strategiya və Yeniliklər Qrupu, London, İngiltərə

3. Aşağıda adları qeyd edilən şəxslər komitənin işində müşahidəçi kimi iştirak edə bilərlər:

- Vivyen UAYT tərəfindən təmsil edilən Avropa Məhkəmə İcraçıları (Rechtspfleger) İttifaqı (EUR)

4. CEPEJ-in Prezidenti komitənin iclaslarında iştirak edə bilər.

5. Aşağıda adları qeyd edilən qurumların nümayəndələri komitənin iclaslarında iştirak etmək üçün dəvət almışlar:

- Avropa İttifaqının qurumları.

Strasburq, 13 noyabr 2007-ci il

CEPEJ(2007)25

**Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə**
**Avropa Komissiyası**
**(CEPEJ)**

**"Məhkəmə sisteminə dair statistik məlumatlar sahəsində əməkdaşlıq prosesinin təhlili üzrə eksperimental (pilot) layihə: məqsədlər və metodologiya**

**Məqsədlər**

§ Aşağıda qeyd edilən sahələr üzrə Avropa Şurasının üzv dövlətlərinə dəstək vermək:

a. məhkəmə sistemi üzrə statistik məlumatın keyfiyyətini yüksəltmək,

b. ölkəyə aid məhkəmə sistemi üzrə statistik məlumatın CEPEJ-in Qiymətləndirmə Sxemi əsasında müəyyən edilmiş ümumi göstəricilərə uyğun gəlməsi üçün məhkəmələr üzrə statistik məlumatlar sistemlərinin işini təkmilləşdirmək.

§ Ayrı-ayrı ölkələrin məhkəmələrə dair statistik məlumat sistemləri arasında təcrübə, ən mükəmməl çalışma qaydalarına aid biliklərin, bilgilərin mübadiləsini aparmaq, fəaliyyət standartlarını müəyyən etmək.

§ Avropada məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə CEPEJ-in fəaliyyətinin şəffaflığı və mötəbərliyinin təmin olunmasına töhfə vermək, qeyd edilən fəaliyyətin təkmilləşməsinə xidmət etmək.

## Metodologiya

§ 3 pilot ölkəyə 2 günlük ekspert səfərləri (3 ekspertin iştirakı ilə). Aşağıda qeyd edilən vəzifələrin icrası məqsədilə müvafiq inzibati və məhkəmə qurumları ilə görüşlərin keçirilməsi.

§ CEPEJ tərəfindən məlumatın, o cümlədən aşağıda qeyd edilmiş məqamlara aid məlumatın toplanması və Avropa Şurasının Katibliyinə təqdim edilməsi işinin ümumi təhlili:

- Milli əlaqələndiricilər tərəfindən istifadə edilmiş mənbələr,
- Suallar toplusunun doldurulması zamanı yaranan əsas çətinliklər.

§ Qiymətləndirmə sxeminin ayrı-ayrı suallarına, əsasən də aşağıdakı suallara verilən cavabların təqdim edilməsinin təcrübədə istifadə edilən üsullarının və həmin cavabların məzmununun xüsusi təhlili:

- Büdcə məsələləri,
- Hakimlərin sayı və kateqoriyaları (peşəkar, əsas peşəsi hakimlik olmayan şəxslər),
- Məhkəmələrin səlahiyyətlərinə aid olan mülki işlər,
- Prosessual müddətlərin hesablanması üsulları,
- Müvafiq məlumat üzrə mötəbərlik dövrləri barəsində məlumatın istifadə olunması.

§ Məhkəmələr üzrə məlumatın toplanması və işlənməsi üzrə ümumi texniki metodlar, o cümlədən:

- Statistik sahə mütəxəssislərinin bu prosesdəki rolu;
- Bu işin nəticələrinin ictimaiyyət arasında açıqlanması dərəcəsi.

## Nəticələr

§ Səfərin nəticələrinə əsasən hesabatın tərtib edilməsi, hesabatda ən mükəmməl çalışma qaydaları barədə məlumat verilməsi, o cümədən, Avropa Şurasının üzv dövlətlərində məh-

kəmə sistemlərinə aid vahid şərtlərə istinadən məlumat toplanması üçün təkliflərin təqdim olunması. Bu hesabatlar CEPEJ tərəfindən təsdiq edilir. Pilot layihənin sonunda CEPEJ prosesi genişləndirmək məqsədilə onun təhlilini aparır.

**Qoşma 6**

**Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə**
**Avropa Komissiyası**
**(CEPEJ)**

**CEPEJ-in 2014-2015-ci illər üçün Fəaliyyət Proqramı**

**Məhkəmələrdə İşlərə Baxılması və Həll Edilməsi Müddətləri üzrə Tədqiqat Şəbəkəsi və ya Məhkəmə Vaxtının İdarə Olunması üzrə SATURN Mərkəzinin**
**(SATURN Centre)**

## ƏSASNAMƏSİ
**(CEPEJ-in 22-ci plenar iclasında qəbul olunmuş yeni mətndə)**

### 1. Mərkəzin vəzifələri

Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının fəaliyyət göstərən Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Mərkəzinin (SATURN Centre) məqsədi üzv dövlətlərdə məhkəmə işlərinə baxılması və həllinə sərf edilən vaxt haqqında kifayət qədər təfərrüatlı bilikləri əldə etməkdən ötrü zəruri olan müvafiq məlumatı toplamaqla, üzv dövlətlərə Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi ilə nəzərdə tutulan ədalətli araşdırma hüququnun pozulmaması və işlərə ağlabatan müddət ərzində baxılması və həllini təmin edən qaydaların tətbiqinə imkan verməkdən ibarətdir.

SATURN Mərkəzi:

a. məhkəmə işlərinə baxılması və həllinə sərf edilən vaxt üzərində Avropanın müşahidəçi qurumu kimi çıxış edib, Avropa məhkəmələrində bu sahədə kəmiyyət

və keyfiyyət xarakterli məlumatı (işlərin dövriyyəsi prosesinin idarə olunması, işlərin hər bir kateqoriyası üzrə müddətlər, məhkəmə prosesi ərzində gözləmə vaxtı və s.) təhlil edir;

b. üzv dövlətləri işlərin dövriyyəsi, işlərə baxılması zamanı baş verən ləngimələr və məhkəmə prosesinə aid olan müddətləri öyrənmək və təhlil etmək üçün vasitələrlə təmin edir;

c. məhkəmə sistemi daxilində işlərə baxılması və həlli müddətlərinin idarə olunmasına münasibətdə SATURN Mərkəzinin Qaydaları və CEPEJ-in digər metodlarının üzv dövlətlərdə icrası və yenilənməsini təmin etmək üçün təşviqat və qiymətləndirmə işlərini həyata keçirir.

Mərkəzin fəaliyyətini CEPEJ nəzdində fəaliyyət göstərməklə Res(2002)12 Saylı Qərarın 1 saylı Qoşmasının 7.2.b bəndinə müvafiq surətdə Mərkəz idarə edir.

"SATURN Mərkəzi üzrə Strateji Plan"ın (CEPEJ-SATURN(2011)5) müddəalarını icra etmək məqsədilə Mərkəz:

- üzv dövlətlərdə mərkəzləşdirilmiş qaydada və bölgələr üzrə prosessual müddətlər barədə bütün kateqoriyadan olan işlər (mülki, cinayət və inzibati) və bütün səviyyələrə aid məhkəmələr (birinci instansiya, apellyasiya məhkəmələri və ali məhkəmələr) üzrə məlumat toplayır;
- mövcud çatışmazlıqları aradan qaldırmaq məqsədilə toplanmış məlumatın tamlığı və keyfiyyətini yoxlayır;
- toplanmış məlumatın təhlilini aparır və məlumatı Avropa İnsan Haqları Məhkəməsinin qərarlarına istinadən müəyyən edilmiş prosessual müddətlər prinsiplərinə uyğun olaraq təsnifatlaşdırır;
- prosessual müddətlərə dair qayda və standartları müəyyən edir;

- ədalət mühakiməsi sisteminə aid olan bütün dövlət orqanları: qanunverici orqanlar, ədalət mühakiməsinin həyata keçirilməsi prosesində iştirak edən orqanlar, məhkəmə rəhbərləri, hakimlər, prokurorlar, polis əməkdaşları;
- bütün növlərdə olan işlər üzrə (mülki, cinayət və inzibati);
- bütün səviyyələrə aid məhkəmələr (birinci instansiya, apellyasiya məhkəmələri və ali məhkəmələr) üzrə;
- üzv dövlətlərdə hazırlanmış qaydalar, standartlar və toplanmış məlumatın təhlili nəticələri barədə məlumatı paylaşır.

§ məhkəmələrdə işlərə baxılması və həllinə sərf edilən vaxtın idarə olunması ilə əlaqədar vasitələrin, əlalxüsus SATURN Mərkəzi tərəfindən işlənib hazırlanmış metodların istifadəsini bütün üzv dövlətlərdə təşviq edir və bunun vasitəsilə üzv dövlətlərə onların məhkəmələrində işlərə baxılması və həllinə sərf edilən vaxt üzrə məlumatın təhlilini aparmaq və prosessual hərəkətlərin icrası zamanı yaranan hər hansı ləngimələri aradan qaldırmaq üçün tədbirləri həyata keçirmək imkanı verir;

§ prosessual hərəkətlərin icrası zamanı daha çox ləngimələrə yol verildiyi üzv dövlətlərə münasibətdə və onların razılığı ilə, qeyd edilən dövlətlərdə məhkəmələrdə işlərə baxılması və həllinə sərf edilən vaxtın idarə olunması üçün vəziyyəti, preventiv və fəal vasitəsilə yaxşılaşdırmaq imkanı verən işlərin həyata keçirilməsi.

- üzv dövlətlərdə məhkəmələrdə işlərə baxılması və həllinə sərf edilən vaxtın idarə olunmasının tənzimlənməsi üçün məhkəmə sistemi tərəfindən təqdim edilən rəylərin iş zamanı nəzərə alınması məqsədilə müvafiq şəbəkələrin, əlalxüsus da üzv dövlətlər daxilində pilot məhkəmələr şəbəkəsinin fəaliyyətindən bəhrələnmək;
- SATURN Mərkəzinin müvafiq Rəhbər Sənədinə əsasən (CEPEJ-SATURN(2011)9) CEPEJ-in metod və vasitələrinin səmərəli istifadəsi məqsədilə məhkəmələrdə tə-

lim proqramlarını könüllü surətdə təşkil etmək və həyata keçirmək.

### 2. Mərkəzin tərkibi

Mərkəz üzv dövlətlərin təklif etdiyi, CEPEJ-in Bürosu tərəfindən təyin olunan, prosessual müddətlər sahəsində mükəmməl biliklərə malik olan CEPEJ-in 6 üzvündən (ekspertindən) ibarətdir. Qrupun üzvlərinin yol və gündəlik xərcləri Avropa Şurasının büdcəsi hesabına ödənilir. Üzv dövlətlərin təyin etdikləri digər ekspertlər də, müvafiq dövlətlərin hesabına olmaqla, Mərkəzin işində iştirak edə bilər.

Avropa Şurasının və Avropa İttifaqının müxtəlif qurumlarının nümayəndələri səs vermək hüququ olmadan və xərcləri üçün kompensasiya ödənilmədən Mərkəzin işində iştirak edə bilərlər.

Ayrı-ayrı hallarda, CEPEJ Bürosu qeyd edilən təşkilatların iştirakının Mərkəzin işinin keyfiyyətinə müsbət təsir göstərə bilməsi qənaətində olduqda, CEPEJ-ə münasibətdə müşahidəçi statusuna malik olan qeyri-hökumət təşkilatları Büro tərəfindən Mərkəzin işində iştirak etmək üçün dəvət oluna bilər.

### 3. İş strukturu və metodologiya

Büdcədən vəsaitlərin ayrılması şərti ilə Mərkəz tərəfindən 4 iclas keçirilir.

Əsasnamənin şərtlərini icra edərkən Mərkəz CEPEJ-in Pilot Məhkəmələr Şəbəkəsi ilə əməkdaşlıq edir. Qeyd edilənlərə əlavə olaraq, Mərkəz işini CEPEJ-in digər struktur qurumları (əlalxüsus Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitəsi və Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsi) ilə əlaqələndirməlidir

Bu Əsasnamənin müddəalarının yerinə yetirilməsi məqsədilə Mərkəz kənar ekspertlərin məsləhətlərinə müraciət və onlar tərəfindən hazırlanmış tədqiqat hesabatlarına istinad edə bilər.

### 4. Əsasnamənin qüvvədə olduğu müddət

Bu Əsasnamə 31 dekabr 2015-ci il tarixdə qüvvədən düşür.

**Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə
Avropa Komissiyası
(CEPEJ)**

**CEPEJ-in Bürosunun qərarına əsasən komitələrinin 2014-2015-ci illər üzrə tərkibi**

**Məhkəmələrdə İşlərə Baxılması və Həll Edilməsi Müddətləri üzrə Tədqiqat Şəbəkəsi və ya Məhkəmə Vaxtının İdarə Olunması üzrə**

**SATURN Mərkəzinin tərkibi**

1. Mərkəzin üzvləri:

- Jak BÜHLER – Mərkəzin sədri, Baş katibin müavini, Federal Ali Məhkəmə, Lüçern, İsveçrə
- İrakli ADEİŞVİLİ – Mülki işlər üzrə kollegiya sədri, Tbilisi Apellyasiya Məhkəməsi, Tbilisi, Gürcüstan
- İvana BORZOVA – Mülki işlərə nəzarət departamentinin rəhbəri, Ədliyyə Nazirliyi, Praqa, Çex Respublikası (CEPEJ-in Bürosunun üzvü)
- İvan KRNSEÇ – Ədliyyə nazirinin köməkçisi, Zaqreb, Xorvatiya
- Françesko DEPASKUALE – Hüquq müşaviri, Məhkəmələr üzrə Baş Direktorluq, Ədliyyə və Daxili İşlər Nazirliyi, Malta
- Ciakomo OBERTO – Hakim, Birinci instansiya məhkəməsi, Torino, İtaliya

2. Zərurətdən asılı olaraq adları aşağıda qeyd edilmiş şəxslər elmi ekspert kimi Mərkəzin işində iştirak edə bilərlər:

- Marko FABRİ, Məhkəmə Sistemləri üzrə Tədqiqat İnsti-

tutunun direktoru, Milli Tədqiqat Şurası, Boloniya, İtaliya

- Jon JONSEN, hüquq elmləri doktoru, professor, Hüquq fakültəsi, Oslo Universiteti, Norveç

3. Mərkəzin iclaslarında aşağıda adları qeyd edilmiş şəxs müşahidəçi qismində iştirak edəcək:

- Mişel Krame tərəfindən təmsil olunan Avropa Məhkəmə İcraçıları (Rechtspfleger) İttifaqı (EUR)

4. CEPEJ-in Prezidenti Mərkəzin iclaslarında iştirak edə bilər.

5. Aşağıda adları qeyd edilən qurumların nümayəndələri Mərkəzin iclaslarında iştirak etmək üçün dəvət almışlar:

- Avropa İttifaqının təşkilatları
- Dünya Bankı

**Qoşma 7**

## Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ)

## CEPEJ-in 2014-2015-ci illər üçün Fəaliyyət Proqramı

## Ədalət Mühakiməsi Sisteminin Keyfiyyəti üzrə Komitənin (CEPEJ-GT-QUAL)

## ƏSASNAMƏSI (CEPEJ-in 22-ci plenar iclasında qəbul olunmuş yeni mətndə)

Res(2002)12 saylı Qərarın 1 saylı Əlavəsinin 7.2.b bəndinə müvafiq olaraq və Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) nəzdində fəaliyyət göstərməklə Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL) ədalət mühakiməsi sisteminin vətəndaşlara ünvanlanan fəaliyyətinin keyfiyyətini, o cümlədən ədalət mühakiməsi sahəsində çalışan peşəkarların, məhkəmələrə müraciət edən şəxslərin etimadını yüksəltmək məqsədilə ümumi konsensus əsasında tərif edilən çalışma və səmərəlilik meyarlarına istinadən üzv dövlətlərdəki məhkəmələrin apardığı işi təhlil etmək və qiymətləndirmək üçün metodlar işləyib hazırlamaq üçün məsuldur.

Bu vəzifəni icra etmək üçün Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL) hakimlərin müstəqilliyi prinsipinə riayət etmək şərti ilə:

a. ədalət mühakiməsi sisteminin fəaliyyətinin keyfiyyətini müəyyən etmək üçün göstərici, üsul və vasitələ-

rin, qeyd edilən sistemin vətəndaşlar tərəfindən necə qəbul edilməsinin yaxşılaşdırılması və təkmilləşdirilməsi;

b. məhkəmə sisteminin quruluşunu təkmilləşdirmək üçün, siyasi dairələr və məhkəmələr üçün, ələlxüsus da məhkəmələrə müraciət imkanlarının genişləndirilməsi və məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılması məqsədilə konkret təkliflərin hazırlanması;

c. məhkəmələrin işindəki çatışmazlıqları aradan qaldırmağa və bir tərəfdən hakimlərin işi ilə məhkəmələrin üzərinə düşən iş yükü işləri, digər tərəfdən isə vətəndaşları keyfiyyətli ədalət mühakiməsi sistemi ilə təmin etmək vəzifəsi arasında olan tarazlığı təmin etmək üçün konkret təkliflərin hazırlanması;

d. ədalət mühakiməsinin keyfiyyəti ilə əlaqədar Avropa ölkələrinin məhkəmələri üçün CEPEJ tərəfindən işlənib hazırlanmış metod və vasitələr.

Bu vəzifələri həyata keçirmək üçün komitə:

- məhkəmələrə müraciət edən şəxslərin məmnunluq sorğuları üçün Rəhbər Sənədin məhkəmələr arasında səmərəli icrası, bu sorğuların nəticələrinin təhlilini aparır, nəticədə məhkəmələr üçün (könüllü əsasda) təlim proqramını həyata keçirir;
- Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitə və Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Mərkəzi ilə sıx təmasda çalışaraq, məhkəmələrin işinin keyfiyyətini qiymətləndirməyə imkan verən göstəriciləri dəqiqləşdirir və məhkəmələrdə sınaqdan keçirir;
- məhkəmə ekspertlərinin işinin keyfiyyətini təşviq etdirmək üçün metod və vasitələr işləyib hazırlayır;
- məhkəmələrdən istifadə imkanları və məhkəmələrin işinin təşkili barədə rəhbər qaydaları hazırlayır;

- Avropa İttifaqının Fundamental Hüquqlar Agentliyi ilə əməkdaşlıqda ədalət mühakiməsi sistemindən istifadə üzrə rəhbər qaydaları işləyib hazırlayır;
- Məhkəmə qərarlarının icrası üzrə CEPEJ-in Rəhbər Qaydalarını təşviq etdirir və məhkəmə icraçılarının səlahiyyətləri, məhkəmə qərarlarının iş metodları haqqında siyasi dairələr üçün rəhbər qaydalar tərtib edir;
- "Ədalət mühakiməsi və məhkəmələrin fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi üzrə Yoxlama Siyahısı"nı nəzərə alaraq, üzv dövlətlərdə ədalət mühakiməsi sisteminin işinin keyfiyyətini yüksəltmək üçün digər metod və vasitələri işləyib hazırlayır;
- CEPEJ-in müvafiq metod və vasitələrinin münasib qaydada tərcümə olunması və paylanmasını təşviq etdirir.

### 2. Komitənin tərkibi

Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL) üzv dövlətlərin təklif etdiyi, CEPEJ-in Bürosu tərəfindən təyin olunan, məhkəmələrin işinin təşkili və məhkəmələrin fəaliyyətinin təhlili sahəsində mükəmməl biliklərə malik olan CEPEJ-in 6 üzvündən və ya ekspertdən ibarətdir. Komitənin üzvlərinin yol və gündəlik xərcləri Avropa Şurasının büdcəsi hesabına ödənilir. Üzv dövlətlərin təyin etdikləri digər ekspertlər də, müvafiq dövlətlərin hesabına olmaqla, komitənin işində iştirak edə bilərlər.

Avropa Şurasının və Avropa İttifaqının müxtəlif qurumlarının nümayəndələri, səs vermək hüququ olmadan və xərcləri üçün kompensasiya ödənilmədən, Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitənin (CEPEJ-GT-QUAL) işində iştirak edə bilərlər.

Ayrı-ayrı hallarda CEPEJ-ə münasibətdə müşahidəçi statusuna malik olan qeyri-hökumət təşkilatları CEPEJ-in Bürosu tərəfindən Ədalət mühakiməsi sisteminin keyfiyyəti ürə Komitənin (CEPEJ-GT-QUAL) işində iştirak etmək üçün dəvət oluna bilərlər.

### 3. İş strukturu və metodologiya

Büdcədən vəsait ayrılması şərti ilə Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL) tərəfindən 4 iclas keçirilir.

Əsasnamənin şərtlərini icra edərkən Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL) CEPEJ-in Pilot Məhkəmələr Şəbəkəsi ilə əməkdaşlıq edir. Qeyd edilənlərə əlavə olaraq, Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL) işini CEPEJ-in digər struktur qurumları (ələlxüsus Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitə və Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Mərkəzi) ilə əlaqələndirməlidir.

Bu Əsasnamənin müddəalarının yerinə yetirilməsi məqsədilə komitə kənar ekspertlərin məsləhətlərinə müraciət edə və məsləhətçilər tərəfindən hazırlanmış tədqiqat hesabatlarına istinad edə bilər.

### 4. Əsasnamənin qüvvədə olduğu müddət

Bu Əsasnamə 31 dekabr 2015-ci il tarixdə qüvvədən düşür.

## Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ)

## CEPEJ-in Bürosunun qərarına əsasən komitələrin 2014-2015-ci illər üzrə tərkibi

## Ədalət Mühakiməsi Sisteminin Keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL)

1. Komitənin üzvləri:

- Fransua PEYŞER Sədr, İsveçrənin və Cenevrə Kantonunun Auditorlar Məhkəməsinin sədri, Cenevrə, İsveçrə
- Joao ARSENİO DE OLİVEYRA, Hüquq müşaviri, Siyasi məsələlər üzrə Baş Direktorluq, Ədliyyə Nazirliyi, Lissabon, Portuqaliya
- Fabio BARTOLOMEO, Statistik məlumat üzrə direktor, Ədliyyə Nazirliyi, Roma, İtaliya
- Anke EYLER, Apellyasiya Məhkəməsinin hakimi, Köln, Almaniya
- Nikolina MİŞKOVİÇ, Kommersiya Məhkəməsinin hakimi, Riyeka, Xorvatiya
- İoannis SİMEONİDİS, Apellyasiya Məhkəməsinin hakimi və Yunanıstanın Saloniki Universitetinin Hüquq fakültəsinin professoru, Yunanıstan

2. Zərurətdən asılı olaraq, adları aşağıda qeyd edilmiş şəxslər elmi ekspert kimi komitənin işində iştirak edə bilərlər:

- Gil AKKOMANDO, Avinyon Birinci instansiya məhkəməsinin sədri, Fransa
- Yinka TEMPELMAN, Məhkəmə sisteminin keyfiyyəti üzrə Hollandiya Şurasının keyfiyyət məsələləri üzrə me-

neceri, Amsterdam, Hollandiya

- Jon MARSTON, İngiltərə və Uelsin Ali Məhkəməsinin Məhkəmə İcraçıları Şurasının sabiq prezidenti, London, İngiltərə

3. Aşağıda adları qeyd edilən şəxslər komitənin işində müşahidəçi kimi iştirak edə bilərlər:

- Jan-Raymon LEMAR tərəfindən təmsil edilən Avropa Məhkəmə Ekspertizası və Ekspertləri İnstitutu (EEEI)
- Jan-Mari SİSKO tərəfindən təmsil edilən Avropanın Məhkəmə Şuraları Şəbəkəsi (ENCJ)
- Jan-Jak KUSTER tərəfindən təmsil edilən Avropa Məhkəmə İcraçıları (Rechtspfleger) İttifaqı (EUR)
- Matyu ŞARDON tərəfindən təmsil edilən Avropa Məhkəmə Məmurları İttifaqı (UIHJ)
- Simon KUOMO tərəfindən təmsil edilən Avropa Vəkillər Birlikləri və Kollegiyaları Şurası (CCBE)

4. CEPEJ-in Prezidenti komitənin iclaslarında iştirak edə bilər.

5. Aşağıda adları qeyd edilən qurumların nümayəndələri komitənin iclaslarında iştirak etmək üçün dəvət almışlar:

- Avropa İttifaqının təşkilatları
- Dünya Bankı

**Qoşma 8**

**Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə**
**Avropa Komissiyası**
**(CEPEJ)**

**Mediasiya üzrə Komitənin**
**(CEPEJ-GT-MED)**

**ƏSASNAMƏSİ**
**(CEPEJ tərəfindən Komissiyanın 6-cı plenar iclasında qəbul edilmişdir)**

**1. Komitənin vəzifələri**

Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) nəzdində fəaliyyət göstərərək Mediasiya üzrə Komitə (CEPEJ-GT-MED) mübahisələrin həllində istifadə edilən vasitəçilik üsulu ilə əlaqədar Nazirlər Komitəsinin tövsiyələrinin daha mükəmməl icrasına xidmət edir.

Bu məqsədə nail olmaq üçün Mediasiya üzrə Komitə (CEPEJ-GT-MED) ələlxüsus aşağıda qeyd edilən işləri həyata keçirir:

a. mediasiya üsulu ilə əlaqədar Nazirlər Komitəsinin mövcud tövsiyələrinin, yəni Ailə münasibətlərinə aid Mediasiyaya dair Rec(98)1 saylı Tövsiyə, Cinayət işlərinə aid Mediasiyaya dair Rec(99)19 saylı Tövsiyə; İnzibati orqanlarla vətəndaşlar arasında mübahisələrə aid Mediasiyaya dair Rec(2001)9 saylı Tövsiyə; Mülki işlərə aid Mediasiyaya dair Rec(2002)10 saylı Tövsiyənin üzv dövlətlərdə icrasının qiymətləndirilməsi;

b. mövcud tövsiyələrin daha mükəmməl icrası ilə əlaqədar, münasib hallarda, qaydaların və xüsusi tədbirlər ba-

rəsində təkliflərin işlənib hazırlanması;

c. digər qurumların fəaliyyətini, əlalxüsus da Avropa İttifaqının işini nəzərə alaraq, münasib hallarda, yeni beynəlxalq hüquqi sənədlərin qəbul edilməsi və ya mövcud beynəlxalq hüquqi sənədlərə əlavə və dəyişikliklər edilməsi zərurəti olan sahələr barədə təkliflərin təqdim olunması.

**2. Komitənin tərkibi**

Mediasiya üzrə Komitə (CEPEJ-GT-MED) üzv dövlətlərin təklif etdiyi, CEPEJ-in Bürosu tərəfindən təyin olunan, vasitəçilik və mübahisələrin həllinin digər alternativ üsulları sahəsində mükəmməl biliklərə malik olan CEPEJ-in 6 üzvündən və ya fəaliyyətdə olan mütəxəssislərdən ibarətdir. Komitənin üzvlərinin yol və gündəlik xərcləri Avropa Şurasının büdcəsi hesabına ödənilir. Üzv dövlətlərin təyin etdikləri digər ekspertlər də, müvafiq dövlətlərin hesabına olmaqla, komitənin işində iştirak edə bilər.

Avropa Şurasının müvafiq qurumlarının, xüsusən də Hüquqi Əməkdaşlıq üzrə Avropa Komissiyasının (CDCJ) və Avropa İttifaqının müxtəlif qurumlarının nümayəndələri, səs vermək hüququ olmadan və xərcləri üçün kompensasiya ödənilmədən, komitənin işində iştirak edə bilərlər.

Ayrı-ayrı hallarda, CEPEJ Bürosu qeyd edilən təşkilatların iştirakının komitənin işinin keyfiyyətinə müsbət təsir göstərə bilməsi qənaətində olduqda, CEPEJ-ə münasibətdə müşahidəçi statusuna malik olan qeyri-hökumət təşkilatları Büro tərəfindən Mediasiya üzrə Komitənin (CEPEJ-GT-MED) işində iştirak etmək üçün dəvət oluna bilərlər.

**3. İş strukturu və metodologiya**

İl ərzində Mediasiya üzrə Komitə (CEPEJ-GT-MED) tərəfindən iki iclas keçiriləcək.

Bu Əsasnamənin müddəalarının yerinə yetirilməsi məqsədilə komitə kənar ekspertlərin məsləhətlərinə müraciət edə və məsləhətçilər tərəfindən hazırlanmış tədqiqat hesabatlarına istinad edə bilər.

**4. Əsasnamənin qüvvədə olduğu müddət**

Bu Əsasnamə 31 dekabr 2006-cı il tarixdə qüvvədən düşür.

**Qoşma 9**

## Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ)

## Məhkəmə Qərarlarının İcrası üzrə Komitənin (CEPEJ-GT-EXE)

## ƏSASNAMƏSİ (CEPEJ tərəfindən Komissiyanın 12-ci plenar iclasında qəbul edilmişdir)

### 1. Komitənin vəzifələri

Res(2002)12 saylı Qərarın 1 saylı Əlavəsinin 7.2b bəndinə əsasən və Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) səlahiyyətlərinə uyğun olaraq Məhkəmə qərarlarının icrası üzrə Komitə (CEPEJ-GT-EXE) ölkə səviyyəsində mülki, iqtisadi və inzibati işlər üzrə məhkəmə qərarlarının icrasına münasibətdə Avropa Şurası tərəfindən qəbul edilmiş müvafiq standartların daha mükəmməl icrasına şərait yaratmaq məqsədinə xidmət edir.

Bu məqsədə nail olmaq üçün Məhkəmə qərarlarının icrası üzrə Komitə (CEPEJ-GT-EXE) ələlxüsus aşağıda qeyd edilən işləri yerinə yetirir:

a. ölkə səviyyəsində məhkəmə qərarlarının icrası ilə əlaqədar Avropa Şurasının müvafiq mövcud sənədlərinin icrasının təsirinin qiymətləndirilməsi;

b. münasib olduqda, Avropa Şurasının mövcud standartlarının səmərəli tətbiqinə xidmət edən qaydaların işlənib hazırlanması;

c. münasib olduqda, məhkəmə qərarlarının icrası sistemindən istifadə imkanlarının genişləndirilməsi və məhkəmə qərarlarının icrası işinin səmərəliliyinin yüksəldilməsi məqsədilə keyfiyyət standartlarının işlənib hazırlanması.

Bu işləri yerinə yetirmək üçün Məhkəmə qərarlarının icrası üzrə Komitə (CEPEJ-GT-EXE) CEPEJ tərəfindən qəbul edilmiş müvafiq sənədləri, o cümlədən məhkəmə qərarlarının icrası ilə əlaqədar CEPEJ tərəfindən təsdiq edilmiş tədqiqatın nəticələrini (CEPEJ(2007)9) nəzərə alacaq.

**2. Komitənin tərkibi**

Məhkəmə qərarlarının icrası üzrə Komitə (CEPEJ-GT-EXE) üzv dövlətlərin təklif etdiyi, CEPEJ-in Bürosu tərəfindən təyin olunan, məhkəmə qərarlarının icrası sahəsində mükəmməl biliklərə malik olan CEPEJ-in 6 üzvündən və ya fəaliyyətdə olan mütəxəssislərdən ibarətdir. Qrupun üzvlərinin yol və gündəlik xərcləri Avropa Şurasının büdcəsi hesabına ödənilir. Üzv dövlətlərin təyin etdikləri digər ekspertlər də, müvafiq dövlətlərin hesabına olmaqla, komitənin işində iştirak edə bilər.

Avropa Şurasının müvafiq qurumlarının, xüsusən də Hüquqi Əməkdaşlıq üzrə Avropa Komissiyasının (CDCJ) və Avropa İttifaqının müxtəlif qurumlarının nümayəndələri, səs vermək hüququ olmadan və xərcləri üçün kompensasiya ödənilmədən komitənin işində iştirak edə bilər.

Ayrı-ayrı hallarda CEPEJ Bürosu qeyd edilən təşkilatların iştirakının komitənin işinin keyfiyyətinə müsbət təsir göstərə bilməsi qənaətində olduqda, CEPEJ-ə münasibətdə müşahidəçi statusuna malik olan qeyri-hökumət təşkilatları Büro tərəfindən Məhkəmə qərarlarının icrası üzrə Komitənin (CEPEJ-GT-EXE) işində iştirak etmək üçün dəvət oluna bilər.

**3. İş strukturu və metodologiya**

İl ərzində, ayrılan büdcə vəsaitləri nəzərə alınmaqla, Məhkə-

mə qərarlarının icrası üzrə Komitə (CEPEJ-GT-EXE) tərəfindən 2 iclas keçiriləcək.

Bu Əsasnamənin şərtlərini icra edərkən Məhkəmə qərarlarının icrası üzrə Komitə (CEPEJ-GT-EXE) CEPEJ-in Pilot Məhkəmələr Şəbəkəsi ilə əməkdaşlıq edə bilər.

Qeyd edilənlərə əlavə olaraq, komitə kənar ekspertlərin məsləhətlərinə müraciət edə və məsləhətçilər tərəfindən hazırlanmış tədqiqat hesabatlarına istinad edə bilər.

### 4. Əsasnamənin qüvvədə olduğu müddət

Bu Əsasnamə 31 dekabr 2009-cu il tarixdə qüvvədən düşür.

**Qoşma 10**

Strasburq, 9 noyabr 2009-cu il

CEPEJ(2009)12

**Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ)**

**Lissabon Şəbəkəsinin CEPEJ-in fəaliyyət proqramına mümkün inteqrasiya etmək barədə**

**HESABAT**

İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluq tərəfindən hazırlanmışdır

**I. Ümumi məlumat**

Hüquq sahəsində təhsil və təlim Avropada ümumi hüquq mədəniyyətinin inkişafı üçün zəruri şərt və məhkəmə sisteminin hörmət və etimada sahib olması üçün mütləq amildir. Avropa Şurası səviyyəsində, ümumi maraq doğuran məsələlər barəsində məlumat mübadiləsi aparmaq, Mərkəzi və Şərqi Avropanın yeni demokratiyalarında hüquq sahəsində təhsil və təlim imkanlarını dəstəkləmək, təşkil etmək və daha da inkişaf etdirmək məqsədilə hüquqi əməkdaşlıq proqramları çərçivəsində üzv dövlətlərin hüquq sahəsində təhsil və təlimə dəstək şəbəkəsi yaradılmışdır (Lissabon Şəbəkəsi).

Lissabon Şəbəkəsi Avropa Şurasının üzv dövlətlərinin hüquq sahəsində təhsil və təlim qurumlarının nümayəndələrindən ibarətdir. Avropanın Hüquqi Təlim Şəbəkəsi və Litvanın Hüquqi Təlim İnstitutu Şəbəkədə müşahidəçi qismində, səsvermək

hüququ olmadan iştirak edirlər. 2006-cı ildə qəbul edilmiş strateji sənədində Lissabon Şəbəkəsi qeyd etmişdir ki, "hüquq sahəsini təmsil edənlər üçün düzgün təhsil və təlim təqdim olunmazsa, məhkəmə sistemi səmərəli fəaliyyət göstərə bilməyəcək və ictimaiyyətin etimadından məhrum olacaq. Hakim və dövlət ittihamçıları üçün münasib təhsil və təlim onların müstəqilliyi və səmərəli işinin açarıdır." 1995-ci ildən etibarən 2008-ci ilə qədər olan dövr ərzində Lissabon Şəbəkəsinin üzvləri mütəmadi olaraq plenar iclaslar formatında görüşürlər. Lakin bundan başqa, Lissabon Şəbəkəsi ixtisaslaşmış əməkdaşlıq proqramlarının icrasını dəstəkləmək məqsədilə mövcudluğu hansısa bir hüquqi formaya salmadan, zərurət olduqca, fəaliyyət göstərmişdir.

## II. Avropa səviyyəsində hüquq sahəsində təhsil və təlim

Hüquq sahəsində təhsil və təlimdə əsas rolu, əvvəllər olduğu kimi, müvafiq ölkələrdə fəaliyyət göstərən daxili hüquq tədrisi müəssisələri oynayır və bu sahədə təhsilin təşkili üçün başlıca məsuliyyəti hər bir üzv dövlət özü daşıyır. Avropa Şurası səviyyəsində bu sahədə tədris, təlim və təcrübə mübadiləsində digər qurumlar da iştirak edir – misal üçün, CEPEJ-ə müşahidəçi qismində iştirak edən Avropa Hüquqi Tədris və Təlim Şəbəkəsi (EJTN).

Avropa Şurası səviyyəsində qəbul edilmiş bir neçə sənəd birbaşa və ya dolayısı ilə hakim və dövlət ittihamçıları üçün nəzərdə tutulan ilkin və davamlı tədris və təlim məsələlərini əhatə edir:

- “Ölkə və Avropa səviyyəsində hakimlər üçün münasib ilkin və davamlı tədris və təlim üzrə” Avropa Şurasının Nazirlər Komitəsinə ünvanlanmış CCJE N°4 saylı Rəy;
- “Hakimlərin müstəqilliyi, səmərəli işi və rolu haqqında” Nazirlər Komitəsinin Rec(94)12 saylı Tövsiyəsi;
- “Cinayət mühakiməsi sistemi çərçivəsində dövlət it-

tihamçılarının rolu haqqında" Nazirlər Komitəsinin Rec(2000)19 saylı Tövsiyəsi;

- "Hakimlərin statusu haqqında" Avropa Xartiyası.

## III. Lissabon Şəbəkəsi CEPEJ Şəbəkəsinin bir hissəsi kimi

Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının yaradılması haqqında Res(2002)12 saylı Qərarda bu Komissiyanın yaradılmasına təkan vermiş prinsiplər arasında aşağıda qeyd edilənlər də verilmişdir: "*i. İlkin və davamlı tədris və təlim ədalət mühakiməsi sistemi çərçivəsində çalışan hər bir kəsin hüququ və ədalət mühakiməsinin öz vəzifələrini həyata keçirməsinə münasibətdə mütləq şərtdir. ii. Hüquq sahəsində işləyən bütün şəxslər üçün ilkin və davamlı tədris və təlim imkanları təmin olunmalıdır (...)*".

Qeyd edilənlərdən başqa, CEPEJ-in Əsasnaməsinin 3.e maddəsinə müvafiq olaraq, CEPEJ vəzifələrini ədalət mühakiməsi sahəsində çalışan peşəkarlar şəbəkəsini yaratmaqla həyata keçirməlidir.

Hüquq sahəsində tədris və təlim müəssisələri məhkəmə sisteminin müstəqilliyi, səmərəliliyi və keyfiyyətinin təmin edilməsi işində mühüm vasitələrdir. Hüquq sahəsini təmsil edən tədris və təlim müəssisələrinin belə bir şəbəkəsinin CEPEJ üçün də əhəmiyyəti böyükdür. Belə ki, bu halda hüquq sahəsində tədris və təlim məsələləri CEPEJ-in işində daha yüksək səviyyədə nəzərə alınacaq. Eyni ilə qeyd edilən tədris və təlim müəssisələri, öz növbəsində, ədalət mühakiməsinin səmərəliliyi və keyfiyyəti məsələlərini tədris və təlim proqramlarında nəzərə ala bilər – ələlxüsus CEPEJ-in daha yaxşı tanınan və hüquq sahəsinin təmsilçiləri tərəfindən daha geniş istifadə edilən vasitələrinin köməkliyi ilə.

Bu səbəbdən hazırkı hesabatın məqsədi CEPEJ üzvlərinə təşkilatın nəzdində Lissabon Şəbəkəsini yaratmaq imkanlarının nəzərdən keçirilməsinin təklif olunması və Şəbəkəyə CEPEJ-

in işini tamamlaya və daha da təkmilləşdirə biləcək vəzifələrin tapşırılmasıdır.

### IV. CEPEJ-in Fəaliyyət Proqramı çərçivəsində Lissabon Şəbəkəsinin üzərinə düşə bilən potensial vəzifə və öhdəliklər

Təcrübə mübadiləsini genişləndirməklə və Avropada hüquq sahəsində tədris və təlimin keyfiyyəti standartlarını işləyib hazırlamaqla CEPEJ hakimlər və dövlət ittihamçıları üçün tədris və təlim proqramları təqdim edən müəssisələr arasında əməkdaşlığı təşviq etdirə bilər.

Lissabon Şəbəkəsi CEPEJ-in məşvərətçi orqanı kimi çıxış edə bilər.

Bu məqsədlə əlaqədar ələlxüsus Lissabon Şəbəkəsi:

a. üzv dövlətlərə hüquq sahəsində tədris və təlim vasitəsilə ədalət mühakiməsinin səmərəliliyinin artırılması və keyfiyyətinin yüksəldilməsi məsələləri ilə bağlı məsləhətlər təqdim etməklə CEPEJ-in fəaliyyətini dəstəkləyə bilər;

b. Komissiya tərəfindən Avropa dövlətlərində məhkəmə sistemlərinin qiymətləndirilməsi prosesi çərçivəsində hüquq sahəsində tədris və təlim məsələləri ilə əlaqədar CEPEJ-ə məsləhətlərin təqdim olunması, bu işdən əldə edilən müvafiq məlumatın müfəssəl təhlilinin aparılması;

c. CEPEJ-in (ələlxüsus məhkəmələrdə işlərə baxılması və həlli müddətinin idarə olunması, ədalət mühakiməsinin keyfiyyəti, vasitəçilik, məhkəmə qərarlarının icrası) işi haqqında yeni (ilkin təlim) və təcrübəli (peşə fəaliyyəti ərzində təlim) hakim və dövlət ittihamçıları arasında məlumatın paylanması və Komissiyanın fəaliyyətinin dəstəklənməsi;

d. hüquq sahəsində tədris və təlim müəssisələrinin daxilində CEPEJ-in müvafiq metod və rəhbər qaydalarının sınaqdan keçirilməsi;

e. ayrı-ayrı dövlətlərin və Avropanın ədalət mühakiməsi orqanları, hakimlərin və dövlət ittihamçılarının peşə tədrisi və təlimi üçün məsul olan müəssisələr arasında dialoqun təşviq etdirilməsi;

f. tədris və təlim müəssisələrinə qəbul sınaqlarının tərtib edilməsi işində köməkliyin təqdim olunması (ələlxüsus söhbət məhkəmələrin işinin idarə edilməsindən getdikdə);

g. ədalət mühakiməsinin səmərəliliyi və keyfiyyəti, idarəçilik vərdişləri və s. barədə ayrı-ayrı tədris proqramları və təlim metodologiyalarının hazırlanması işinə köməklik göstərilməsi;

h. beynəlxalq hüquq sənədləri üzrə təlimin qiymətləndirilməsi üçün sistemin işlənib hazırlanması;

i. hüquq sahəsində tədqiqatlar üzrə qaydaların müəyyən edilməsi;

j. "Avropa Şurasının qəbul etdiyi standartların minimum toplusu" və "Hakim və dövlət ittihamçılarına kibercinayətlərlə mübarizə sahəsindəki təlim haqqında konseptual Hesabat"ın müddəalarının icrası işində tədris və təlim müəssisələrinə köməklik göstərilməsi.

Bu işləri yerinə yetirmək üçün ələlxüsus Lissabon Şəbəkəsi:

- tədris və təlim metodları, məsafədən tədris imkanları və əvəzsiz yardım üzrə siyasətlər sahəsində əməkdaşlığın genişləndirilməsi məqsədilə təkliflərin təqdim olunması

üçün üzv dövlətlərdə hakim və dövlət ittihamçılarının tədris və təliminə aid müvafiq və mövcud məlumatın təhlili;

- hakim və dövlət ittihamçılarının tədrisi və təlimi, onların təyin olunması, peşə fəaliyyətlərinin qiymətləndirilməsi və ədalət mühakiməsinin səmərəliliyi və keyfiyyətinə necə təsir göstərmələri barədə zəruri məlumatın toplanması;
- üzv dövlətlərdə hüquq sahəsində tədris və təlim müəssisələrinin struktur və funksional cəhətlərinin təkmilləşdirilməsi məqsədilə yeni layihələrin həyata keçirilməsi imkanlarını nəzərdən keçirmək məqsədilə hüquq dairəsinin əməyi və işinin nəticələrindən bəhrələnmək üçün müvafiq şəbəkələr, o cümlədən CEPEJ-in Pilot Məhkəmələr Şəbəkəsi ilə əməkdaşlığın həyata keçirilməsi.

**V. Şəbəkənin tərkibi**

Lissabon Şəbəkəsi 47 üzv dövlətin hüquq sahəsindəki tədris və təlim üçün məsul olan müəssisələrinin nümayəndələrindən ibarətdir. İdeal olaraq, nümayəndə ya müvafiq tədris və təlim müəssisəsində rəhbər vəzifədə işləməli, yaxud da ki, ilki və/yaxud davamlı təlimin təşkilində istifadə edilən tədris proqramının işlənib hazırlanmasında iştirak edən bir kəs olmalıdır.

Lissabon Şəbəkəsinin iclasları mütəmadi olaraq CEPEJ-in nəzdində keçirilə bilər.

Lissabon Şəbəkəsində 4 üzvdən (ekspertdən) ibarət olan rəhbər komitə fəaliyyət göstərir. Rəhbər komitənin üzvlərinin namizədlikləri üzv dövlətlər tərəfindən irəli sürülür və rəhbər komitənin üzvləri vəzifəyə CEPEJ-in Bürosu tərəfindən 1 il müddətinə təyin olunur. Rəhbər komitə Lissabon Şəbəkəsi üçün ümumi fəaliyyət siyasəti müəyyən edən, onun iş proqramını təhlil və təsdiq edən qurumdur. Zəruri hallarda rəhbər komitə işçi qrup formasında çalışa bilər. Bu halda rəhbər komitəyə müvafiq sahə üzrə müfəssəl biliklərə sahib ola bilən ekspertlər təyin edilir.

Rəhbər komitənin üzvlərinin yol və gündəlik xərcləri Avropa Şurasının büdcəsi hesabına ödənilir. Üzv dövlətlərin təyin etdiyi digər ekspertlər komitənin işində müvafiq üzv dövlətin hesabına iştirak edə bilər.

Avropa Şurasının və Avropa İttifaqının müvafiq qurumları rəhbər komitənin işində səs vermək hüququ olmadan və xərcləri üçün kompensasiya almadan iştirak edə bilər.

CEPEJ daxilində müşahidəçi statusuna malik olan digər şəxslər, ayrı-ayrı hallarda CEPEJ Bürosu onların iştirakını işin keyfiyyəti üçün zəruri hesab etdiyi halda rəhbər komitənin işində iştirak edə bilər.

Strasburq, 13 aprel 2006-cı il

CEPEJ(2006)2

## Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ)

## CEPEJ-in Pilot Məhkəmələr Şəbəkəsinin fəaliyyətinin əsas tərkib hissələri

### 1. Şəbəkənin rolu

### 1.1 Məlumat mərkəzi

§ CEPEJ-in işi və nailiyyətləri barədə məlumat ilk növbədə pilot məhkəmələrə təqdim olunur (şaquli məlumat mübadiləsi). Bundan sonra pilot məhkəmələrə qeyd edilən məlumatı öz ölkələri daxilindəki şəbəkə üzrə paylaşmaq təklif edilir.

§ Şəbəkə daxilində pilot məhkəmələr ünsiyyət yaratmaq, əməkdaşlıq etmək, fikir mübadiləsi aparmaq, məlumat tələb etmək və s. imkanlara malik olmalıdırlar (üfüqi məlumat mübadiləsi).

### 1.2 Araşdırmalar forumu

§ Şəbəkə CEPEJ-in qaldırdığı müxtəlif məsələlər üzrə məsləhətləşmələr aparmalıdır (məhkəmə müddətləri ilə bağlı xüsusi məsələlərdən də kənara çıxmaqla).

§ Məhkəmə sisteminin fəaliyyətinə münasibətdə mülki işlələ cinayət işləri arasında münasib tarazlıq təmin edilməlidir.

§ Pilot məhkəmələr fikir, təklif və qeydlərini CEPEJ ilə bölüşməyə təşviq edilir.

**1.3 Tətbiq sahəsi**

§ Aidiyyəti tərəflər arasında razılaşdırılan qaydalar nəzərə alınmaqla, müəyyən pilot məhkəmələrə CEPEJ tərəfindən təqdim edilən tədbirlərdən istifadə etmək təklif oluna bilər.

**2. İş metodları**

§ Şəbəkə daxilində fikir və məlumat mübadiləsinin diqqət mərkəzində ümumi problemlər və universal qaydada istifadə edilə bilən həll üsulları durur.

Şəbəkədə təmsil edilən məhkəmələrin müxtəlifliyini nəzərə alaraq, məhkəmələrin kateqoriyası, yaxud coğrafi amillər əsasında ayrı-ayrı bölmələr daxilində xüsusi təkliflər işlənib hazırlana bilər. Lakin hər bir halda təkliflər şəffaf olmalı və Şəbəkənin bütün üzvlərinin mənafeyinə xidmət etməlidir.

§ Məhkəmələrini təmsil edən və hökumətlərinin üzərinə əlavə öhdəliklər yaratmayan məhkəmə nümayəndələri arasında məlumat və təcrübə mübadiləsi mümkün qədər qeyri-formal xarakterli olmalıdır.

§ Şəbəkədə üzvlük bütövlükdə məhkəməyə aid olan bir tədbirdir və burada hakimlər, dövlət ittihamçıları, habelə məhkəmənin inzibati əməkdaşları və bəzi hallarda həmin ərazidə fəaliyyət göstərən vəkillər birliklərinin nümayəndələri də iştirakçı ola bilər. Müvafiq olaraq, Şəbəkəyə daxil olan məhkəmələrin nümayəndələrinə məhkəmələri daxilində müvafiq məlumat mübadiləsi və məsləhətləşmələri təşkil etmək təklif edilir.

§ Şəbəkə üzvlərinə ölkələri üzrə CEPEJ nümayəndəsi ilə mütəmadi olaraq əlaqədə olmaq təklif edilir.

§ Pilot məhkəmələrə Avropa Ədalət Mühakiməsi Günü (25 oktyabr) münasibətilə keçirilən tədbirlərdə və Avropa dövlətlərində məhkəmə sisteminin işini təkmilləşdirmək üçün tətbiq edilə bilən yeni qaydaların tətbiqi üçün təqdim olunan "Əd-

liyyənin Kristal Tərəzisi" müsabiqəsində iştirak etmək təklif olunur.

**3. Çalışma vasitələri**

§ CEPEJ-in Katibliyi Şəbəkə üzvlərinə münasibətdə əsas əlaqə qurumudur. Münasibətləri təşviq etdirmək üçün hər bir pilot məhkəmə Katibliyə bir nümayəndəsini təyin etməlidir.

§ CEPEJ-in sənədləri ilə tanış olmaq, məlumatın, habelə mümkün olduqda fikir mübadiləsi aparmaq üçün Katiblik tərəfindən yaradılmış CEPEJ-in İnternet səhifəsi (www.coe.int/CEPEJ) əsas vasitədir.

Qeyd edilən İnternet səhifəsində Şəbəkənin fəaliyyəti ilə bağlı ayrı-ayrı məsələlər haqqında məlumat əldə etmək üçün yalnız Şəbəkənin üzvlərinə xidmət edən xüsusi və təhlükəsiz bir bölmə yaradılmışdır.

§ Müvafiq büdcə vəsaitlərinin ayrılması şərti ilə Şəbəkə mütəmadi olaraq iclaslarını keçirir.

**Qoşma 11**

## "Ədliyyənin Kristal Tərəzisi" Mükafatı

2005-ci ildən etibarən Avropa Şurası və Avropa İttifaqı birlikdə çıxış edərək, məhkəmələrin fəaliyyətinin təşkili və ya məhkəmə proseslərinin aparılması (misal üçün, məhkəmə sədri, reyestr idarəsi və ya Vəkillər Kollegiyası tərəfindən irəli sürülən təşəbbüslər) ilə əlaqədar olaraq yeni və səmərəli olan, dövlətlərdə məhkəmə sisteminin işini təkmilləşdirmək üçün ədalət mühakiməsi sisteminin iştirakçıları və siyasi qərarların qəbul olunması üçün məsul olan şəxslərin diqqətinə layiq olan çalışma qaydalarının aşkara çıxarılması üçün müsabiqə keçirir.

Əvvəl müsabiqə ədalət mühakiməsinin cinayət sahəsi üzrə (2009-cu il) və ya mülki sahəsi üzrə (2005, 2006 və 2008-ci illər) keçirilmişdir. 2010-cu ildə ilk dəfə olaraq müsabiqə həm cinayət, həm də mülki sahədə təşkil olunmuşdur. 2012-ci ildə müsabiqə yenə də yalnız mülki sahə üzrə, xüsusən mülki işlərə məhkəmələrdə baxılması və həlli ilə bağlı olan, məhkəmə sistemi, onun təşkili və iş qaydalarını təkmilləşdirmək üçün istifadə edilə bilən yeni çalışma qaydalarının tətbiqi üzrə keçirilmişdir.

### Mükafat təqdim edilmiş və xüsusi diqqət verilmiş layihələrin

### SİYAHISI

### 2014-cü il
### Mülki və cinayət işləri

**Mükafat təqdim edilmişdir:**

*"İnternet vasitəsilə hüquqi yardım: vətəndaşların hüquqlarının qorunmasının daha mükəmməl üsulları"*, Vəkillər Palatası, Portuqaliya

**Diqqətə layiq görülmüşdür:**

*"Ədliyyənin mərkəzləşdirilmiş məlumatlar bazası (sənədlərin elektron qaydada verilməsi)"*, Ədliyyə Nazirliyi, Estoniya

*"Ailə münasibətləri ilə bağlı sürətləndirilmiş prosedur"*, Ailə mübahisələri üzrə məhkəmələr və vəkillər kollegiyası, Berlin, Almaniya

*"Avropa məhkəmələrinin şəbəkəsi və Avropa hüququna dair məlumat bülleteni"*, Amsterdam Apellyasiya Məhkəməsi, Hollandiya

**2012-ci il**
**Mülki işlər**

**Mükafat təqdim edilmişdir:**

*"Məhkəmə ekspertizaları"*, Antverpen Regional Məhkəməsi, Belçika

**Diqqətə layiq görülmüşdür:**

*"Ailə münasibətlərindən irəli gələn mübahisələrə hakim tərəfindən birgə baxılması – uşaqların auditoru"*, Taraskon Regional Məhkəməsi, Fransa

*"Məhkəmələr üzrə məlumat bazası və məhkəmələrin məhsuldarlığına dair göstəricilər paneli"*, Sloveniya Ali Məhkəməsi

*"LexNet – elektron kommunikasiya sistemi"*, Ədliyyə Administrasiyasının Baş Katibliyi, İspaniya

**2010-cu il**
**Mülki və cinayət işləri**

**Mükafat təqdim edilmişdir:**

*"Qanun qarşısında bərabər, lakin dil qarşısında həmişə də bərabər olmayanlar – məhkəmələr və vətəndaşlar arasında ün-*

*siyyətin yaxşılaşdırılması"*, Yambol İnzibati Məhkəməsi, Bolqarıstan

**Diqqətə layiq görülmüşdür:**

*"Təhlükəsiz sürücülük vərdişlərinin təşviqi"*, Linç Regional Məhkəməsi, Avstriya

*"Məhkəmələrdə işlərə baxılması və həlli üzrə ləngimələrin azaldılmasının idarə olunmasında yeni yanaşma – kənar ekspertiza və daxili iştirakçılıq"*, Texnologiyalar üzrə Universitet və Ədliyyə Nazirliyi, Finlandiya

*"Sənədlərin əsillərinin icrasının avtomatlaşdırılmış sistemi (COVL)"*, Ali Məhkəmə, Sloveniya

**2009-cu il**
**Cinayət işləri**

**Mükafat təqdim edilmişdir:**

*"Həbsdə saxlanılan şəxslər üçün könüllü iş"*, Mərkəzi Həbsxana Xidməti, Polşa

**Diqqətə layiq görülmüşdür:**

*"SAS – Brandenburq bölgəsinin prokurorluq orqanlarında istifadə olunan elektron mühakimə sistemi (e-Justice)"*, Baş Prokurorluq, Almaniya

*"Roma əhalisi üçün nəzarət sistemi"*, Ədliyyədə Probasiya və Mediasiya Assosiasiyası, Çex Respublikası

*"Avropanın cinayət hüququ və insan hüquqları palatası"*, Cinayət hüququ departamenti, Amsterdam Regional Məhkəməsi, Hollandiya

## 2008-ci il
## Mülki işlər

**Mükafat təqdim edilmişdir:**

*"Kiçik iddiaların həlli üçün mediasiya xidməti"*, Zati-Aliləri Kraliçanın məhkəmə xidməti, İngiltərə

**Diqqətə layiq görülmüşdür:**

*"Vəkillər üçün sadələşdirilmiş sistem"*, Paris Vəkillər Kollegiyası, Fransa

*"Kompüterləşdirilmiş mülki iddialar idarəsi"*, Milan Məhkəməsi, İtaliya

*"Milli Ədliyyənin Məlumat Sistemi (UYAP)"*, Ədliyyə Nazirliyi, Türkiyə

## 2006-cı il
## Mülki işlər

**Mükafat təqdim edilmişdir:**

*"Xidmətlər və mərkəzlər"*, Linç Regional Məhkəməsi, Avstriya

**Diqqətə layiq görülmüşdür:**

*"Məhkəmənin fəaliyyətinin diaqnostikası"*, Krete birinci instansiya məhkəməsi, Fransa

*"Strasburq Proqramı"*, Torino Birinci instansiya məhkəməsi, İtaliya

*"Kiçik məbləğli mübahisələr məhkəməsində mediasiya"*, Mançester Rayon Məhkəməsi, İngiltərə

## 2005-ci il
## Mülki işlər

**Mükafat təqdim edilmişdir:**

*"Rovaniyemi Apellyasiya Məhkəməsinin yurisdiksiyası daxilində məhkəmələrin işinin keyfiyyətinin yüksəldilməsi layihəsi"*, Finlandiya

**Diqqətə layiq görülmüşdür:**

*"İcra qanununun islahatı"*, Ədliyyə Nazirliyi, Avstriya

*"Mülki məsələlər (xüsusilə tikinti sahəsi) üzrə ekspertiza prosedurlarının təkmilləşdirilməsi"*, Lieqe Birinci instansiya məhkəməsi, Antverpen Apellyasiya Məhkəməsi, Belçika

*"Finlandiyanın hüquqi yardım sistemi sxemi"* Məhkəmə idarəçiliyi departamenti, Ədliyyə Nazirliyi, Finlandiya

*"Taraskon Rayon Məhkəməsində ailə mübahisələrinə mediasiyanın tətbiq olunma təcrübəsi"*, Taraskon Rayon Məhkəməsi, Fransa

*"Məhkəmə mediasiyası və mülki mühakimə icraatının sürətləndirilməsinə dair Proqram"*, Lyublyana, Rayon Məhkəməsi, Ali Məhkəmə, Sloveniya

# Qoşma 12

cepej
European Commission for the Efficiency of Justice
Commission européenne pour l'efficacité de la justice

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

**CEPEJ-in strukturu**



**Qoşma 13**

## Kitabın üz qabığının ön hissəsində olan şəkillər üzrə

## MƏLUMAT

**1-ci şəkil (yuxarı sol küncdə)**

1. *x-m Qabriela BATTAİNİ-DRAQONİ, Avropa Şurası Baş katibinin müavini*
2. *c-b Josep DALLERÈS, Avropa Şurasının Nazirlər Komitəsinin sədri*
3. *c-b Dean SPİELMAN, Avropa İnsan Haqları Məhkəməsinin prezidenti*

**2-ci şəkil (yuxarı sağ küncdə)**

1. *x-m Hanne YUNÇER, Avropa Şurası Ədalət Mühakiməsi və Hüquqi Əməkdaşlıq Departamentinin direktoru*
2. *c-b Filip BOİLLA, Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluğunun Baş direktoru*

**3-cü şəkil (aşağı sol küncdə)**

1. *c-b Jan-Pol JAN, CEPEJ-in Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitəsinin sədri*
2. *c-b Eberhard DEŞ, CEPEJ-in birinci prezidenti (Almaniya, 2003-2006)*
3. *c-b Qay DE VEL, Avropa Şurasının Hüquq Məsələləri üzrə Baş direktoru*

**4-cü şəkil (aşağıda ortada)**

1. *c-b Muriel DEKO, CEPEJ-in həmkatibi*

2. *c-b Stefan LEYENBERQER, CEPEJ-in katibi*
3. *c-b Jon STEYSİ, CEPEJ-in üçüncü prezidenti (2011-2014)*

**5-ci şəkil (aşağı sağ küncdə)**

1. *c-b Fausto DE SANTİS, CEPEJ-in ikinci prezidenti (İtaliya, 2007-2010)*

## Kitabın üz qabığının arxa hissəsində olan şəkillər üzrə

## MƏLUMAT

**1-ci şəkil (yuxarı sol küncdə)**

1. *c-b Jon STEYSİ, CEPEJ-in üçüncü prezidenti (İngiltərə, 2011-2014)*
2. *c-b Fransua ANDRİ, Beynəlxalq Məhkəmə İcraçıları İttifaqının (UIHJ) prezidenti*

**2-ci şəkil (yuxarıda ortada)**

1. *c-b Fikrət MƏMMƏDOV, Azərbaycan Respublikasının Ədliyyə Naziri, Məhkəmə-Hüquq Şurasının sədri*
2. *c-b Filip BOİLLAT, Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluğunun direktoru*
3. *c-b Ramiz RZAYEV, Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri*

**3-cü şəkil (yuxarı sağ küncdə)**

1. *Dr. Azər CƏFƏROV, Azərbaycan Respublikası Ədliyyə Nazirinin müavini*
2. *c-b Jon STEYSİ, CEPEJ-in üçüncü prezidenti (İngiltərə, 2011-2014)*

**3.** *c-b Qeorq STAVA, CEPEJ-in prezidenti (Avstriya)*
**4.** *c-b Jan-Pol JAN, CEPEJ-in Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitəsinin sədri*
**5.** *c-b Ramin QURBANOV, CEPEJ-in Bürosunun və Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitəsinin üzvü, hakim*

**4-cü şəkil (aşağı sol küncdə)**
**1.** *CEPEJ-in yaradılmasının 10 illiyinə həsr edilmiş tədbir*

**5-ci şəkil (aşağıda ortada)**
**1.** *CEPEJ-in plenar iclasları*

**6-cı şəkil (aşağı sağ küncdə)**
**1.** *Dr. Jak BÜHLER, CEPEJ-in Məhkəmə vaxtının idarəolunması üzrə SATURN Mərkəzinin sədri*
**2.** *Dr. Fransua PEYŞER, CEPEJ-in Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitəsinin sədri*

# MÜNDƏRİCAT

Ön sözlər ..........................................................................**5**

Giriş ..................................................................................**11**

**FƏSİL 1.** Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası Avropa Şurasının məşvərətçi qurumu olaraq ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində rəhbər qaydaları və ümumi standartların işlənib hazırlanması və tətbiqi vəzifəsini daşıyır ..............................................**13**

*1.1. Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının fəaliyyətinin mahiyyəti və təşkilati əsasları ..........................................................................13*

*1.2. Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının vəzifələri..........................................22*

**FƏSİL 2.** Avropa Şurasının üzv dövlətlərində məhkəmə sisteminin qiymətləndirilməsi – Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının əsas fəaliyyət istiqamətlərindən biri kimi .....................................................................................**31**

*2.1. Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə Komitə (CEPEJ-GT-EVAL) ............................31*

*2.2. Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının qiymətləndirmə üsulları ...................37*

*2.2.1. CEPEJ-in "Məhkəmə sistemi üzrə statistik məlumatlara dair Qaydalar"ı (GOJUST)..........................37*

*2.2.2. "Məhkəmə sisteminə dair statistik məlumatlar sahəsində əməkdaşlıq prosesinin təhlili üzrə Eksperimental (pilot) layihə: məqsədlər və metodologiya"..........41*

*2.3. Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası tərəfindən Avropa Şurasının bütün üzv dövlətləri üçün hazırlanmış əsas sənədlər: Avropa dövlətlərində məhkəmə sisteminin qiymətləndirilməsi hesabatları*..................................................................44

*2.3.1. "Avropa dövlətlərinin məhkəmə sistemi üzrə Birinci (Eksperimental) Hesabat", 2012-ci ilin nəşri (2002-ci ilin məlumatına əsasən)..............................44*

*2.3.2. "Avropa dövlətlərinin məhkəmə sistemi üzrə Hesabat – ədalət mühakiməsi sisteminin fəaliyyətinin keyfiyyəti və səmərəliliyi", 2006-cı ilin nəşri (2004-cü ilin məlumatına əsasən)* ..................................................53

*2.3.3. "Avropa dövlətlərinin məhkəmə sistemi üzrə Hesabat – ədalət mühakiməsi sisteminin fəaliyyətinin keyfiyyəti və səmərəliliyi", 2008-ci ilin nəşri (2006-cı ilin məlumatına əsasən)* ..................................................59

*2.3.4. "Avropa dövlətlərinin məhkəmə sistemi üzrə Hesabat – ədalət mühakiməsi sisteminin fəaliyyətinin keyfiyyəti və səmərəliliyi", 2010-cu ilin nəşri (2008-ci ilin məlumatına əsasən)* ..................................................66

*2.3.5. "Avropa dövlətlərinin məhkəmə sistemi üzrə Hesabat – ədalət mühakiməsi sisteminin fəaliyyətinin keyfiyyəti və səmərəliliyi", 2012-ci ilin nəşri (2010-cu ilin məlumatına əsasən) və "Avropa dövlətlərinin məhkəmə sistemi üzrə Hesabat – ədalət mühakiməsi sisteminin*

*fəaliyyətinin keyfiyyəti və səmərəliliyi", 2014-cü ilin nəşri (2012-ci ilin məlumatına əsasən)* ........................... *73*

**FƏSİL 3.** Avropa dövlətlərinin məhkəmə sistemlərində işlərə baxılması və həlli müddətlərinin idarə olunması sahəsində Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının fəaliyyəti ...................................................... **82**

*3.1. Məhkəmələrdə işlərə baxılması və həll edilməsi müddətləri üzrə Tədqiqat Şəbəkəsi və ya Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Mərkəzi (SATURN Centre)* ................................................................. *82*

*3.2. Avropa ölkələrinin məhkəmələrində işlərə baxılması və həlli müddətlərinin daha səmərəli idarə olunması sahəsində hazırlanmış sənədlər* ...................................... *89*

*3.2.1. "İşlərə baxılması və həlli müddətlərinin idarə olunması üzrə Suallar Toplusu: SATURN İşçi Sənədi"* ................................................................. *89*

*3.2.2. "Məhkəmə sisteminin yeni məqsədi: hər bir işə optimal və qabaqcadan proqnozlaşdırılan müddət ərzində baxılması və həlli üzrə Çərçivə Proqramı"* ................. *93*

*3.2.3. "Məhkəmə sistemi daxilində işlərə baxılması və həlli müddətlərinin idarə olunmasına münasibətdə "ən mükəmməl çalışma qaydaları"nın Toplusu"* ............. *102*

*3.2.4. "Məhkəmə vaxtının idarə olunması üzrə SATURN Rəhbər Qaydaları"* .................................................. *102*

*3.2.5. "Məhkəmə vaxtının idarə olunması üzrə SATURN vasitələrinin (sənədlərinin) tətbiqinə dair Hesabat"* .... *109*

**FƏSİL 4.** Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının Avropa dövlətlərində məhkəmə sistemlərinin fəaliyyətinin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş fəaliyyəti.................................................. **117**

*4.1. Ədalət mühakiməsi sisteminin keyfiyyəti üzrə Komitə (CEPEJ-GT-QUAL)....................................................117*

*4.2. Avropa dövlətlərində məhkəmə sistemlərinin fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi sahəsində hazırlanmış sənədlər..........................................................121*

*4.2.1. "Ədalət mühakiməsi və məhkəmə fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi üzrə Yoxlama Siyahısı"* .121

*4.2.2. "Məhkəmə işinin təkmilləşdirilməsi üçün məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının aparılması üzrə Yoxlama Siyahısı"* ..........131

*4.2.3. "Avropa Şurasının üzv dövlətlərində məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının keçirilməsinə dair Hesabat"* .............................134

*4.2.4. "Keyfiyyətli ədalət mühakiməsi çərçivəsində məhkəmələrə müraciət etmək imkanlarının asanlaşdırılması üçün məhkəmə xəritələrinin yaradılmasına dair Rəhbər Qaydalar"* ..............................................................144

*4.2.5. "Məhkəmələrin fəaliyyət göstərdiyi yerlərin təşkili və onlardan istifadə imkanlarına dair məlumat toplanması üçün Suallar Toplusu" ...................................154*

*4.2.6. "Məhkəmələrin fəaliyyət göstərdiyi yerlərin təşkili və onlardan istifadə imkanlarına dair Rəhbər Qaydalar"* .......................................................................156

*4.2.7. "Avropa Şurasının üzv dövlətlərində məhkəmə sistemində ekspertlərin roluna dair Suallar Toplusu" ............................................................ 160*

*4.2.8. "Məhkəmə prosesləri üzrə məhkəmələr tərəfindən təyin edilən ekspertlərin vəzifələrinə dair Rəhbər Qaydalar" ...................................................................168*

*4.3. Üzv dövlətlərin məhkəmələri tərəfindən hazırlanmış məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının nəticələri haqqında hesabatlar.....171*

*4.3.1. "İtaliyanın Turin və Kataniya şəhərlərində məhkəmələrə müraciət edən şəxslər arasında məmnunluq sorğularının nəticələri haqqında Hesabat" ...................171*

*4.3.2. "Avstriyanın Linç Regional Məhkəməsinin işində notariusların və vəkillərin məmnunluq sorğusunun nəticələri haqqında Hesabat"......................................174*

*4.3.3. "Gürcüstanda məhkəmələrə müraciət edən şəxslərin məmnunluq sorğusunun nəticələri haqqında Hesabat"..........................................................................176*

**FƏSİL 5.** Mübahisələrin həllinin alternativ üsullarının tətbiqinə və məhkəmə qərarlarının icrası işində çətinliklərin həllinə münasibətdə Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının fəaliyyəti.............................**182**

*5.1. Mediasiya sahəsində Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının fəaliyyəti.......182*

*5.1.1. "Mediasiyaya dair Avropa Şurasının Tövsiyələrinin təsirinin qiymətləndirilməsinin Təhlili".............184*

*5.1.2. "Mediasiyaya dair Avropa Şurasının Tövsiyələrinin tətbiqinə dair Rəhbər Qaydalar"* ............................192

*5.2. Məhkəmə qərarlarının icrasına dair Avropa Şurası standartlarının tətbiqinə münasibətdə Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının fəaliyyəti* .......................................................................201

*5.2.1. Avropa dövlətlərində məhkəmə qərarlarının icrası* ....................................................................204

*5.2.2. "Məhkəmə qərarlarının icrası ilə əlaqədar Avropa Şurasının mövcud Tövsiyələrinin tətbiqinin təkmilləşdirilməsinə dair Rəhbər Qaydalar"* ............................207

**FƏSİL 6.** Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası ilə üzv dövlətlər arasında əməkdaşlıq .......**212**

*6.1. Nümunə kimi Şərq Tərəfdaşlığı Ölkələrində Məhkəmə-Hüquq İslahatlarının Genişləndirilməsi üzrə Birgə Proqram* ..........................................................212

*6.1.1. "Səmərəli məhkəmə sistemi üzrə Hesabat"* ........................................................... 212

*6.1.2. "Vəkillik institutu üzrə Hesabat"* ...........225

*6.1.3. "Məhkəmə təlimi üzrə Hesabat"* ............232

*6.2. Üzv dövlətlərlə sahəvi əməkdaşlığın xüsusiyyətləri (Azərbaycan Respublikasının misalında)* ...........240

Nəticə ..................................................................250

Qoşmalar ..............................................................353

**Jan-Pol Jan**
**Ramin Afad oğlu Qurbanov**

# Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası:
Elmi və Təcrübi Əhəmiyyəti

Texniki redaktor: *Cəsarət Qasımov*
Korrektor: *Kəmalə Cəfərova*
Kompüter dizaynı: *Namiq Seyidov*

Yığılmağa verilib: 15.12.2015
Çapa imzalanıb: 10.01.2016
Kağız biçimi: 60x90 1/16
Ümumi həcmi: 22.5 ç. v.
Sayı: 1000 nüsxə
Ofset çap üsulu
Sifariş nömrəsi: 100

CBS POLYGRAPHIC PRODUCTION
Tel/Fax: 447 75 04, Tel.: 447 75 05

mətbəəsində çap olunmuşdur